The great interest shown to Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) SBD is caused by the formation of palladium silicide (Pd_2Si), the advantages of which are determined by the low temperature of silicide formation, its loose structure, and bulk diffusion. In Pd2Si/n-Si(111)

structures, the formation of a potential barrier is due to the electronic properties of the semiconductor surface and localized states in the band gap of the semiconductor. When creating objects of study multicomponent metallization was carried out. In order to prevent the penetration of aluminum used as an ohmic contact, the structure was equipped with a potential barrier made of an amorphous TiW alloy. On the other hand, the study of a diode with amorphous metallization is of interest, since this alloy was used as a diffusion barrier in Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) SBD.

In the present work, to fabrication of Pd_2Si silicide and amorphous films on a Si(111) semiconductor substrate (0.7Ωcm, 3.5μ, 8x10-6cm2), the methods of thermal deposition and magnetron sputtering were used, respectively. Characteristics, dependences of capacitance (C-V) on bias voltage were obtained in the temperature range 79K-360K using the impedance method (HP 4192A LF, 20 mV p–p, 500 kHz) [2].

The main model assumes the presence of a dielectric gap (DG) in the metal-semiconductor contact structure [2]. In this case, surface states take an active part in the current transfer (Fig.1). The figure shows the possible current paths through the surface states (i_1-i_4). deviation of characteristics from ideal may be due to the participation of various mechanisms in the current transfer. Silicon, as a covalent semiconductor, is characterized by a high density of SS, the recharging of which causes a phase shift between current and voltage, and is provided by charge exchange between SS and the conduction band. The recharge time of surface states is defined as

$$\tau_i \simeq 10^{-11} exp\left(\frac{E_i - E_c}{kT}\right) \quad (1)$$

where E_i – is the energy level of surface state, E_c – the bottom of the conduction band. When $E_i - E_c = 0{,}3$eV, then τ_i~10^{-6}sec, that is, surface states can play a significant role at frequencies f $\leq 10^6$ Hz. Our investigations were carried out precisely in this frequency range (500 kHz).

According to Card and Roderick [3], the density of surface electron states (N_{ss}) as a function of (Ec-Ess) can be calculated (Fig 2)

$$N_{ss} = \frac{1}{q}\left[\frac{\varepsilon_i}{d_i}(n(V) - 1) - \frac{\varepsilon_0}{L}\right] \qquad (2)$$

where ε_i and ε_s permittivities of the dielectric gap and the semiconductor, respectively, d_i - dielectric gap thickness,, L - space charge region width, $n(V)$ ideality factor, obtained from I-V characvteristics. Based on obtained capacitance-voltage characteristics at high frequency (1 MHz) have been calculated ratio d_i / ε_i=3,56×10 $^{-8}$ см and L=3,85×10^{-5}sm for Al-TiWPd_2Si/n-Si. As shown in Fig. 2 there is an exponential increase in the density of states (N_{ss}) from the middle to the bottom of the conduction band in the region (E_c-0.54) to (E_c-0.64) eV. The maximum value of the density of surface states is about 10^{13} $eV^{-1}cm^{-2}$.



Fig.2. Density of surface states, determined from the I-V characteristic of Al-TiW-Pd2Si/n-Si

In the case of simulation of real crystals, ideal structural models are supplemented by crystal lattice defects, which play an important role in the interpretation of many physical

properties. Apparently, this analogy should be preserved when modeling the structure of amorphous metal alloys. The distribution of the density of surface states for the Schottky diodes Al-$Ti_{10}W_{90}$/n-Si was also calculated on the basis of the current-voltage (I-V) characteristics but using a different method [4]

$$N_{ssf}=\frac{dm_i}{dV}=\frac{1-\frac{kT}{e}(1+\frac{\varepsilon_2 d}{\varepsilon_1 L})(\alpha-\frac{d\ln I_s}{dV})}{4\pi e\frac{d}{\varepsilon_1\varepsilon_0}};\quad N_{ssr}=\frac{dm_i}{dV^*}=\frac{\frac{kT}{e}(1+\frac{\varepsilon_2 d}{\varepsilon_1 L})(\alpha^*-\frac{d\ln I_s^*}{dV^*})-\frac{\varepsilon_2 d}{\varepsilon_1 L}}{4\pi e\frac{d}{\varepsilon_1\varepsilon_o}} \quad (3)$$

Where α- determines the differential slope of the I-V characteristic. Taking into account the expressions $E=E_g-\varphi_b+V$ and $E=E_g-\varphi_b-V$ for the direct and reverse branches of the current-voltage characteristics and expression (3), we can obtain the differential charge density on SS in the band gap of silicon. The peaks observed in Fig. 3 revealed the presence of energy levels corresponding to $TiSi_2$ and W. The result obtained explains the heterogeneity of the characteristics. The $Ti_{10}W_{90}$/n-Si interface is inhomogeneous. There are regions where $TiSi_2$/n-Si and W/n-Si contacts are formed. In this case, the system plays the role of a network of contacts connected in parallel.



Fig3. SS density distribution for Al-TiW/n-Si diode.

Obtained results of investigation of Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) and Al-$Ti_{10}W_{90}$ /n-Si(111) made it possible to establish that in the investigated contacts the current is created by the flow of the main carriers passing into the metal through surface states, the filling of which is determined by the number of free places/

References

1. С.М.Зи, Физика полупроводниковых приборов. М, Мир,1983.
2. В.И.Стриха, Е.В.Бузанева, И.А.Радзиевский, 1974, М.Сов.радио, 248с
3. Card H.C., Rhoderick E.H. Studies of tunnel MOS diodes I. Interface effects in silicon Schottky diodes// J. Phys. D: Appl. Phys., 1971, v.4, p.1589.
4.Afandiyeva I M, Askerov S G, Abdullayeva L K, et al. The obtaining of Al$Ti_{10}W_{90}$/Si(n) Sc hottky diodes and investigation of their interface surface states density. Solid Stae Electron, 2 007, 51: 1096.

THE SURFACE STATES OF Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111) AND Al-$Ti_{10}W_{90}$/n-Si(111) SCHOTTKY DIODES

Afandiyeva I.M.

Summary

This paper presents the results of a study of the distribution of surface states of Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) and Al-$Ti_{10}W_{90}$/n-Si(111) Schottky barrier diodes (SBDs). Interest in these diodes is due to the formation of silicide and amorphous films in contact with Si(111). The distribution of surface states density has been calculated by various methods based on the I-V characteristics. An analysis of obtained results revealed a sharp increase in N_{ss} at (E_c-0.54) for Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111) and the presence of $TiSi_2$ and W for Al-$Ti_{10}W_{90}$/n-Si(111) in the band gap of silicon.

ПОВЕРХНОСТНЫЕ СОСТОЯНИЯ ДИОДОВ ШОТТКИ Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111) И Al-$Ti_{10}W_{90}$/n-Si(111)

Эфендиева И.М.

Резюме

В представленной работе приведены результаты исследования распределения поверхностных состояний диодов с барьером Шоттки (ДБШ) Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111) и Al-$Ti_{10}W_{90}$/n-Si(111). Интерес к этим диодам обусловлен формированием силицидной и аморфной пленок в контакте с Si(111). Распределение плотности состояний и плотности заряда были вычислены различными методами на основе I-V характеристик . Анализ полученных результатов выявил резкий рост N_{ss} при (E_c-0.54)(Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111)) и присутствие $TiSi_2$ and W (Al-$Ti_{10}W_{90}$/n-Si(111)) в запрещенной зоне кремния.

Al-$Ti_{10}W_{90}$-Pd_2Si /n-Si(111) VƏAl-$Ti_{10}W_{90}$/n-Si(111) ŞOTTKİ DİODLARININSƏTH HALLARI

Əfəndiyeva İ.M.

Xülasə

Təqdim olunmuş iş Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) və Al-$Ti_{10}W_{90}$/n-Si(111) Şottki diodları səth halları tədqiqinə həsr edilmişçdir. Diodlara olan maraq silisid və amorf təbəqələrin Si(111) üzərində formalaşması ilə əlaqədardır. Səth hallar sıxlığının paylanması I-V xarakteristikalar əsasında müxtəlif metodlarla aparılmışdır. Alınmış nəticələrin təhlili N_{ss}-in (E_c-0,54eV) intervalında kəskin artmasını və Si(111)-in qadağan olunmuş zonasında $TiSi_2$ və W-ın mövcudluğunu müvafiq olaraq Al-$Ti_{10}W_{90}$-Pd_2Si/n-Si(111) və Al-$Ti_{10}W_{90}$/n-Si(111) ŞD üçün aşkarlanmışdır.

KİMYA DİLİ TƏFƏKKÜRÜN İNKİŞAFININ DİDAKTİK ŞƏRTİ KİMİ

[1]Babayev Y., [2]Babayeva N.

ybabayev1948@gmail.com
b/m.babayevanigar-79@mail.ru

Kimya təhsili, elmi və dilinin səciyyəvi xüsusiyyətləri araşdırılmışdır. Göstərilmişdir ki, kimya fənni bütün digər elm sahələri ilə ən geniş əlaqəsi olan elm sahəsidir. Kimya dilinin yazılı formasının onun şifahi formasına nisbətən daha zəngin və vacib olması kimya elmini digər elm sahələrindən fərqləndirən başlıca əlamətdir. Orta məktəbdə kimyanın tədrisində fərdi olaraq zehin xəritələrinin hazırlanması prosesində açar sözlərdən və kimyəvi simvollardan istifadə şagirdlərin yazı, oxuyub-anlama və problem həll etmə bacarıqlarının yaxşılaşmasını şərtləndirir.

Açar sözlər: *Kimya dili, zehin xəritəsi, kimyəvi termin, tərkib, xassə*

Ключевые слова: *химический язык, интеллект-карта, химический термин, состав, свойство*

Keywords: *chemical language, intellectual map, chemical term, composition, property.*

1. Kimya təhsili, elmi və dilinin səciyyəvi xüsusiyyətləri

Müasir kimya elminin inkişaf səviyyəsi ilə bilavasitə şərtlənən kimya sənayesi müxtəlif xalq təsərrüfatı sahələrini keyfiyyətcə yeni xammal və material növləri, həmçinin yüksək effektivliyə malik texnologiyalar ilə təmin etməklə bərabər, bəşəriyyətin qarşısında duran qlobal problemlərin həllinə də öz töhfəsini verir. Kimya bəşəriyyət üçün ona görə vacibdir ki, cəmiyyət üçün zəruri olan məhsul və materialları təbiətdə mövcud olan xammal resurslarından kimyəvi çevrilmələr vasitəsilə almaq mümkün olsun.

Orta və ali məktəblərdə kimya fənlərinin tədrisində istifadə olunması tövsiyə olunan "Zehin xəritəsi" üsulunun [1-3] mahiyyəti və xarakter xüsusiyyətləri göstərmişdir ki, hər bir mövzu və ya fənn bölümü üzrə şagird və ya tələbələrin hazırladığı zehin xəritəsi vasitəsilə dərsin keçilməsi və təkrarlanması yaddaşı möhkəmləndirir, hafizəni itiləşdirir, kreativ düşüncəni artırır, çünki keçilən dərs həm də hisslər və duyğular, parlaq və canlı rəng çalarları ilə öyrənilir. Zehin xəritəsi keçilən mövzunun qısa, konkret, əyləncəli bir rəsmidir və mövzu mənimsənildikdən sonra onu təkrar etmək üçün əvəzolunmaz bir materialdır.

Zehin xəritələrinin fərdi qaydada hazırlanması və tədris prosesində istifadəsi zamanı tədrisin forma və metodlarının çevikliyinə, fərqli olmasına, bilik mənbələrinin müxtəlifliyinə, şagird və tələbələrin sərbəst işləməsinə, yaradıcılıq imkanlarının tam aşkar edilməsinə, öyrənmə məhsuldarlığının yüksəldilməsinə geniş imkanlar açılır.

Kimya fənlərinin tədrisində, kimya müəllimlərinin hazırlanmasında zehin xəritələrindən istifadə olunması daha cəlbedici və məqsədəuyğun hesab edilir.Bununla bərabər kimya çətin mənimsənilən fənlərdəndir. Səbəblər isə müxtəlifdir; fənnin həm nəzəri, həm də eksperimental hissədən ibarət olması, laboratoriya işlərinin yerinə yetirilməsi zamanı təhlükəsizliyə ciddi əməl olunması zəruriliyi, yanğın, partlayış, zəhərlənmə, müxtəlif zədələnmə hallarının əmələ gəlmə ehtimallarının mövcudluğu buna misal göstərilə bilər. Əlavə olaraq yüksək dəqiqlik tələb olunan laboratoriya işləri, analitik tərəzidə çəkmə, ekvivalent nöqtənin təyini, rəng dəyişməsinin dəqiq ayırd edilməsi, müxtəlif rəng çalarlarının bir-birindən fərqləndirilməsi, mürəkkəb kimya məsələlərinin həlli, asılılıq qrafiklərinin qurulma vacibliyi, çoxsaylı fiziki sabitlərdən istifadə, minimal rəssamlıq bacarıqları və vərdişləri tələb edən mövzuların (atomun, molekulun quruluşu, kimyəvi rabitə növləri, elektron buludlarının forma müxtəlifliyi, mürəkkəb tərkib və quruluşlu üzvi birləşmələr və.s) tədrisi kimya fənlərinin mənimsənilmə çətinliyini şərtləndirən amillərdəndir.

Kimya fənnləri üzrə bəzi yazılı materialların, elmi məqalə, referat, dissertasiya işi, dərslik, dərs vəsaiti və.s-nin komputerdə hazırlanması zamanı kimya dilindən
(kimyəvi işarə, formul, reaksiya tənliyi, bəzi formulların qrafiki təsviri və s.) istifadə zəruriliyinə görə ciddi çətinliklərin yaranmasını da buraya əlavə etmək lazımdır.

Qeyd edək ki, keçilən fənlər, o cümlədən kimya fənni üzrə mövzulararası, fənlərarası əlaqə yaradılması və keçilən müvafiq mövzunun zehin xəritəsindəki ardıcılıqla uzlaşdırılması müəllim üçün vacib məsələlərdəndir. Çünki, hansı fənlər arası əlaqədən söhbət gedirsə, həmin fənnin predmeti, qarşısında duran vəzifələr, problemlər haqqında fənn müəllimləri minimal biliyə malik olmalıdır. Mövzular, bölmələr arası əlaqəni tədris etmək isə müəllimdən ustalıq, səriştə tələb edir. Belə əlaqə olmadıqda keçilən dərs sönük, darıxdırıcı kimi görünür. Orta məktəb kimya kursunun "ümumi kimya", " qeyri-üzvi kimya" və " üzvi kimya" hissələrinə aid əlaqə "zehin xəritə"lərinin köməyilə daha asan yaradılır, kimyəvi çevrilmələri izləmək asanlaşır.

Hazırda Respublikamızda şagird və tələbələrdə kimyanın öyrənilməsində problemlərin həlli bacarığını artırmaq sahəsində sistemli tədqiqat işləri aparılır [2,4,5].

II.Kimyəvi nomenklatura haqqında

Göstərilmişdir ki [4], kimya fənni bütün digər elm sahələri ilə ən geniş əlaqəsi olan elm sahəsidir. Bununla bərabər kimya sənayesi elmi-texniki tərəqqini müəyyən edən istehsal sahələrindəndir. Belə ki, həm canlı orqanizimlərə aid olan elm sahələrində, həm də qeyri-üzvi aləmi əhatə edən ən müxtəlif tədqiqatlarda kimyəvi çevrilmələrdən, kimyanın simvolik dilinin tətbiqi nəticələrindən istifadə olunur. Ümumi halda kimya dili, kimyanın simvolik dili dedikdə kimyanın əsas kateqoriyaları (xassə, tərkib, quruluş), qanun və qanunauyğunluqları, anlayışları, əsas kimyəvi terminlər, kimyəvi işarə, kimyəvi formul, kimyəvi reaksiya tənlikləri və s. başa düşülür. Kimyəvi nomenklatura, yəni kimyəvi maddələrin adlandırılması üsulu kimya dilini (eləcə də digər təbiət elmləri dillərini) adi dillərdən fərqləndirən əsas amildir. Başlıca fərqli cəhət isə kimya dilinin yazılı formasının onun şifahi formasına nisbətən daha

vacib olmasıdır. Kimyada bir neçə adlandırma üsulu mövcuddur. Çünki təkcə kimyəvi elementlərə və onların birləşmələrinə deyil, kimyada işlənən metodlara, cihazlara, nəzəri konsepsiyalara və kimyəvi reaksiyalara da məxsusi adlar vermək zəruriyyəti yaranır. Bunlar içərisində çoxsaylı kimyəvi birləşmələrin adları və kimyəvi formulları kimyəvi nomenklaturanın tərkib hissəsi hesab olunur [7]. Əvvəllər kimyəvi maddələri alınma üsuluna, başlanğıc maddəyə, yeni maddəni ilk dəfə alan alimin adına və s. amillərə görə adlandırırdılar.Yeni alınan maddələrin miqdarı artdıqca onları adlandırmada da fikir ayrılıqları, problemlər yaranırdı. XVIII əsrin 60- cı illərində ilk dəfə Berqman kimyəvi nomenklaturada islahat aparılması zəruriliyini irəli sürdü.Təklif **Qiton de Morvo, Lavuazye** və başqa alimlər tərəfindən bəyənildi və 1787-ci ildə qəbul edildi. İdeya ondan ibarət idi ki, yeni alınan maddənin adı birmənalı olaraq onun tərkibini özündə əks etdirsin.Təklif qısa müddət ərzində yekdilliklə qəbul edildi. Həmin dövrdə ən çox tədqiq olunan maddələr nisbətən sadə qeyri-üzvi birləşmələr idi. **Bertselius** təklif etdi ki, həmin maddələrə verilən ad onların elektromüsbət və elektromənfi hissələrdən ibarət olmasını özündə əks etdirsin, yəni iki sözdən ibarət olsun. Bu təklif həmçinin qəbul olundu və bu üsuldan qeyri-üzvi maddələrin nomenklaturasında indi də istifadə olunur.

Hazırda kimyəvi nomenklaturanın ingilis dilində təkmilləşdirilməsi və standartlaşdırılması sahəsində paralel olaraq iki istiqamətdə tədqiqat işləri yerinə yetirilir; işlərdən biri Chemical Abstracts referativ jurnalı, ikincisi isə İUPAC çərçivəsindədir. Qeyri-üzvi, üzvi və bioloji kimya sahələrində İUPAC komissiyaları 1922-ci ildə, kimyanın digər sahələri üzrə isə komissiyalar bir qədər gec yaradılmışdır.

Müasir sistematik kimyəvi nomenklaturanın məqsədi kimyəvi birləşmələrin tərkibinin, imkan daxilində isə həm də quruluşunun təsvir olunmasıdır. Aydındır ki, mövcud ənənələrdən istifadə olunmadan heç bir nomenklatura sistemi yaradıla bilməz. Buna görə müasir kimya nomenklaturası köhnə və yeni adlardan ibarət qeyri-bircinsli qarışığa bənzəyir, özünün təsvir etdiyi çoxsaylı birləşmələr qədər rəngarəng və əlvan, bəzi bölmələrdə xüsusi strukturlu olması, qeyri-sistematik və mürəkkəbliklə xarakterizə olunur.

Qeyd edək ki, kimyəvi nomenklatura sahəsində fəaliyyət göstərən İUPAK azərbaycan və rus dillərində belə ifadə olunur:

İUPAK-Международный союз теоретической и прикладной химии (İnternational Union of Pure and Applied Chemistry)

Azərbaycan dilində: Nəzəri və tətbiqi kimya üzrə Beynəlxalq İttifaq

III.Kimya dili təfəkkürün inkişafının əsas didaktik şərti kimi

Hər bir fənnin özünün dili, yəni fənnin tədrisi zamanı istifadə olunan terminləri, şərti işarələri vardır. Lakin həmin terminlər ya azsaylıdır, yaxud müvafiq elm sahələri üçün kimyada olduğu qədər önəm daşımır. Bunun nəticəsidir ki, universitetlərin magistratura pilləsində kimya fənninin tədrisi metodikası və metodologiyası (KFTMM) ixtisasında "Təfəkkürün inkişafında kimya dilinin rolu" fənni (15 muhazirə + 15 seminar = 30 saat) keçilir. Fənnin tədrisinin təxmini mövzuları (muhazirə) aşağıdakılardan ibarətdir.

1. Kimya dili kursunun əsas məqsədi və vəzifələri, onun formalaşmasına fəlsəfi qanun və kateqoriyaların təsiri.

2. Kimya dilinin öyrənilməsində əsas və köməkçi anlayışlar sistemi. Kimya dilinin semantikası, elmi anlayışların formalaşdırılmasında rolu.

3. Kimya dilinin didaktik prinsiplərlə inkişaf etdirilməsi.

4. Kimya dilindən tədris prosesində istifadənin üsul və metodları. Kimya tədrisi ilə kimya dilinin inkişaf etdirilməsi.

5. Kimya dilinin formalaşdırılmasının nəzəri əsasları, dilin mərhələli inkişaf prosesləri.

6. Şagirdlərin şüurlu fəaliyyətinin inkişaf etdirilməsində kimyəvi termin, anlayış, kateqoriyaların özünəməxsus yeri.

7. Terminlərin düzgün tələffüzünün təşkili yolları. Şagird-müəllim münasibətləri əsasında kimya dilinə olan marağın artırılması prinsipləri: motivləşdirmə, əsaslandırma, sübutlar və faktların yerində işlədilməsi.

8. Nəzəri biliklərin təcrübə əsasında möhkəmləndirilməsində dilin rolu.Yeni elmi biliklər əsasında kimya dilinin zənginləşdirilməsi.

9. Kimya dilinin öyrədilməsinin əsas istiqamətləri və mərhələləri. Kimya dilinin təcrübi biliklərin inkişafında əhəmiyyəti.

10. Kimyanın tədrisində kimyanın dili əsas tədris vasitəsi kimi.

Şagird və tələbələrin çətinlikləri aradan qaldırma, qarşıya çıxan problemləri həll etmə qabiliyyətlərində, onların təfəkkürünün inkişafında, biliklərinin artırılmasında başa düşmə, anlama bacarığı mühüm rol oynayır. Hər hansı insan mövcud vəziyyəti qiymətləndirmədən, anlayışları qavramadan rast gəldiyi problemi həll edə bilməz. Bununla bərabər, hər bir şagird, tələbə müəyyən bir problemi həll etməyə çalışarkən, oxuduqlarını anlama bacarıqlarını da inkişaf etdirir. Anlama bacarıqları inkişaf etdikdə isə, problem həll etmək qabiliyyəti yüksəlmiş olur.

Orta məktəblərdə dil və oxu biliyi zəifliyi, kimya fənni üzrə mövzuların dərk olunması, anlaşılması çətinlikləri şagirdlər tərəfindən ali məktəblərə də daşınır. Çünki, kifayət dərəcədə çətin mənimsənilən kimya fənni yaxşı oxu və kimya dili təməli tələb edir. Buna görə orta və ali məktəblərdə kimya nailiyyətlərinin yüksəldilməsi öyrənənlər tərəfindən mütaliənin artırılması zəruriyyətini yaradır. Tədiqiqatlar göstərmişdir ki, ana dilində mükəmməl səviyyədə oxu mətni ilə işləmə bacarığı olan bütün öyrənənlər kimyəvi problemləri daha asanlıqla başa düşüb analiz edə bilirlər. Digər tərəfdən, şagird və tələbələrin oxuyub-anlama bacarıqlarının səviyyəsi onların kimya fənni üzrə göstəricilərinə tamamilə uyğundur. Göstərdik ki, orta məktəblərdə test üsulu ilə biliklərin qiymətləndirilməsi nəticəsi olaraq yazı, oxu və qavrama zəifliyi şagirdlərdə sonrakı fəaliyyət mərhələsində də (texnikum, ali məktəb təhsili, iş yeri və.s) özünü büruzə verir. Qeyd edilən zəifliyin bir mənbəyi də sosial şəbəkələr, kompüter, mobil telefonlar vasitəsilə yaradılan əlaqələr, özəl televiziya kanallarında sərgilənən şəkilaltı səhv yazılardır. Nəzərə almaq lazımdır ki, bu günkü gənclər sərbəst vaxtlarının çox hissəsini nəzarət olunmayan mobil telefon danışıqlarına, mesajlaşmaya sərf edir. Gənclərin yazı, oxu, ailədəki ünsiyyətləri zamanı saymazyanalıqla buraxdıqları nöqsanlar vərdiş halına keçir, ali məktəb auditoriyalarına, iş yerlərinə daşınır, səhvləri düzəltmək çətinləşir.Qeyd edək ki, yazı, nitq, qavrama çətinlikləri məzunlar tərəfindən orta məktəblərə, ümumən iş yerlərinə daşınmazdan əvvəl, çətinliklə də olsa ali məktəb auditoriyalarında əsasən aradan qaldırıla bilər. Fikrimizcə, bu məqsədlə əksər universitet ixtisaslarında birinci semestr dərslərindən biri kimi "Azərbaycan dili" fənninin salınması və ciddi tələbkarlıqla yazılı imtahan götürülməsi birinci kursdan etibarən həmin nöqsanların aradan qaldırılmasına səbəb ola bilər. Əslində bu sahədə universitetlərdə zəruri tədbirlər həyata keçirilir. İxtisas fənnləri üzrə imtahanların və müvafiq kollokviumların yazılı formada götürülməsi, şifahi nitqin inkişaf etdirilməsi məqsədi ilə təhsil islahatının tələblərinə uyğun olaraq dərslərin interaktiv keçirilməsinə ciddi nəzarət edilməsi bu qəbildən olan tədbirlərdəndir. Lakin bu halda müəllim həm də vətəndaş məsuliyyəti göstərməlidir.Ali məktəbdə kimya müəllimliyi təcrübəsi göstərmişdir ki, kimya dilini bilmək üçün ən əvvəl Azərbaycan dilini, yəni verilən fənni oxuduğun, öyrəndiyin dili bilməlisən. Bu, bütün fənlərə və fənləri öyrəndiyin dillərə aiddir.Beləliklə, qarşılıqlı əlaqəli aşağıdakı ardıcıllıq formalaşır:

1. Azərbaycan dili
2. Kimya dili
3. Kimya fənni
4. Kimya elmi

Qeyd edək ki, kimya dilini öyrənmək elə minimal səviyyədə kimya fənnini öyrənmək deməkdir. Lakin burada paralellik qaçılmazdır. Yəni kimya fənni kimya dilinə paralel olaraq

öyrənilir. Kimya dilini zəif bildikdə bəzən beyində formalaşdırılan yeni texnologiyanı, yaxud başqa ideyanı yazılı şəklə salmaq, patentləşdirmək çətin olur. Bir sıra hallarda isə şagird, tələbə kimya dilində termin zəifliyinə görə bildiyi sualın cavabını şifahi izah etməkdə çətinlik çəkir.Kimyanın tədrisi prosesində yeni biliklərin mənimsənilməsində çətinlik törədən amillərdən biri keçilən mövzunun çox qısa müddət ərzində yaddan çıxarılmasıdır. Lakin "Zehin xəritəsi" üsulu ilə kimya dərslərinin keçilməsi və təkrarlanması yaddaşı möhkəmləndirir, beyin yarımkürəciklərinin harmoniyasını təmin edir, yaradıcı düşüncəni inkişaf etdirir, çünki keçilən hər bir dərs həm də hisslər və duyğular, parlaq və canlı rəng çalarları ilə öyrənilir. Həm də zehin xəritələrinin hazırlanmasında hər bir keçilən mövzu üzrə açar sözlərdən və müvafiq kimyəvi simvollardan istifadə olunur. Buna görə şagirdlər kimyəvi anlayışları seçmə simvolik işarələrlə təsvir etməyi öyrənməlidirlər. Kimyanın tədrisində anlayışların formalaşdırılmasının didaktik imkanları [4] mənbəyində nəzərdən keçirilmiş və göstərilmişdir ki, şagirdlərin kimyəvi işarə, formul və anlayışları mənimsəmə bacarıqlarına ən çox proqnozlaşdırma, aydınlaşdırma və vizuallaşdırma daxildir. Qeyd edilmişdir ki, vizuallaşdırma, şagirdlərin bir şeyin necə görünə biləcəyinə dair təsəvvürlərinə əsaslanaraq mənimsənilən hər hansı kimyəvi anlayışın simvolik təsvirinin təfəkkürdə formalaşması və dərk edilərək yaddaşda saxlanılmasına yardımçı olur. [5]mənbəyində şagirdlərdə kimyanın tədrisində qarşıya çıxan problemlərin həlli bacarığının, onlara inteqrativ yanaşma vasitəsilə artırılması tövsiyə olunmuşdur. Qeyd olunmuşdur ki, problemlərə inteqrativ yanaşma, tətbiq olunan strategiyanın adı, məzmunu və məqsədi göstərilməklə ardıcıl olaraq mərhələlərlə həyata keçirilərsə gözlənilən müsbət nəticə alına bilər. Lakin fikrimizcə çox effektli görünən inteqrativ yanaşma konsepsiyasının mümkün hədd daxilində sadələşdirilməyə ehtiyacı vardır.

Ədəbiyyat

1. Babayev Y.N., Babayeva N.Y. Kimyanın tədrisində zehin xəritələrindən istifadə/ "Kimya elminə müasir baxış" Res. elmi konfransının materialları.NDU,8oktyabr 2019,S.106-110

2. Babayev Yasin, Babayeva Nigar. Kimya zehin xəritələri ilə. Ümumi kimya.Dərs vəsaiti. Bakı: kitab çapı, 2021, 238s.

3. Açkalmaz Aykut, Telkenar Gökhan. Beyninizin pusulası. Tony Buzan Öğretileri ile Zihin Haritaları. Beyaz yayınları. Cağaloğlu/İstanbul,2015,196s.

4. Cəfərov Yasin, Ağayeva Aytac, Paşayeva Arzu. Kimyanın tədrisində anlayışların formalaşdırılmasının didaktik imkanları/ "Kimyanın aktual problemləri" mövzusunda II Respublika elmi konfransının materialları. Naxçıvan Dövlət Universiteti 2022,s.57-60

5. Abışov Nasim, Kərimli Şəhla, Paşayeva Arzu, Cəfərov Yasin. Kimyanın tədrisində öyrənənlərdə problemlərin həll bacarığını artırmaq üçün inteqrativ yanaşma/ "Kimyanın aktual problemləri" mövzusunda II Respublika elmi konfransının materialları. Naxçıvan Dövlət Universiteti 2022,s.91-95

6. Əzizov Ə.T., Haqverdiyev K.N., Məhərrəmov Ə.V. "Təfəkkürün inkişafında kimya dilinin rolu" fənni üzrə proqram (magistr təhsil pilləsi üçün). KFTMM ixtisası üzrə

7.Кан Р., Дермер О. Введение в химическую номенклатуру. Перевод с английского под редакцией Потапова В.М. Москва, "Химия" 1983, 224 с.

THE LANGUAGE OF CHEMISTRY AS A DIDACTIC CONDITION FOR THE DEVELOPMENT OF THINKING

Babayev Y., Babayeva N.

Резюме

Химический язык как дидактическое условие развития мышления Были исследованы характерные черты химического образования, науки и языка. Показано, что химия является областью науки, имеющей самую широкую связь со всеми другими областями науки. Тот факт, что письменная форма химического языка богаче и важнее его устной

формы, является главной чертой, отличающей химию от других областей науки. Использование ключевых слов и химических символов в процессе индивидуального составления карт разума при обучении химии в старших классах улучшает навыки письма, понимания прочитанного и решения проблем учащихся.

ЯЗЫК ХИМИИ КАК ДИДАКТИЧЕСКОЕ УСЛОВИЕ РАЗВИТИЯ МЫШЛЕНИЯ

Бабаев Я., Бабаева Н.

Summary

Chemical language as a didactic condition for the development of thinking

Characteristic features of chemical education, science and language were investigated. It is shown that chemistry is the field of science that has the widest connection with all other fields of science. The fact that the written form of the chemical language is richer and more important than its oral form is the main feature that distinguishes chemistry from other areas of science. The use of key words and chemical symbols in the process of individual mind mapping when teaching chemistry in senior classes improves students' writing skills, reading comprehension and problem solving.

TƏBİİ MONTMORİLLONIT ƏSASINDA ALINMIŞ HIDROFOBLAŞMIŞ SORBENTLƏRIN ƏTRAF MÜHITİN MÜHAFİZƏSİNDƏ ROLU

İmanova N.Ə., Məmmədova S.H., Cabarov E.E., Əliyeva Q.M., Rəhmanova S.Y., Məmmədova N.Ə.

Kataliz və Qeyri-üzvi Kimya Institutu
qudrataliyeva@gmail.com

Açar sözlər: *montmorillonit, sorbsiya, üzvi mineral sorbent.*
Keywords: *montmorillonit, sorption, organic mineral sorbent.*

Müasir dövrdə ətraf mühütün mühafizəsi aktual problemlərdən biridir.İşlətdiyimiz sorbentlər çox saylı qaz və maye maddələrin müxtəlif zərərli qarışıqlarını çox yaxşı təmizləmə qabiliyyətinə malikdirlər. Kimya, neft kimya, metallurgiyada,kənd təsərüfatında və başqa sənaye sahələrində, həmçinin ətraf mühitin (su hövzələrinin, sənaye müəssisələrinin tulantılardan təmizlənməsi) qorunmasında təbii və sintetik sorbentlərdən geniş istifadə olunur. Bir çox müəssisələrin sənaye tulantıları olan üzvi qatışıqlar: aseton, fenol, benzopiren və başqa zəhərli maddələrin təmizlənməsi üçün yeni sorbentlər sintez eləmək məqsədə uygundur. Adətən havanın və su hövzələrinin təmizlənməsi üçün aktivləşmiş kömürdən istifadə olunur. Ancaq kömür asanlıqla toz halına keçir və ətraf mühiti daha da çirkləndirir. Təbii minerallar əsasında alınmış sorbentlər isə karbohidrogenlərin buxarlarını yaxşı udurlar və aktiv kömürdən fərqli olaraq, onlardan,uzun müddət yenidən istifadə etmək mümkündür.

Ətraf mühitin çirklənməsi bir çox allergik xəstələrdə, orqanizmin zəhərlənməsinə səbəb olur. Orqanizimdən mikrobları, zəhərli çəxarmağın ən tez və effektiv yollarında biri qanın təmizlənməsi metodudur. Bir sıra karbomineral sorbentlərin əsas və vacib tətbiq sahələrindən biri də onların sorbsiya terapiyasında istifadə edilməsidir.

Son illər polimerlər əsasında gemosorbentlər sintez edilir. Karbomineral gemosorbentlərin mexaniki möhkəmliyi aktivləşmiş kömürdən yüksəkdir Onlardan həm də kimyəvi prosesləri sürətləndirmək üçün biokatalizatorlar kimi istifadə olunur [2].

Karbomineral sorbentlərin mikroorqanizimləri çox miqdarda adsorbsiya etmə qabiliyyəti, onlardan mikrob əleyhinə dərman məmulatları kimi istifadə etməyə imkan verir.

Bundan əlavə həm kation, həm də anion xassəsinə malik olan bakteriosid xassəli bu sorbentlərdən həmşinin tuperklyoz əleyhinə, axıntı sularını müxtəlif zəhərli maddələrin təmizlənməsində istifadə etmək olar.

İşdə məqsəd, yeni üsulla alınmış karbomineral sorbent vasitəsilə tullantı sularının üzvi qarışıqlardan təmizləməkdir.

Aparılan tədqiqat işi hidrofoblaşmış mineral sorbentlərin sintezinə aiddir. Tədqiq etdiyimiz sorbent təbii montmorilloniti, tərkibində ammoniyum və xlor qrupu olan üzvi reagentlərlə birlikdə işləməklə sintez edilir. Hazırlanmış sorbent həm kationit, həm də anionit xassəsinə malik olmaqla, müxtəlif zərərli üzvi maddələri adsorbsiya edir.

Nümunə aşagidakı kimi modifikasiya olunur. 40 q miqdarda,fraksiya tərkibi 0,5-1,0;1,0-2,0 mm olan təbii montmorilloniti sidik cövhəri və epilxlorhidritin sulu məhlulu ilə işləməklə hazırlanır. Aktiv üzvi mineral sorbent alınır. Alınmış sorbentin vasitəsilə məhlullardan və tullantı sulardan SO_4^{2-} və Cl^- anionlarının təmizlənməsi üçün istifadə olunur. Adsorbsiya qabiliyyəti 80% artır, prosesin işləmə müddəti uzadılır ,maya dəyəri aşagı salınır.

Ədəbiyyat

1. Аннагиев М.Х. Адсорбенты на основе природных цеолитов в процессах адсорбции различных газов и паров. Монография Баку.Эли.1997.

2. Микитаев А.К., Беданоков А.Ю., Малкундуев Ю.А., Леднев О.Б., Бештоев Б.З. Полимерные нанкомпозиты на основе органмодифицированных алюмо-силикатов;особеенности, структуры, получение и свойства.//Ташкент.2005.

РОЛЬ ПРИРОДНЫХ ГИДРОФОБИЗИРОВАННЫХ СОРБЕНТОВ НА ОСНОВЕ МОНТМОРИЛЛОНИТА В ОХРАНЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

Иманова Н.А., Мамедова Ш.Х., Джабаров Э.Э., Алиева Г.М., Рахманова С.Ю., Мамедова Н.А.

Резюме

Проведенные исследования касается синтеза гидрофобизированных минеральных сорбентов.Исследуемый сорбент синтезирован при работе с природным монтмориллонитом и органическими реагентами,содержащими группы аммония и хлора.Приготовленный сорбент обладает катионными и анионными свойством и адсорбирует различные вредные органические вещества.

THE ROLE OF NATURAL MONTMORILLONITE BASED HYDROPHOBIZED SORBENTS IN ENVIRONMENTAL PROTECTION

Imanova N.A., Mammadova S.H., Jabarov E.E., Aliyeva G.M., Rahmanova S.Y., Mammadova N.A.

Summary

There is iwestigating work which belong to synthesys hydrophobized mineral sorbents. It carried out prior this one. Determine sorbent is synthesys accurate with natural mon-tmorillonite and organic regents containing ammonium and clorine groups. The prepared sorbent has cationic and anionic properties. It adsorbs harmful organic compounents too.

ZOL-GEL YANMA METODU İLƏ ALINAN $CuFe_2O_4$ NANOHİSSƏCİKLƏRİNİN ÖLÇÜSÜNƏ ÜZVİ REAGENTLƏRİN TƏSİRİ

Əzimova G.R., Ələsgərova Z.F., Quliyeva.U.R

Kataliz və Qeyri-üzvi Kimya İnstitutu

Açar sözlər: *zol-gel yanma metodu, limon turşusu, qlisin, karbamid, mis ferriti.*

Keywords: *sol-gel combustion method, citric acid, glycine, urea, copper ferrite.*

Ключевые слова: *золь-гель метод с горением, лимонная кислота, глицин, мочевина, феррит меди.*

Hal-hazırda yüksək dispersli materialların alınması üsulları arasında zol-gel yanma metodu xüsusi yer tutur. Zol-gel yanma metodunun əsas üstünlüklərindən biri də odur ki, ilkin komponentlərin bircinsli məhlula keçməsi ilə zol əmələ gəlir, sonra isə zol hidroliz və kondensasiya prosesləri nəticəsində gelə çevrilir [1, 2]. Zol-gel yanma prosesində üzvi reagentlər həm kompleksəmələgətirici maddə, həm də yanacaq rolunu oynayır. Üzvi reagent kimi suda həll olan aminlər, aminturşular, səthi aktiv maddələr və s. götürülə bilər. Bu üzvi reagentlər eyni zamanda sintez olunmuş maddələrin tekstur parametrlərinə, həmçinin yanma prosesinə də güclü təsir göstərir [3, 4].

Tərkibi mis və dəmir oksidindən ibarət olan mis ferritinin ($CuFe_2O_4$) zol-gel yanma metodu ilə hazırlanmasında ilkin komponent kimi mis-nitrat $Cu(NO_3)_2 \cdot 3H_2O$, dəmir-nitrat $Fe(NO_3)_3 \cdot 9H_2O$ duzları götürülmüşdür. Metallar (Cu:Fe=1:2) nisbətində götürülmüşdür. Üzvi reagent kimi limon turşusu, karbamid, qlisin istifadə olunmuşdur. Prekursorlar əvvəlcə 10 ml distillə suyunda həll edilir. Duzların və üzvi reagentlərin hesablanmış miqdarlarının sulu məhlulları sonra 80^0C-də maqnit qarışdırıcıda qarışdırılaraq gelə çevrilir. Daha sonra əmələ gəlmiş gel quruducu şkafa yerləşdirilir və 175-190^0C temperaturda yanma prosesi baş verir.

Alınmış $CuFe_2O_4$ nanohissəcikləri rentgen, işığın dinamik səpilmə kimi fiziki-kimyəvi analiz metodları ilə analiz olunmuşdur. Nanohissəciklərin rentgen faza analizi Bruker D 2Phazer adlı analiz aparatında, işığın dinamik səpilmə analizi isə Horiba LB-550 markalı cihazda yerinə yetirilmişdir. Aşağıdakı şəkil 1-də $CuFe_2O_4$ nümunəsinin rentgen faza analizi göstərilmişdir.



Şəkil 1. $CuFe_2O_4$ ferritinin difraktoqramması (Üzvi reagent-limon turşusu)

$CuFe_2O_4$ ferritinin rentgen faza analizi göstərir ki, burada həm $CuFe_2O_4$, həm hematit, həm də mis oksid birləşməsi əmələ gəlir. Rentgen faza analizində nanohissəciklərin orta zərrəcik ölçüsü aşağıdakı Şerer tənliyi ilə hesablanmışdır.

$$d = \frac{k\lambda}{\beta \cdot \cos\theta}$$

Burada k=0.9, Şerer sabitidir; λ=1.5406 A, dalğa uzunluğudur; β inteqral eni, θ isə işığın əksolunma bucağıdır. Hesablamalara görə üzvi reagent kimi karbamid götürülən nümunələrdə nümunənin orta zərrəcik ölçüsü 15-19 nm, limon turşusu olan nümunədə 20-23 nm, qlisin götürülən nümunədə isə nanozərrəciklərin orta ölçüsü 29-32 nm olmuşdur.

Alınan $CuFe_2O_4$ nanozərrəciklərinin ölçüsü işığın dinamik səpilməsi metodu ilə də öyrənilmişdir. Hər nümunə üçün ən azı 3 dəfə təkrar ölçmə aparılmışdır. Ölçmələr aparılmamışdan əvvəl, nümunələr ultrasəs emala məruz qalmışdır. Ultrasəs emalı 10, 20, 60 dəq ərzində yerinə yetirilmişdir. Şəkil 2-də 20 dəq müddətində ultrasəs emalına məruz qalmış nümunələrdə zərrəciklərin ölçüyə görə paylanması göstərilib.



1 2 3

Şəkil 2. $CuFe_2O_4$ ferritində 20 dəq müddətində ultrasəs emalına məruz qalmış dispersiyalarda zərrəciklərin ölçüsünün paylanması.
1-üzvi reagent karbamid, 2-limon turşusu, 3-qlisin.

Şəkil 2-dən görünür ki, izopropil spirtində 20 dəq ərzində ultrasəs emala məruz qalmış sintez olunmuş nümunələrin orta zərrəcik ölçüsü 381-447 nm intervalındadır. Burada geniş paylanma intervalı göstərir ki, dispersiya özündə müxtəlif ölçülü aqreqatları saxlayır. Görünür ki, zərrəciklərin heç də hamısı ultrasəs emalına məruz qalmamışdır. 60 dəq ərzində ultrasəslə emal olunmuş nümunələrdə zərrəciklərin ölçüyə görə paylanması şəkil 3-də göstərilib.



1 2

Şəkil 3. $CuFe_2O_4$ ferritində 20 dəq müddətində ultrasəs emalına məruz qalmış dispersiyalarda zərrəciklərin ölçüsünün paylanması
1-üzvi reagent karbamid, 2-qlisin.

60 dəqiqə ərzində ultrasəslə emal olunmuş nümunələrdə zərrəciklərin ölçüsü daha kiçikdir (150-230 nm). Rentgen analizi ilə müqayisədə bu ölçülərinin daha böyuk olması onunla izah olunur ki, işığın dinamik səpilməsi metodu aqreqasiya olunmuş hissəciklərin ölçülərini təyin edir.

Ədəbiyyat

1. V.D. Vijay, S.K. Kurade, S.B. Keshav, Internatinal Journal of Latest Technology in Engineering. 2016, 5, 34-39.
2. E.E. Ateia, A.A. El-Bassuony, G. Abdelatif, F.S. Soliman, J. Mater. Sci. Mater. Electron. 2017, 28, 241–249.

3. N. Velinov, K. Koleva, T. Tsoncheva et al, Cent. Eur. J. Chem. 2014, 12, 250-259.
4. V.V. İvanov, A.K. Ulyanov, N.P. Shabelskaya. Ferriti-khromiti perekhodnix elementov: sintez, struktura, svoystva.-Ferrite-chromite of transition elements: synthesis, structure, properties. Moscow, Russia, 2013.

ZOL-GEL YANMA METODU İLƏ ALINAN $CuFe_2O_4$ NANOHİSSƏCİKLƏRİNİN ÖLÇÜSÜNƏ ÜZVİ REAGENTLƏRİN TƏSİRİ

Əzimova G.R., Ələsgərova Z.F., Quliyeva U.R.

Xülasə

$CuFe_2O_4$ ferriti zol-gel yanma metodu ilə sintez olunmuşdur. Mis ferritinin zol-gel yanma metodu ilə alınmasında üzvi reagent kimi karbamid, limon turşusu, qlisin götürülmüşdür. Burada üzvi reagentlər həm kompleksəmələgətirici maddə, həm də yanacaq kimi istifadə olunmuşdur. Alınmış mis ferriti rentgen faza analizi, işığın dinamik səpilməsi kimi fiziki-kimyəvi analiz metodları ilə xarakterizə olunmuşdur.

OF NANOPARTICLES OF $CuFe_2O_4$ OBTAINED BY THE SOL-GEL COMBUSTION METHODEFFECT OF ORGANIC REAGENTS ON SIZE

Azimova G.R., Alasgarova Z.F., Guliyeva U.R

Summary

$CuFe_2O_4$ ferrite was synthesized by sol-gel combustion method. Urea, citric acid, and glycine were taken as organic reagents in the obtaining of copper ferrite by the sol-gel combustion method. Organic reagents were used both as complexing agent and fuel. Obtained copper ferrite was characterized by X-ray powder diffraction, dynamic light scattering method.

НАНОЧАСТИЦ $CuFe_2O_4$, ПОЛУЧЕННЫХ ЗОЛЬ-ГЕЛЬ МЕТОДОМ ГОРЕНИЯ ВЛИЯНИЕ ОРГАНИЧЕСКИХ РЕАГЕНТОВ НА РАЗМЕР

Азимова Г.Р., Алескерова.З.Ф., Гулиева Ю.Р.

Резюме

Феррит $CuFe_2O_4$ синтезирован золь-гель методом с горением. В качестве органических реагентов при получении феррита меди золь-гель методом с горением были взяты мочевина, лимонная кислота и глицин. Органические реагенты использовались как в качестве комплексообразователя, так и в качестве топлива. Полученный феррит меди охарактеризован рентгенофазовым методом и методом динамического светорассеяния.

ОСОБЕННОСТИ ТЕРМОРАЗЛОЖЕНИЯ КОБАЛЬТОЦЕНА, НАНЕСЕННОГО НА МОРДЕНИТ

Пашаева Ф.К., Аббасова Т.А., Агаева Р.Г.

Институт Катализа и Неорганической химии им.М. Нагиева

Ключевые слова: *кобальтоцен, морденит, терморазложение, РФА, ИК-Фурье, ЭПР, ТГ/ДТГ/ДТА*

Keywords: *cobaltocene, mordenite, thermal decomposition, XRD, FT-IR, EPR, TG/DTG/DTA.*

Açar sözlər: *kobaltosen, termal parçalanma,mordenit,XRD,FT-IR,EPR, TG/DTG/DTA*

Сочетанием методов рентгеновской дифрактометрии, инфракрасной спектроскопии с Фурье преобразованием, электронного парамагнитного резонанса, термического анализа (ТГ/ДТГ/ДТА) исследованы особенности терморазложения в токе воздуха кобальтоцена, нанесенного из н- гексанового раствора на морденит. Показано, что твердый продукт термического разложения представляет собой морденит, содержащий частицы оксида кобальта CoOx.

Интенсивное развитие химии металлоорганических соединений (МОС) в последние годы позволило разработать методы синтеза катализаторов, содержащих гомо- и гетерометаллических кластеры, ультрадисперсные частицы переходных и редкоземельных металлов на пористых подложках. Наибольшее распространение получили каталитические системы нанесенного типа. Как правило, в качестве носителей применяются термостойкие, химически инертные и механически прочные материалы, как природные, например, глины и т.п. , так и синтетические - активные угли, оксиды, алюмосиликаты, цеолиты. Механизм и закономерности превращения МОС в каталитически активный материал известны только в общих чертах. Ситуация осложняется многочисленностью факторов, действующих в процессе генезиса катализаторов [1,2]. В настоящей работе приведены результаты исследования особенностей терморазложения кобальтоцена, нанесенного из н-гексанового раствора на морденит с использованием сочетания методов рентгеновской дифрактометрии (РФА), Фурье инфракрасной спектроскопии (ФТ-ИК), электронного парамагнитного резонанса (ЭПР) и термического анализа (ТГ/ДТГ/ДТА). Использованный в качестве матрицы образцы морденита были обработаны соляной кислотой. На рис.1 приведены, соответственно, дифрактограмма и спектр ЭПР образца морденита с нанесенным кобальтоценом из жидкой фазы, далее просушенной при 110ºС в течение 2-х часов и прокаленного при 400ºС в токе воздуха также в течение 2-х часов.



а) б)

Рис.1. Рентгеновская дифрактограмма (а) и спектр ЭПР (б) образца морденита с нанесеннным кобальтоценом из н-гексанового раствора, просушенного при 110ºС в течение 2-х часов и прокаленного при 400ºС в токе воздуха также в течение 2-х часов.

Отметим, что кобальтоцен Cp_2Co легко окисляется кислородом воздуха до стабильного 18-электронного катиона кобальтоция $[Cp_2Co]^+$, который при нанесении его из н-гексанового раствора закрепляется на поверхности морденита. С ростом температуры прогрева в токе воздуха до 280-300ºС, как показывают данные ИК-ФП, заметно изменяется состав лигандной составляющей адсорбированного МОС и после прокаливания этого образца при 400 ºС в токе воздуха согласно данным РФА и ЭПР образец представляют собой морденит, содержащий ферромагнитные частицы CoOx, скорее всего, Co_3O_4. Наблюдаемый при g=2.002 узкий сигнал с шириной ΔH=0,9мТ для этого образца принадлежит органическому радикалу, образующийся при терморазложении МОС.

Литература

1. O. Piermatti, R. Abu-Reziq, L. Vaccaro. Strategies to Immobilized Catalysts: A Key Tool for Modern Chemistry. Catalyst Immobilization: Methods and Applications. First

Edition. Edited by Maurizio Benaglia and Alessandra Puglisi. © 2020 Wiley-VCH Verlag GmbH & Co. KGaA. Published 2020 by Wiley-VCH Verlag GmbH & Co. KGaA.

2. M. Endregard, D.G. Nicholson, M.Stocker, G.M.Lamble Adsorption and thermal decomposition of cobalticenium ions on AIPO4-5 studied by X-ray absorption spectroscopy, 13C solid-state NMR and FTIR//J. Mater. Chem., 1995, 5, 785-791

PECULIARITIES OF THERMAL DECOMPOSITION OF COBALTOCENE DEPOSITED ON MORDENITE

Pashaeva F.K., Abbasova T.A., Agayeva R.G.

Xülasə

Using a combination of X-ray diffractometry (XRD), Fourier transform infrared spectroscopy (IR-FT), electron paramagnetic resonance (EPR), thermal analysis (TG DTG DTA), thermal decomposition features of cobaltocene deposited from an n-hexane solution onto mordenite and it is shown that the solid product of thermal decomposition is mordenite containing cobalt oxide CoOx particles.

MORDENİTDƏ ÇÖKDÜRÜLMÜŞ KOBALTOSENIN TERMİKİ PARÇALANMA XÜSUSİYYƏTLƏRİ

Paşayeva F.K., Abbasova T.A., Ağayeva R.Q.

Summary

Rentgen difraktometriyası, Furye infraqırmızı spektroskopiyası, elektron paramaqnit rezonansının, termiki istilik analiz (TG/DTG/DTA) metodlarının birgə istifadəsi ilə n-heksan məhlulundan mordenit üzərinə çökdürülmüş kobaltsenin termiki parçalanma xüsusiyyətləri tədqiq edilmiş və göstərilmişdir ki, termiki parçalanmanın bərk məhsulu tərkibində kobalt oksidi CoOx hissəcikləri olan mordenitdir.

ПОЛИТЕРМИЧЕСКИЙ РАЗРЕЗ $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$

Абдуллаева Ш.С., Бахтиярлы И.Б., Курбанова Р.Дж.

Институт Катализа и Неорганической Химии им. М. Нагиева
sehri.abdullayeva.83@mail.ru

Ключевые слова: *политермический разрез, тройная система, синтез, халькогенид, фазовая диаграмма.*

Açar sözlər: *politermik kəsik, üçlü sistem, sintez, xalkogenid, faza diaqramı.*

Keywords: *polythermal section, ternary system, synthesis, chalcogenide, phase diagram.*

В настоящее время при создания новых оптических, магнитных и лазерных материалов с функциональными свойствами нашли широкое применение халькогениды переходных металлов [1-3]. Одним из путей выявлении новых фаз является исследование фазовых равновесий в сложных халькогенидных системах. Ранее нами были изучены квазибинарные и неквазибинарные сечение тройной системы Cu_2S-In_2S_3-FeS [4] и данная работа является продолжением этих исследований.

Настоящая работа посвящена исследованию разрез $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ тройной системы Cu_2S-In_2S_3-FeS.

Исходные тройные составы $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ и $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ были синтезированы из элементов. Для синтеза образцов разреза $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ исходные материалы были взяты в стехиометрических

соотношениях и помещены в откаченные до давления 10^{-2} Па и запаянные кварцевые ампулы. Режим синтеза образцов выбирался на основе температур плавления исходных материалов (~при 1000- 1400К). Были синтезированы 12 образцов различного состава. При выполнении экспериментальной части были использованы следующие методы физико-химического анализа: дифференциально - термический анализ (ДТА) микроструктурный (МСА), рентгенофазовый анализ (РФА), метод измерения микродвердости.

На основании данных ДТА обнаружили, что характер взаимодействия между составами $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ и $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ носит сложный характер.

Изучение микроструктуры показало, что все сплавы изученной системы трехфазные.

Некоторые из синтезированных образцов измельчали в порошок и снимали рентгенограммы с целю исследования РФА. Значения микротвердости, полученные на шлифах после выявления структуры, указывают на существование по всей системе трех фаз. Обобщив результаты физико-химического анализа построена фазовая диаграмма разреза $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$

Установлено, что разрез является неквазибинарным сечением тройной системы Cu_2S-In_2S_3-FeS. Пересекает разрез подчиненные тройной системы Cu_2S- $CuInS_2$ –FeS, $CuInS_2$-$CuFeIn_3S_6$-FeS и $CuFeIn_3S_6$-$FeIn_2S_4$- FeS и поэтому ее фазовая диаграмма состоит из трех самостоятельных частей.

В первый части разреза имеется одно тройное эвтектическое равновесия E_5 при температуре 990К. В второй части равновесие заканчивается при температуре 1030 К в тройной эвтектике E_4. В третьей части равновесие заканчивается при тройной эвтектике E_3. Ликвидус разреза изображается двумя кривыми первичной кристаллизации фаз $\gamma(CuInS_2)$ и $\gamma_1(FeS)$.

Ниже линии солидуса затвердевает механический смесь этих составов. Таким образом, на основе экспериментальных данных построена фазовая диаграмма сечение $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$–$(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$. Установлено, что она является неквазибинарным сечением тройной системы Cu_2S-In_2S_3-FeS.

Литература

1. С.В. Булярский Л.Н. Вострецова , С.А. Гаврилов С.В. Булярский , Л.Н. Вострецова , С.А. Гаврилов. Фотоприемники на основе $CuInS_2$. Физика и техника полупроводников, 2016, том 50, вып. 1,ст.106-111
2. K. Djessas, G. Massy, and M. Ibannaimb. $CuInS_2$ Thin Films for Solar Cell Applications Journal of The Electrochemical Society, 147 (4) 1235-1239 (2000)
3. М.А. Новикова. Оптические свойства твердых растворов $(FeIn_2S_4)_{(1-x)}(In_2S_3)_x$ Доклады БГУИР 2014, №3 (81) ст.22-26
4. I.B.Bakhtiyarly, R.J.Kurbanova, Sh.S.Abdullaeva, Z.M.Mukhtarova,
5. F.M. Mammadova. Liquidus surface of the quasi-ternary system Cu_2S–In_2S_3–FeS Condensed matter and interphases 2021; 23 (1): 16-24

ПОЛИТЕРМИЧЕСКИЙ РАЗРЕЗ $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$

Абдуллаева Ш.С., Бахтиярлы И.Б., Курбанова Р.Дж.

Резюме

На основе экспериментальных данных (ДТА, РФА, МСА и измерения микродвердости) изучен разрез $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ тройной системы Cu_2S-In_2S_3-FeS и построена его фазовая диаграмма. Установлено что, разрез является неквазибинарным сечением тройной системы и пересекает три подчиненные тройные системы.

$(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ POLİTERMİK KƏSİYİ

Abdullayeva Ş.S., Bəxtiyarlı İ.B., Qurbanova R.C.

Xülasə

Eksperimental tədqiqatlar əsasında (DTA, RFA, MSA və mikrobərklik ölçmələri) Cu_2S-In_2S_3-FeS üçlü sisteminin $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ kəsiyi tədqiq edilmiş və faza diaqramı qurulmuşdur. Müəyyən edilmişdir ki, kəsik üçlü sistemin qeyri-kvazibinar kəsiyidir və üç tabeli üçbucağı kəsir**.**

POLYTHERMAL SECTION $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$– $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$

Abdullayeva Sh.S., Bakhtiyarli I.B., Gurbanova R.J.

Summary

On the basis of experimental data (DTA, XRD, MSA and measurements of microhardness), the section $(5Cu_2S)_{0,350}(3In_2S_3)_{0,650}$ – $(7,5FeS)_{0,350}(3In_2S_3)_{0,650}$ of the ternary system Cu_2S-In_2S_3-FeS was studied and its phase diagram was constructed. It is established that the section is a non-quasibinary section of the ternary system and intersects three subordinate ternary systems**.**

MÜASİR MƏRHƏLƏDƏ KİMYANIN TƏDRİSİNDƏ RAST GƏLİNƏN PROBLEMLƏR

Əskərov A.B., Əliyeva S.G.

Sumqayıt Dövlət Universiteti
agaisa.askerov55@mail.ru

Açar sözlər: *motivasiya, şəxsiyyətyönümlülük, tələbyönümlülük, nəticəyönümlülük, dünya görüş, müfafiklik prinsipi.*

Ключевые слова: *мотивация, ориентация личности, ориентация на требование, ориентация на результат, мировоззрение, принцип взаимности.*

Key words:*motivation, personalityorientation, requirementorientation, resultorientation, worldview, principle of reciprocity.*

Ümumi təhsilin əsasvəzifələrindən biri də, təlim prosesində sagirdlərin mənəvi, psixoloyi və təfəkkür baxımından şüurlarında elmi dünya görüşün, sərbəst surətdə fikirlərini arqumentlərlə ifadə etmək qabiliyyətinin formalaşması prosesidir. Kimya fənniin təlimi prosesində şagirdlərin maddi aləm haqqında düşüncələri, ehtimalları zənginləşməklə bərabər, ətraf aləm haqqında ekoloji bilikləri də inkişaf etdirilir.

Müasir kimyanın tədrisi prosesi şagirdlərin şəxsiyyət kimi formalaşması, onların vətənə məhəbbət, milli mentalitetə sahiblənməsi, intellektual və əxlaqi kamilliyinin təmin edilməsini vəzifə olaraq həll edir. Kimyanın tədrisi prosesində müəllimlər fəaliyyət zamanı digər fənnlərdə olduğu kimi varislik ən-ənəsinə yəni- başlanğıc, fənn öncəsi və baza bilik mərhələlərinəsadiq qalmalıdırlar [1].

Məlumdur ki, kimya həyatımızla, yaşam tərzimizlə,ümumi insani dəyərlərə əsaslanan və bu dəyərlərlə əlaqədə olan elm sahədir. Bu səbəbdən kimya elminin tədrisidə bütün şagirdlərin aktiv öyrənmə prosesinə cəzb edilməsi aktual məsələdir.

Qeyd olunmuşdur ki, elektrolitlərin suda məhlullarına polimerləri əlavə etdikdə onların elektrik keçiricilikləri dəyişir. İonların elektrik keçiriciliyinin hidratasiya ilə əlaqədar olduğunu nəzərə alaraq biz tədqiq olunan elektrolitlərə bir sıra polimerlər əlavə etməklə ionların hidratasiya ədədləri təyin etmişik. Alınan nəticələr cədvəl 1 də göstərilmişdir.

Cədvəl 1.

a) Cl^- və uyğun olaraq H^+, Li^+, Na^+, K^+, Cs^+ ionlarının radiuslarının və hidratasiya ədədlərinin cəmi.

Məhlul	r_1+r_2	h_1+h_2
HCl	233	13.3
LiCl	276	14
NaCl	295	16.3
CsCl	348	20
KCl	319	16.1
KBr	334	24,2
KJ	338	37.3
Na_2SO_4	34.1	448
$MgSO_4$	33.7	330
$CuSO_4$	45.1	335
$BaCl_2$	54.8	535
$FeCl_3$	76.9	664

b) KCl və KBr duzlarının sulu məhlullarında ionların hidratasiya ədədinə polimerin təsiri

Məhlul	h1+h2
KCl+su	16,1
KCl+PEQ (0,04ml)	13,54
KCl+PEQ (1,1ml)	5,86
KBr+H_2O	24,2
KBr+PEQ6000 (0,3ml)	16,7

KBr+PEQ6000 (0,5ml)	12,6
KBr+PVP12000 (1ml)	13,5
KBr+PVP12000 (2ml)	12,2
K_2SO_4	18,6
K_2SO_4+PVP12000 (1ml)	11,9
K_2SO_4+PVP12000 (2ml)	8,6

Ədəbiyyat

1. Масимов Э. А., Аббасов Х. Ф., Рефрактометрическое определение числа гидратации ионов в разбавленных водных растворах сульфата магния, Журнал Физической Химии, т. 86, № 3, 2012, с. 470–472.
2. Самойлов О.Я. Структура водных растворов электролитов и гидратация ионов. М., АН СССР, т.1957, с.76-182.
3. Бернал Дж., Фаулер Р. Струк. воды и ион. раст.. Усп. физ. наук, 1934, т.14, с.586-644

ELEKTROLİTLƏRDƏ HİDRATASİYA PROSESLƏRİ

Məsimov E.Ə.

Xülasə

Təqdim olunan işdə bir sıra elektrolitlərin suda məhlulunda ionların hidratasiya ədədlərinin cəmi sadə, ucuz , asan başa gələn refraktometrik metodla təyin edilmişdir. Daha sonra polimerlərin hidratasiya ədədinə təsirinə baxılmışdır.

ПРОЦЕССЫ ГИДРАТАЦИИ В ЭЛЕКТРОЛИТАХ

Масимов Э.А.

Резюме

В представленной работе сумма чисел гидратации ионов в водном растворе ряда электролитов определялась простым, дешевым, удобным в применении рефрактометрическим методом. Затем было рассмотрено влияние полимеров на число гидратации.

HYDRATION PROCESSES IN ELECTROLYTES

Masimov E.A.

Summary

In the presented work, the sum of the hydration numbers of ions in a water solution of a number of electrolytes was determined by a simple, cheap, easy-to-use refractometric method. Then, the effect of polymers on the hydration number was considered.

WAGNER MEERWEIN REARRANGEMENT OF (+)-CAMPHENE AND FORMATION OF MONOBROMO-CAMPHENE

Raşit Fikret Yılmaz[1], Md Zahidul Islam[2], Ahmet Tutar[2]

[1]National Defence University, Turkish Naval Academy, Department of Fundamental Sciences, 34940, İstanbul, TÜRKİYE

[2]Deparment of Chemistry, Faculty of Science, Sakarya University, 54100, Sakarya, TÜRKİYE

zahidul.bd24@gmail.com; rasitfikretyilmaz@gmail.com; rfyilmaz@dho.edu.tr; atutar@gmail.com

Keywords*: *(+)-camphene, bromination, Wagner Meerwein Rearrangement, bicyclic compounds.

Ключевые слова: *(+)-камфен, бромирование, перегруппировка Вагнера-Меервейна, бициклические соединения.*

Introduction

Bromination is an important rich term for the functionalization of new derivatives from many organic compounds. (+)-Camphene is used to perform the Wagner-Meerwein rearrangement via the bromination reaction (Smith, 2014) although it is an important medicinal compound identified as a potential anti-microbial, anti-oxidant and lipid-lowering agent (Vallianou et al., 2011).

Result and discussion

Bicyclic compounds are often used to rearrange after bromination at low and high temperatures (Tutar, 1996) although their non-rearrangement products may introduce different medicinal properties because (+)-camphene is biologically active as well as derived from natural sources. Brominated compounds are also biologically active as many of them are used to treat various diseases (Kesner, 1999). However, the bicyclic skeleton of (-)-camphene undergoes Wagner Meerwein rearrangement at both low and high temperatures and the reaction products mainly depend on the reaction conditions, especially the reaction temperature shown in Figure **1**.



Figure 1. Bromination and elimination reactions in bicyclic systems

Synthesis

Our study showed that (+)-camphene (**1**) produces a single rearrangement product (**2**) via the Wagner-Meerwein rearrangement in the presence of molecular bromine in dichloromethane at room temperature. Furthermore, monobromo-camphene (**3**) was obtained by elimination of a bromine atom from the bicyclic structure of dibromo-camphene (**2**) in the presence of potassium *tert*-butoxide in freshly dried THF.

Conclusion

In this study, the bromination reaction of camphene at room temperature was successfully carried out. The obtained dibromo-camphene (**2**) was obatiend via ionic reaction and refluxed in THF in the presence of t-BuOK to obtain monobromo-camphene (**3**).

This study was supported by TUBITAK (Scientific and Technological Research Council of Turkey) with project no 119Z788).

References

[1] Smith,Janice G.2014.OrganicChemistry,4th Ed.;McGraw-Hill:New York,445,886-889.

[2] Vallianou, I., Peroulis, N., Pantazis, P., Hadzopoulou-Cladaras, M. 2011. Camphene, a Plant-Derived Monoterpene, Reduces Plasma Cholesterol and Triglycerides in Hyper-lipidemic Rats Independently of HMG-CoA Reductase Activity. PloS one 6 (11), e20516.

[3] Tutar, A., Taşkesenligil, Y., Çakmak, O., Abbasoğlu, R., Balcı, M. 1996. High Temperature Bromination. Bromination of Norbornadiene. Tetrahedron, 61 (23), 8297-8300.

[4] Kesner, Miri. 1999. Bromine and Bromine Compounds From the Dead Sea, Israel Products in the Service of People. The Weizmann Institute of Science, Israel.

SYNTHESIS OF NEW (-)-CAMPHENE DERIVATIVES WITH SUZUKI COUPLING REACTIONS

Ansam Almotory[a], Büşra Albayrak Mısır[a], Yavuz Derin[a], Ahmet Tutar[a]

Introduction

Camphene is a cannabis terpene carrying a pungent earthy and musky scent with piney undertones. Also naturally found in conifer, nutmeg, ginger and rosemary, camphene is used as a major constituent in various fragrances, oils, and topical creams. camphene is often synthesized from pinene. Camphene and derivatives are in the class of well-known bioactive compounds that are widely used as antibacterial agents[1]



X = Ph, Ph-SCH$_3$, Ph-CH$_2$CH$_3$, Ph-OCH$_3$, Ph-CF$_3$

Figure 1. Bromination and Suzuki coupling reaction.

Result and Discussion

In this study brominated camphene compounds were used as key compounds for the synthesis of new potential biologically active compounds. The was synthesized starting from monobromo (-)-camphene and by binding various from the phenylboronic acid (phenyl, 4-methoxyphenyl, 4- tiyomethylphenyl, 4-ethylphenyl, 4-trifluoromethoxyphenyl) groups (Fig.1). Thus, it is thought that the anti (oxidant, bacterial, skin penetration enhancing) effect of the camphene nucleus will increase with these structures or it will gain new biological activities, ^{13}C NMR and IR spectroscopy methods characterized the final compounds.

Synthesis

The general synthesis procedure was followed in the synthesis of the respective compounds. monobromo (-)-camphene, the corresponding boronic acid compounds, and pd(pph$_3$)$_4$ Then CaCo$_3$ was added and (1:1:1) toluene ethanol, water) as a solvent were mixed at (70-100) temperature with reflux. The organic phase was dried over Na$_2$SO$_4$. The reaction mixture was purified by column chromatography.

Conclusions

The final compounds were characterized using 1H NMR and 13C NMR and infrared spectroscopy methods. Starting with Debromo (-) - Kamvin. The isolated yield of the prepared compounds is (90% - 97%). Until another study is conducted to determine its biological activities.

References

1-A. Altundas, A. Dastan, Mbalci; Tetrahedron. 2000, 56, 6115-6120.

SYNTHESIS, CHARACTERIZATION, ELECTROCHEMICAL AND PHOTOPHYSICAL PROPERTIES OF 4,4-DIFLUORO-8-(SUBSTITUTED)-4-BORA-3A, 4A-DIAZA-*S*-INDACENE (BODIPYs)

Büşra Albayrak Mısır[a], Raşit Fikret Yılmaz[b], Yavuz Derin[a], Ahmet Tutar[a]

Introduction

BODIPY dyes, first synthesized by Treibs and Kreuzer in 1968 and the IUPAC name of 4,4-difluoro-4-bora-3a,4a-diaza-s-indacene, represent a very popular class of fluorophores with very important properties. BODIPY fluorophores inclined to be strong UV absorbing small molecules, emitting relatively sharp fluorescent peaks with high quantum yields. Due to these properties, it has application potential in many fields such as fluorescent switches,

supramolecular polymers, labeling reagents, chemosensors, photodynamic therapy, chromogenic probes, laser dyes and sensitizers for solar cell applications [1-3].

The *meso* position is the most vulnerable to substituent effects. Because upon excitation, a significant change in the electron density occurs in that region. From this perspective, the meso position is arguably the most significant because in most applications designed for BODIPYs, it is the preferred position for adding the substrate to be examined [4].



Figure. Synthesis of *meso* substituted BODIPYs from Pyrrole

Result and Discussion

In this study, we report the synthesis of a new *meso* substitued BODIPY compounds in reasonable yield according to literature (**Figure**). The structure of synthesized *meso* substituted BODIPYs is defined by spectroscopic techniques, including ^{1}H NMR, ^{13}C NMR, FT-IR and Mass. The electrochemical properties of *meso* substituted BODIPYs were investigated by cyclic voltammetry in CH_3CN at a scan rate of 100 mV/s using tetrabutylammoniumhexafluorophosphate as supporting electrolyte. Photophysical properties of *meso* substituted BODIPYs were studied by using absorption and emission spectroscopy in dichloromethane.

Synthesis

The general BODIPY synthesis procedure was followed in the synthesis of the respective compounds. Pyrrole, the corresponding aldehyde, and indium chloride were mixed at room temperature. Then NaOH was added and the organic phase was dried over Na_2SO_4. The resulting dipyromethane was dissolved in CH_2Cl_2 and complexed by adding DDQ, TEA and $BF_3.OEt_2$, respectively. The reaction mixture was purified by column chromatography.

Conclusions

BODIPY compounds were obtained by condensation of pyrrole with 4- bromobenzaldehyde and 4-methoxybenzaldehyde and then complexing with boron trifluoride diethyl etherate ($BF_3.OEt_2$). The isolated yields of the synthesized compounds are 40%. Photophysical and electrochemical properties of the obtained BODIPY fluorophores were investigated. The photophysical properties of the *meso* substituted BODIPY fluorophores did not change much. When the bromophenyl and methoxyphenyl groups in the *meso* position are compared; it was observed that the group containing bromophenyl had higher Stokes shift and lower molar absorption coefficient. Substituents in the *meso* position did not change the band gap of BODIPYs much, while the bromophenyl and methoxyphenyl groups in the *meso* position increased the E_{HOMO} value.

This study was supported by TUBITAK (Scientific and Technological Research Council of Turkey) with project no 114Z176, Sakarya Univ. Scientific Reseach Unit(BAP-2018-2-7-170).

References

1. Goud, T.V., Tutar, A., Biellmann, J.F., *Tetrahedron*, 62, [5084-5091], 2006.
2. Tutar, A., Erenler, R., Biellmann, J.F., *J. Chem. Soc. Pak.*, 35 (4), [1197-1201], 2013.
3. Derin, Y., Yılmaz, R.F., Baydilek, İ.H., Atalay, V.E., Özdemir, A., Tutar, A. Inorganica Chim. Acta, 482, [130-135], 2018.
4. Arbeloa, T., Banuelos J., *J. Org. Chem.*, 80, [5771−5782], 2015.

BUTANOL-2-NİN OPTİKİ İZOMERLƏRİNİN KOLONKALI XROMATOQRAFİK ÜSULLA AYRILMASI

Hüseynova.P.F., Fətəliyeva G.İ., Qurbanova N.E.

Ganja State University
huseyn.peri.1969@mail/ru

Açar sözlər: *2- butanol, kolonkalı xromatoqrafiya, enantiomer, diasteriomer, optiki aktivlik.*

Keywords: *2-butanol, column chromatography, enantiomer, diastereomer, optical activity.*

Ключевые слова: *2-бутанол, колоночная хроматография, энантиомер, диастереомер, оптическая активность.*

Optiki aktiv izomerlərin antipodlara ayrılması analitik kimyada, üzvi kimyada və üzvi sintezdə ən mühüm problemlərdən biridir. Hal-hazırda tətbiq olunan optiki izomerlərin ayrılması üsullarında ciddi çatışmazlıqlar mövcuddur. Bu üsulları tətbiq etdikdə çox hallarda mürəkkəb çətinliklər meydana çıxır [1]. Onları diastereomer hala keçirmək üçün tətbiq olunan reaksiyalar çox vaxt mümkün olmur və ya olduqca cox vaxt aparır. Yaxud da, lazım olan kimyəvi reagenti bu və ya digər səbəbdən tətbiq etmək olmur.

Belə hallarda immobilizə olunmuş kraun efirlərindən geniş istifadə edilir. Belə adsorbentləri almaq üçün, optiki aktiv kraun efir molekuluna asan polimerləşə bilən monomer molekul tikilir [2]. İmmobilizə olunmuş kraun efirdən xromotoqrafik kolonkada adsorbent kimi istifadə etməklə, 2-butanolun optiki izomerləri qarışığı antipodlara ayrılır. Metod 2-butanolun optiki izomerlərinin qarışığının L-α-alaninlə müvafiq diastereomer mürəkkəb efirlərin alınmasına əsaslanır. Diastereomerlərin alınması reaksiyası aşağıdakı sxem üzrə gedir.



Fərdi izomerləri almaq məqsədi ilə diastereomer fraksiyalar ayrı–ayriliqda silikagelin səthinə oturdulmuş immobilizə olunmuş oliqomer kraun efirlə doldurulmuş şüşə kolonkalı xromatoqrafiyaya uğradılır. Xromatoqrafik yolla fraksiyasından ayrılmış fərdi diastereomer 79– 81° C/10 mm–də qaynayır. Birləşməni NaOH mühitində hidroliz etdikdə 2-butanolun S-optiki izomeri alınır. S-2-butanolun maksimal fırlanma bucağı $[\alpha]^{20}_{maks} = -59°$-dir.

Xromatoqrafik kolonkadan ikinci çıxan fərd diastereomer NaOH mühitində hidroliz etdikdə R-2-butanol alınır. Alınmış optiki aktiv spirtin fırlanma bucağı $[\alpha]^{20}_{maks} = +47°$-dir.

Fərdi diastereomerləri kolonkadan sıxışdırıb çıxarmaq üçün elyüent kimi etanol götürülmüşdür.

Müəyyən edilmişdir ki, bu izomerlər xromatoqrafik kolonkada immobilizə olunmuş kraun efirlə müvafiq olaraq, və quruluşlu komplekslər əmələ gətirirlər.



S,R-diasteriomer



S,S- diasteriomer

Çox maraqlıdır ki, S,S-diastereomeri elyüentlə daha asanlıqla yuyularaq kolonkadan tez çıxır. S,R-diastereomereyni elyüentlə kolonkada həmin həcmi sürətlə yuyulmasına baxmayaraq, kolonkadan S,S-diastereomer nisbətən daha gec çıxır [3]. Təbii ki, S,S-diastereomer özünün stereoquruluşu ilə əlaqədar olaraq xiral adsorbent rolunu oynayan immobilizə olunmuş kraun efirin makrotsiklik halqasının oksigenlərinin yalnız biri ilə hidrogen rabitəsi vasitəsi ilə bağlanaraq kompleks yarada bilir. S,R –diastereomerin isə stereoquruluşu kraun efirin stereoquruluşuna uyğun gəldiyi üçün, immobilizə olunmuş kraun efirin makrotsiklik halqasının oksigenləri ilə iki hidrogen rabitəsi vasitəsilə bağlanaraq davamlı kompleks əmələ gətirir. Ona görə də alınan komplekslərin davamlılıqları müxtəlif olur. Nəticə olaraq, elyuentlə yuyulma zamanı davamlılığı zəif olan kompleks asanlıqla parçalanır və S,S-diastereomer xromatoqrafik kolonkadan birinci olaraq çıxır. Nisbətən davamlı olan kompleksin parçalanması üçün adsorbentin elyuent vasitəsi ilə yuyulması bir qədər davam etməlidir. Bəzən davamlı kompeksi parçalamaq üçün elyuentin polyarlığını artırmaq lazım gəlir. Kompleksin parçalanması nəticəsində ayrılan S,R–diastereomer xromatoqrafik kolonkadan ikinci olaraq çıxır.

2-butanolun hər iki optiki sintezdə böyük maraq doğururlar. Bu optiki aktiv maddələrin hər ikisi optiki aktiv efirlərin alınmasında, müxtəlif dərman preparatlarının hazırlanmasında və s.tətbiq olunurlar. Bu optiki aktiv maddələrin asetilenlə kondensləşməsindən alınan vinil efiri optiki polimer almağa imkan verir.

Ədəbiyyat

1. Стид Дж.В., Этвуд Дж.Л. Супрамолекулярная химия: в 2-х т. Т. 2, М.: Академкнига, 2017, с.135
2. Золотов Ю. А. Применение краун ефиров в аналитической химии. М.: Академия, 2007, 325 с
3. Гусейнова П.Ф., Шабанов А.Л., Гасанова У.А. и. др. Хроматографический способ выделения енантиомера хиральной структуры из рацемической смеси // Азер. Хим. Журнал, 2012, №1, с.28-32

BUTANOL-2-NİN OPTİKİ İZOMERLƏRİNİN KOLONKALI XROMATOQRAFİK ÜSULLA AYRILMASI

Hüseynova.P.F., Fətəliyeva G.İ., Qurbanova N.E.

Xülasə

2-butanolun optiki izomerlərinin ayrılması kolonkalı xromatoqrafiya metodu işlənmişdir. Birləşmənin enantimerləri qarışığını diastereomer rasematına çevirmək üçün L(S)-alanindən istifadə olunmuşdur. Xromatoqrafik kolonkada adsorbent olaraq silikagelə

hopdurulmuş immobilizə olunmuş kraun efirdən istifadə olunmuşdur. Xromatoqrafik ayrılma xiral kraun efirin diastereomerlərlə müxtəlif davamlıqlı kompleksler yaratmasına əsaslınır.

SEPARATION OF OPTICAL ISOMERS OF 2-BUTANOL BY COLUMN CHROATOGRAPHIC METHOD

Huseynova.P.F., Fataliyeva G.I., Gurbanova N.E

Summary

A column chromatography method was developed for the separation of optical isomers of 2-butanol. L(S)-alanine was used to convert the mixture of enantiomers of the compound into the diastereomeric racemate. Immobilized crown ether impregnated with silica gel was used as an adsorbent in a chromatographic column. Chromatographic separation is based on the formation of complexes of different stability of the chiral crown ether with diastereomers.

РАЗДЕЛЕНИЕ ОПТИЧЕСКИХ ИЗОМЕРОВ 2-БУТАНОЛА КОЛОННО-ХРОАТОГРАФИЧЕСКИМ МЕТОДОМ

Гусейнова П.Ф., Фэталиева Г.И., Гурбанова Н.Э.

Резюме

Разработан метод колоночной хроматографии для разделения оптических изомеров 2-бутанола. L(S)-аланин использовали для превращения смеси энантиомеров соединения в диастереомерный рацемат. В качестве адсорбента в хроматографической колонке использовали иммобилизованный краун-эфир, пропитанный силикагелем. Хроматографическое разделение основано на образовании комплексов различной устойчивости хирального краун-эфира с диастереомерами.

KOLONKALI XROMATOQRAFİYA - OPTİKİ İZOMERLƏRİN AYRILMASININ ƏN SƏMƏRƏLİ METODU KİMİ

Hüseynova.P.F, Fətəliyeva.G.İ., Qurbanova N.E.

Ganja State University
huseyn.peri.1969@mail.ru

Açar sözlər: *kolonkalı xroatoqrafiya, optiki izomer, diasteriomer, enantiomer, xiral, optiki seçici adsorvbent.*

Keywords: *column chromatography, optical isomer, diastereomer, enantiomer, chiral, optically selective adsorbent.*

Ключевые слова: *колоночная хроматография, оптический изомер, диастереомер, энантиомер, хиральный, оптически селективный адсорбент.*

Hal-hazırda kimya elminin və onunla əlaqədar olan istehsal sahələrinin kifayət qədər inkişaf etməsinə baxmayaraq, hələ də bir çox dərman maddələri, qida əlavələri və pestisidlər istehsalında kimyəvi birləşmələr optiki izomerlərin rasematlar şəklində istifadə olunur. Məlumdur ki, optiki izomerlərdən yalnız biri təsir obyektində konkret funksiyanı yerinə yetirir. İkinci enantiomerin təsiri mexanizmi və nəticəsi haqqında təəssüf ki, öncədən fikir yürütmək mümkün deyil. Ən yaxşı halda ikinci enentiomer təsirsiz olur. Lakin, bir çox hallarda ikinci enantiomerin fəaliyyəti acınacaqlı sonluqla nəticələnə bilir. “Talidomid qəzası” bu əsasda baş vermiş hadisəyə misaldır.

Uzun müddət mümkün qədər təsirli formanın istifadəsi problemi ortaya çıxdı və bu, stereoelektrik sintez metodlarının (ümumiyyətlə katalizatorlarla), rasemik qarışıqların

ayrılması metodlarının və fərdi enantiomerlərin təyini metodlarının inkişafına səbəb oldu. Nəticədə, müvəffəqiyyətlər çox böyükdür, ABŞ-da 2001-ci ildə dərmanların 36% -i monoenantiomerik idi [1].

Lakin problemin aktuallığının böyüklüyünü nəzərə alsaq, bu statistika belə hələ bu sahədə tədqiqatlar aparmağı gərəkliyi nəticəsini verir.

Optik izomerlər bir-birlərindən mühüm fiziki xassəyə əsasən fərqlənirlər - üzərlərinə düşən polyarizə olunmuş işıq müstəvisini əks istiqamətlərdə fırladırlar. Optik izomerlərdən biri polyarizə olunmuş işıq müstəvisini sağa, digəri sola ffırladır. Göstərilən optik xüsusiyyət xaricində bu cür izomerlər digər fiziki və kimyəvi xassələrinə görə bir-birlərinə çox oxşayırlar.

Optiki izometrləri ayrılmasının klassik metodlarının tətbiqi bu gun səmərəli hesab olunmur. Məsələn, kristallaşm üsuldan o zaman istifadə etmək mümkündür ki, optiki aktiv maddələr kristal şəklində ayrıla bilsin Belə ki, bu kristallar obyekt və onun güzgü əksi kimi görünür.

Mikroorqanizmlər vasitəsi ilə, diasteriomerlərin kristallaşması, polarimetriya kimi enantiomerlərin digər klassik ayrılma metodları uzun müddət tələb etdiyindən, yalnız bir enantiomer alınması ilə nəticələndiyindən, yaxud da metodun tətbiqi üçün enantiomer istifadə edildiyindən, praktiki tətbiqi səmərəli hesab olunmur.

Hal hazırda tətbiq olunan və əsasən iki fiziki-kimyəvi metodun birgə tətbiqi nəticəsində mümkün olan optiki izometlərin ayrılma metodları yüksək həssaslığa malik olsalar da, çox maya dəyəri yüksək olan enatiometin əldə edilməsi ilə nəticələndiyindən, tətbiqi iqtisadi cəhətdən səmərəli hesab olunmur.

Qarışıqların ayrılması (və enantiomerlərin müəyyənləşdirilməsi) və ya ümumiyyətlə deyildiyi kimi, xiral ayırmalar üçün əsas metod xromatoqrafiya, xüsusən maye xromatoqrafiyadır. Kolonkalı xromatoqrafik metod Nobel mükafatı laureatı D.Kram tərəfindən işlənmişdir [2]. Metodun mahiyyəti ondan ibarətdir ki, enantiomerlərin rasemik qarışığına L(S)-alanin tikilir. Alınmış diasteriomer qarışıq (R,S- və S,S) içərisində optiki seçici adsorbent olan olan xromatoqrafik kolonkadan keçirilir. Adsorbentin xiral quruluşu diasteriomerlərdən yalnız birinin xiral quruluçuna uyğun gəldiyindən, həmin diasteriomer adsorbent tərəfindən tutulur. Nəticədə, elyuentlə yuma zamanı ikinci adsorbent asanlıqla fərdi şəkildə xromatoqrafik kolonkadan çıxır. İkinci diasteriomer isə, yalnız elyuentin polyarlığını artıraraq yuma nəticəsində əldə edilir. Alınmış fərdi diasteriomerlər əsasi mühitdə hidroliz edilərək enantiomerlərə çevrilir [3]:

S-, R- izomerlər rasematı + L(S)-alanin → S,S-, S,R- diasteriomer qarışıq

$$\text{S,S-, S,R- dias. qarışıq} \xrightarrow{kol.\ xrom.} \text{S,S-diasteriomer} + \text{S,R- diasteriomer}$$

$$\text{S,S-diasteriomer} + H_2O \rightarrow \text{S-enantiomer} + \text{L(S)-alanin}$$

$$\text{S,R -diasteriomer} + H_2O \rightarrow \text{R-enantiomer} + \text{L(S)-alanin}$$

Kolonkalı xromotoqraiya üsulu ilə və diastereomerlərin ayrılma mexanizmi ondan ibarətdir ki, bu izomerlər optiki seçici adsorbentlə “qonaq-sahib” prinsipi üzrə dipol–dipol qarşılıqlı təsir nəticəsində kompleks əmələ gətirirlər. Bu prinsipə əsasən, diastereomerlər xiral adsorbent müxtəlif qüvvə ilə tutulub saxlanılır. Buna görə də, qeyd olunan diastereomerlər xromatoqrafik kolonkadan müxtəlif vaxtlarda çıxırlar.

Qeyd olunan metodla rərəfimizdən butanol-2-nin optiki izometlərinin ayrılması həyata keçirilmişdir. Göründüyü kimi, qeyd olunan metod kifayət qədər sadə olmaqla yanaşı, düzgün adsorbent seçildiyi təqdirdə yüksək həssaslığa da malikdir, metodun tətbiqi zamanı ciddi çətinliklər meydana çıxmır. Bu nöqteyi-nəzərdən kolinkalı xroatoqrafik metod optiki izomerlərin ayrılmasının ən səmərəli metodu hesab olunur.

Ədəbiyyat

1. Ch. Schaller. Structure & Reactivity in Organic, Biological and Inorganic Chemistry College of Saint Benedict/Saint John's University. 2022 pp.22-24
2. Cram D., Tokkai Sho. The Design of Molecular Hosts, Guests and Their Complexes // Royal Society of Chemistry, 1997, 100, p.51-125
3. Асадов М.М., Шабанов А.Л., Гусейнова П.Ф., Гасанова М.М., Хроматографический способ выделения хиральной структуры из рацемической смеси по принципу «гость-хозяин» Энцикопедия Инженера-Химика. 2017. №2, с.2-4.

KOLONKALI XROMATOQRAFİYA - OPTİKİ İZOMERLƏRİN AYRILMASININ ƏN SƏMƏRƏLİ METODU KİMİ

Hüseynova P.F, Fətəliyeva G.İ., Qurbanova N.E.

Xülasə

Optiki aktiv birlərmələrin rasemik qarışığının enantiomerlərə ayrılmasının klassik metodları araşdırılmışdır. Metodların üçtün və çatışmazlıqları qeyd olunmuşdur. Optiki izomerlərin ayrılması üçün tətbiq olunan müasir metodların yüksək seçiciliyinə baxmayaraq, praktiki tətbiqinin iqsisadi səmərəsizliyi izah edilmişdir. Kolonkalı xromatoqrafiya metodunun mahiyyəti açıqlanmış, metodun ümumi sxemi verilmiş və praktiki səmərəliliyi qeyd olunmuşdur.

COLUMN CHROMATOGRAPHY AS THE MOST EFFICIENT METHOD OF SEPARATION OF OPTICAL ISOMERS

Huseynova P.F., Fataliyeva G.I., Gurbanova N.E.

Summary

Classical methods of separation of racemic mixture of optically active compounds into enantiomers were investigated. The advantages and disadvantages of the methods are mentioned. Despite the high selectivity of modern methods for the separation of optical isomers, the economic inefficiency of their practical application is explained. The essence of the column chromatography method is explained, the general scheme of the method is given and its practical efficiency is noted.

КОЛОНОЧНАЯ ХРОМАТОГРАФИЯ КАК НАИБОЛЕЕ ЭФФЕКТИВНЫЙ МЕТОД РАЗДЕЛЕНИЯ ОПТИЧЕСКИХ ИЗОМЕРОВ

П.Ф.Хусейнова, Гурбанова Н.Э, Фэталиева Г.И.

Резюме

Исследованы классические методы разделения рацемической смеси оптически активных соединений на энантиомеры. Указаны преимущества и недостатки методов. Несмотря на высокую селективность современных методов разделения оптических изомеров, объясняется экономическая неэффективность их практического применения. Объяснется сущность метода колоночной хроматографии, приводится общая схема метода и отмечается его практическая эффективность.

FUNKSİONALƏVƏZLƏNMİŞ PİRROLLARIN SİNTEZİNDƏ 3-BROMPROPENİLKETONLARIN HETEROHƏLQƏLƏŞMƏ PROSESİNİN TƏDQİQİ

Məmmədova A.A., Kərimova S.G.

Sumqayıt Dövlət Universiteti
aynur_mamedova_74@mail.ru

Açar sözlər: *asilləşmə, bromanhidridlər, funksionaləvəzlənmiş, 1-(2-hidroksietil) pirrollar, heterohəlqələşmə, nukleofil reagentlər.*

Pirrol və onun yeni funksionaləvəzlənmiş törəmələrinin sintez metodlarının işlənib hazırlanması, onların məqsədyönlü çevrilmələrinin öyrənilməsi, eləcə də sintez olunan birləşmələrin praktiki faydalı xassələrinin axtarılması istiqamətində görülən işlər elmi və praktiki cəhətdən böyük maraq doğurur və bugün də aktualdır.

Patent və ədəbiyyat araşdırmalarının təhlili göstərir ki, funksional əvəzlənmiş pirrolların sintezinin bir neçə ənənəvi metodu məlumdur. Lakin mövcud metodlardan birinin özünəməxsus bir sıra çatışmayan cəhətləri vardır, bəzi metodlar çox mərhələlidir, istifadə olunan ilkin reagentlərin əksəriyyəti toksiki maddələrdir, sintez reaksiyalarının aparılması mürəkkəbdir, alınan yeni birləşmələrin çıxımı azdır, istifadə olunan reagentlərin bəziləri isə bahadır və ya çətinliklə əldə olunur və s. [1].

Təqdim olunan işin məqsədi sadalanan çatışmazlıqların aradan qaldırılmasından, mümkün qədər toksiki olmayan maddələrdən istifadə olunmasından, prosesin ekoloji problemlərinin həll olunmasından və yeni funksional əvəzlənmiş pirrolların alınmasının birmərhələli yerinə yetirilməsindən ibarətdir.

1-(2-hidroksietil)-2-alkilpirrolların 3-xlorpropenilalkilketonlarla 2-hidroksietilaminlə heterohəlqələşmə yolu ilə alınması üsulu məlumdur. Bu reaksiya efir mühitində trietilaminin ekvimolyar miqdarında yerinə yetirilir [2].

Araşdırmalar göstərir ki, allilbromidin karbon turşularının bromanhidridləri ilə asilləşməsi reaksiyasının $AlBr_3$ iştirakında aparılması öyrənilməmişdir [3]. Odur ki, tərəfimizdən 3-brompropenilketonların selektiv alınma üsulu həyata keçirilmişdir.



R = CH_3 , C_2H_5, C_3H_7, C_4H_9, C_5H_{11}

3-brompropenilketonların molekulunda CO, C=C, Br kimi üç qarşılıqlı təsirə malik funksional qrupların olması atsiklik və heterotsiklik birləşmələrin alınmasına geniş imkanlar yaradır. Belə ki, pirrolun alınması zamanı 3-brompropenilketonların hər üç funksional qrupları iştirak edəcəkdir. 1-(2-hidroksietil)pirrolların 2-hidroksietilaminlə səmərəli üsulunun həyata keçirilməsi tədqiq olunmuşdur.



R = CH_3, C_2H_5, C_3H_7, C_4H_9, C_5H_{11}

Reaksiya 40-45 ℃ temperaturda su mühitində, 5 saat müddətində gedir, məhsulun çıxımı 66-82% təşkil edir. Reaksiyada yanıcı və zəhərli olan efirin su ilə, bahalı və çətin tapılan trietilamini - Na_2CO_3-lə əvəz etməklə 1-(2-hidroksietil)-2-alkilpirrolların sintezi aparılmışdır.

Söylədiyimiz kimi, 3-brompropenilketonların tərkibindəki funksional qruplar birli aminlərlə qarşılıqlı təsir zamanı çox güman ki, müxtəlif istiqamətlərdən nukleofil həmlələrinə məruz qalır və ehtimal olunur ki, aminin təsiri ilə brom atomunun amin qrupu ilə nukleofil əvəzlənməsi baş verir ki, nəticədə doymamış aminketon əmələ gəlir. Əmələ gələn aminketon karbonil qrupunun karbon atomundakı azot atomunun p-cüt elektronlarının molekuldaxili

həmləsi sayəsində və azot atomundakı mütəhərrik hidrogenli karbonil qrupunda π-rabitəsinin qırılması yolu ilə ikiqat rabitənin eyni vaxtda yerdəyişməsi və suyun alınması ilə pirrola aşağıdakı sxem üzrə həlqələşir:



Həlqələşmə mexanizminin bu gedişində pirrolun alternativ əmələ gəlməsini amin qrupunun karbonil qrupuna həmləsi kimi də nəzərə almaq mümkündür.

Məlumdur ki, bu funksional qruplar nukleofil reagentlərin təbiətindən asılı olaraq reaksiyaya həm ayrı-ayrılıqda, həm də cüt şəkildə və yaxud da eyni vaxtda daxil ola bilər.

Ədəbiyyat

1. Ибрагимов И.И., Мамедов Э.И., Исмаилов А.Т. и др. Химия систем аллильного типа. II. Ацилирование 3-бром- и 2-метил-3-хлорпропенов // ЖОрХ, 1990, т. 26, вып. 8, с. 1648-1654.

2. Мамедов Э.И. Гетероциклизация продуктов электрофильного присоединения ацилхлоридов к аллилгалогенидам: Автореф. дис. … докт. хим. наук. Баку, 1992, 43 с.

3. Гахраманов Р.Ф., Мамедова А.А., Гаджилы Р.А. Использование 1-(2-оксиэтил)-2-алкилпирролов в качестве синтона для получения их функциональнозамещенных производных //Научные известия СГУ, раздел естественных и технических наук, 2007, т. 7, № 1, с. 47-50.

FUNKSİONALƏVƏZLƏNMIŞ PIRROLLARIN SİNTEZİNDƏ 3-BROMPROPENILKETONLARIN HETEROHƏLQƏLƏŞMƏ PROSESİNİN TƏDQİQİ

Məmmədova A.A., Kərimova S.G.

Xülasə

Təklif olunan iş 3-brompropenilketonların $AlBr_3$ iştirakında allilbromidin karbon turşularının bromanhidridləri ilə asilləşməsinə və 3-brompropenilketonların 2-hidroksietilaminlə heterohəlqələşməsi mexanizminin tədqiqinə həsr olunmuşdur. Müəyyən edilmişdir ki, 3-brompropenilketonların molekulundakı üç elektrofil mərkəzlər (C=O, CH=CH, CH_2-Br) həlqələşmə prosesində həm ayrı-ayrılıqda, həm cüt halda həm də eyni vaxtda iştirak edə bilər.

ИССЛЕДОВАНИЕ ПРОЦЕССА ГЕТЕРОГАЛИЗАЦИИ 3-БРОМПРОПЕНИЛКЕТОНОВ В СИНТЕЗЕ ФУНКЦИОНАЛЬНО ЗАМЕЩЕННЫХ ПИРРОЛОВ

Мамедова А.А., Каримова С.Г.

Резюме

Предложенная работа посвяшена ацилированию бромистого аллила с бромангидридами карбоновых кислот в присутствии $AlBr_3$ и исследованию механизма гетероциклизациию 3-бромпропенилкетонов с 2-гидроксиэтиламином. Установлено что, имеющие в молекуле 3-бромпропенилкетонов три элелтрофильные центра (C=O, CH=CH, CH_2-Br) могут участвовать в процессе гетероциклизации как по отдельности, так и попарно или одновременно.

INVESTIGATION OF THE PROCESS OF HETEROGALIZATION OF 3-BROMOPROPENYL KETONES IN THE SYNTHESIS OF FUNCTIONALLY SUBSTITUTED PYRROLES

Mammadova A.A., Karimova S.G.

Summary

The proposed work is devoted to the acylation of allyl bromide with carboxylic acid bromides in the presence of $AlBr_3$ and to the study of the mechanism of heterocyclization of 3-bromopropenyl ketones with 2-hydroxyethylamine. It has been established that having three electrophilic centers (C=O, CH=CH, CH_2-Br) in the molecule of 3-bromopropenyl ketones can participate in the process of heterocyclization both individually and in pairs or simultaneously

MONOBROM P-KSİLOLUN ELEKTROKİMYƏVİ SİSTEMDƏ ALINMASI

Hətəmov M.M., Nəzərova M.K, Şahgəldiyev F.X., Adilova L.İ.

Sumqayıt Dövlət Universiteti
adilovalaman@mail.ru

Açar sözlər: *elektrokimyəvi sistem, natrium bromid, elektroliz, natriumhipobromit, bromatlar, bromlaşma, aromatik nüvə, monobrom p-ksilol.*

Ключевые слова: *электрохимический систем, бромид натрия, электролиз, гипобромитнатрия, монобром п-ксилол, бромaты, бромирование, ароматическое ядро.*

Key words: *electrochemical systems, sodium bromide, electrolysis, sodium hypobromite, p-xylene monobromine, bromates, bromination, aromatic nucleus.*

Monobromksilollar əczaçılıq preparatlarının, boyaların, monomerlərin sintezində yarımməhsul kimi istifadə edilir. Klassik variantda arenlərin bromlaşması sistemdə Lyuis turşularından istifadə etməklə həyata keçirilir. Belə ki, monobromksilolların ksiloldan birbaşa yod yaxud dəmir katalizatorlarının iştirakı ilə alınması məlumdur və bu reaksiyada məqsədli məhsulun çıxımı 89-93% təşkil edir. Həmçinin katalizator olaraq alüminium xlorid və sink–oksidi qarışığından istifadə edilməsi təklif olunmuşdur, bu zaman çıxım 91-96%-ə çatır [1]. Ancaq hər iki halda bromun yarısı yan məhsul kimi hidrogen bromidə çevrilir ki, onu da sistemdən çıxarmaq üçün əlavə texnoloji qovşağın olması vacibdir. Monobrom-ksilolların alınması üçün bromlaşma agenti kimi 30% hidrogen bromid turşusu və 28% hidrogen peroksid qarışığından istifadə olunması da təklif olunur [2]. Bu üsulun çatışmayan cəhəti əmələ gələn artıq miqdarda hidrogen bromid turşusudur ki, bunun da yarısı məqsədli məhsulun alınmasında iştirak etmir.

Monobromksilolların brom-hidrogen peroksid sistemindən istifadə etməklə alınması üsulu da məlumdur [3]. Bu metodun çatışmayan cəhəti isə brom yaxud hidrogen peroksidin iki dəfədən artıq istifadə olunmalarıdır ki, bunun nəticəsində də reagentlərdən biri məqsədli məhsulun alınmasında iştirak etmir.

Bromlaşdırıcı agent kimi bromat və natrium bisulfat qarışığından istifadə edilməsi üsulu da məlumdur, reaksiya otaq temperaturunda, asetonitrilin sulu məhlulunda, ksilol, $NaBrO_3$ və $NaHSO_3$-ın uyğun olaraq 1:3:3 mol nisbətlərində həyata keçirilir. Məqsədli monobromksilolların çıxımı 51-62% təşkil edir [4]. Məlum üsulun çatışmayan cəhəti bromlaşdırıcı qarışığın üçqat artığının istifadə olunmasının vacibliyi, bundan başqa isə,

nüvədə əvəz olunma ilə yanaşı yan zəncirdə də bromlaşmanın baş verməsidir, bu isə məqsədli məhsulun çıxımının azalmasına səbəb olur.

Alkilbrombenzolun alınması üsulu məlumdur, proses uyğun aromatik karbohidrogenin natriumhipoxlorit iştirakında NaBr və yaxud KBr-lə uyğun olaraq 1:1,3 mol nisbətlərində emal olunmasıyla aparılır. Bu üsulun çatışmayan cəhəti, yüksək oksidləşdiriciliyə malik natriumhipoxloritdən istifadə olunmasıdır ki, bu da prosesdə alınan məhüsulla yanaşı digər qarışıqların alınmasına gətirir və məhsulun ayrılmasına çətinlik törədir [5].

Monobromksilolların sistemdə 40% hidrogen bromid turşusu, 11% natriumhipoxlorit istifadə etməklə alınması əlverişli üsullardan sayılır. Reaksiya 20-40℃-də HBr və NaOCl–in 1,0:(1,0÷2,0):1,0 mol nisbətlərində aparılır, reagentlərin ekvimolyar miqdarlarından istifadə etdikdə isə ilkin götürülmüş kisilolun əksər hissəsi (33%-ə qədər) reaksiyaya daxil olmur odur ki, məqsədli məhsulun yüksək çıxımla alınmasına nail olmaq üçün hidrogen bromid turşusunun 20%-dən az olmayan mol miqdarı tələb olunur [6].

Sintezdə istifadə olunan qələvi metalın bromatı reaksiya qarışığının neytral xarakterini təmin edir və bromun tamamilə sərf olunmasına gətirir. Sintez üçün götürülən broma nisbətən qələvi metalın bromatının artıq miqdarının götürülməsi heç də prosesə əhəmiyyətli dərəcədə təsir etmr. Qələvi metalın təbiəti də həmçinin bromlaşma prosesinə təsir etmir, oksidləşdirici kimi isə komersiya baxımından asan əldə olunan natrium yaxud kaliumun bromatlarından və onların sulu məhlullarından (yaxud suspensiyası) istifadə etmək olar, onlar isə məlum elektrokimyəvi usulla uyğun bromidlərdən alınır. Prosesdə alınan sulu təbəqə qələvi metalın bromidinin az miqdarının uyğun bromatla qarışığından ibarətdir və o isə standart elektrokimyəvi avadanlıqlardan istifadə etməklə, təkrar istifadə üçün yararlı olan qələvi metalın ilkin bromatlarının alınmasında asanlıqla emal olunur, nəticədə isə tullantının miqdarı məhdudlaşır.

Maye bromun əvəzinə hidrogen-bromid turşusu da istifadə etmək olar, bu zaman qələvi metalın bromatı ilə qarışma anında elementar brom alınır ki, o da ksilolla qarşılıqlı təsirdə olur, nəticəsdə aşağıdakı tənliyə uyğun bromlaşma baş verir:

$$3C_6H_4(CH)_3 + 3HBr + MBrO_3 \rightarrow 3BrC_6H_3(CH_3)_2 + MBr + 3H_2O$$

burada M=Na.

İstifadə olunan hidrogenbromid turşusunun qatılığı ksilolun bromlaşması prosesinə praktiki olaraq təsir etmir. Lakin durulaşdırılmış məhlullardan istifadə olunması böyük ölçüdə avadanlığın istifadə olunmasını tələb edir. Ona görə də qatılaşdırılmış hidrogen bromid turşusundan (44÷46%-li) istifadə olunması məqsədəuyğundur. Bununla əlaqədar olaraq hidrogen-bromid turşusu və qələvi metalın bromatı arasındakı reaksiya praktiki olaraq bir an içində brom əmələ gəlməsi ilə nəticələnir.

Təqdim olunan işin məqsədi monobrom p-ksilolun alınmasında istifadə olunan bromlaşdırıcı agentin elektrokimyəvi sistemin özündə almaq, həmçinin də məhsulun çıxımını yüksəltmək və ənənvi metodlardan fərqli olaraq bəzi ekoloji problemlərin həll edilməsinə nail olunmasından ibarətdir. Bu məqsədlə NaBr yaxud KBr –dan istifadə edilir.

$$2NaBr + 2H_2O \rightarrow H_2 + Br_2 + 2NaOH$$

$$Br_2 + 2\ NaOH \rightarrow NaBr + NaOBr + 2H_2O$$

Nəticədə əmələ gələn Br_2 və NaOBr bromlaşma agenti kimi istifadə olunur, sistemdə alına biləcək HBr-in elektrolizindən alınan brom bromlaşmaya sərf olunur.

Proses polad katod və ORTA (titan üzərinə çəkilmiş rutenium-oksid) anodla təchiz olunmuş silindrik diafraqmasız elektroliz qurğusunda aparılır 1,5 saat müddətində davam etdirilir, alınmış üzvi təbəqə ayrılır və 10%-li natrium hidroksid məhlulu ilə yuyulduqdan sonra atmosfer təzyiqində qovulur. Nəticədə 18,5q 3-brom-1,4-dimetil-benzol alınır, məsulun çıxımı maddəyə görə 87,2%, cərəyana görə isə 79,6% təşkil edir.

Ədəbiyyat

1. Ac. CCP 544647, C07C 25/04.опул.30.01.1977 г.

2. Ac. CCP 1097592. C07C. 25/125, 17/12. опул.15.06.1984 г.
3. Ac. CCP 636217, C07C 25/04, 17/12. опул.05.12.1978 г.
4. Ac. CCP 8916179. C07C. 25/04, 17/12. опул.23.12.1981 г
5. Патент SU 1468896A1 Способ получения бромбензола или алкилбромбензола. Садыгов О.А., Чалабиев Ч.А., Салахов М.С. и др. 1989.03.30.
6. Kikuchi D., Sakaguchi S., İshii Y.J.Org.Chem.1988. v63.p.6023-6026

MONOBROM P-KSİLOLUN ELEKTROKİMYƏVİ SİSTEMDƏ ALINMASI

Hətəmov M.M., Nəzərova M.K, Şahgəldiyev F.X., Adilova L.İ.

Xülasə

Təqdim olunan məqalə elektrokimyəvi sistemdə monobrom p-ksilolun alınmasına həsr edilmişdir. Alınan nəticələrin təhlili göstərir ki, istifadə olunan NaBr elektroliz prosesində alınan Br_2 və NaOBr bromlaşma agenti kimi istifadə olunur, nəticədə aromatik nüvənin bromlaşdırılması baş verir. Reaksiya 40^0C temperaturda, 5A cərəyan verməklə 1.5 saat müddətində yerinə yetirilir. Prosesin sonunda qaynama temperaturu 190-200^0C olan fraksiya ayrılır, məhsulun çıxımı alınan maddəyə görə 87,2%, cərayana görə isə 79,6% təşkil edir.

ПОЛУЧЕНИЕ МОНОБРОМ П-КСИЛОЛА В ЭЛЕКТРОХИМИЧЕСКОЙ СИСТЕМЕ

Гатамов М.М., Назарова М.К., Шахгелдиев Ф.Х., Адилова Л.И.

Резюме

Представленная статья посвящена получению монобром-п-ксилола в электрохимической системе. Анализ полученных результатов показывает, что полученные Br_2 и NaOBr(KOBr) из процесса электролиза NaBr(KBr) используются в качестве агентов бромирования, что и приводит к бромированию ароматического ядра. Реакцию проводят при температуре 40^0C, с подачей в силы тока 5A в течение 1,5 часа. По завершении процессе выделяется фракция кипещей при 190-200^0C, выход продукта по веществу составляет 87,2%, а по току 79,6%.

PREPARATION OF MONOBROMO P-XYLENE IN AN ELECTROCHEMICAL SYSTEM

Gatamov M.M., Nazarova M.K., Shakhgeldiev F.Kh., Adilova L.I.

Summary

The presented article is devoted to the production of monobrom-p-xylene in an electrochemical system. Analysis of the obtained results shows that the obtained Br_2 and NaOBr(KOBr) from the NaBr(KBr) electrolysis process are used as bromination agents, which leads to bromination of the aromatic core. The reaction is carried out at a temperature of 40^0C, with a current supply of 5A for 1.5 hours. At the end of the process, boiling fractions are released at 190-200^0C, the product yield by substance is 87.2%, and by current 79.6%.

METALLOPROTEİNAZALARIN NEOPLASTİK PROSESLƏRİN PATOGENEZİNDƏ BİOKİMYƏVİ ROLU

Qəmbərova S.Ç., Gambarova S.C.

Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının dissertantı
Department of Biological Chemistry of Azerbaijan Medical University
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

Lecturer of Azerbaijan State Pedagogical University

Açar sözlər: *proteoliz, metalloproteinazalar, metastaz, süd vəzi xərçəngi, yumurtalıqların xərçəngi*

Key words: *proteolysis, metalloproteinases, metastasis, breast cancer, ovarian cancer*

Ключевые слова: *протеолиз, металлопротеиназы, метастазирование, рак молочной железы, рак яичников.*

Onkoloji xəstəliklər dünyada, o cümlədən Respublikamızda vacib tibbi-sosial problemlərdən biridir. Son illər əhali arasında, o cümlədən əmək qabiliyyəti olan insanlar arasında onkoloji xəstəliklər sürətlə artır və bu xəstəliklər erkən əlilliyə və ölüm faizinin yüksəlməsinə səbəb olur. Qadınlar arasında bədxassəli törəmələr strukturunda süd vəzi xərçəngi (SVX) və yumurtalıqların xərçəngi yüksək faiz təşkil edir. SVX qadınlar arasında bədxassəli şişlərlə xəstələnmənin strukturunda 1-ci yeri tutur və faktiki olaraq hər 18 qadındanbirindəbu xəstəlikaşkarlanır [1, 2]. Belə ki, 2020-ci ildə 2,26 milyona yaxın insana SVX diaqnozu qoyulmuşdur. SVX-dən ölüm halları bütün xərçəng xəstəliklərindən ölüm nisbətində 6,9% təşkil edir [3]. 2018-ci ildə 300000 qadında yumurtalıq xərçəngi qeydə alınmışdır. Yumurtalıqların xərçəngi ginekoloji şişlərin içərisində ən yüksək letallıq faizinə malik olub, 5 illik yaşama göstəricisi 48,8% təşkil edir vəqadın cinsiyyət orqanlarının xərçəngi xəstəliklərindən ölüm hallarının 47%-ni əhatə edir [4].Həm SVX, həm də yumurtalıqların xərçəngi zamanı aşağı yaşama göstəricilərinə səbəb çox ehtimal ki, metastazvermənin ilk mərhələlərində dəqiq klinik simptomların olmaması, erkən diaqnostikanın və müalicənin vaxtında aparılmamasıdır [4]. Şişin proqressivləşməsi və metastazverməsi zamanı aparılan sitotoksik terapiya və şüa terapiyası kimi ənənəvi müalicə üsulları müsbət nəticələr vermir, bu baxımdan metastazvermənin molekulyar-biokimyəvi mexanzimlərinin öyrənilməsi aktual olub, xərçəngin müalicəsində yeni terapevtik yanaşmaların müəyyən edilməsinə imkan verə bilər.

İndiki dövrə qədər yüksək metastatik potensiala malik şişləri müəyyən edən dəqiq meyarlar müəyyən edilməyib. Yeni və az invaziv müayinə metodlarının tədbiqi, müasir diaqnosrtik biokimyəvi markerlərin müəyyən edilməsi zəruridir. Bu sahədə hüceyrədaxili proteoliz sisteminin öyrənilməsi perspektiv istiqamət hesab edilir. Proteoliz şişin böyüməsində, proliferativ aktivliyində, apoptoz və neongeogenez proseslərində mühüm əhəmiyyət kəsb edən mürrəkkəb sistemdir [5,6].

Proteolitik sistem hüceyrəxarici matriksin deqradasiyasında iştirak edir [6]. Hüceyrəxarici matriksin deqredasiyası şişin böyüməsində, invaziyasında, metastazverməsində və angiogenezdə həlledici əhəmiyyətə malikdir [7]. Belə ki, şiş hüceyrələrinin invaziv böyümə dərəcəsi və metastazverməsi onun ekstrasellülar matriksin (ESM) komponentlərini: bazal membranı və müxtəlif struktur zülallarından (kollagenlər, elastinlər, lamininlər və s.) ibarət hüceyrəarası stromanı parçalamaq qabiliyyətindən asılıdır [8, 9, 10]. Bazal membranın dağılması katepsinlər, serin proteazaları və s. kimi bir çox proteazaların sekresiyası hesabına baş verir. Proteoliz sisteminin mühüm komponentlərindən biri də metalloproteinazalardır (MMP). MMP sink- və kalsium-asılı neytral endopeptidazalar ailəsinə məxsus olub, in vitro hüceyrəxarici matriksin praktik olaraq bütün komponentlərini deqradasiya edərək şişin inkişafında mühüm rol oynayır [11, 12, 13, 14].MMP iltihab, embriogenez, toxumaların reparasiyası, neoangiogenez, bədxassəli xəstəliklərdə şiş prosesinin transformasiyası və metastazverməsi kimi fizioloji və patoloji proseslərdə mühüm rol oynayır [10, 14]. Müəlliflər hesab edirlər ki, MPP şiş hüceyrələrinin apoptoza davamlılığını artıraraq şişin disseminasiyasını sürətləndirir. Angiogenezdə MMP-ın funksional rolu bir çox eksperimental təcrübələrdə sübut edilmişdir. Bir çox xəstəliklərin, o cümlədən onkoloji xəstəliklərin müalicəsində bu fermentlərin inhibitorları terapevtik vasitə kimi istifadə edilir [6, 13].

Bədxassəli törəmələrin patogenezində metalloproteinazaların öyrənilməsi onkoloji xəstəliklərin gedişinin proqnozlaşdırılmasında böyük elmi-praktik əhəmiyyət kəsb edə bilər.

Bu məqalədə MMP-ın əsas xüsusiyyətləri, klassifikasiyası və şiş xəstəliklərinin patogenezində biokimyəvi rolu araşdırılmışdır.

MMP əsasən şişi əhatə edən stromal hüceyrələrdə - fibroblastlarda, monositlərdə, endotel və xərçəng hüceyrələrində, eləcə də hepatositlərdə, makrofaqlarda, limfositlərdə, qranulositlərdə və trombositlərdə sintez edilir. İlk şiş toxumasını əhatə edən ESM-də, xüsusilə də stroma-şiş sərhədinin yaxınlığında da MMP-ın aktiv ekspressiyası müşahidə edilir [8, 10, 13].Fizioloji şəraitdə toxumalarda çox az miqdarda MPP mövcud olur və patoloji vəziyyətlərdə, o cümlədən xərçəng xəstəlikləri zamanı onun miqdarının artması müşahidə edilmişdir. MMP böyümə amilləri, sitokinlər və digər proteazalarla qarşılıqlı təsirdə olaraq hüceyrəxarici matriksin zülallarını parçalayaraq şişin invazivliyinə səbəb ola bilər, onların fəallığı şişin proqresivləşməsi, invazivliyi və metastazvermə qabiliyyəti ilə korrelyasiya təşkil edir [12, 15, 16].

MMP ailəsinin bütün nümayəndələrinin ümümi xüsusiyyətləri mövcuddur: onlar sink- və kalsium-asılı proteinazalara aid olub, xelat agentləri ilə inhibisiya olunurlar [16]. Katalitik mərkəzində üç histidin qalığı ilə birləşmiş sink atomu yerləşir. Bazal membranların və matriksin bir və bir neçə komponentini hidrolizə uğradır [8, 12, 13]. Profermentlər şəklində sekresiya edilir və oxşar domen strukturuna malikdir. Profermentlər bir sıra proteinazaların, tiolmodifikasiyaedici amillərin və xelatrop reagentlərin köməkliyi ilə aktivləşir. MMP spesifik toxuma inhibitorları (MPPTİ-1 və MMPTİ-2) vasitəsilə inhibisiya olunur [8, 11, 12]. İn vivo şəraitdə MMP-ın fəallığı onkogenlərinin transkripsiyasından, aktivatorlarından və ərtaf mühitdə olan inhibitorların səviyyəsindən bilavasitə asılıdır. Yuxarıda qeyd etdiyimiz kmi, bu fermentlər adətən çox az miqdarda ekspressiya olunur və transkripsiyası isə hormonlar, sitokinlər (İL-1, İL-4, İL-6) və böyümə amilləri (EGF, HGF, TGFP, TNF-a) ilə tənzimlənir. Postranskripsion səviyyədə MMP-ın fəallığı profermentin N-sonluğunun latentliyindən bilavasitə asılıdır. MMP-ın fəallığı prodomenin parçalanmasından və katalitik saytlarla qarşılıqlı təsirindən asılıdır. Furinəbənzər prodomenə malik olan MMP (MMP-11, MT-MMPs, MMP-28) Holji kompleksində serin proteinazaların köməkliyi ilə fəallaşır. MMP-ın fəallaşmasından sonra onların funksiyası endogen inhibitorlarla tənzimlənir [4, 8, 11]. Bir çox infeksiyalar və sərbəst radikallarım artması MMP-ın fəallığını sürətləndirir. Belə ki, sərbəst radikallar, xüsusilə də superoksid anionu NF-kB transkripsiya amilini fəallaşdırır və fermentin allosterik mərkəzinə təsir göstərərək MMP-ın transkripsiyasını sürətləndirir [9].

Onların DNT-si kollagenazaların DNT –si ilə yüksək homologiya təşkil edir. Genlərin promotor sahələrində oxşar nizamlayıcı ardıcıllığa malikdir. MMP aşağıdakı homoloji domenlərdən ibarətdir: 1). Sekretor funksiya daşıyan və ya plazmatik membrana daxil olmasını təmin edən siqnal peptid; 2). Fermentin aktiv mərkəzinin sinklə birləşməsi nəticəsində latent vəziyyətə keçən prodomen; 3). Sinktərkibli katalitik ferment; 4). Substrala qarşılıqlı əlaqə yaradan və fermentin spesifikliyini təmin edən hemopeksin domeni; 5). Katalitik və hemopeksin domenləri birləşdirən prolin tərkibli şarnir domen. Ən kiçik metaloproteinaza olan MMP-7 və ya matrilizində hemopkesin domeni mövcud deyildir, bu da onun substrat spesifikliyini təyin edir. MMP matriksin əsas kompoenetləri olan kollagenləri, jelatini, laminini, proteoqlikanları və elastini, həmçinin adheziya amillərini və birləşdirici toxumanın digər zülallarını spesifik olaraq hidrolizə uğradır [8, 9, 16].

Hal-hazırda ədəbiyyatda 30-a yaxın MMP aşkar edilsə də, onlardan yalnız 23-ü insan toxumalarında tapılmışdır [17]..Struktur quruluşuna və substrat spesfikliyinə görə MMP bir neçə yarımqruplara bölünür. Lakin, hələ də bəzi MMP-ın əsas fizioloji substratları müəyyən edilməmişdir. Membran tipli MMP əlavə 20 aminturşu qalığından ibarət transmembran domenə və kiçik sitoplazmatik domenə (MMP-14, MMP-15, MMP-16 və MMP-24) və ya bu fermentləri hüceyrə səthinə birləşdirən qlikozilfosfatidil-inozitol qalığina (MMP-17 və MMP-

25) malikdir. MMP-2 və MMP-9 jelatinazalara aid olub, onların tərkibində substratla birləşməsini təmin edən fibronektinəbənzər domen mövcuddur [4, 6, 9, 12, 18]

Bununla yanaşı, MMP-ın I, II və III tip interstsial kollagenləri hidrolizə uğradan kollagenazalar və IV tip kollageni hidrolizə uğradan jelatinazalar qrupları ayırd edilir. Bu MMP invaziv prosesləri inisiasiya edir, belə ki, bazal membranlar əsasən IV tip kollagendən, hüceyrəxarici matriks isə I-III tip fibrilyar kollagenlərdən ibarətdir. Stromelizinlər proteiqlikanları və bir sıra adheziya molekullarını hidroliz edir, membranla birləşmiş MMP pro-MMP-2-ni fəallaşdırır, kollagenləri isə parçalaya bilər [8, 9, 12].

Beləliklə, katalitik fəallığına görə MMP-ın 6 sinfini ayırd edirlər: 1) I, II və III tip kolagenləri parçalaya bilən kollagenazalar (MMP-1, 8, 13, 14 и 18); 2). IV tip kollageni və jelatini parçalaya bilən jelatinazalar (MMP-2 və MMP-9); 3). kollagenləri, elastini, proteiqlikanları və qlkioroteinləri hidrolizə uğradan stromelizinlər (MMP-3, 7, 10, 11, 26 и 27); 4). Elastini parçalayan elastazalar (MMP-12); 5). Bir çox funksiyaları yerinə yetirən, o cümlədən MMP-2-i fəallaşdıran membran tipli MMP (MMP-14, 15, 16, 17, 24 и 25); 6). Funksiyaları tam təsdiqlənməyən digər MMP (MPP-19, 20, 21, 22, 23 и 28) [8, 9, 14].

İlkin olaraq, MMP-ın şişin gecikmiş mərhələsində proqressivləşməsində, invaziya və metastazverməsində rolu göstərilsə də, sonralar erkən onkogenezdə disseminasiyasına dair dəlillər müəyyən edilmişdir [19].

Ədəbiyyat

1. Sung H., Ferlay J., Siegel R.L. et al. Global Cancer Statistics 2020: GLOBOCAN Estimates of Incidence and Mortality Worldwide for 36 Cancers in 185 Countries CA // Cancer J Clin.,2021, 71(3), p. 209–49.
2. Thorat M.A, Balasubramanian R. Breast Cancer Prevention in High-Risk Women // Best Pract Res Clin Obstet Gynaecol., 2020, v. 65, p. 18–31.
3. Loibl S., Poortmans P., Morrow M. et al. Breast Cancer // Lancet, 2021, v. 397(10286), p. 1750–69.
4. Zeng L., Qian J., Zhu F. et al. The prognostic values of matrix metalloproteinases in ovarian cancer // J Int Med Res., 2020, v. 48(1):300060519825983.
5. Кугаевская Е.В., Тимошенко О.С., Гуреева Т.А. и др. Роль протеолитических систем стромы в опухолевой прогрессии (обзор) // Общая реаниматология, 2019, v. 15(5), p. 106-126.
6. Клишо Е.В., Кондакова И.В., Чойнзонов Е.Л. Матриксные металлопротеиназы в онкогенезе // Сибирский онкологический журнал, 2003, №. 2, с. 62-70.
7. Туш Е.В., Елисеева Т.И., Халецкая О.В. и др. Маркеры состояния экстрацеллюлярного матрикса и методы их исследования (обзор) // Современные технологии в медицине, 2019, т. 11, № 2, с. 133-149.
8. Al-Alem L., Curry T.E. Ovarian cancer: involvement of the matrix metalloproteinases // Reproduction, 2015, v. 150(2), - p. 55-64.
9. Carey P.,Low E.,Harper Eet alMetalloproteinasesinOvarian Cancer//Int J Mol Sci.,2021,v. 22(7):3403.
10. Wang, S., Jia, J., Liu, D. et al. Matrix Metalloproteinase Expressions Play Important role in Prediction of Ovarian Cancer Outcome // Sci Rep., 2019, v. 9, p.11677.
11. Ганусевич И.И.Роль матриксных металлопротеиназ (ММП) при злокачественных новообразованиях.и участие ММП в ангиогенезе, инвазии и метастазировании опухолей // Онкология, 2010, т. 12, № 2, с. 108-117.

METALLOPROTEİNAZALARIN NEOPLASTİK PROSESLƏRİN PATOGENEZİNDƏ BİOKİMYƏVİ ROLU.

Qəmbərova S.Ç., Gambarova S.C.

Xülasə

Onkoloji xəstəliklər zamanı metastazların proqnozlaşdırılması bu xəstəliklərin müalicəsində böyük əhəmiyyət kəsb edir. Hal-hazırda yüksək metastazvermə potensialına

malik şişlərin müəyyən edilməsində metalloproteianazaların (MMP) roluna xüsusi diqqət yetirilir. MMP sink- və kalsium-asılı neytral endopeptidazalar ailəsinə məxsus olub, in vitro hüceyrəxarici matriksin praktik olaraq bütün komponentlərini deqradasiya edərək şişin transformasiyası və metastazverməsində mühüm rol oynayır. MPP şiş hüceyrələrinin apoptoza davamlılığını artıraraq şişin disseminasiyasını sürətləndirir. Son illər onkoloji xəstəliklər zamanı MMP-ın rolunun öyrənilməsi və onların inhibitorlarının terapevtik məqsədlə tədbiqi sahəsində tədqiqatlar aparılır. MMP-ın onkoloji xəstəliklərin metastazvermə və residivverməsində proqnostik əhəmiyyətinin öyrənilməsi mühüm elmi istiqamətlərdən biri hesab edilir.

BIOCHEMICAL ROLE OF METALLOPROTEINASES IN THE PATHOGENESIS OF NEOPLASTIC PROCESSES.

Gambarova S.Ch., Gambarova S.C.

Summary

Prediction of metastases during oncological diseases is of great importance in the treatment of these diseases. Currently, special attention is paid to the role of metalloproteinases (MMP) in identifying tumors with a high metastatic potential. MMP belongs to the family of zinc- and calcium-dependent neutral endopeptidases and plays an important role in tumor transformation and metastasis by degrading practically all components of the extracellular matrix in vitro. MPP accelerates tumor dissemination by increasing the resistance of tumor cells to apoptosis. In recent years, studies have been conducted in the field of studying the role of MMPs in oncological diseases and using their inhibitors for therapeutic purposes. Studying the prognostic significance of MMP in metastasis and recurrence of oncological diseases is considered one of the important scientific directions.

БИОХИМИЧЕСКАЯ РОЛЬ МЕТАЛЛОПРОТЕИНАЗ В ПАТОГЕНЕЗЕ ОПУХОЛЕВЫХ ПРОЦЕССОВ.

Гамбарова С.Ч., Гамбарова С.Ч.

Резюме

Прогнозирование метастазов при онкологических заболеваниях имеет большое значение в лечении этих заболеваний. В настоящее время особое внимание уделяется роли металлопротеиназ (ММП) в выявлении опухолей с высоким метастатическим потенциалом. ММП принадлежит к семейству цинк- и кальций-зависимых нейтральных эндопептидаз и играет важную роль в опухолевой трансформации и метастазировании, разрушая практически все компоненты внеклеточного матрикса in vitro. MPP ускоряет диссеминацию опухоли за счет повышения устойчивости опухолевых клеток к апоптозу. В последние годы проводятся исследования в области изучения роли ММП при онкологических заболеваниях и использования их ингибиторов в терапевтических целях. Изучение прогностического значения ММП при метастазировании и рецидивах онкологических заболеваний считается одним из важных научных направлений.

PEQ VƏ LİMON TURŞUSUNUN NA DUZU SİSTEMLƏRİNİN STRUKTUR TEMPERATURU

Məsimov E.Ə., Şahbazova G.M., Mirzəzadə A.V.

Bakı Dövlət Universiteti

shahbazova.gunel@mail.ru

Məlumdur ki, su canlı orqanizmlərdə baş verən bütün bioloji, biokimyəvi və biofiziki proseslərdə fəal iştirak edir [1]. Su, bu proseslərdə özünü həlledici aparmaqla yanaşı,həmçinin orqanizmdə baş verən bütün qarşılıqlı təsirlərdə,fermentativ reaksiyaların gedişində, kimyəvi maddələrin osmos və diffuziya vasitəsilə daşınmasında mühüm rol oynayır. Müxtəlif maddələri suda həll etdikdə suyun strukturu və termodinamik halı dəyişir. Həllolan maddələr kimyəvi tərkibindən və quruluşundan asılı olaraq suyun strukturuna müxtəlif cür təsir edirlər: bir çox maddələr suda su molekulları arasında mövcud olan hidrogen rabitələrini zəiflətdikləri halda, digərləri bu rabitələri daha da gücləndirirlər. Bütün bioloji proseslər su mühitində baş verdiyindən xarici amillərin, o cümlədən, elektrik, maqnit və elektromaqnit sahələrinin, təzyiqin, temperaturun, həllolan maddələrin və s., bioloji sistemlərin termodinamik halına təsirinin öyrənilməsi fiziki kimyanın qarşısında duran ən aktual problemlərdəndir. Birqiymətli demək olar ki, xarici amillər ilk növbədə bioloji sistemin tərkibinə daxil olan suyun strukturunu dəyişdirir. Bu isə bütövlükdə sistemin termodinamik halının dəyişməsinə səbəb olur. Ona görə də suyun strukturuna müxtəlif maddələrin təsirinin öyrənilməsi və sulu məhlullarda struktur xüsusiyyətlərinin tədqiqi çox vacib məsələlərdəndir. Bioloji sistemlərdə suyun halındakı dəyişikliklər bu mühitdə fəaliyyət göstərən canlı orqanizmlərin funksional fəaliyyətinə ciddi təsir göstərir.

Təqdim olunan işdə Su-Limon turşusunun Na duzunun özlülüyünün temperatur asılılığına və bu sistemə polietilenqlikolun (PEQ-in) təsirinə baxılmışdır. Daha sonra PEQ və limon turşusunun natrium duzu-su ikifazalı sistemi verdikdən sonra sistem fazalarına ayırıb aşağı (limon çox olan) və yuxarı (PEQ çox olan) fazalardakı məhlulların müxtəlif temperatur intervalında özlü axının struktur temperaturunun təhlili əsasında struktur xüsusiyyətləri araşdırılmışdır.

«Struktur temperaturu» termini elmə ilk dəfə Bernal və Fauler tərəfindən müxtəlif maddələrin suyun strukturuna təsirini miqdarı təyin etmək üçün daxil edilmişdir [2]. Müəlliflərin fikrinə görə struktur temperaturu parametrinin «texniki termin» kimi daxil edilməsi məhlullarda bir çox mürəkkəb qarşılıqlı əlaqələri özündə cəmləşdirər və dərin mənaya malik ola bilər.Struktur temperaturu anlayışı 80-ci illərin əvvəllərində yenidən, tamamilə başqa tərzdə, Uberreyter tərəfindən işlədilmişdir [3]. Baxılan işdə struktur temperaturu optimallaşma metodu vasitəsilə təyin edilmişdir. Alınan nəticələr cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.

Su-limon turşusunun Na duzu və PEQ-su-limon turşusunun Na duzu, PEQ-limon turşusunun Na duzu-su ikifazalı sisteminin yuxarı və aşağı fazalarının struktur temperaturu.

Məhlul	T_{str} (K)
Su-limon turşusunun Na duzu	148
Su-limon turşusunun Na duzu-PEQ (ikifazalı vermədən)	160
Su-limon turşusunun Na duzu-PEQ (ikifazalı verdikdən sonra yuxarı fazanın)	211
Su-limon turşusunun Na duzu-PEQ (ikifazalı verdikdən sonra aşağı fazanın)	177

Struktur temperaturu bilavasitə mayedə olan strukturlaşdırıcı qarşılıqlı təsirlərlə əlaqədar parametrdir. Bu səbəbdən də hər hansı faktorların təsiri ilə mayenin (məhlulun) strukturunun dəyişməsi struktur temperaturunun qiymətini dəyişdirəcək. Belə ki, sulu məhlulun struktur temperaturu təmiz suyun struktur temperaturundan böyükdürsə, suya əlavə edilən maddə suyu strukturlaşdırır. Əgər sulu məhlulun struktur temperaturu təmiz suyun struktur temperaturundan kiçikdirsə, suya əlavə edilən maddə suyun strukturnu dağıdır.

Təmiz suyun struktur temperaturu T_{str}=146K olduğundan, deyə bilərik ki, limon turşusunun Na duzu suya neytral təsir edir, lakin PEQ-in təsirilə bu sistem suyu strukturlaşdırır. İkifazalı sistemi ayırdıqdan sonra PEQ çox olan yuxarı fazada struktur temperaturu daha da artır.

References

1. Chaplin M. Water Structure and Behavior. http://www.lsbu.ac.uk/water/chaplin.html. South Bank University, London 2008, 576p.
2. Бернал Дж., Фаулер Р. Структура воды и ионных растворов. Усп. физ. наук, 1934, т.14, с.586-644
3. Ueberreiter K. Change of water structure by solvents and polymers. Colloid & Polymer Science. 1982, 260, №1, p.37-45.

PEQ VƏ LİMON TURŞUSUNUN NA DUZU SİSTEMLƏRİNİN STRUKTUR TEMPERATURU

Məsimov E.Ə., Şahbazova G.M., Mirzəzadə A.V.

Xülasə

Təqdim olunan işdə PEQ, limon turşusunun Na duzu sistemlərinin ikifazalı sistem verməzdən öncə və sonra struktur temperaturu təyin olunmuşdur. Bunun üçün hazırladığımız PEQ və limon turşusunun natrium duzu məhlullarının, baxdığımız ikifazalı sistemini (PEQ-limon turçusunun natrium duzu-su) fazalarına ayırıb, aşağı və yuxarı fazadakı məhlulların özlülükləri ölçülmüşdür. Optimallaşma metodundan istifadə edərək struktur temperaturu (T_{str}) təyin olunmuşdur.

СТРУКТУРА ТЕМПЕРАТУРА НАСОЛЕВЫХ СИСТЕМ ПЭГ И ЛИМОННОЙ КИСЛОТЫ

Масимов Э.А., Шахбазова Г.М., Мирзазаде А.В.

Резюме

В представленной работе определена структурная температура систем PEQ, Na солей лимонной кислоты до и после придания двухфазной системе. Для этого рассматриваемая двухфазная система (ПЭГ-цитрат натрия-вода) была разделена на фазы и измерены вязкость растворов в нижней и верхней фазах. Температуру структуры (Tstr) определяли с использованием метода оптимизации.

STRUCTURE TEMPERATURE OF THE NA SALT SYSTEMS OF PEG AND CITRIC ACID

Masimov E.A., Shahbazova G.M., Mirzazade A.V.

Summary

In the presented work, the structural temperature of the PEG, sodium citric systems was determined before and after the addition to the two-phase system. To do this, the considered two-phase system (PEG-sodium citrate-water) was divided into phases and the viscosity of the solutions in the lower and upper phases was measured. The temperature of the structure (Tstr) was determined using the optimization method.

ОПРЕДЕЛЕНИЕ СТРОЕНИЯ ПРОПИН(ЕН)ОКСИЗАМЕЩЕННЫХ ТЕТРАГИДРОФУРАНОВ СПИРОСТРОЕНИЯ МЕТОДОМ СПЕКТРОСКОПИИ ЯМР

Талыбов Г.М.

Азербайджанский Технический Университет
gtalibov61@gmail.com

Ключевые слова: *пропин(ен)оксизамещенные тетрагидрофураны, гомоаллильные спирты, ЯМР, гипервалентный йод.*

Açar sözlər: *propi(en)oksi-əvəz edilmiş tetrahidrofuranlar, homoalilik spirtlər, NMR, hipervalent yod.*

Keywords: *propi(en)oxy-substituted tetrahydrofurans, homoallylic alcohols, NMR, hypervalent iodine.*

Замещенные тетрагидрофурановые фрагменты присутствуют в составе многих натуральных продуктов и демонстрируют широкий спектр биологической активности. Введение в структуру таких соединений периферических кратных связей открывает дополнительные возможности для модификации структуры подобных соединений.

Изучено взаимодействие гомоаллильных спиртов, имеющих циклоалкильный фрагмент с аллиловым и пропаргиловым спиртами в присутствии реагента Косера. Реакцию проводили в среде пропаргилового (аллилового) спирта в присутствии каталитических количеств I_2 (20 моль%).



1-12 13-24

n=1 (13,14), 0 (15-20), 2 (21,23), 7 (22,24)
R= C≡CH (13,15,17,19,21,23), $CH=CH_2$ (14,16,18,20,22,24);
$R^1= R^2= R^3$=(13-16, 19-24), Ph (17,18)

Она представляет собой 5-*эндо*-циклизацию, которая приводит к образованию пропин(ен)оксизамещенных тетрагидрофуранов спиростроения, что подтверждается данными ЯМР ^{1}H спектров. В них (для соединения 1) наблюдаются мультиплетные сигналы циклогексановых протонов в области ($H^{а,б,с,д}$- циклоалк.) 1.34-1.66 м.д., остальные протоны циклоалкильных протонов наблюдаются в области ($H^{е}$- циклоалк.) 1.77 м.д. и 1.85 м.д. соответственно, ацетиленовый протон проявляются в 2.45 м.д., метиленовые протоны рядом с гетероатома в тетрагидрофурановом кольце проявляются в области (H^2-ТГФ) 3.82 м.д. и 3.89 м.д. соответственно, четыре дублетных сигнала при (H^3-ТГФ) 3.97 м.д которые принадлежат метиновым протонам гетероцикла связанным с атомом кислорода пропаргилоксигруппы вследствие спин-спинового взаимодействия с двумя соседними метиленовыми протонами, метиленовые протоны пропаргильной группы проявляются как дублетные сигналы в области 4.07 м.д. вследствие взаимодействием ацетиленовым протоном. Спектр ЯМР ^{13}C, δ, м.д.: 22.31 ($C^{а}$-циклоалк.), 23.52 ($C^{б}$-циклоалк.), 25.76 ($C^{с}$-циклоалк.), 37.25 ($C^{д}$-циклоалк.), 42.76 ($C^{е}$-циклоалк.), 56.63 (≡C-*CH_2O), 68.24 (≡CH), 79.14 (≡C*-CH_2O), 81.85 (C^2-ТГФ), 82.45(C^3-ТГФ), 84.25($C^5_{спиро}$-ТГФ). Максимальный выход продуктов реакции обычно достигаются до ~72.3%. Использование в этих реакциях гипервалентного иода (III) и молекулярного йода I_2 исключает применение тяжелых токсичных металлов и при высоких селективности можно синтезировать гетероциклические соединения в среде непредельных C_3-спиртов. Известно, что при проведение реакцию при -5÷0 ^{0}C присоединение молекулярного иода по кратным связам как обычно не наблюдается.

DETERMINATION OF THE STRUCTURE OF PROPYN(EN)OXY-SUBSTITUTED TETRAHYDROFURANS SPIROSTRUCTURE BY NMR SPECTROSCOPY

Talybov G.M.

Summary

The intramolecular cycloaddition of homoallyl alcohols to carbocyclic compounds in the presence of molecular and hypervalent iodine leads to the formation of propyne(ene)oxy-substituted spirotetrahydrofurans. The structures of the compounds obtained are established by NMR.

PROPİN(EN)OKSİ ƏVƏZLƏNMİŞ TETRAHİDROFURANLARIN SPİROSTRUKTURUNUN NMR SPEKTROSKOPİYASI İLƏ MÜƏYYƏNDİRİLMƏSİ

Talıbov G.M.

Xülasə

Molekulyar və hipervalent yodun iştirakı ilə homoallil spirtlərin karbosiklik birləşmələrə molekuldaxili tsikliklləşməsi nəticəsində propin(en)oksiəvəzli spirotetra-hidrofuranlar əmələ gəlir. Alınan birləşmələrin strukturları NMR ilə müəyyən edilmişdir.

SOAPSTOKUN POLİETİLENPOLİAMİN ƏSASINDA AMİDİNİN, NEFT TURŞULARININ ETİLENDİAMİNLƏ AĞIR FLEQMA MƏHLULUNDAN ALINMIŞ AŞQARLARININ YOL BİTUMUNA TƏDQİQİ

İsmayılov T.A., Əlizadə R.A., Fərhadova R.M., Əliyev T.S.

Y.H.Məmmədəliyev adına Neft kimya Prosesləri institutu

rufana.alizada93@gmail.com

Açar sözlər: *bitum, polietilenpoliamin, soapstok.*

Keywords: *bitumen, polyethylene polyamine, soapstock.*

Ключевые слова: *битум, полиэтиленполиамин, соапсток.*

Yol tikintisində yapışdırıcı kimi istifadə olunan bitumlar çox qədim zamanlardan məlumdur [1]. Yol bitumlarına əlavə edilən adgeziya aşqarının funksiyası avtomobil yollarının, hava limanlarının, dam və izolyasiya örtüklərinin çəkilişində uzun müddət ərzində yüksək temperaturda funksional xüsusiyyətlərini saxlayan, daş çınqıllarına hopdurulmuş vəziyyətdə yüksək yapışqanlığa malik olmalıdır [2,3].

Tərəfimizdəm görülən işdə soapstok PEPA əsasında alınmış amidin fleqmada məhlulu ilə etilendiaminlə TNT-nin qarşılıqlı təsirindən alınmış amidin 1:2 çəki nisbətində kompozisiyaları hazırlanmış, çınqılın iştirakı ilə bituma aşqar kimi tədqiq edilmiş və aşağıdakı cədvəl 1-də fiziki xassələri göstərilmişdir.

Cədvəl 1.

Göstəricilər	Yol bitumu (Azərbaycan)	T1:Etilendiamin+TNT (1:2)		T2:Etilendiamin+TNT (1:2)		T3:Etilendiamin+TNT (1:2)		T4:Etilendiamin+TNT (1:2)		T5:Etilendiamin+TNT, amid	
		0,4	0,6	0,4	0,6	0,4	0,6	0,4	0,6	0,4	0,6
T_{yum}, ^0C	48,5	47.5	47.3	48.4	48.2	47.6	47.4	47.6	47.4	47.2	47
P_{25} · 0,1MM	48	52	52	49	49	52	52	52	52	52	52
D_{25}, sm	75	65	60	71	66	45	41	46	48	55	53
$T_{köv}$, ^0C	-18	-23	-24	-24	-26	-23	-22	-21	-23	-24	-26
Adgeziya	3	1	1	1	1	1	1	1	1	1	1

Qeyd: T 1,2,3,4-soapstok+PEPA+ağır fleqma

Cədvəldən görünür ki, bu aşqarların çınqıl bitum qarışığına 0,4 və 0,6% əlavə edilməsi nəticəsində bitumun keyfiyyət göstəriciləri xeyli yaxşılaşır. Çınqıl qarışdırılmış yol bitumunun özünün çınqıla yapışması 3 bal, kövrəklik temperaturu -18, penetrasiyası 48 olduğu halda, bu bituma 0,4 və 0,6% aşqar əlavə edildikdən sonra çınqıla yapışma qabiliyyəti

1 bala qədər yüksəlir, kövrəklik temperaturu -26^{0}C-ə qədər aşağı düşür. Penetrasiyası isə 52-ə qədər yüksəlir.

Ədəbiyyat:

1. Ə.Ə.Allahverdiyev, F.İ.Səmədova "Bitumlar" Bakı-Elm-2012.
2. Гуреев А.А. Производства дорожных битумов в Росии // Химия и технология топлив и масел. 2009 г, №6, с.6-8
3. Ф.И.Самедова, А.А.Аллахвердиев, Технология получения битумов. Баку: Элм, 2007, с.5,28,37,56

ODADAVAMLI DOYMAMIŞ POLİEFİRLƏRİN SİNTEZİ VƏ XASSƏLƏRİ

[1]İsmayılova R.İ., [1]Mustafayev A.M., [2]Babanlı B.N., [2]Qəhrəmanlı Y.N.

[1]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Polimer Materialları İnstitutu.
[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
raisaismailova16@mail.ru

Açar sözlər: *ftal anhidridi, 1-brom-2,3-propandiol, doymamış poliefir, epoksid qatranı, polietilenpoliamin, malein anhidridi, kompozisiya.*

Ключевые слова: *фталевый ангидрид, 1-бром-2,3-пропандиол, ненасыщенный полиэфир, эпоксидная смола, полиэтиленполиамин, малеиновый ангидрид, композиция.*

Keywords:*phthalicanhydride, 1-bromo-2,3-propanediol, unsaturatedpolyester, epoxyresin, polyethylenepolyamine, maleicanhydride, composition.*

Aromatik quruluşlu, bromtərkibli doymamış poliefirin məqsədyönlü alınma üsulu işlənib hazırlanmışdır. Müəyyən edilmişdir ki, reagentlərin reaksiyaya daxil edilmə ardıcıllığından asılı olaraq, müntəzəm quruluşlu doymamış poliefir alınır. Sintez olunmuş doymamış poliefirlərin bərkimə prosesi öyrənilmiş, eləcə də alınan kompozisiyaların fiziki-mexaniki xassələri təyin edilmişdir.

Tərkibində aromatik quruluşa malik karbohidrogen fraqmentləri saxlayan doymamış poliefirlərin sintezi və onlar əsasında yanmayan kompozisiya materialların alınması və tədqiq olunması elmi və praktiki cəhətdən çox maraqlı və perspektivli istiqamətlərdəndir.

Doymamış poliefir qatranları əlaqələndirici kimi lak və boyaların, yapışqanların əsasını təşkil edən komponentlər kimi sənayenin müxtəlif sahələrində istifadə olunan konstruksiya materiallarının alınmasında və s. sahələrdə geniş tətbiq olunur [1-3].

Təqdim olunan işin məqsədi yüksək effektliyə malik, müntəzəm quruluşlu, bromtərkibli odadavamlı doymamış poliefirin məqsədyönlü alınma üsulunun işlənib hazırlanması və onların ED-20 qatranında modifikator-antipiren kimi sınaqdan keçirməkdən ibarətdir.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, müntəzəm quruluşlu doymamış poliefir iki mərhələdə sintez olunur. Belə ki, əvvəlcə ftal anhidridi 1-brom-2,3-propandiol 0,5 : 1,1 mol nisbətində 145-150^{0}C-də 3,5 saat müddətində qızdırmaqlamakromolekulun sonunda ancaq hidroksil qrupu olan oliqodiolalınır:



Sintez olunan oliqodiollamalein anhidridinin qarşılıqlı reaksiyasından (130-135^{0}C-də 3 saat qızdırmaqla) makromolekulun mərkəzində ftalat fraqmenti, sonunda isə maleinat fraqmenti saxlayan müntəzəm quruluşlu bromtərkibli doymamış poliefir sintez edilmişdir:



(II)

Sintez olunan doymamış poliefirin qurulişu İQ- spektroskopiyanın köməyi ilə təsdiq olunmuşdur. Spektrdə müşahidə olunan 1730 sm^{-1} ν (C=O) dalğa zolağı molekulda mürəkkəb efir qrupunun, 3467 sm^{-1} və 1044 sm^{-1} –də olan dalğa uzunluqları isə molekulda OH qrupunun, 580 sm^{-1} dalğa uzunluğu isə molekulunda C-Br rabitəsinin olmasını təsdiqləyir. Birləşmədə turşu anhidridini xarakterizə edən 1855 sm^{-1} dalğa uzunluğunun spektrdə müşahidə olunmaması anhidrid qrupunun reaksiyaya tamamilə girməsini göstərir.

Sintez edilmiş doymamış poliefir ED-20 qatranında modifikator kimi sınaqdan keçirilmişdir. Bunun üçün alınan doymamış poliefir və epoksidqatranıəsasında 10, 20 və 30%-də kompozisiyalar hazırlanmış və PEPA ilə bərkidilmişdir.

Alınmış kompozisiyaların dartılma, nisbi uzanma, istiliyə davamlılıq göstəriciləri təyin edilmiş və müəyyən edilmişdir ki, alınan kompozisiyalar yüksək fiziki-mexaniki xassələrə malikdir.

Bərkidildikdən sonra alınan kompozisiyaların, nümunələrinin odadavamlılıq xassəsi öyrənilmiş və sübut olunmuşdur ki, tədqiq olunan bütün nümunələr öz-özünə sönmə xassəsinə malikdir.

Ədəbiyyat

[1].[1]YU.N. Gahramanly, [2]A.M. Mustafayev, [2]I.A. Guseynov, [2]R.I. Ismaylova, [1]B.N.Babanly, [2]N.T. Kakhramanov // Deformationproperties of compositematerialsbased on unsaturatedpolyesters and epoxyresin Az. chemıcaljournal, No 3, 2020, p. 6-10

[2].R.İ.İsmayılova, Ü.K.İsmayılova, İ.Ə.Hüseynov, A.M.Mustafayev / Bitsiklik quruluşlu doymamış poliefirlərin sintezi və xassələri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Tələbə və Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransları. 18-29 aprel, 2022, Səh. 425-427.

[3]. İsmayılova R.İ., Hüseynov İ.Ə., İsmayılova Ü.K., Mustafayev A.M. / α, ω metakril-(bis-(3-brompropan)5,6-dibrombitsiklo[2,2,1]-heptan-2.3-dikarbonat doymamış oliqoefirinepoksidqatranında modifikator kimi xassəsinin öyrənilməsi. Akademik Əli Musa oğlu Quliyevin 110 illik yubileyinə həsr olunmuş „Müxtəlif təyinatlı üzvi maddələr və kompozisionmateriallar”mövzusunda Respublika elmi konfransı. Bakı- 2022, Səh. 92

СИНТЕЗ И СВОЙСТВА ОГНЕСТОЙКИХ НЕНАСЫЩЕННЫХ ПОЛИЭФИРОВ

Исмаилова Р.И., Мустафаев А.М.,Бабанлы Б.Н., Кахраманлы. Ю.Н.

Резюме

Разработан целенаправленный метод получения бромсодержащих ненасыщенных полиэфиров ароматической структурой. Установлено, что в зависимости от последовательности вступлении в реакцию реагентов получают ненасыщенный полиэфир с регулярной структурой. Изучен процесс отверждения синтезированных ненасыщенных полиэфиров, а также определены физико-механические свойства полученных композиции.

SYNTHESIS AND PROPERTIES OF FIRE-RESISTANT UNSATURATED POLYESTERS

Ismailova R.I., Mustafayev A.M., Babanly B.N.,Gahramanly YU.N.

Summary

A targeted method for obtaining bromine-containing unsaturated polyesters with an aromatic structure has been developed. It is established that, depending on the sequence of reacting reagents, unsaturated polyester with a regular structure is obtained. The curing process of synthesized unsaturated polyesters has been studied, and the physico-mechanical properties of the resulting compositions have been determined.

CYCLOPROPANATION OF POLYVINYL ALCOHOL

Vahabova V.E., Guliev K.G.

Institute of Polymer Materials

Key words: *polyvinyl alcohol, esterification, para-aminophenylcyclopropanoic acid chloride, antimicrobial.*

Antimicrobial polymer derivatives have attracted much attention in recent years [1]. Most of the published works are related to the synthesis of polymeric esters of carboxy-containing biocides, as a rule, by modifying biologically active low-molecular compounds of synthetic or natural hydroxyl-containing polymers with acid chlorides.Functionally substituted polymers are very promising in terms of creating new antimicrobial polymer materials.

The interaction of polyvinyl alcohol (PVA) with para-aminophenylcyclopropyl carboxylic acid chloride is accompanied by the formation of a diversified polymer containing fragments of vinyl alcohol and a cyclopropane ring in side links in combination with carbonyl and phenylamino fragments.

PVA obtained by alkaline saponification with a residual molar content of acetate groups of 0.72% and a molecular weight of 56,000 was used in the work.

Aminophenyl cyclopropane carboxylic acid chloride was synthesized by reacting the corresponding acid with an excess of thionyl chloride.



Spectra of the modified polymer were recorded on a Spekord M. 80 spectrometer; NMR spectra were recorded on a BS-487 B Tesla spectrometer (80 MHz) in a solution of deuterated chloroform.

As before [2,3], dimethylacetamide was used as a solvent, which made it possible to obtain sufficiently concentrated PVA solutions at 30–40°C.The dissolution of the polymer was carried out for several minutes at 120°C in an inert gas (nitrogen) atmosphere.Control experiments showed that, under these conditions, PVA modification by solvent molecules does not occur.This is also supported by the literature data [4].To remove moisture and other impurities, the solvent was kept over P_2O_5 and distilled in a vacuum.Attempts to use dimethylformamide as a solvent have shown that it has a worse dissolving power with respect to PVA and makes it possible to obtain concentrated solutions of the latter only at higher temperatures.

When studying the reaction in solution, it was found that the process practically ends after 1 hour, the degree of mixing significantly depends on the reaction temperature, as well as the concentration and ratio of the reagents.

In the present work, we studied the antimicrobial properties of synthesized polymers containing cyclopropane, carbonyl phenylamine fragments in the macromolecule. This problem has recently been addressed by a systematic study of the antimicrobial activity of a polymer containing various substituents on the cyclopropane ring. To this end, polyvinylcyclopropane was synthesized and its antimicrobial properties were investigated.

The presence of aminophenylcyclopropane ring fragments in the side chain of the PVA polymer in combination with the carbonyl group should contribute to its water-soluble antimicrobial properties.It was found that the antimicrobial properties depend on the mixing of aminophenylcyclopropane carboxylic acid with its increase in the composition of the PVA polymer, its antimicrobial properties increase, and the water solubility of the modified PVA also depends on the degree of mixing of hydroxyl groups.It is shown that at a degree of PVA substitution of ~20% in the resulting polymer not only exhibits good antimicrobial properties and retains water solubility.

References

1. Wei Ke, Na-Bo Sun,d Hong-Ke Wu. Synthesis, Crystal Structure and Biological Activity of 4-Cyclopropyl-3-[(3-fluorobenzyl)thio]-5-methyl-4H-1,2,4-triazole Monohydrate. Asian J. Chem, 2013, Vol. 25, N. 15, pp. 8723-8726.
2. В.В. Коршак, М.И. Штильман, И.В. Ярошена, Высокомол. соед., В19, 234, 1977
3. В.В. Коршак, М.И. Штильман, И.В. Ярошена, Высокомол. Соед., В18, 856, 1976
4. A. Carpov, S. Maxim, M.Dima, Rev. Roumaniachemie, 21, 1097, 1976

POLİVİNİL SPKOLUNUN SİKLOPROPANASI

Vahabova V.E., Quliyev K.Q.

Xülasə

Makromolekulun yan zəncirlərində polivinil spirti və qruplarının fraqmentləri, amin və tsiklopropan halqaları və digər fraqmentləri olan şaxələnmiş polimer əldə etmək üçün polivinil spirtinin paraaminofeniltsiklopropan karbon turşusunun xlor anhidridi ilə esterifikasiya reaksiyası tədqiq edilmişdir. Tədqiqat nəticəsində yeni polimer sintez edilmiş, İQ və NMR spektroskopiyasının məlumatları əsasında onun tərkibi və strukturu müəyyən edilmişdir. Sintez olunmuş polimerin xassələri tədqiq edilmiş və müəyyən edilmişdir ki, bu polimer yüksək antimikrob xüsusiyyətlərə malikdir ki, bu da ondan tibdə antimikrob maddə kimi istifadə etməyə imkan verir.

ЦИКЛОПРОПАНИРОВАНИЕ ПОЛИВИНИЛОВОГО СПИРТА

Вахабова В.Е., Гулиев К.Г.

Резюме

Исследована реакция этерификации поливинилового спирта с хлорангидридом пара-аминофенилциклопропана карбоновой кислоты с целью получения разнозвенного полимера, содержащего в боковых звеньях макромолекулы фрагменты поливинилового спирта и группы, амино и циклопропановый кольцом, а также другими фрагментами. В результате исследования был синтезирован новый полимер и определены его состав и структура на основании данных ИК- и ЯМР-спектроскопии. Изучены свойства синтезированного полимера и установлено, что модифицированной полимер обладает высокими антимикробными свойствами, что позволяет использовать его в качестве антимикробного вещества в медицине.

CYCLOPROPANATION OF POLYVINYL ALCOHOL

Vahabova V.E., Guliev K.G.

Summary

The esterification reaction of polyvinyl alcohol with para-aminophenylcyclopropane carboxylic acid chloride has been studied in order to obtain a diversified polymer containing fragments of polyvinyl alcohol and groups, amino and cyclopropane rings, as well as other fragments in the side links of the macromolecule. As a result of the study, a new polymer was synthesized and its composition and structure determined on the basis of IR and NMR spectroscopy data.The properties of the synthesized polymer have been studied and it has been established that the modified polymer has high antimicrobial properties, which makes it possible to use it as an antimicrobial substance in medicine.

USE OF ALMOND SHELL WASTE AS A FILLER IN POLYMER COMPOSITES

Arzumanova N.B.

Institute of Polymer Materials

Açar sözlər: *polimer kompozit,aqro tullantılar, doldurucu, badam qabığı***.**

Keywords: *polymer composite, agro waste, filler, almond shell.*

Ключевые слова: *полимерный композит, агроотходы, наполнитель, скорлупа миндаля.*

The ability to use waste generated from agricultural processes as fillers in polymer composites is a new way to utilise waste and a solution to one of the most serious environmental problems today [1].

Almond shell is one of the important agricultural wastes, which is obtained from the cultivation of the almond. Almond (lat. *Prunus amygdalus*) is a valuable dry subtropical fruit of the genus Prunus belonging to the subfamily Prunoideae of the family Rosaceae. The almond fruit is not a true nut, it is a drupe, consisting of an outer hull and a hard shell with the seed (Figure 1). Its homeland covers a large area in southwestern Asia from northwestern Saudi Arabia, north through western Jordan, Israel, Lebanon, western Syria, and southern Turkey. It was once widespread in the wild in the territory of Azerbaijan. Currently, the remaining almond forests around the Badamli settlement of Shahbuz district in Nakhchivan and in the mountainous parts testify to the existence of large almond forests here since ancient times. In Azerbaijan, almond trees are grown on an industrial scale mainly on the Absheron Peninsula.

Figure 1. Almond plant (lat. *Prunus amygdalus*)

Almond production in the Azerbaijan has increased from marketing year 2000/2001 to 2014/2015, then has fluctuated from marketing year 2016/2017 to 2018/2019, but in 2020/2021 it increased to 1.5 thousand tons (Figure 2). In the production of almonds, a large number of by-products are formed, since around 65-80 % of the total weight of the almonds are the shell [2].



Figure 2. Almond production in the Azerbaijan, in thousand tons
(Source: The State Statistical Committee of the Republic of Azerbaijan)

Almond endocarp is known as a shell primarily composed of cellulose (29.8-50.7 %), hemicellulose (19.3- 29.0 %), and lignin (20.4-50.7 %) [3].

Normally, almond shells have been used as food for livestock or to generate energy through biomass cogeneration, as almond production increases, almond shells become more and more common waste, and this has led to the use of this by-product as an absorbent of heavy metals and dyes, compost, production of active carbons and production of xylooligosaccharides, coloring material in the preparation of cognac [4, 5].

Almond shell waste used as filler was supplied by "AzBadam" LLC (Baku, Azerbaijan).Almond shell powder was obtained by milling.The resulting powder was sieved to obtain particles of the desired size. Particle size analyses of the ground almond shell was performed by a particle size analyzer (Malvern Mastersizer 3000, Malvern Panalytical, UK), based on laser scattering and the average particle size was measured. The almond shell particulate was loading into polymer matrix in different weight fractions (1, 5, 10, 15 and 20 wt.%) to develop a new class of composite using heating rollers and test specimens were prepared from these mixtures. The effects of filler loading on properties of polymer/almond shell composites have been studied. Tensile test was performed on the samples.

It was found that the physical and mechanical properties of composites reinforced with almond shell depend on the interaction of the components present in the area of the filler-polymer matrix interface. Thus, the use of almond shell as filler for the development of polymer biocomposites is promising.

References

1. García A.I., García A.M., Bou S.F. Study of the influence of the almond shell variety on the mechanical properties of starch-based polymer biocomposites. Polymers, 2020, vol. 12(9), pp. 2049.https://doi.org/10.3390/polym12092049
2. Li X., Liu Y., Hao J., Wang W. Study of almond shell characteristics. Materials, 2018, vol. 11(9), pp. 1782.https://doi.org/10.3390/ma11091782
3. Prgomet I., Gonçalves B., Domínguez-Perles R., Pascual-Seva N., Barros A.I.R.N.A. Valorization challenges to almond residues: phytochemical composition and functional application. Molecules, 2017, vol. 22 (1774), pp. 1-27. https://doi.org/ 10.3390/molecules 22101774

4. El Mashad H.M., Edalati A., Zhang R., Jenkins B.M. Production and characterization of biochar from almond shells. Clean Technologies, 2022, vol. 4(3), pp. 854-864. https://doi.org/10.3390/cleantechnol4030053
5. Essabir H., Nekhlaoui S., Malha M., Bensalah M.O., Arrakhiz F.Z., Qaiss A., Bouhfid R. Bio-composites based on polypropylene reinforced with almond shells particles: mechanical and thermal properties. Materials& Design, 2013, vol. 51, pp. 225-230. https://doi.org/10.1016/j.matdes.2013.04.031

BADAM QABIĞI TULLANTILARININ POLİMER KOMPOZİTLƏRDƏ DOLDURUCU KİMİ İSTİFADƏSİ

Arzumanova N.B.

Xülasə

Hal-hazırda elmi tədqiqatlar kompiozitlərin işlənib hazırlanmasındaaqro tullantıların istifadəsinə yönəlmişdir, çünki onlar bərpa olunandır, miqdarı çoxdur və ekoloji təmizdir. Müxtəlif quru meyvələrin qabığı kimi aqro tullantılar polimerlər üçün doldurucu kimi istifadə olunur. Azərbaycan ərazisində yetişdirilən badamın qabıqları da bu aqro tullantılara aiddir. Müəyyən olunmuşdur ki, qabıq badamın ümumi kütləsinin 65-80 %-ni təşkil edir, buna görə də müvafiq tullantılar olduqca əhəmiyyətlidir. Bununla əlaqədar olaraq, polimer kompozitlərin alınması üçün badam qabığının doldurucu kimi istifadəsi perspektivli hesab olunur. Tədqiqatın nəticələri göstərdi ki, badam qabığı ilə doldurulmuş kompozitlərin fiziki-mexaniki xassələri doldurucu-polimer matrisa ayrılma sərhəddində mövcud olan komponentlərin qarşılılı təsirindən asılıdır.

ИСПОЛЬЗОВАНИЕ ОТХОДОВ СКОРЛУПЫ МИНДАЛЯ В КАЧЕСТВЕ НАПОЛНИТЕЛЯ В ПОЛИМЕРНЫХ КОМПОЗИТАХ

Арзуманова Н.Б.

Резюме

В настоящее время научные исследования направлены на использование агроотходов при разработке композитов, поскольку они являются возобновляемыми и доступны в большом количестве и экологически чистые. Такие агроотходы как скорлупа различных сухих фруктов используется в качестве бионаполнителя для полимеров. К этим агроотходам относится и скорлупа миндаля, выращенная в Азербайджане. Было установлено, что скорлупа составляет 65-80% общего веса миндаля, поэтому соответствующие отходы довольно значительны. В связи с этим, использование скорлупы миндаля в качестве наполнителя для получения полимерных композитов является перспективным. Результаты исследования показали, что физико-механические свойства композитов, наполненных скорлупой миндаля, зависят от взаимодействия компонентов, присутствующих в области границы раздела наполнитель-полимерная матрица.

USE OF ALMOND SHELL WASTE AS A FILLER IN POLYMER COMPOSITES

Arzumanova N.B.

Summary

Currently, scientific research is focused on the use of agro-waste in the development of composites, since they are renewable and available in large quantities and environmentally friendly. Agro waste such as the shells of various dry fruits is used as a bio-filler for polymers. This agro waste also includes almond shells grown in Azerbaijan. It has been found that the shell makes up 65-80% of the total weight of the almond, so the corresponding waste is quite significant. In this regard, the use of almond shells as a filler for the production of

polymer composites is promising. The results of the study showed that the physical and mechanical properties of composites filled with almond shells depend on the interaction of the components present in the area of the filler-polymer matrix interface.

FOTOHƏSSAS POLİMERİN SİNTEZİ VƏ TƏDQİQİ

[1]Məmmədli S.B.,[2]Ələmdarlı A.V., [3]İsgəndərova E.Q.,
[4]Çobanova Ü.F., [5]Zamanov Ö.S., [6]Əliyeva S.Y.

[1,2,3,] Polimer Materialları İnstitutu
[4,5]Azərbaycan Dövlət Neftvə Sənaye Universiteti
[6]Sumqayıt Dövlət Universitetinəzdində Sumqayıt Dövlət Texniki Kolleci

Açarsözlər: *stirol, izopren, mikroelektronika, işığahəssas.*
Key words: *styrene, isoprene, microelectronics, photosensitive.*
Ключевые слова: *стирол, изопрен, микроэлектроника, фоточувствительность.*

Mikroelektronikanın inkşafı ilə əlaqədar olaraq işığahəssas polimerlərin əsas xassələrinin yaxşılaşdırılması məqsədi ilə yeni polimerlərin sintezinə xüsusi diqqət yetirilir [1-5]. Belə tip xassələr göstərən yüksəkmolekullu maddələr sırasında tərkibində ikiqat rabitə saxlayan, UB şüaların təsiri ilə strukturlaşmaya məruz qalan polimerlər daxildir.

Təqdim olunan işdə stirolun izopren monomeri ilə radikal binar polimerləşmə reaksiyası monomerlərin müxtəlif mol nisbətində aparılmış, birgəpolimerləşmə reaksiyasının qanunauygunluqları tədqiq edilmiş, əldə olunan birgəpolimerin fotohəssaslıq xassələri müəyyən edilmişdir.

Stirolun izopren ilə radikal binar birgəpolimerləşmə reaksiyası benzoil peroksid inisiatorunun iştirakı ilə benzol məhlulunda, ampulada, 70ºC temperaturda, termostatda aparılmışdır.

Müəyyən edilmişdir ki, birgəpolimerləşmə reaksiyası hər iki monomerdə vinil qrupunun açılması ilə reallaşır və tərkibində ikiqat rabitə saxlayan birgəpolimer əmələ gəlir:



Alınan birgəpolimerin tərkibi element analizi, quruluşu isə spektral (İQ və NMR) analiz metodlarının köməyi ilə tədqiq olunmuşdur.

Sintez edilmiş birgəpolimerlər ağ rəngli maddələrdir. Onlar aromatik karbohidrogenlərdə (benzol, toluol), dimetilformamiddə, dioksanda və s. yaxşı həll olurlar, lakin aşağı molekullu spirtlərdə (metanol, etanol) həll olmurlar.

Birgə polimerləşmə reaksiyaları birgə monomerlərin müxtəlif mol nisbətlərində, aşağı çevrilmə dərinliyində 10-12% arasında həyata keçirilmiş, birgə polimerlərin tərkibləri yəni, m_1 və m_2 tipli manqalarının miqdarı tapılmışdır. Fayneman-Ross üsulu ilə birgəpolimerləşmə sabitlərinin qiymətləri (r_1 və r_2) tapılmış, birgə polimerin xarakteristik özlülüyü və fotohəssaslıq göstəricisi təyin edilmişdir (cəd. 1).

Cədvəl 1.

Stirol+izopren sistemində radikal binar birgəpolimerləşmə reaksiyalarının aparılma şəraitləri və alınan birgəpolimerlərin manqa tərkibləri (həlledici – benzol, həyəcanlandırıcı – 0.5% benzoil peroksid, çevrilmə dərəcəsi <10%, t=70ºC.

№	İlkin qarışıqda monomerlərin miqdarı, mol%		Birgəpolimerlərin tərkibləri, mol%		Birgəpoli-merləşmə sabitləri		İkiqat rabitənin miqdarı,%	[η] dl/q	Fotohəs-saslıq, $sm^2 \cdot C^{-1}$
	M_1	M_2	m_1	m_2	r_1	r_2			
1	10	90	26.58	73.42			2.52	0.91	
2	25	75	48.91	51.07			7.03	-	
3	50	50	71.59	28.41	2.2	0.27	9.97	0.86	
4	75	25	86.42	13.58			14,7	-	54
5	90	10	95.09	4.91			23.79	0.87	

Cədvəl 1-dən aydın olur ki, birgəpolimerin tərkibi ilkin monomer qarışığının molyar tərkibindən kəskin şəkildə asılıdır. Əldə olunan birgəpolimerdə stirol monomerinin ilkin qarışıqda miqdarının 10-90 mol % intervalında dəyişilməsi birgəpolimerin tərkibində stirol manqaların mol %-nin ~ 26.58 mol %-dən 95.09 mol %-ə kimi yüksəlməsi ilə nəticələnir. Birgəpolimerləşmə reaksiyasında sürət sabitlərindən görünür ki, stirol izopren monomerinə nisbətən daha aktiv monomerdir. Gel-nüfuzedici xromotoqrafiya metodunun köməyi ilə birgə polimerin molekul kütlələri təyin edilmişdir.Poli(stirol + izopren): $\overline{M}_w$ ~72500, $\overline{M}_n$ ~25000, $\overline{M}_w$ / $\overline{M}_n$ ~2.9

Alınmış birgəpolimerin makromolekulunun xətti quruluşda olması, yan fraqmentdə daxili ikiqat rabitənin varlığı bu birgəpolimerin fiziki-mexaniki göstəricilərini yüksəltməklə yanaşı onların UB-şüaların təsirinə həssas obyekt kimi fotokimyəvi tədqiqatlarda istifadəsi üçün maraq doğurur və fotohəssas rezist materialların yaradılmasında istifadə olunma imkanını mümkün edir.

Müəyyən edilmişdir ki, birgəpolimerin tərkibində stirolun miqdarı artdıqca onun teplofiziki xassələri gözə çarpacaq qədər yüksəlir. Digər tərəfdən makromolekulun tərkibində izopren monomerinə uyğun fraqmentin miqdarı artdıqca sintez edilmiş birgəpolimerin elastiklik xassəsi yüksəlir.Birgəpolimerlər əsasında hazırlanmış polimer örtük nümunələrinin sıxılması zamanı onların çat vermədən deformasiyaya uğramaları göstərir ki, bu polimerlər elastiklik xassələrinə də malikdirlər. Bu onu göstərir ki, polistirolda praktiki olaraq olmayan kövrəklik, adgeziya və digər xassələr sintez edilmiş bu polimerdə yüksəkdir. Stirolun izopren ilə birgəpolimeri üçün adgeziyanın qiyməti 10 Mpa-a bərabərdir.

Stirolun izopren ilə birgəpolimeri üçün fotohəssaslıq Ψ=55 sm^2/C-a bərabərdir. Aşkar edilmişdir ki, tikilmə prosesinin ilk anında çox sürətlə, sonra isə tədricən baş verir.

İQ-spektrin köməyi ilə müəyyən edilmişdir ki, UB-şüaların təsirindən strukturlaşma prosesində makromolekulun yan zəncirində olan ikiqat rabitələr iştirak edir. Fotohəssaslıqla yanaşı birgəpolimer çox yaxşı adgeziya, örtük əmələ gətirmək və digər litoqrafik xassələrə malikdir. Eyni zamanda sintez edilmiş bu birgəpolimerin bəzi fiziki-mexaniki və teplofiziki xassələrini arzu olunan istiqamətə yönəltmək mümkündür.

Ədəbiyyat

1. Булгакова С.А., Мазанова Л.М., Лопатин Л.Я. и др. Резисты с химиическим усилением на основе гомополимера трет бутоксикарбонилокси-стирола и его сополимера с метилметакрилатом. // Высокомолек. соед. А 2004. Т.46. №6. С.1052-1060.
2. Галактионов Д. Пластикс. 2007. № 7-8. С. 53-54.
3. Гейдур С.А. Экономика и производство. Технологии, оборудование, материалы. 2003. № 3(73). С. 54-58.
4. Комаров И.В., Григоренко А.О., ТуровА.В. и др. Успехи химии 2004. Т. 73. № 8. С. 793.
5. Atsuhiro Nakahara, Kotaro Satoh and Masami Kamigaito. Macromolecules 2009. V. 42. N 3. P. 620–625. https://pubs.acs.org/doi/abs/10.1021/ma802024t

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ ФОТОЧУВСТВИТЕЛЬНОГО ПОЛИМЕРА

Мамедли С.Б., Алемдарлы А.В., Искендерова Э.Г., Чобанова У.Ф., Заманов О.С., Алиева С.Я.

Резюме

Осуществлена радикальная сополимеризация стирола с изопреном. Сополимеризация протекает с раскрытием двойной связи винильной группы стирола и изопрена. Определены константы сополимеризации (r_1=2.2, r_2=0.27). Синтезированные сополимеры способны к структурированию под действием УФ-облучения и проявляют хорошие фоточувствительные свойства (Ψ=54 см^2·Дж$^{-1}$). Выявлено, что величина адгезии для сополимера стирола с изопреном равна 10 МПа.Определены показатели молекулярной массы сополимера (поли стирол+изопрен: $\overline{M}_w$ =725000, $\overline{M}_n$ =250000. $\overline{M}_w$ / $\overline{M}_n$ =2.9).

SYNTHESIS AND STUDY OF PHOTOSENSITIVE POLYMER

Mamedli S.B., Alemdarly A.V., Isgenderova E.G.,
Chobanova U.F., Zamanov O.S. Aliyeva S.Ya.

Summary

Radical copolymerization of styrene with isoprene was carried out. It is shown that their copolymerization proceeds with the opening of the double bond of the vinyl group of styrene and isoprene. The copolymerization constants were determined (r_1=2.2, r_2=0.27). It is shown that the synthesized copolymers are capable of structuring under UV-irradiation and exhibit good photosensitive properties (Ψ=54 cm^2·J^{-1}). It was found that the value of adhesion for the copolymer of styrene with isoprene is 10 MPa. The molecular weight indices of the copolymer(polystyrene+isoprene)weredetermined: $\overline{M}_w$ =725000, $\overline{M}_n$ =250000. $\overline{M}_w$ / $\overline{M}_n$ =2.9).

FOTOHƏSSAS POLİMERİN SİNTEZİ VƏ TƏDQİQİ

Məmmədli S.B., Ələmdarlı A.V., İsgəndərova E.Q.,
Çobanova Ü.F., Zamanov Ö.S., Əliyeva S.Y.

Xülasə

Stirolun izoprenlə radikal binar birgəpolimerləşməsi həyata keçirilmişdir. Birgə polimerləşmə prosesi stirol və izoprendə vinil qrupunda ikiqat rabitənin açılması ilə reallaşır. Birgə polimerləşmə sabitləri müəyyən edilmişdir (r_1=2.2, r_2=0.27). Sintez edilmiş birgəpolimer UB şüalarının təsiri altında strukturlaşmağa qadirdir və yaxşı fotohəssaslıq xüsusiyyətlərinə malikdirlər (Ψ=54 sm^2·C^{-1}). Stirol və izoprenin sopolimeri üçün adgeziya qiyməti 10 MPa-dır. Birgəpolimerin molekul kütləsi təyin olunmuşdur (stirol+izopren: $\overline{M}_w$ =725,000, $\overline{M}_n$ =250,000. $\overline{M}_w$ / $\overline{M}_n$ =2,9).

SALİSİL TURŞUSUNUN ALLİL EFİRNİN METİLMETAKRİLATLA BİRGƏPOLİMERİ VƏ ABS ƏSASINDA ANTİBAKTERİAL KOMPOZİSİYA MATERİALININ ALINMASI VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Abbasova L.Ş., Məmmədov B.Ə.

Polimer Materialları İnstitutu

Açar sözlər: *Salisil turşusununun metilmetakrilatla birgəpolimeri, akrilonitril-butadien-stirol birgəpolimeri, antibakterial kompozisiya materialı.*

Key words: *copolymer of salicylic acid with methyl methacrylate, acrylonitrile-butadiene-styrene copolymer, antibacterial composition material.*

Ключевые слова: *сополимер салициловой кислоты с метилметакрилатом, акрилонитрил-бутадиен-стирольный сополимер, антибактериальный композиционный материал.*

Salisil turşusunun allil efirinin matilmetakrilatla birgəpolimerindən antibakterial əlavə kimi istifadə olunmaqla ABS (akrilonitril-butadien-stirol birgəpolimeri) əsaslı antibakterial kompozisiya materialları (KM) alınmış və xassələri öyrənilmişdir. Tərkibinə 4, 12, 20 kütlə % salisil turşusunun allil efirinin matilmetakrilatla birgəpolimeri əlavə edilmiş ABS kompozisiya materialının fiziki-mexaniki xassələri praktiki olaraq dəyişmir, lakin əlavənin miqdarının artırılması ilə termiki davamlılıq xassələri yüksəlir. Alınmış kompozisiya materiallarının antimikrob xassələri tədqiqi edilmişdir. Antigöbələk və antibakterial xassələri üçün test-kultura kimi Qram müsbət mikroorqanizmlərdən qızılı stafilokoklar (*S.aureus*), Qram mənfilərdən bağırsaq çöpləri (*E.coli*), piqment əmələ gətirənlərdən göy-yaşıl irin çöpləri (*P.aeruginoza*), göbələklərdən isə Candida cinsindən olan *C.albicans* götürülmüşdür. Bakteriyaları becərmək üçün ƏPA (ətli-peptonlu aqar), göbələkləri becərmək üçün Saburo qidalı mühitindən istifadə edilmişdir və aparılan sınaqlar göstərmişdir ki, alınan kompozisiyaların heç birində nə vizual, nə də mikroskopik görüntülərə görə dəyişiklik baş vermir. Müəyyən edilmişdir ki, əldə edilmiş polimer kompozit materialları həm bakterisid, həm də funqisid xüsusiyyətlərinə malikdir.

Polimer materialların və onlardan hazırlanan məmulatların mikrobioloji aqressiyadan qorunması məqsədilə antimikrob polimer materiallarının (AMP) hazırlanması texnologiyasının inkişafı bir neçə istiqamətdə həyata keçirilir ki, bunlardan biri də polimer materialların emalı əsnasında onların tərkibinə təbii və sintetik antimikrob əlavələrin daxil edilməsidir [1].

Polietilen, polistirol, akrilonitril-butadien-stirol birgəpolimerləri kimi çox geniş istifadə olunan polimerlərin antimikrob xassəli kompozisiya materiallarının alınması üçün bir sıra üsullar təklif olunmuşdur. AMA içərisində ən geniş tədbiq olunan metallik gümüş tozu və onun duzları yüksək antimikrob xassələr daşımaqla yanaşı zəhərsiz olması ilə fərqlənirlər. Hal-hazırda gümüş və gümüş əsaslı preparatlardan yeni antimikrob xassəli polimer materialların alınması istiqamətində geniş tədqiqatlar aparılır və bu sahədə ədəbiyyatda geniş məlumat vardır [2-3].

Quandinin hidroxlorid duzlarının diaminlərlə polikondensləşməsindən alınan oliqomerləri polietilen, polipropilen, polistirol kimi polimerlərə əlavə olunduqda yüksək antibakterial xassələrə malik kompozitlər əldə edilir [4].

Salisil turşusunun akril və metakril efirlərindən antimikrob əlavə kimi istifadə olunduqda bu aşqarlar tədriclə mühitdə olan su buxarlarının təsiri ilə hidrolizə uğrayır, polimerin səthində salisil turşusu təbəqəsi yaranır və məmulatın səthi müəyyən müddət steril olur.Təqdim olunan məqalə salisil turşusunun allil efirinin metilmetakrilatla əmələ gətirdiyi birgəpolimerdən antibakterial və antifunqisid əlavə kimi istifadə etməklə ABS əsaslı antibakterial kompozisiya materiallarının alınması və xassələrinin tədqiqinə həsr olunmuşdur.

Kompozisiya materiallarının hazırlanması və fiziki-mexaniki xassələrinin təyini:

ABS kompozisiya materialı- tərkibində 70% ABS birgəpolimeri (akrilonitril-butadien-stirol) və 30% kalsit mineralı ($CaCO_3$) saxlayan, özlü-axıcılıq temperaturu 180ºC olan maddədir. İlkin ABS- keton, mürəkkəb efir, aseton, metiletilketon, 1,2-dixloretan və etilasetatda həll edilə bilir.

Antibakterial kompozisiya materiallarının hazırlanması üçün akrilonitril-butadien-stirol və salisil turşusunun allil efirinin metilmetakrilatla birgəpolimeri (STAlEMMABP) qarışdırılaraq 170ºC temperaturda ekstruderdən keçirilir. Daha sonra 15 MPa təzyiq altında presdə standart lövhə halına salınır.

Alınmış kompozisiya materiallarının tərkibi aşağıdakı kimidir:

KM_1 - ABS komp;

KM_2 –ABS komp+4 kütlə % STAlEMMABP əlavə;
KM_3 –ABS komp+12 kütlə % STAlEMMABP əlavə;
KM_4 –ABS komp+20 kütlə % STAlEMMABP əlavə;

Son dartılma gərginliyi (σ, MPa) və qırılma zamanı uzanma (ε, %) QOST 11262-80-ə uyğun olaraq təyin edilmişdir.

Kompozitlərin ərintisinin axıcılıq göstəricisinin (ƏAG) təyini ASTM D1238-10 standartına müvafiq olaraq CEAST MF50 markalı (İNSTRON, *İtaliya*) kapilyar reometrdə 200ºC temperaturda və 2.160 kq yükün təsiri altında həyata keçirilmişdir.

XXI əsrin ilk dövrü elmimiz üçün uğurlu illər kimi tarixə öz töhvəsini verdi. Ulu öndərin elmə və elm adamlarına olan xoş münasibəti sayəsində nəzərə çarpan nailiyyətlər əldə edilmişdir. Azərbaycan Elmlər Akademiyasının Milli Elmlər Akademiyası adlandırılması barədə Ulu Öndərimizin 15 may 2001-ci il tarixli 484 saylı fərmanı və onun Milli Elmlər Akademiyasının qarşısında qoyduğu vəzifələr hər bir elm adamını yeni nailiyyətlər qazanmağa səfərbər etdi. Milli Elmlər Akademiyası Ali Dövlət Elmi təşkilat olmaqla səciyələnirdi. Azərbaycanda elmin müxtəlif sahələrində mühüm hökümət qərarları, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və onların hər biri respublikanın elmi-iqtisadi potensialının artırılmasında həlledici rol oynamışdır.Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq xalqımızın rifahı Azərbaycan Dövlət müstəqilliyinin möhkəmləndirilməsinə beynəlxalq nüfuzunun yüksəlməsi ilə mövcudluğuna xidmət edir.

Elmin nəzəri və təcrübi inkişafı müstəqil dövlətin elmi və mədəni durumunun mühüm amillərindəndir. Elmin inkişafı sənayenin kompleks inkişafı ilə sıx bağlılığı məlumdur və bu amil əhalinin rifahını, sağlamlığını yaxşılaşdırmaqla ölkənin mövqeyini təyin edən əsas amildir. Ulu Öndərimizin fenomen uzaqgörən siyasəti ilə respublikamızda elmin bütün mərhələləri üzrə inkişafı ilə yanaşı qlobal ekoloji problemlərinin həlli istiqamətində də əvəzsiz dəyərli tövsiyyələri hər zaman müasir təxirəsalınmaz gündəlik proqrama çevrilmişdir. Hələ dünya alimləri ekoloji gərginliyin azaldılması məqsədi ilə planetin yaşıllaşdırılmasının öncül amili olduğunu söylədiklərindən xeyli müddət əvvəl Ulu Öndərimiz Heydər Əliyev: *hərəyə bir ağac əkək; bir ağacı kəsən sanki mənim bir qolumu kəsir,* [1, 2] kəlamı ən təsirli ifadəsi, eləcə də əxlaqi, tərbiyəvi, əhəmiyyətli olduğunun bu gün də əyani şahidi oluruq [3, 4]. Bunun nəticəsində təbiətə doğma münasibət bəsləməli, ekoloji məsuliyyətə, ekoloji mədəniyyətə, ekoloji biliyə, savada yiyələnmək və onu reallaşdırmaqda hər birimiz ücün örnək olmalıdı. Ulu Öndərimiz Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyi məktəbinin inamla inkişafını, əbədi davam etdirilməsini və onun ictimai siyasi ideyalarının davamçısı, prezidentimiz möhtərəm cənab İlham Əliyevin Azərbaycan Respublikasında hər tərəfli inkişafın sürətləndirilməsi barədə tədbirləri, fərmanları işıqlı sabahlara təminatın bariz nümunəsinə çevrilmişdir. Dövləti-xalqa, xalqı-dövlətə möhkəm sarsılmaz tərzdə bağlayan məhz bu təminatıdır. Ulu Öndərin tövsiyyələrinin həyata keçirərək elmin digər sahələrlə əlaqələrini daha da möhkəmləndirilməsini elm adamları özünün əsas vəzifələrindən biri saymış və bu istiqamətdə fəailiyyət göstərməklə bir sıra nailiyyətlər qazanmışlar. Elmi nəticələrin istehsalata tətbiqinin reallaşdırılmasında Ulu Öndərin köməyi daim hiss edilirdi. Həmin dövrlərdə Azərbaycan elminin tərəqqisində alimlərimiz xarici ölkə alimləri ilə elmi əlaqələri daha da möhkəmlətmiş və qarşılıqlı əməkdaşlıq zəminində xüsusi proqramlar hazırlanaraq həyata keçirilmişdir. Bu baxımdan Ulu öndərimiz Heydər Əliyevin əsəri olan Azərbaycanımızın hər tərəfli inkişaf etdirilməsi o, cümlədən elmimizin inkişafı naminə onu qorumaq yaşatmaq və ucaltmaq hər birimizin müqəddəs borcu olmalıdır və labüddür.

Ədəbiyyat

1. Cəfərov V.C.Kim.sən.yeni ink. mər. Ast. // Xalq qəzeti № 159 (25629), 21 iyul 2007 s. 93
2. Cəfərov V.C.Azərb. yeni NeftKim.və gübrə komp. yarad.//Xalq qəz.№ 210(25978)19 sent. 2008.s.7
3. Cəfərov V.C. Ətraf mühitin qorunması ümumbəşəri problemdir //Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin 85 illiк yubileyinə həsr olunmuş кonfrans materialları. Sum. şəhə-rinin sosial iqtisadi inкişafı; mövcud problem və perspeкtivlər.Sumqayıt 2008, s.17-21
4. Cəfərov V.C., Babayeva G.R., Vəliyev İ.V. Ekoloji gərginlik problemləri və onların aradan qaldirilması //Ümummilli lider H.Əliyevin 90 il yubileyinə həsr olunmuş "Ekoloji problemlər və ekoloji təsir" mövzusunda Respublika elmi konf. materialları, 2013 s.150-151
5. Cəfərov V.C. Yeni kimya və neft-kimya kompleksinin Sum. sən. bölqəsində yaradılması müstəgil dövlətimizin iqtisadiyyatına qüclü təkandır //Sumqayıt qəzeti 2019, 25 may, s.3

РОЛЬ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКИЙ НАУКИ

Джафаров В.Д.

Резюме

Если бы к руководству Азербайджана не вернулся такой гений, как великий лидер Гейдар Алиев, армянские убийцы совершили бы еще более страшные злодеяния против нашей страны и соотечественников. Наша страна была бы разделена на отдельные регионы и части. Однако сегодняшнее развитие нашей республики благодаря способностью великого лидера бросает вызов во всех аспектах, в политическом, в финансовом, в научном и т.д. В период своей деятельности великий лидер, за короткое время, благодаря своей безграничной любви к стране и народу, спас Азербайджан от трудностей во всех сферах, включая социальную, политическую, экономическую, научную, производственную и другие области, и добился высоких успехов нашей страны своими масштабными мероприятиями и патриотическими инициативами. Таким образом, создание, сохранение и успешное доведение независимости Азербайджана до наших дней было налажено благодаря упорному труду и мужеству великого лидера. Сегодня я горжусь тем, что советы и идеи великого лидера получили продолжение благодаря смелой политике уважаемого президента господина Ильхама Гейдар оглу Алиева.

THE ROLE OF GREAT LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF AZERBAIJANI SCIENCE

Jafarov V.C.

Summary

If a genius like the great leader Heydar Aliyev had not returned to the leadership of Azerbaijan, the Armenian murderers and perpetrators of the genocide would have committed even worse atrocities against our country and compatriots. Our country would be divided into separate regions and parts. But today's development of Azerbaijan is characterized by the great leader's ability to challenge in every way (political, financial, powelful, scientific, etc). During the great leaders activity, from the first day thanks to his great love for Azerbaijan and his infinite love for the country and the people, he implemented large – scale measures with determination to get rid of all the difficulties that Azerbaijan which was lagging behind in social, political, economic, scientific, industrial and other fields, in short time and with patriotic initiations our country achieved its confident progress, the creation, preservation and successful delivery of Azerbaijan's independence to this day was established thanks to his hard work and courage of the great leader. Today I am proud that thanks to the courage of our honorable president, Mr. Ilham Heydar oglu Aliyev, who continued the great leader's advice and ideas with high skill.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNİN İNKİŞAFINDA ROLU

Cəfərov V.C.

Xülasə

Ulu öndər Heydər Əliyev kimi dahi şəxsiyyət Azərbaycana rəhbərliyə qayıtmasaydı erməni qatilləri soyqırımı törədənlər ölkəmizə, soydaşlarımıza qarşı daha betər açınacaqlı vəhşiliklər törədəcəkdilər. Ölkəmiz ayrı-ayrı bölgələrə, hissələrə bölünüb parçalanacqdır. Lakin Azərbaycanımızın bugünkü inkişafı hər cəhətdən: (siyasi, maddi, qüdrətli, elmi və s.) meydan oxumağı Ulu öndərin hünəri ilə səciyyələnir. Ulu öndər fəaliyyəti dövründə ilk gündən Azərbaycana böyük sevgisi, vətənə-xalqa sonsuz məhəbbəti sayəsində hər bir sahədə o, cümlədən ictimai siyasi, iqtisadi, elmi, sənaye və digər sahələrdə çox geridə qalmış

Azərbaycanı qısa zaman içərisində düçar olduğu bütün sahələrdəki çətinliklərdən qurtarmaq əzmi ilə həyata keçirdiyi geniş miqyaslı tədbirlərlə və vətənpərvər təşəbbüsləri ilə ölkəmiz öz inamlı tərəqqisinə nail oldu. Belə ki, Azərbaycanın müstəqilliyinin yaradılması, qorunub saxlanılması və bu günə uğurla çatdırılması məhz Ulu Öndərin gərgin əməyinin, cəsarətinin bəhrəsi sayəsində bərqərar oldu. Bu gün Ulu Öndərin nəsihətlərini, ideyalarını yüksək bacarıqla davam etdirən möhtərəm prezidentimiz cənab İlham Heydər oğlu Əliyevin çəsarəti sayəsində inamla davam etdirilməsi ilə qürurlanıram.

TSİKLOALKİLƏVƏZLİ XLORKETONLARIN ETANOLAMİNLƏ REAKSİYASI

[1]Əhmədova N.Y., [2]Məmmədov E.İ., Mehdiyeva S.T.

Azərbaycan Dövlət Pedaqoji Universiteti[1] Azərbaycan Texniki Universiteti[2]
hasanovanur@gmail.com, mammadov.elman@rambler.ru

Açar sözlər: *tsikloalkankarbon turşularının xloranhidridləri; 3-xlor- və 2-metil-3-xlorpro-penlər; 1-tsikloalkil-3-R[1]-3,4-dixlor-1-butanonlar; 1-tsikloalkil-3-R[1]-4-xlor-2-buten-1-onlar; etanolamin; 1,2- və 1,2,4-əvəzli pirollar.*

Ключавые слова: *хлорангидриды циклоалканкарбоновых кислот; 3-хлор- и 2-метил-3-хлорпропены;1-циклоалкил-3-R[1]-3,4-дихлор-1-бутаноны;1-циклоалкил-3-R[1]-4-хлор-2-бутен-1-оны; этаноламин; 1,2- и 1,2,4-замещенные пирролы.*

Keywords: *acid chlorides of cycloalkanecarboxylic acids; 3-chloro- and 2-methyl-3-chloropropenes; 1-cycloalkyl-3-R[1]-3,4-dichloro-1-butanones; 1-cycloalkyl-3-R[1]-4-chloro-2-buten-1-ones; ethanolamines; 1,2- and 1,2,4-substituted pyrroles.*

Xlor atomu, ikiqat rabitə və karbonil qrupu kimi aktiv funksional qruplar saxlayan doymuş və doymamış xlorketonlar bir- və ya ikiheteroatomlu beş- və altıüzvlü heterotsiklik birləşmələrin sintezi üçün vacib və perspektivli birləşmələr sinfinə aiddirlər[1,2]. Karbon turşuları xloranhidridlərinin Fridel-Krafts katalizatorları iştirakı ilə doymamış karbohidrogenlərə və onların xlorəvəzli törəmələrinə elektrofil birləşmə reaksiyaları xlorketonların alınmasının ən mühüm reaksiyalarından biridir [1,3,4].

Bir çox təbii birləşmələrin tərkibinə daxil olan pirrol törəmələri canlı orqanizmlərdə mühüm fizioloji funksiyalar yerinə yetirirlər. Pirrol həlqəsi hemoqlobinin, xlorofillin, bir çox alkaloidlərin, dərman maddələrinin, amin turşuların və s. tərkibinə daxildir [5,6].

Tsikloalkankarbon turşuları xloranhidridlərinin və onların xlor törəmələrinin 3-xlor- və 2-metil-3-xlorpropenlərə $AlCl_3$ katalizatoru iştirakı ilə dixloretan mühitində -15 ÷ -20^{0}C temperaturda elektrofil birləşmə reaksiyaları Markovnikov qaydası üzrə gedir və reaksiyanın ilk məhsulu 1-tsikloalkil-3-R[1]-3,4-dixlor-1-butanonlar (IIIa-h, IVa-h) olur.



Ia-h IIa,b IIIa-h, IVa-h

Ia-h, IIIa-h, IVa-h R=ts-C_5H_9(a), ts-C_6H_{11}(b), 1-Cl-ts-C_5H_8(c), 1-Cl-ts-C_6H_{10}(d), 4-Cl-ts- C_6H_{10}(e), 2-Me-ts-C_6H_{10}(f), 2-Me-4-Cl-ts-C_6H_9(g), 1,4-Cl_2-ts-C_6H_9(h); IIa, IIIa-h R^1=H; IIb, IVa-h, R^1=Me

Məlumdur ki, IIIa-h və IVa-h dixlorbutanonlar vakuum altında distillə olunaraq asanlıqla 2- və 2,4-əvəzli furan birləşmələrinə (Va-h,VIa-h) çevrilirlər [4], ancaq onlara DMFA mühitində 80-85^{0}C temperaturda Na_2CO_3-lə təsir etdikdə 60-75^0 % çıxımla 1-tsikloalkil-3-R^1-4-xlor-2-buten-1-onlar (VIIa-h,VIIIa-h) alınır.



R və R^1 yuxarıda göstərilənlərdir.

Müəyyən edilmişdir ki, IIIa-f və IVa,b,d-f dixlorketonların EA-lə 1:3 və ya III,IV: EA:TEA(trietilamin)=1:1:2 nisbətində, efir və ya su-efir mühitində, 35 - 40^{0}C temperaturda 5-6 saat reaksiyasından 70-90% çıxımla 1-(2-oksietil)-2-tsikloalkilpirrol (IXa-f, Xa,b,d-f) törəmələri alınır.



R, R^1-yuxarıda göstərilənlərdir.

IXa-f, Xa,b,d-f pirrol birləşmələrini, həmçinin VIIa-f, VIIIa,b,d-f doymamış ketonlara efir və ya su-efir mühitində EA-nın ikiqat artığı və ya EA:TEA=1:1 qarışığı ilə təsir etməklə də almaq olar.



VII,VIII doymamış xlorketonların və IX,X pirrolların quruluşu İQ və NMR ^{1}H spektrlərinin məlumatlarına görə təsdiq olunmuşdur.

Ədəbiyyat

1. Боженков Г.В., Левковская Г.Г., Ларина Л.И., Ушаков П.Е., Долгушин Г.В., Мирскова А.Н. Синтез, строение и свойства 1,2- дихлорвинилалкилкетонов. ЖОрХ, 2004, Т.40, Вып.11, с.1632-1640.

2. Исмаилов А.Г., Мамедов Э.И. Синтез моно- и полигалоидциклоалкилвинил- и этилкетонов. Ученые записки БГУ, Сер. хим. наук, 1973, №3, с.61-65.

3. Ибрагимов И.И., Мамедов Э.И., Исмайлов А.Т., Алиев А.Г., Мехтиева Ш.З., Джафаров В.Г., Беляева В.И. Химия систем аллилъногa типа. II. Ацилирование 3-бром- и 2-метил-1-пропенов. ЖОрХ, 1990, Т.26, Вып.8, с.1648-1654.

4. Guseinova V.A., Zaidova Q.A., Mammadov E.I. Reaction of choloroanhydrides of cycloalkanecarboxilic acids with some allylic chlorides. Chem.Prob.2021,№3(19),pp.179-185.

5. Джоулъ Дж., Миллс К. Химия гетероц. соединений, М., Мир, 2009, 728 с.

6. Машковский М.Д. Лекарс. средства: в 2-х томах. Мед., 1998, Т.1, 624 с; Т.2,575 с.

РЕАКЦИЯ ЦИКЛОАЛКИЛЗАМЕЩЕННЫХ ХЛОРКЕТОНОВ С ЭТАНОЛАМИНОМ

Ахмедова.Н.Я, Маммадов. Э.И., Мехтиева С.Т.

Резюме

При электрофильном присоединении хлорангидридов циклоалканкарбоновых кислот к 3-хлор- и 2-метил-3-хлорпропенам были получены 1-циклоалкил-3-R^1-3,4-дихлор-1-бутаноны, которые при обработке с карбонатом натрия в ДМФА образуются 1-циклоалкил-3-R^1-4-хлор-2-бутен-1-оны. При реакции циклоалкилзамещенных насыщенных и ненасыщенных хлоркетонов с этаноламином в среде эфира или водно-эфирной при температуре 35 - 40ºС образуются 1,2- и 1,2,4-производные пиррола. Строение синтезированных насыщенных и ненасыщенных хлоркетонов, 1,2- и 1,2,4-замещенных пирролов были подтверждены данными спектров ИК и ЯМР ^{1}H.

REACTION OF CYCLOALKYL-SUBSTITUTED CHLOROKETONES WITH ETHANOLAMINE

Ahmadova.N.Y., Mammadov.E.I., Mehdiyeva S.T.

Summary

Electrophilic addition of cycloalkanecarboxylic acid chlorides to 3-chloro- and 2-methyl-3-chloropropenes gave 1-cycloalkyl-3-R^1-3,4-dichloro-1-butanones, which, upon treatment with sodium carbonate in DMFA, form 1-cycloalkyl-3-R^1-4-chloro-2-buten-1-ones. During the reaction of cycloalkylsubstituted saturated and unsaturated chloroketones with ethanolamine in ether or water-ether media at a temperature of 35 - 40ºC 1,2- and 1,2,4-pyrrole derivatives are formed. The structures of the synthesized saturated and unsaturated chloroketones, 1,2- and 1,2,4-substituted pyrroles were confirmed by IR and NMR ^{1}H spectra.

TSİKLOALKİLƏVƏZLİ XLORKETONLARIN ETANOLAMİNLƏ REAKSİYASI

Əhmədova N.Y., Məmmədov E.İ., Mehdiyeva S.T.

Xülasə

Tsikloalkankarbon turşuları xloranhidridlərinin 3-xlor- və 2-metil-3-xlorpropenlərə elektrofil birləşmə reaksiyasından 1-tsikloalkil-3-R^1-3,4-dixlor-1-butanonlar alınmış və onların DMFA mühitində Na_2CO_3 ilə qarşılıqlı təsirindən 1-tsikloalkil-3-R^1-4-xlor-2-buten-1-onlar əmələ gəlmişdir. Tsikloalkiləvəzli doymuş və doymamış xlorketonların efir və ya su-efir mühitində 35 - 40^{0}C temperaturda etanolaminlə (EA) reaksiyasından 1,2- və 1,2,4-əvəzli pirrol birləşmələri alınmışdır. Sintez olunmuş doymuş və doymamış xlorketonların, 1,2- və 1,2,4-əvəzli pirrolların quruluşları İQ və NMR ^{1}H spektrlərinin məlumatlarına görə təsdiq olunmuşdur.

ASİLLƏŞMƏ REAKSİYASI PARAMETRLƏRİNİN TƏDQİQİ

Zaidova Q.Ə., Məmmədov E. İ.

Azərbaycan Texniki Universiteti

zaida.zaid88@gmail.com; mammadov.elman@ rambler.ru

Açar sözlər: *tsikloalkankarbon turşularının xloranhidridləri; 3–xlorpropen; 2-metil -3-xlorpropen; 2-tsikloalkilfuranlar; 2-tsikloalkil-4-metilfuranlar.*

Keywords: *chloroanhydrides of cycloalkane carboxylic acids; 3-chloropropen; 2-methyl-3-chloropropen; 2-cycloalkylfurans; 2-cycloalkyl-4- methylfurans.*

Ключевые слова: *хлорангидриды циклоалканкарбоновых кислот; 3-хлорпропен; 2-метил-3-хлорпропен; 2-циклоалкилфураны; 2-циклоалкил-4-метилфураны.*

Bioloji-aktiv və dərman maddələrinin əksəriyyəti tərkibində bir və ya iki heteroatomlu beşüzvlü heterotsiklik birləşmələr saxlayır [1,2]. Ona görə də, belə quruluşlu birləşmələrin yeni sadə, əlverişli üsullarla sintezi müasir üzvi kimyanın ən mühüm problemlərindən biridir. Molekulda bir heteroatomlu beşüzvlü heterotsiklik həlqənin yaradılması üçün 1,4-difunksional birləşmələrdən, o cümlədən 1,4-halogenketonlardan geniş istifadə edilir [3-9].

Karbon turşuları xloranhidridlərinin allil tipli xloridlərə(ATX)−3-xlor- və 2-metil-3-xlorpropenlərə elektrofil birləşmə reaksiyaları Markovnikov qaydası üzrə gedir və karbon turşularının quruluşundan asılı olaraq doymamış xlorketonlar və ya 2- və 2,4-əvəzli furan birləşmələri, həmçinin onların qarışığı alınır [7,8].

Bu reaksiyalarda tsikloalkankarbon turşularının xloranhidridləri (TAKTXA) götürüldükdə reaksiyanın əsas istiqaməti 2- və 2,4-əvəzli furanların alınması olur [5,6,8].



R=ts-C_6H_{11}; 1-Cl-ts-C_6H_{10}; 4-Cl-ts-C_6H_{10}; 1,4-Cl_2-ts-C_6H_9;

R^1 = H, CH_3

Sintez olunan furanların quruluşu İQ və NMR ^{1}H spektrlərinə görə təsdiq olunmuşdur.

Reaksiya parametrlərinin (temperatur, başlanğıc maddələrin mol nisbəti, katalizator və həlledicinin təbiəti) reaksiyanın istiqamətinə və çıxımına təsiri tədqiq edilmişdir [8].

Müəyyən edilmişdir ki, Fridel-Krafts katalizatorlarından ən effektlisi susuz alüminium xloriddir ($AlCl_3$). Bu vaxt reaksiyanın çıxımı ən yüksək olur (~85-95%). Götürülən digər katalizatorlar ($ZnCl_2$, $SnCl_4$) az effektli olmuşdur (~10-15% çıxım).

Reaksiya müxtəlif həlledicilər (benzol, toluol, dixloretan, metilen xlorid, nitrometan və s.) iştirakı ilə aparılmışdır. Tədqiqatlar göstərmişdir ki, ən əlverişli həlledicilər dixloretan ($C_2H_4Cl_2$) və metilen xloriddir (CH_2Cl_2).

TAKTXA:ATX:$AlCl_3$–1:1.1:1.05 nisbətində furanların ən yüksək çıxımları müşahidə olunmuşdur.

TAKTXA-nın 3-xlorpropenə elektrofil birləşmə reaksiyasının optimal temperaturu -15 ÷ -20℃-dir, 2-metil-3-xlorpropen götürdükdə isə reaksiyanı daha aşağı təmperaturda (-25 ÷ -30℃) aparmaq mümkündür. Görünür ki, 2-metil-3-xlorpropendə metil qrupunun +J −effekti ikiqat rabitənin elektron sıxlığını artırır, ona görə də elektrofil birləşmə reaksiyası asanlaşır və reaksiyanın temperaturu aşağı düşür.

Beləliklə, TAKTXA-nın 3-xlor- və 2-metil-3-xlorpropenlərə elektrofil birləşmə reaksiyaları Markovnikov qaydası üzrə gedir və reaksiyanın çıxımı reaksiya parametrlərindən (temperatur, başlanğıc maddələrin mol nisbəti, katalizator və həlledicinin təbiəti) asılıdır.

ИССЛЕДОВАНИЕ ПАРАМЕТРОВ РЕАКЦИИ АЦИЛИРОВАНИЯ

Заидова Г.А., Маммадов Э. И.

Резюме

2- и 2,4- замещенные фураны образуются в результате реакций электрофильного присоединения хлорангидридов циклоалканкарбоновых кислот с 3-хлор- и 2-метил-3-

хлорпропенами. Изучено влияние параметров реакции (температура, мольное соотношение исходных веществ, природа катализатора и растворителя) на выход и направленность реакции. Строение синтезированных фуранов подтверждено спектрами ИК и ЯМР ^{1}H.

INVESTIGATION OF THE PARAMETERS OF THE ACYLATION REACTION

Zaidova G. A., Mammadov E.I.

Summary

2- and 2,4- substituted furans are formed as a results of electrophilic coupling reactions of cycloalkanecarxylic acid chlorides with 3-chloro- and 2-methyl-3-chloropropenes. The influence of the reaction parameters (temperature, molar ratio of starting materials, nature of the catalyst and solvent) on the yield and direction of the reaction is studied. The structure of the synthesized furans are confirmed by IR and NMR ^{1}H spectra.

ASİLLƏŞMƏ REAKSİYASI PARAMETRLƏRİNİN TƏDQİQİ

Zaidova Q.Ə., Məmmədov E. İ.

Xülasə

Tsikloalkankarbon turşuları xloranhidridlərinin 3-xlor- və 2-metil-3-xlorpropenlərə elektrofil birləşmə reaksiyalarından 2- və 2,4-əvəzli furanlar əmələ gəlir. Reaksiyanın çıxımına və istiqamətinə reaksiya parametrlərinin (temperatur, başlanğıc maddələrin mol nisbəti, katalizator və həlledicinin təbiəti) təsiri tədqiq edilmişdir. Sintez olunan furanların quruluşları İQ və NMR ^{1}H spektrləri vasitəsilə təsdiq olunmuşdur.

Ədəbiyyat

1. Джоуль Дж. и Миллс К. Химия гетероциклических соединений. М.: Мир, 2009, 728 с.
2. Юровская М.А. Химия ароматических гетероциклических соединений. М.: Бином,2015, 208 с.
3. Исмаилов В.М., Ибрагимова Г.Г., Садыхова Н.Н. Синтез функционально замещенных производных фурана и резорцина на основе диметил-3-оксопентадиоата. ЖОрХ, 2017, Т.53, N.6, с.933-935.
4. Kwiesien H., Wodnicka A. Five-Membered Ring Systems: Furans and Benzofurans. Progress in Heterosyslis Chemistry. 2020, N.31, pp.281-323.
5. Исмайлов, А.Г. и Мамедов Э.И. Синтез производных фурана конденсацией хлорангидридов циклоалканкарбоновых кислот с хлористым аллилом //ЖОрХ, 1974, Т.10, Вып.5, с.1129-1130.
6. А.с. 450797 СССР. Способ получения α-хлорциклоалкилфуранов / Исмайлов А.Г., Мамедов Э.И., Б.И.-1974, №43, с.57.
7. Ибрагимов, И.И., Мамедов Э.И., Исмайлов А.Т., Алиев А.Г., Мехтиева Ш.З., Джафаров В.Г., Беляева В.И. Химия систем аллильного типа. II. Ацилирование 3-бром- и 2-метил-3-хлор-1-пропенов //ЖОрХ,1990, Т.26, Вып.8, с.1648-1654.
8. Guseinova V.A., Zaidova G.A., Mammadov E.İ. Reaction of chloranhydrides of cycloalkanecarboxilic acids with some allylis clorides. Chemical Problems, 2021, №3 (19), pp.179-185.
9. Mammadov E., Mammadov A., Huseynova V., Zaidova Q., Gasimova F. Temperature Dependence of the Reaction of Electrophilic Addition of Acyl Chlorides to Allyl Chloride. 6th İnternational Conference: Thermophysisal and Mechanical Properties of Advanced Materials (Thermam 2019), İzmir, Turkey, 22-24 september 2019, pp.54-55.

NEFT KİMYASI

KOMPOZİT KATALİZATOLAR ÜZƏRİNDƏ TOLUOLUN HİDROKONVERSİYASI

İsayeva Y.S.

Y.H. Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu
isayeva-y@mail.ru

Açar sözlər: *Toluol, kompozit katalizatorlar, hidrokonversiya, təzyiq, temperatur, metiltsiklopentan, metiltsikloheksan, tsikloheksan.*

Son illərdə aromatik birləşmələrin selektiv hidrogenləşdirilməsi zamanı alınan məhsulların yüksək kommersiya dəyərinə malik olması tədqiqatçıların diqqətini daha çox cəlb edir. Neftkimyası və neftemalı sənayesində tərkibində müxtəlif miqdarda aromatik karbohidrogenlər olan mühərrik yanacaqlarının oktan ədədinin yüksəldilməsi məsələləri ortaya çıxır.

Co/HZSM-ZS/Al_2O_3 və Ni/HZSM-ZS/Al_2O_3 kompozit katalizatorları (KK) üzərində 180^0C, H_2/T=7, WHSV=2ч$^{-1}$, atmosfer təzyiqi şəraitində fərdi aromatik karbohidrogenin (toluol) çevrilməsinin sistematik öyrənilməsi həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, işlənib hazırlanmış katalizatorlar hidrogenin təzyiqinin azaldılması şəraitində aromatik karbohidrogenlərə münasibətdə yüksək hidrogenləşdirici qabiliyyətə malikdirlər: toluolun hidrokonversiyası bu şəraitdə müvafiq olaraq 69.2% və 80.7% təşkil edir.

Məlum olduğu kimi, alkilbenzolların hidrogenləşdirilməsi yüksək hidrogen təzyiqinin tədqiqini tələb edir. Uyğun birləşmələrin heterogen katalitik hidrogenləşdirilməsində metal yerləşdirilmiş, xüsusi ilə də nikelli katalizatorlardan istifadə edilir. Ona görə də sintez olunmuş KK əlavə olaraq aşağı hidrogenləşdirmə xassəsinə malik olan nikel və ya kobaltla modifikasiya olunmuşdurlar. Bu KK-ların istifadə olunması onların toluolun hidroçevrilməsində yüksək aktivliyə malik olduqlarını göstərir. Nümunə kimi cədvəl 1-də toluolun Ni/KK üzərində çevrilməsi göstərilmişdir.

Cədvəl 1.

Toluolun Ni/KK üzərində hidrokonversiyası. T=180^0C; H_2/C_7H_8= 7; WHSV = 2s^{-1}

T,dəq.	Konversiya, C_7H_8, %	Reaksiya məhsullarının paylanması, %küt.			
		C_5	MTP	TH	MTH
15	80,8	8,3	10,0	3,8	58,7
30	80,7	5,2	15,9	3,8	55,8
45	79,1	4,3	19,5	-	55,3
60	78,5	5,3	22,8	-	50,4

MTP- metiltsiklopentan, TH-tsikloheksan, MTH- metiltsikloheksan.

Cədvəl 1-dən görünür ki, Ni/KK sistemi üzərində toluolun həm aromatik nüvənin hidrogenləşməsi, həm də hidrogenoliz məhsullarının əmələ gəlməsi ilə intensiv çevrilməsi müşahidə olunur. Məhsullarda MTP olması Ni/KK sisteminin yüksək izomerləşdirici qabiliyyətini göstərir. Prosesin davam etməsi ilə MTP stabil çıxımı aromatik nüvənin hidrogenləşməsinin toluolun çevrilməsinin başlanğıc mərhələsi olduğunun bir mənalı göstəricisidir. MTH-ın sabit çıxımında TH-nın ardıcıl aşağı çıxımı tsikl və alkil (metil) əvəzedicisi arasındakı C-C rabitəsinin effektiv hidrogenolizinin nəticəsi ola bilər, MTP-nın əmələ gəlməsi isə TH-nın izomerləşməsinin nəticəsidir. Toluolun çevrilmə reaksiyasının məhsullarında TH-nın miqdarının sıfıra qədər azalması (15-ci dəqiqə) ilə MTP-nin çıxımının sinxron yüksəlməsi irəli sürülən fikri təsdiq edən amildir. Lakin əgər hidrogenoliz mərhələsi məhsullarda benzolun olmamasının ardıcıl xarakterinə malikdirsə, onda TH-nın MTP-a izomerləşməsi mərhələsi hidrogenolizə paraleldir. MTP və TH-nın çıxımının müvəqqəti dəyişmə xarakterinə malik olduğunu (onların proporsional olmadığını) nəzərə alsaq, TH izomerləşməsinin Ni/KK sistemini aktivləşmə müddətindən sonra başladığı fikrini irəli sürmək olar.

Cədvəl 2-də Ni/KK-nın iştirakı ilə toluolun hidroçevrilməsinin yuxarıda göstərilmiş məlumatları (cədv.1) ilə müqayisə üçün Co/KK-nın ilə alınmış analoji məlumatlar verilmişdir.

Cədvəl 2.

Co/KK üzərində toluolun hidrokonversiyası. T=180^{0}C ; H_2/C_7H_8= 7 WHSV = 2saat^{-1}.

T, dəq.	Konversiya C_7H_8,%	Reaksiya məhsullarının paylanması, küt.%			
		C_5	MTP	TH	MTH
15	69,2	6,3	35,6	8,2	19,1
30	69,2	5,4	30,6	7,1	16,1
45	68,7	3,0	17,5	3,9	44,5
60	68,2	1,8	17,5	0,9	48,0

Cədvəl 1 və 2-in məlumatlarından görünür ki, KK sistemində modifikasiya etdirici elementi Ni-dən Co-a dəyişmək bir tərəfdən toluolun ümumi konversiyasını azaldır, digər tərəfdən isə onun çevrilmə məhsullarının paylanmasının dəyişməsinə gətirib çıxardır. Bu zaman Co/KK üzərində TH əmələ gəlmə aktivliyinin artmasını xüsusi olaraq qeyd etmək lazımdır. Təsvir olunan nəticələrdən görünür ki, katalizatorun fəaliyyəti müddətində (katalizatorun aktivliyi olduğu kimi qalır) məhsullarda TH molekullarının qeydə alınması müşahidə olunur. Üstəlik MTH və TH çıxımlarının dəyişməsi antibat olaraq dəyişir: TH-nın çıxımı azaldıqca MTH-nın çıxımı artır. Beləliklə, toluolun Co/KK üzərində hidroçevrilməsi Ni/KK üzərində olduğu kimi gedir və toluolun çevrilmə məhsullarının əmələ gəlməsinin yuxarıda söylənilən ardıcıl-paralel getməsi fikrini təsdiq edir. Modifikasiyaetdirici elementin KK-nın xassələrinə təsirinə gəldikdə isə, alınan nəticələrdən görünür ki, Ni toluolun hidrogenləşmə reaksiyasına daha yüksək hidrogenolizləşdirici təsir göstərir. Bu, görünür, Ni-in daha yüksək reduksiya olunma dərəcəsi və onun kompozision katalitik sistemin anionmodifikasiya olunmuş sirkonium dioksid komponentinin reduksiyasına kataliz təsiri ilə bağlıdır.

KOMPOZİT KATALİZATOLAR ÜZƏRİNDƏ TOLUOLUN HİDROKONVERSİYASI

İsayeva Y.S.

Xülasə

Co/HZSM-ZS/Al_2O_3 və Ni/HZSM-ZS/Al_2O_3 kompozit katalizatorları üzərində 180^{0}C, H_2/C_7H_8=7, WHSV = 2ч$^{-1}$, atmosfer təzyiqi şəraitində fərdi aromatik karbohidrogenin (toluol) çevrilməsinin sistematik öyrənilməsi həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki,

işlənib hazırlanmış katalizatorlar hidrogenin təzyiqinin azaldılması şəraitində aromatik karbohidrogenlərə münasibətdə yüksək hidrogenləşdirici qabiliyyətə malikdirlər: toluolun hidrokonversiyası bu şəraitdə müvafiq olaraq 69.2% və 80.7% təşkil edir. Co/HZSM-ZS/Al_2O_3 və Ni/HZSM-ZS/Al_2O_3 katalizatorları üzərində hidrokonversiyası nəticəsində müvafiq olaraq benzinin yüksək oktanlı komponentleri – metiltsiklopentan (35,6-10,0%); metiltsikloheksan (19,1-58,7%) və tsikloheksan (8,2-3,8%) alınmasına imkan verir.

ГИДРОКОНВЕРСИЯ ТОЛУОЛА НА КОМПОЗИЦИОННЫХ КАТАЛИЗАТОРАХ

Исаева Ю.С.

Резюме

Проведено систематическое изучение гидрирования толуола,при 180^0C, H_2/C_7H_8, =7, WHSV =2ч$^{-1}$ и атмосферном давлении на композитных катализаторах Co/HZSM-ZS/Al_2O_3 и Ni/HZSM-ZS/Al_2O_3. Установлено, что разработанные катализаторы обладают высокой гидрирующей способностью по отношению к толуолу при пониженных давлениях водорода: гидроконверсия толуола составляет 69,2% и 80,2%, соответственно. В результате, получены ценные высокооктановые компоненты бензинов- метилциклопентан (35,6-10,0%); метил-циклогексан (19,1-58,7%) и циклогексан (8,2-3,8%) на Co/HZSM-ZS/Al_2O_3 и Ni/HZSM-ZS/Al_2O_3 катализаторах соответственно.

HYDROCONVERSION OF TOLUENE OVER COMPOSITE CATALYSTS

Isayeva Y.S.

Summary

A systematic study of the hydrogenation of toluene was carried out at 180^0C, H_2/C_7H_8=7, WHSV=2h^{-1} and atmospheric pressure on composite catalysts Co/HZSM-ZS/Al_2O and Ni/HZSM-ZS/Al_2O. It has been established that the developed catalysts have a high hydrogenating ability with respect to toluene at low hydrogen pressures: toluene hydroconversion is 69.2% and 80.2%, respectively. As a result, valuable high-octane components of gasoline - methylcyclopentane (35.6-10.0%); methyl-cyclohexane (19.1-58.7%) and cyclohexane (8.2-3.8%) were obtained on Co/HZSM-ZS/Al_2O_3 and Ni/HZSM-ZS/Al_2O_3 catalysts, respectively.

ОПРЕДЕЛЕНИЕ РАЗМЕРОВ ЧАСТИЦ СИНТЕЗИРОВАННОГО НА CVD ХРОМОВОГО СОЕДИНЕНИЯ МЕТОДОМ ДИНАМИЧЕСКОГО РАССЕЯНИЯ СВЕТА

Керимова У.А., Алиева А.З., Алиева А.А.,
Тагиев Ф.Ф., Мамедов Э.Э., Ализаде С.А., Мехтиева Н.А.

Институт нефтехимических процессов им. ак. Ю.Г. Мамедалиева МНО АР
kerimova-ulya@rambler.ru

Açar sözlər: *işığın dinamik səpilməsi (DLS), nanohissəciklər, xrom birləşməsi, xrom katalizatoru.*

Keywords: *dynamic light scattering (DLS), nanoparticles, chromium compound, chromium catalyst.*

Ключевые слова: *динамическое рассеяние света (ДРС), наночастицы, хромовое соединение, хромовый катализатор.*

Как известно, 90% всех нефтехимических и нефтеперерабатывающих процессов являются каталитическими и потому, потребность промышленности в производстве высокоэффективных катализаторов на основе республиканского сырья остается актуальным. Среди них наиболее часто используемыми являются катализаторы, состоящие из металлов переменной валентности, одними из которых являются хромовые соединения. Соединения хрома находят широкое практическое применение в качестве катализаторов процессов химической и химико-фармацевтической промышленностей, органического синтеза и многих других. В нефтяной промышленности соединения хрома применяются как катализаторы для щелочных реакций, полимеризации, гидрогенизации и дегидрогенизации нефтепродуктов. Составляющей частью каталитической системы производства авиационного бензина и метилового спирта является бихромат калия, бензойной кислоты - хромовые соли и т.д. [1]. Ряд гетерогенных катализаторов в широких пределах (1÷4%) содержат соединения шестивалентного хрома. В частности, общемировое производство полиэтилена основано на окиснохромовых катализаторах, где для 100 млн. т/г целевого продукта необходимо более 60 тыс. тонн окиснохромовых катализаторов [2]. Исходя из выше перечисленного, нами предложен синтез хромсодержащих соединений методом CVD на основе нефтяного сырья. Синтез образца производился в условиях подачи аргона и водорода в соотношении 2:1, в течение 4-8 часов, при температуре 400-800ºС. Скорость подачи газов: Ar = 0.2 л/мин; H_2 = 0.1 л/мин. Образец хромового соединения был исследован методом динамического рассеяния света (ДРС).

Метод динамического рассеяния света (*dynamic light scattering)* представляет собой совокупность таких явлений как изменение частот, интенсивности и направления движения света, прошедшего через среду движущихся частиц. Этот метод используется в лазерной корреляционной спектроскопии для определения размеров частиц в суспензии. Размеры измеряемых частиц должны быть такого порядка, что и длина волны рассеиваемого света. При прохождении пучка света через суспензию происходит его упругое рассеяние. В случае ДРС используют лазерное излучение, которое является когерентным и монохроматическим. Метод ДРС также используется для измерения размеров наночастиц.

Размеры формирующихся частиц в растворе, распределение их по размерам исследовались с использованием прибора LB-550, Horiba. Суть метода заключается в измерении зависящей от флуктуации интенсивности рассеянного частиц света, находящегося в хаотичном броуновском движении в жидкой фазе. Скорость флуктуаций интенсивности зависит от размера частиц и растет с уменьшением их размера [3,4]. Использованный анализатор позволяет исследовать процессы формирования частиц, агрегатов, комплексов в интервале температур 278-343 К. Интервал определяемых размеров частиц данного прибора 0,001-6 мкм [5,6]. На рисунке приведена ДРС гистограмма хромового катализатора, произведенного при температуре 298К в изопропиловом спирте.



Рис. 1. Спектр ДРС гистограмма хромового катализатора, произведенного при температуре 298К в изопропиловом спирте.

Значения гидродинамического диаметра и коэффициента диффузии формиру-ющихся в растворе структур приведены в таблице 1.

Табл. 1.

Значения параметров спектра ДРС, регистрированных при комнатной температуре хромового катализатора в изопропиловом спирте.

	d_H, nm			Span,arb. unit	D E^{-13} m^2/s
	Mean	Median	Mode		
1	1496,1	1,4283	1588,2	1,2802	1,2263

«Mean»- среднеарифметическое значение всех наблюдаемых частиц, «Median»-в данном случае среднеарифметический размер первых накопленных 10 % частиц, «Mode»- наибольший размер для наблюдаемых частиц, т.е. значение размера частиц на пике графика их распределения по плотности, «Span»(Амплитуда) - амплитуда распределения, D—коэффицент диффузии, непосредственно определяемый из измерений ДРС, d_H-диаметр, точнее гидродинамический диаметр частицы, вычисленный из уравнения Стокса-Эйнштейна:

$$D=kT/3\pi\eta d_H,$$

где D-коэффицент диффузии, k-постоянная Больцмана, T-температура, в К, ŋ-динамическая вязкость, в мПа·с.

Таким образом, приведенные в настоящей работе исследования хромового соединения методом ДРС показывют, что при температуре 298 К в изопропиловом спирте образуются кластеры, гидродинамические радиусы которых составляют 1482,3 нм, а коэффицент диффузии равен D = 1,2263 E^{-13} $м^2/с$.

Распределение частиц формируется в пределах 800-2000 нм, а среднее значение размера частиц хромового соединения равно 1482,3 нм.

Литература

1. https://ecouniver.com/7092-soedinenie-xroma-katalizator-ximicheskix.html

2. Петровнина М.С., Феоктистов Д.А., Вахин А.В., Возможность получения высокоэффективного противокоррозионного пигмента посредством утилизации отработанного хромсодержащего катализатора нефтехимической промышленности, Казанский (Приволжский) Федеральный Университет каф. Высоковязких нефтей и природных битумов

3. Berne, B.J.; Pecora, R. Dynamic Light Scattering with applications to Chemistry, Biochemistry and Physics, Courier Dover Publications, 2000, ISBN 0-486-41155-9

4. J.H. Wen.//Dynamic light scattering: Principles, measurements, and applications. Course on http://http://www.che.ccu.edu.tw/-rheology/DLS/outline3.htm, 9.4.2010

5. Dynamic Light Scattering Particle Size Analyzer LB-550, Instruction Manual, HORIBA, Ltd.,2003

6. The LB-550 Dynamic Light Scattering Technique. Technical Note. 2009, HORIBA instrument, Inc. www.horibalab.com

DETERMINATION OF THE PARTICLE SIZES OF A CVD-SYNTHESIZED CHROMIUM COMPOUND BY DYNAMIC LIGHT SCATTERING

Karimova U.A., Aliyeva A.Z., Aliyeva A.A,
Tagiyev F.F., Mamedov E.E., Alizade S.A., Mehdiyeva N.A.

Summary

A chromium-containing compound based on petroleum raw materials was synthesized by the CVD method. The synthesis of the sample was carried out under conditions of Ar and H_2 supply in the ratio 2:1, for 4-8 hours, at a temperature of 400-800°C. A sample of a

chromium compound was examined by dynamic light scattering, where it was found that the distribution of particles is formed in the range of 800-2000 nm, and the average particle size of the chromium compound is 1482,3 nm.

İŞIĞIN DINAMIK SƏPILMƏSI METODU ILƏ CVD-DƏ SINTEZ OLUNMUŞ XROMBIRLƏŞMƏSININ HISSƏCIKLƏRININ ÖLÇÜLƏRININ TƏYINI

Kərimova Ü.Ə., Əliyeva A.Z., Əliyeva A.A., Tağıyev F.F., Məmmədov E.E., Əlizadə S.A., Mehdiyeva N.Ə.

Xülasə

Tərkibində xrom saxlayan birləşmə neft xammalı əsasında CVD üsulu ilə sintez edilmişdir. Təcrübə Ar və H_2 şəraitində 2:1 nisbətində, 4-8 saat ərzində, 400-800°C temperaturda aparılmışdır. İşığın dinamik səpilməsi metodu ilə xrom birləşməsinin nümunəsinin analizi aparılmışdır, müəyyən edilmişdir ki, hissəciklər 800-2000 nm diapazonundadır və xrom birləşməsinin hissəciklərinin orta ölçüsü 1482,3 nm-dir.

ОПРЕДЕЛЕНИЕ РАЗМЕРОВ ЧАСТИЦ ХОПФ-СИНТЕЗИРОВАННОГО ХРОМОИЗДЕЛИЯ МЕТОДОМ ДИНАМИЧЕСКОГО СВЕТОРАССЕЯНИЯ

Каримова У.А., Алиева А.З., Алиева А.А., Тагиев Ф.Ф., Мамедов Э.Э., Ализаде С.А., Мехтиева Н.А.

Резюме

Методом CVD синтезировано хромсодержащее соединение на основе нефтяного сырья. Синтез образца производился в условиях подачи Ar и H_2 в соотношении 2:1, в течение 4-8 часов, при температуре 400-800°C. Образец хромового соединения был исследован методом динамического рассеяния света, где выявлено, что распределение частиц формируется в пределах 800-2000 нм, а среднее значение размера частиц хромового соединения равно 1482,3 нм.

SƏTHİ-AKTİV TURŞU OKSİPROPİLATLARININ DEEMULSİYALAŞDIRMA SÜRƏTLƏRİNİN TƏDQİQİ

İbrahimli S.İ., Məmmədova A.T., Həsənova A.M., Məmmədov M.Ə.

Gəncə Dövlət Universiteti

Açar sözlər: *sinergetizm, deemulsiya, kompozisiya, polioksiefir.*
Key words: *synergism, de-emulsion, composition, poly oxy ether.*
Ключевые слова: *синергизм, деэмульгирование, композиция, полиоксиэфир.*

Üzvi turşular və onların ayrı-ayrı siniflərini, məsələn alefatik, aromatik, tsiklik və s. təmsil edən nümayəndələri üzvi oksidlərlə tsiklin açılması yolu ilə oksialkilləşərək qeyri-ionogen tipli səthi-aktiv oliqomerlər əmələ gətirir. Lakin, ədəbiyyat materiallarının təhlili nəticəsində müəyyən edilmişdir ki, yağ və aromatik sıra turşularının olefin oksidləri ilə oksialkilləşməsi kifayət qədər geniş miqyasda öyrənildiyi halda, naften turşularının, xüsusilə sintetik naften turşularının oksialkilləşmə reaksiyaları yetərincə tədqiq edilməmişdir.

Alitsiklik turşuların olefin oksidləri ilə oksialkilləşmə reaksiyalarının vacib praktik əhəmiyyəti ilə yanaşı, bir sıra nəzəri maraq doğuran tərəfləri də var. Başlanğıc maddələrin və tətbiq olunan katalizatorların təbiətindən asılı olaraq epoksid halqasının açılması istiqaməti, reaksiyanın əsas və əlavə məhsullarının miqdari cəhətdən müəyyənləşdirilməsi, müxtəlif reaksiya faktorlarının prosesin istiqamətinə və sürətinə təsiri və s. kimi məsələlər nəzəri yönümdən tədqiqat tələb edən problemlərdir.

Deyilənləri nəzərə alaraq təqdim olunan məqalə sintetik naften turşularının propilen oksidlə oliqomerləşməsindən alınan səthi-aktiv maddələtin suayrıcı xassələrinin tədqiqinə həsr edilmişdir. Müəyyən edilmişdir ki, ayrıca götürülmüş hər hansı kimyəvi tərkibə nisbətən kompozisiya şəklində istifadə olunmuş bir neçə komponent əhəmiyyətli sinerqetik effekt yaradaraq deemulsiyanın keyfiyyətini və sürətini yüksəldir. Ədəbiyyatda kompozisiya komponentləri arasında yaranan sinergetik əlaqələrin mexanizmini izah edən müfəssəl məlumat yoxdur. Lakin, baxılan mənbələrdə deemulqator komponentlərinin qarşılıqlı əlaqəsindən yaranan effektiv sinergetik təsirlərdən və həmin komponentlər arasında yaranan zəif fiziki-kimyəvi rabitələrin əmələ gəlməsindən bəhs edilir [1-6]. Sinergetik effekt bir çox proseslərdə müşahidə olunur. Sinergetizmin əhəmiyyətli təsirə malik olduğu sahələrdən biri də xam neftin susuzlaşdırılmasından ötrü həyata keçirilən deemulsiya prosesidir.

Kompozisiyada sənaye deemulqatoru və sintetik naften turşusunun polioksipropilenləri 1:1 çəki nisbətində istifadə olunmuşdur. Kompozisiya şəklində deemulqator qarışığının müsbət sinerqetik təsirini əyani müşahidə etmək və eksperimental nəticələri müqayisəli şəkildə təhlil etmək üçün kompozisiyanın tərkibinə daxil olan hər bir reagentin ayrılıqda da deemulsiya qabiliyyəti tədqiq edilmişdir.

Tədqiqatlar üzəri ölçülü ayrıcı qıflarda aparılmışdır. Qeyd olunan üsulla xam neft nümunələri üzərində ayrılıqda və kompozisiya şəklində istifadə edilmiş reagentlərin deemulsiya sürətlərinin tədqiqi aparılmışdır. Təcrübələr 50-55^{0}C temperaturda aparılmışdır. Neft nümunələrinin tərkibindəki qalıq suyunun miqdarı Din-Stark qurğusunda müəyyən edilmişdir.

Nəticələrin müzakirəsindən görünür ki, tədqiq olunan oleqomeri sənaye demulqatoru ilə 1:1 çəki nisbətində birgə tətbiq edərkən deemulsiya effektinin yaxşılaşması və deemulsiya sürətinin yüksəlməsi müşahidə olunur. Bu hal tətbiq edilən reagentlər arasında yaranan sinergetik təsirlərlə əlaqələndirilir. Qeyd edək ki, sinergetizmin səmərəli təsiri tədqiq olunan neft nümunələrinin hamısıda özünü göstərmişdir. Müəyyən edilmişdir ki, tətbiq olunan neft nümunələrinin hər biri fərqli deemulsiya sürətinə malikdir. Bu, istifadə olunmuş xam neft nümunələrinin karbohidrogen və digər komponentlərinin tərkibi ilə əlaqədardır.

Ədəbiyyat

1.Левченко Д.Н., Бергштейн Н.В., Худякова А.Д., Николаева Н.М. Эмульсии нефти с водой и методы их разрушения.-М.: Химия, 1967 г, -200 с.

2.Абдуллаев Я.Г., Ахмедов С.М., Зейналлы С.М., Ибрагимов С.И., Рустамов Р.А., Мамедова И.М. Синергетическая композиция поверхностно активных веществ для подготовки нефтей к переработке. // Азерб. Хим.журн.-2003-№ 3, -с. 55-57.

3.İbrahimli S.İ., Abdullayev Y.H., Zeynallı S.M. Sinergetik effektli yeni kompozisiyanın deemulsasiya qabiliyyətinin müxtəlif neft nümunələrində tətqiqi. // Azərbaycan Neft Təsərrüfatı. № 12, 2006. səh. 36-40.

4.İbrahimli S.İ., Qurbanov Q.B., Hacıyev Y.H., Cəfərov E.F., Kəsəmənli X.H. Deemulsiyaedici kompozisiyaların iştirakı ilə xam neftlərin susuzlaşdırılması və duzsuzlaşdırılması.AMEA GREM Xəbərlər məcmuəsi № 42, Gəncə 2010. səh. 22-24.

5.İbrahimli S.İ., Qurbanov Q.B., Həsənova A.M. Neftin deemulsiyalaşma prosesində qeyri-ionogen səthi-fəal komponentlərin sinergetik effekti.//Azərb.Kim.jur. № 3, 2011.səh.502-505.

6.İbrahimli S. İ., Məmmədbəyli E. H. Eyni şəraitdə bitsiklləşmə və polioksipropilləşmə reaks. Neftkimyası üzrə IX Beynəlxalq Məmmədəliyev konf. 4-5 oktyabr 2016. Bakı səh.50.

SƏTHİ-AKTİV TURŞU OKSİPROPİLATLARININ DEEMULSİYALAŞDIRMA SÜRƏTLƏRİNİN TƏDQİQİ

İbrahimli S.İ., Məmmədova A.T., Həsənova A.M., Məmmədov M.Ə.

Xülasə

Məqalə sintetik naften turşusu və propilen oksid əsasında alinmış səthi-aktiv oleqomerlərin suayrıcı effektindən bəhs edir. Tsiklik turşu polioksipropilatlarının sənayə deemulqatorları ilə sinergetik əlaqə yaratması barədə məlumat verilir.

OF SURFACT-ACTIVE ACID OXYPROPYLATES DEEMULSIFICATION RATE STUDY

Ibrahimli S.I, Mammadova A.T., Hasanova A.M., Mammadov M.A.

Summary

The article deals with the water separation effect of surface-active oligomers obtained on the basis of synthetic naphthenic acid and propylene oxide. It is reported that cyclic acid polyoxypropylates create a synergistic relationship with industrial demulsifiers.

TSİKLİN AÇILMASI YOLU İLƏ ALINMIŞ OKSİPROPİLATLARIN NEFTAYRICI XASSƏLƏRİNİN TƏDQİQİ

İbrahimli S.İ., Qurbanov Q.B., Həsənova A.M., Məmmədov M.Ə.

Gəncə Dövlət Universiteti

Açar sözlər: *propilen oksid, oksi propilləşmə, səthi-aktiv maddə, tsiklik turşu.*
Keywords: *propyleneoxide, oxypropylation, surfactant, ciclicacid.*
Ключевые слова: *пропиленоксид, оксипропилирование, ПАВ, циклиноваякислота.*

Kimya ədəbiyyatında səthi-aktiv maddələr sintez etmək məqsədi ilə mütəhərrik hidrogen atomlu birləşmələrin etilen- və propilen oksidlərlə oksialkilləşmə reaksiyaları geniş miqyasda yayılmışdır. Çox böyük praktik əhəmiyyətə malik olan səthi-aktiv maddələr əksər hallarda oksipropilləşmə reaksiyaları əsasında sintez olunur. [1-4]

Üzvi turşular və onların ayrı-ayrı siniflərini, məsələn alefatik, aromatik, tsiklik və s. təmsil edən nümayəndələri də mütəhərrik hidrogen atomlu birləşmələrə aiddir. Lakin, ədəbiyyat materiallarının təhlili nəticəsində müəyyən edilmişdir ki, yağ və aromatik sıra turşularının olefin oksidləri ilə oksialkilləşməsi kifayət qədər geniş miqyasda öyrənildiyi halda, naften turşularının, xüsusilə sintetik naften turşularının oksialkilləşmə reaksiyaları yetərincə tədqiq edilməmişdir.

Alitsiklik sıranın səciyyəvi quruluş və sterik faktorlarla əlaqəli malik olduqları kompleks faydalı xassələri onların xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqinə geniş imkanlar açır.

Alitsiklik turşuların olefin oksidləri ilə oksialkilləşmə reaksiyalarının, qeyd olunan vacib praktik əhəmiyyəti ilə yanaşı, bu reaksiyaların nəzəri cəhətdən maraq doğuran tərəfləri də var. Başlanğıc maddələrin və tətbiq olunan katalizatorların təbiətindən asılı olaraq epoksid halqasının açılması istiqaməti, reaksiyanın əsas və əlavə məhsullarının miqdari cəhətdən müəyyənləşdirilməsi, müxtəlif reaksiya faktorlarının prosesin istiqamətinə və sürətinə təsiri və s. kimi məsələlər nəzəri yönümdən tədqiqat tələb edən problemlərdir.

Naften turşuları və olefin oksidləri arasındakı oksialkilləşmə reaksiyaları başlanğıc maddələrin asantapılan yerli məhsul və qiymətlərinin ucuz olması səbəbindən iqtisadi cəhətdən də aktuallıq kəsb edən araşdırma obyekti hesab olunur.

Təqdim etdiyimiz işdə oksidləşdirici laboratoriya qurğusunda alınan sintetik naften turşularından (SNT) başlanğıc komponent kimi istifadə edilmişdir. Bu turşularının alınması üçün karbohidrogenlərin oksidləşməyə məruz qoyulması əvəzolunmaz üsul hesab olunur. Doğrudur, bu zaman naften turşularının fərdi nümayəndələri deyil, alitsiklik turşuların texniki qarışığı alınır. AMEA Neft-kimya Prosesləri İnstitutunun əməkdaşlar bu sahədə

çoxillik müvəffəqiyyətli tədqiqatlar apararaq sintetik naften turşularının (SNT) alınması üsulunu işləyib hazırlamışlar. Oksidləşməyə məruz qoyulan naften konsentrantı naften əsaslı neftlərin orta traksiyasından və dizel yanacağının distilləsindən ayrılır. Ayrılmış naften tərkibli qarışıq sonra hidrotəmizlənməyə məruz qoyulur. Bundan sonra qarışıq hidrogenləşdirməyə uğradılır. Naften əsaslı xammal bundan sonra oksidləşdirilir. Oksidləşmə reaksiyası 135-140 0C temperaturda aparılır. Reaksiyalar manqan naftenat və qələvi metal naftenatları qarışığının katalizator kimi iştirakı ilə keçirilir. Alınmış oksidat, əvvəlcə atmosfer qovulmaya, daha sonra isə vakuum qovulmaya məruz qoyularaq naften turşusu əldə olunur. Tərkibindəki sabunlaşmayan birləşmələri ayırmaq üçün fraksiya benzinlə ekstraksiya edilir və qələvinin 40%-li sulu məhlulu, daha sonra mineral turşularla işlənir. Yuyulduqdan və qurutduqdan sonra sintetik naften turşusu ayrılır və fiziki-kimyəvi sabitləri müəyyən edilir. Sintez edilmiş sintetik naften turşuları (SNT) 124-200/2,7-10-40C/MPa qaynama temperaturu,d420-0,9617 xüsusi çəki, nD20-1,4720 şüasındırma əmsalı, və 267 mqKOH/q turşuluq ədədi ilə xarakterizə olunmuşdur.

Sintetik naften turşularının (SNT) oksipropilləşməsi aşağıdakı sxematik tənlik üzrə baş verir:



Sintetik naften turşularının (SNT) oksipropilləşməsi xüsusi germetik şüşə reaktorda 140-160 ^{0}C temperaturda, 2-3 saat müddətində aparılır. Katalizatorun ilkin turşuya görə qatılığı 1,5-2 kütlə % təşkil edir.

Neftayrıcı səthi-aktiv maddələrin sintezi əsas məqsəd olduğu üçün polioksipropil karbonatların alınmasını daha yüksək çıxımla təmin edən NaOH katalizatorundan istifadə olunur. Alınmış polioksipropil sintetik naften turşularının (SNT) müxtəlif oksipropilləşmə dərəcisinə malik kütlələri sınaqdan keçirilmişdir. Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, sintetik naften turşularının (SNT) propilen oksidə 1:17-ə nisbətində reagentlərdən sintez edilmiş oksipropilat xam neftlərin müəyyən vaxt ərzində davamlı emulsiyadan təmizlənməsindədaha effektli təsir göstərir.

Ekperimental tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, sintetik naften turşuları (SNT) əsasında alınmış oksipropilatların oksipropilləşmə dərəcəsi n=13-21 intervalında olan törəmələri nisbətən aktiv neftayrıcı təsirə malik olur. Bundan yüksək oksipropilləşmə dərəcəsinə malik nümayəndələrdə bu xassələr tədricən zəifləyir və daha yüksək oksipropilləşmə dərəcəsinə malik olan nümunələrdə həddən artıq pisləşir.

Ədəbiyyat

1. İbrahimli S.İ., İbrahimova G.H., Nəbiyeva M.Ə., Məmmədbəyli E.H. Norbornen karbon turşularının polioksialkil efirlərinin sintezi və tətbiqi. I Beynəlxalq Kimya və Kimya mühəndisliyi konfransının materialları. Bakı-2013, 17-21 aprel, s.38.
2. Məmmədov E.İ., İbrahimli S.İ., Məmmədbəyli E.H., Qurbanov Q.B. Tsiklopentadien, alkilen oksidləri “MJK” əsasında dien sintezi və oksialkilləşmə reaksiyaları. Neft-kimya üzrə VIII Bakı Beynəlxalq Məmmədəliyev Konfransının materialları. 3-6 oktyabr, Bakı-2012, s.190-191.
3. Щвец В.Ф., Трушин А.М., Лебедев Н.Н. Кинетика. Кинетика реакции оксиэтилирования стеариновой кислоты и состав образющихся продуктов. // Ж.прикл.химия -1972,-45. №4. с.829-834.
4. Косенко Р.Ю., Николоева Н.М. Влияние условымокси этилирования синтетических жирных кислот на их состав.– М: 1977, с.5. – Рукопись деп. в ЦНИИТЕ нефтехим. 6 мая, 1977. №11 Д 429.

TSİKLİN AÇILMASI YOLU İLƏ ALINMIŞ OKSİPROPİLATLARIN NEFTAYRICI XASSƏLƏRİNİN TƏDQİQİ

İbrahimli S.İ., Qurbanov Q.B., Həsənova A.M., Məmmədov M.Ə.

Xülasə

Məqalə tsiklin açılması yolu ilə alınan oliqomerlərin təsirindən xam neftlərdən davamlı emulsiyanın ayrılmasının tədqiqinə həsr edilmişdir. Fəal səthi-aktivliyə malik bu oliqomerlər sintetik naften turşusunun propilen oksidləreaksiyasından sintez olunur.

OF OXYPROPYLATES OBTAINED BY CYCLE OPENING STUDY OF PETROLEUM PROPERTIES

Ibrahimli S.I., Gurbanov G.B., Hasanova A.M., Mammadov M.A.

Summary

The article is devoted to the study of the separation of continuous emulsion from crude oils under the influence of oligomers obtained by cycle opening. These surface-active oligomers are synthesized from the reaction of synthetic naphthenic acid with propylene oxid

EKSTRAKSİYA ÜSULU İLƏ DİZEL FRAKSİYASININ AROMATİK KARBOHİDROGENLƏRDƏN TƏMİZLƏNMƏSİ

Abdulov B.G.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU)
babak001@mail.ru

Açar sözlər: *Dizel fraksiyası, aromatik karbohidrogenlər, ekstraksiya üsulu, maqnit sahəsi, N-metilpirrolidon.*

Key words: *Diesel fraction, aromatic hydrocarbons, extraction method, magnetic field, N-methyl-pyrrolidone.*

Ключевые слова: *дизельная фракция, ароматические углеводороды, метод экстракции, магнитное поле, N-метилпирролидон.*

Giriş

Azərbaycan Respublikasında dizel yanacağına olan tələbat çox yüksəkdir. Hal-hazırda respublikamızda istehsal olunan dizel yanacağı neftin ilkin emalından və hidrogenləşmə üsulu ilə alınır. Neft emalı zavodunda xam neftin emalından və destruktiv emaldan alınan yanacaqlar arasında dizel yanacağı əsas yeri tutur. Neft emalı zavodunun 2021-ci il hesabatına nəzər yetirsək görərik ki, neftin emalından 2395,8 min ton dizel yanacağı istehsal olunmuşdur ki, bu da istehsal olunan digər yanacaqlar ilə müqayisədə ək yüksək göstəricidir [1].

Dizel mühərriklərində yanacağın yanması nəticəsində yaranan tüstü qazları ətraf mühitə, eləcə də insan orqanizminə zərərli təsir göstərir. [2-3] təqdiqatlarında müəyyən olunmuşdur ki, yanacaqların tam yanmaması nəticəsində tüstü qazlarında olan polistiklik aromatik karbohidrogenlərin (PAK) canlılar üçün kanserogen təsiri yüksəkdir və PAK-ın müxtəlif yerlərdə asanlıqla toplanması onların qida zəncirinə rahat daxil olması ilə nəticələnir.

Ekoloji tələblərə cavab verən yüksək keyfiyyətli dizel yanacağı əldə etmək üçün müxtəlif həlledicilərdən istifadə etməklə ekstraksiya üsulundan istifadə olunmuşdur [4-7].

[8,9] işlərində xarici təsirlərdən istifadə etməklə texnoloji prosesləri daha yüngül şəraitdə aparılması verilmişdir.

Effektli, iqtisadi cəhətdən sərfəli və istifadəsi rahat olan xarici təsir vasitələrindən biri olan maqnit sahəsinin təsirinin effektivliyi [10-15] işlərində göstərilmişdir

Təqdim olunan işdə maqnit sahəsinin təsiri altında neftin ilkin emalından alınan dizel fraksiyasının kükürddən və PAK-dan təmizlənməsi həyata keçirilmişdir. Ekstragent kimi N-metilpirrolidondan və onun müxtəlif qüvvətliliyə malik turşular (sirkə, fosfat və sulfat) ilə olan qarışığından istifadə edilmişdir. Tədqiqatlar zamanı ekstragent və xammalın müxtəlif nisbətləri, qarışma müddəti və temperatur təsiri öyrənilmişdir.

Təcrübələr optimal parametrlərin müəyyən olunması üçün adi şəraitdə aparılmışdır və optimal parametrlər təyin olunduqdan sonra növbəti təcrübələr maqnit sahəsinin müxtəlif intensivliyində yerinə yetirilmişdir.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, maqnit sahəsinin təsiri altında ekstraksiyadan sonra neftin ilkin emalından alınan dizel fraksiyasında aromatik karbohidrogenlərin miqdarı Avro-5 standartına cavab verir.

Ədəbiyyat

1. SOCAR illik hesabat 2021-ci il, https://socar.az/az/page/illik-hesabatlar.
2. D. Yan, S. Wu, S. Zhou, G. Tong, F. Li, Y. Wang, B. Li, Characteristics, sources and health risk assessment of airborne particulate PAHs in Chinese cities: a review, Environ. Pollut. (2019), 10.1016/j.envpol.2019.02.068.
3. A.B. Patel, S. Shaikh, K.R. Jain, C. Desai, D. Madamwar, Polycyclic aromatic hydrocarbons: sources, toxicity, and remediation approaches, Front. Microbiol. (2020), 10.3389/fmicb.2020.562813
4. Awad M.M., El-Toukhee Y.M., Hassan E.A., Kamal K.T., Деароматизация дизельного топлива путем жидкостной экстракции: влияние относительного содержания экстрагента и тем. на свойства дизельного раф., // Нефтехимия. 2018. Т.58, №3. С. 343-349.
5. Кондрашева Н.К., Кондрашев Д.О. Использование современных гидропроцессов для получения высококачественных маловязких судовых топлив // Катализ в пром-сти. 2016. Т. 16. №5, С. 14-23. Магарил Е.Р., Экологические свойства моторных топлив. Тюмень: Изд-во Тюмен.гос.нефтегаз.ун-та, 2000, 171 с.
6. Гайле А.А., Клементьев В. Н., Большакова А. Р., Получение экологически чистых пластификаторов экстракционной очисткой ароматических концентратов от канцерогенных компонентов смесями N-метилпирролидона с этиленгликолем, Известия Санкт-Петербургского государственного технологического института (технического университета), №52(78), 2020, С: 82-86
7. V. Toteva, L. Topalova, P. Manolova, Extractive dearomatization and desulphurization of a distillate gasoil cut with dimethylformamide, Journal of the University of Chemical Technology and Metallurgy, 42, 1, 2007, pages:17-20
8. Борсуцкий З.Р. Исследования механизма магнитной обработки нефтей на основе результатов лабораторных и промысловых испытаний/З.Р. Борсуцкий, С.Е. Ильясов// Нефтепромысловое дело. 2002. - № 9. - С.38-44.
9. Пивоварова Н.А. Интенсификация процессов переработки углеводородного сырья воздействием постоянного магнитного поля // Дисс. на соиск. уч. степени доктора технических наук, Москва, 2005.-362 с.
10. Адаспаева С.А., Пивоварова Н.А., Рамазанова А.Р., Любименко Э.А. Повышение эффективности процесса селективной очистки деасфальтизата масляного производства с использованием постоянного магнитного поля // Нефть, газ и бизнес, 2012. № 1. С. 102-105.
11. Пивоварова Н.А., Акишина Е.С., Сальникова Т.В., Лагарова И.Р., Нурмамбетов Д.Д., Преимущества магнитной обработки дизельных топлив, Вестник Астраханского государственного технического университета. 2019. № 2 (68). С. 7-15.
12. В. М. Аббасов, Т. А. Мамедова, И. А. Халафова, Н. Э. Мовсумов, Т. С. Латифова, Влияние магнитного поля на дисперсность и состав продуктов крекинга вакуумного газойля и его смеси с хлопковым маслом, НефтеГазоХимия, 2018, № 2, С. 21-24
13. B.G.Abdulov, A.A.Hasanov Obtaining of ecologically pure diesel fuel by using N-methylpyrrolidone under the influence of magnetic field, AJCN, Vol.2, No. 2, 2020, pp.23-28.
14. Abdulov B.G. Maqnit sahəsinin təsiri altinda N-metilpirrolidondan ekstragent kimi istifadə edilməklə dizel fraksiyasindan ekoloji təmiz dizel yanacağının alınması. “Elmi xəbərlər”– Təbiət və texniki elmlər bölməsi (SDU), Cild 21, № 1, 2021, səh:38-42

15. B.G.Abdulov, A.A.Hasanov, Study dearomatization of diesel fuel under the influence of magnetic field by IR spectroscopy, Inter Journal of Modern Physics B, Vol. 35, No. 8 (2021).

PURIFICATION OF DIESEL FRACTION FROM AROMATIC HYDROCARBONS BY EXTRACTION METHOD

Abdulov B.G.

Summary

The demand for diesel fuel in the Republic of Azerbaijan is very high, and reducing its environmental impact is one of the actual issues. Purification of the diesel fraction, their pros and cons have been studied. Research has been carried out on means of external influence for carrying out petrochemical processes in milder conditions. In order to obtain diesel fuel that meets the European standard indicators, a process was carried out to purify the diesel fraction obtained during the primary refining of oil from polycyclic aromatic hydrocarbons by the extraction method. The extraction process was carried out under the influence of a magnetic field. N-methylpyrrolidone and its mixture with various acids were used as an extractant. The amount of aromatic hydrocarbons in diesel fuel purified under the action of a magnetic field was 8%, which corresponds to Euro-5 diesel fuel standards.

ОЧИСТКА ДИЗЕЛЬНОЙ ФРАКЦИИ ОТ АРОМАТИЧЕСКИХ УГЛЕВОДОРОДОВ МЕТОДОМ ЭКСТРАКЦИИ

Абдулов Б. Г.

Резюме

Спрос на дизельное топливо в Азербайджанской Республике очень высок, и снижение его воздействия на окружающую среду является одним из актуальных вопросов. Изучены очистки дизельной фракции, их плюсы и минусы. Проведены исследования средств внешнего воздействия для проведения нефтехимических процессов в более мягких условиях. С целью получения дизельного топлива, соответствующего показателям Евростандарта, был проведен процесс очистки дизельной фракции, полученной при первичной переработке нефти, от полициклических ароматических углеводородов экстракционным методом. Процесс экстракции осуществлялся под воздействием магнитного поля. В качестве экстрагента в работе использовали N-метилпирролидон и его смесь с различными кислотами. Количество ароматических углеводородов в дизельном топливе, очищенном под действием магнитного поля, составило 8%, что соответствует нормам дизельного топлива Евро-5.

EKSTRAKSİYA ÜSULU İLƏ DİZEL FRAKSİYASININ AROMATİK KARBOHİDROGENLƏRDƏN TƏMİZLƏNMƏSİ

Abdulov B.G.

Xülasə

Azərbaycan Respublikasında dizel yanacağına olan tələbat çox yüksəkdir və onun ətraf mühitə olan təsirinin azaldılması aktual məsələlərdən biridir. Dizel fraksiyasının təmizlənməsi və onların müsbət və mənfi cəhətləri tədqiq olunmuşdur. Neft-kimya proseslərini daha mülayim şəraitdə aparmaq üçün xarici təsir vasitələri haqqında tədqiqatlar aparılmışdır. Avro standartı göstəricilərinə cavab verən dizel yanacağını alınması üçün neftin ilkin emalından alınan dizel fraksiyasının ekstraksiya üsulu ilə politsiklik aromatik karbohidrogenlərdən təmizlənməsi prosesi aparılmışdır. Ekstraksiya prosesi maqnit sahəsinin təsiri altında yerinə yetirilmişdir. Tədqiqat işində ekstragent kimi N-metilpirrolidondan və onun müxtəlif turşularla qarışığından istifadə edilmişdir. Maqnit sahəsinin təsiri altında təmizlənmiş dizel

yanacağında aromatik karbohidrogenlərin miqdarı 8% olmuşdur ki, bu da Avro-5 dizel standartlarına cavab verir.

NİTROLAŞMIŞ MİNERAL YAĞ DİSTİLLATLARI ƏSASINDA KONSERVASİYA MAYELƏRİ

Abbaszadə S.M., Abbasov M.M.

Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
sara.abbaszade578@gmail.com

Açar sözlər: *mineral yağ distillatları, konservasiya mayeləri, nitrolaşma, atmosfer korroziyası.*

Ключевые слова: *дистилляты нефтепродуктов, консервационные жидкости, нитрификация, атмосферная коррозия.*

Keywords: *distillates of petroleum products, conservation liquids, nitrification, atmospheric corrosion.*

Hazırda atmosfer havasının kəskin çirklənməsi səbəbindən atmosfer korroziyası avadanlıqların istismar müddətinin azalmasına səbəb olur [1, 2]. Atmosfer korroziyasından müdafiə üçün müxtəlif üsullar var ki, onlardan əlverişlilərindən biri də konservasiya mayelərinin istifadəsidir [3, 4].

Bu sahədə geniş tədqiqatlar aparılır [5, 6].

Bu tədqiqatlar nəticəsində nitrolaşmış bitki yağları, təbii neft turşularının amidaminləri, mineral yağ distillatları və mineral yağlar əsasında konservasiya mayeləri alınması imkanları aşkar olunmuşdur.

T-46 və T-30 yağı distillatları (Bakı neftləri qarışığından alınmış) 57-61%-li nitrat turşusu ilə, insiator kimi natrium nitrit götürməklə (nitrat turşusuna görə 0,1 mol), 70-90°C temperaturda 3 saat intensiv qarışdırılmaqla nitrolaşdırılmışdır. Fazalaşma getdikdən sonra nitrolaşmış yağ 70-80°C temperatura malik su ilə iki dəfə yuyulur və qurudulur. Sonra nitrolaşmış yağ T-30 yağına müxtəlif miqdarlarda əlavə olunaraq konservasiya mayeləri hazırlanır. Hazırlanmış mayelərə polad-3 nümunəsi salınaraq 24 saat saxlanılır, sonra bir saat açıq havada saxlandıqdan sonra hidrokameraya, dəniz suyuna və 0,001%-li H_2SO_4 məhluluna salınır.

Tərkibində 5; 10; 15; 20 və 25 nitrolaşmış yağ olan konservasiya mayeləri sınaqdan keçirilmişdir. Təcrübələr iki qrup üzrə aparılmışdır. Birinci qrup konservasiya mayeləri T-30 yağı və nitrolaşmış T-46 yağı distillatı əsasında hazırlanmışdır. 5% nitrolaşmış T-46 yağına malik konservasiya mayesi hidrokamerada, dəniz suyunda və 0,001%-li sulfat turşusu məhlulunda atmosfer korroziyasından müdafiəni uyğun olaraq 95, 30 və 27 gün təmin etmişdir. Tərkibində 10% nitrolaşmış T-46 yağı distillatı olan tərkib uyğun olaraq 105, 65 və 60 gün müdafiəni təmin etmişdir.

Tərkibində nitrolaşmış T-46 yağı distillatı 15% olan konservasiya mayesi atmosfer korroziyasından müdafiəni uyğun olaraq 142, 78 və 74 gün təmin etmişdir. Konservasiya mayesinin tərkibində nitrolaşmış T-46 yağı distillatı 20 və 25% olduqda konservasiya mayesinin atmosfer korroziyasından müdafiə effekti kəskin azalmışdır. Belə ki, tərkibində 20% nitrolaşma məhsulu olan maye uyğun olaraq 127, 74, 70 gün tərkibində 25% nitrolaşma məhsulu olan maye uyğun olaraq 110, 67 və 65 gün atmosfer korroziyasından müdafiəni təmin etmişdir.

T-30 yağı və nitrolaşmış T-30 yağı distillatı əsasında hazırlanmış konservasiya mayelərinin də atmosfer korroziyasından müdafiə qabiliyyətləri yoxlanılmışdır. Müəyyən edilmişdir ki, tərkibində 5% nitrolaşmış T-30 yağı distillatı olan tərkib atmosfer korroziyasından müdafiəni uyğun olaraq 165, 92, 89 gün təmin edir. Tərkibində 10%

nitrolaşmış T-30 yağı distillatı olan tərkib korroziyadan müdafiəni 175, 108 və 105 gün təmin edilir. Tərkibində 15% nitrolaşmış T-30 yağı distillatı olan tərkib atmosfer korroziyasından müdafiəni uyğun olaraq 229, 90 və 85 gün təmin edir.

Konservasiya mayesinde T-30 yağı distillatının nitrolaşma məhsulu 20% olduqda müdafiə müddəti uyğun olaraq korroziyadan müdafiəni 234, 105 və 102 sutka təmin edir. Nitrolaşma məhsulu 25% götürüldüyü halda müdafiə müddəti bir qədər azalaraq 232, 100 və 96 sutka olur. Göründüyü kimi nitrolaşmış T-30 yağı istifadə olunduğu halda konservasiya mayesi korroziyadan müdafiəni nitrolaşmış T-46 yağı distillatı istifadə olan halına nəzərən daha yaxşı təmin edir. Birinci halda hidrokamerada müdafiə müddəti nitrobirləşmənin qatılığından asılı olaraq 165; 175; 229; 234 və 232 gün olduğu halda, ikinci tip tərkiblərdə 95; 105; 142; 127; 110 gün olur.

Ədəbiyyat

1. Аббасов В.М., Талыбов А.Г., Алиева Л.И., Махмудова Л.А., Гасанов Э.К., Керимова Н.Г. Консервационные жидкости на основе минеральных масел, O- и N-производных линейных α-олефинов и нефтяных кислот // Процессы нефтехимии и нефтепереработки. 2006, №4 (27), с. 9-14.

2. Аббасов В.М., Махмудова Л.А., Габибуллаев Р.Ф., Алиева Л.И., Талыбов А.Г. Влияние антикоррозионных присадок на свойства консервационных жидкостей на основе масла И-40 // Нефтепереработка и нефтехимия. 2008, №9, с. 34-37.

3. Аббасов В.М., Амиров Ф.А., Алиева Л.И., Агазаде Е.ДЖ., Мамедханова С.А., Гасанов Э.К. Исследование влияния нитропроизводных α-олефинов C_{14} на защитную эффективность консервационных жидкость на основе масла Т-30 и фенолформалдегидных смог // Процессы нефтехимии и нефтепереработки, 2013, Т.14, №2 (54), с. 122-125.

4. Аббасов В.М., Агазаде Е.ДЖ., Абдуллаев Е.Ш., Гасанов Э.К., Мамедханова С.А. Консервационные жидкости и смажни на основе композиции нитро соединений, амидоаминов и твердых парафинов // Нефтепереработка и нефтехимия, 2013, №10, с. 48-51.

5. Рзаева Н.Ш., Аббасов В.М., Талыбов А.Г., Алиева Л.И. Исследование зависимости електрофизических параметров консервационных масел от температуры // Практика противокоррозионной зашиты. 2018, №2 (88), с. 52-56.

6. Рзаева Н.Ш. Результаты испытаний нитрованного подсолнечного масло в качестве компонента консервационной жидкости // Процессы нефтехимии и нефтепереработки. 2016, №1 (65), с. 15-18.

NİTROLAŞMIŞ MİNERAL YAĞ DİSTİLLATLARI ƏSASINDA KONSERVASİYA MAYELƏRİ

Abbaszadə S.M., Abbasov M.M.

Xülasə

T-46 və T-30 yağı distillatları nitrat turşusu ilə $NaNO_2$ -nin insiator kimi iştirakı ilə nitrolaşdırılmışdır.

Nitrolaşmış T-46 yağı distillatı və nitrolaşmış T-30 yağı distillatı və T-30 və T-46 yağları əsasında konservasiya mayeləri hazırlanmış, onların Q-4 hidrokamerasında dəniz suyunda və 0,001%-li sulfat turşusu məhlulunda polad-3 nümunəsinin atmosfer korroziyasından müdafiəsi üçün istifadə olunmuşdur. Nitrolaşmış T-46 yağı distillatı və nitrolaşmış T-30 yağı distillatı T-30 yağına 5, 10, 15, 20 və 25% əlavə olunaraq konservasiya mayeləri hazırlanmışdır. Müəyyən edilmişdir ki, ən yaxşı nəticə T-30 yağı 80% və nitrolaşmış konservasiya mayesi ilə əldə olunur.

ЖИДКОСТИ ДЛЯ КОНСЕРВАЦИИ НА ОСНОВЕ НИТРОЛИРОВАННЫХ

ДИСТИЛЛЯТОВ МИНЕРАЛЬНЫХ МАСЕЛ

Аббасзаде С.М., Аббасов М.М.

Резюме

Нефтяные дистилляты Т-46 и Т-30 нитровали азотной кислотой в присутствии $NaNO_2$ в качестве инициатора.

Для защиты от атмосферной коррозии образца стали-3 в 4 гидрокамерной морской воде и 0,001% растворе серной кислоты в Q-30 и Т-46 были приготовлены азотированный масляный дистиллят Т-46 и азотированный нефтяной дистиллят Т-30 и консервирующие жидкости на основе масел Т-30 и Т-46. Дистиллят азотистого масла Т-46 и дистиллят азотистого масла Т-30 готовили путем добавления 5, 10, 15, 20 и 25% масла Т-30 в качестве консервирующих жидкостей.

Установлено, что наилучшие результаты дает масло Т-30 80% и азотистая консервационная жидкость.

PRESERVATION LIQUIDS BASED ON NITROLATED DISTILLATES OF MINERAL OILS

Abbaszade S.M., Abbasov M.M.

Summary

Oil distillates T-46 and T-30 were nitrated with nitric acid in the presence of $NaNO_2$ as an initiator. To protect against atmospheric corrosion of a sample of steel-3 in 4 hydrochamber sea water and a 0.001% solution of sulfuric acid in Q-30 and T-46, nitrided oil distillate T-46 and nitrided oil distillate T-30 and conserve liquids based on oils were prepared. T-30 and T-46. T-46 nitrous oil distillate and T-30 nitrous oil distillate were prepared by adding 5%, 10%, 15%, 20%, and 25% T-30 oil as preservative liquids.

It has been established that the best results are obtained by oil T-30 80% and nitrogenous preservation liquid.

QARĞIDALI BİTKİSİNİN İNKİŞAFINA EKOLOJİ CƏHƏTDƏN TƏMİZ BOY STİMULLAŞDIRICILARININ TƏSİRİ

Məmmədov C.Ş., Qənbərova F.D., Hüseynova N.E.

Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

guseynova.narmin@gmail.com

Açar sözlər: *müasir kimya, boy stimullaşdırıcıları, ekologiya, çirklənmə.*

Hazırda çirklənmə ölkələrin ekologiyasına çox zərərli təsir göstərir, bu, ilk növbədə insan həyatı ilə bağlıdır. Zavodların, emal müəssisələrinin işindən çıxan tullantılar böyük ziyan vurur. Tullantıların yığılması və utilizasiyası problemi ciddi ekoloji problemdir, çünki tullantılar çürüməyə məruz qalır, çoxlu miqdarda toplanır və onlara mənfi təsir göstərir. Son illərdə tullantı problemi digər ekoloji problemlər arasında ilk növbədə önə çəkilir.[2] Müasir dünyanın qlobal problemlərindən biri kimi ekoloji təhlükəsizlik bu problemi həll edə biləcək mexanizmin yaradılmasına ehtiyac duyur. Bu, ekoloji böhranı daha da gücləndirir ki, bu da bir dövlətin yaşamaq və fəaliyyət qabiliyyətinə mənfi təsir göstərməklə yanaşı, bəşəriyyətin əksəriyyətini yaşamaq yollarını tapmaq zərurəti qarşısında qoya bilər. Ekoloji fəlakətin mümkün olduğunu dərk edərək, müxtəlif istiqamətlərdə səylər ətraf mühitin sağlamlığının sabitləşdirilməsinə və yaxşılaşdırılmasına yönəldilmişdir.[1]Əsas diqqət istehsalın modernləşdirilməsinə və ekoloji cəhətdən təmiz istehsal üsulla-rının inkişafına

yönəldilir. Fəaliyyətin müsbət istiqaməti göz qabağındadır, lakin onun effektivliyi şübhəlidir, çünki yalnız texnoloji innovasiyalar vasitəsilə ətraf mühitin vəziyyətinə müsbət təsir göstərmək həmişə mümkün olmur.Bu vəziyyət təkcə siyasi, iqtisadi deyil, həm də sosial, hüquqi, təhsil və digər amilləri nəzərə alan ekoloji təhlükəsizliyin hərtərəfli çərçivəsinin işlənib hazırlanmasını tələb edir. Ona görə ki, ekoloji təhlükəsizliyin əsasını cəmiyyətlə təbiət arasındakı münasibətlərdə tarazlığın tapılması təşkil edir ki, bu da fərd və cəmiyyətin ehtiyaclarını ödəməli, eyni zamanda təhlükəsiz mühitin qorunması maraqlarında iştirak etməli olan bir mexanizm kimi qəbul edilir.[2]

Qeyd olunanları nəzərə alaraq əsas məqsədimiz ekoloji cəhətdən təmiz, yerli və ucuz xammal əsasında boy stimulyatorları adlanan bioloji-aktiv maddələr sintez etmək və onlardan istifadə etməklə bitkilər üzərində elmi-tədqiqat işləri aparmaq olmuşdur.[2] Bu məqsədlə, neftin kerosin fraksiyasından müxtəlif (125-175^{0}C, 175-225^{0}C və 125-225^{0}C) qaynama temperaturlarına malik təbii neft turşuları ayrılmış, neftin 220-240^{0}C temperaturda qaynayan dizel fraksiyasından isə Mn-Cr katalizatorlarının iştirakı ilə oksidləşməsindən sintetik neft turşuları sintez olunmuşdur. [4] Sintez olunmuş neft turşuları fenol və sərbəst karbohidrogenlərdən təmizləndikdən sonra, suda həll olan – kalium, natrium və ammonium duzları onların qeyri–üzvi metal duzlarının 20%-li məhlullarından istifadə edilməklə 40-50^{0}C temperatura qədər qızdırılmaqla 3 saat müddətində qarışdırılaraq aşağıdakı reaksiya üzrə alınmışdır[4]:

$$RCOOH + MeOH = RCOOH + H_2O$$

Tədqiqat obyekti kimi qarğıdalı (sort “Zaqatala-68” və “Qürur”) bitkisi götürülmüş, hər qaba 5 ədəd toxum əkilməklə 12 variantda (3 təkrarda) təcrübələr qoyulmuşdur. Boy stimulyatoru kimi hazırlanmış neft turşusu duzlarının 0,0001 %-li məhlulları 3 müxtəlif üsullarla:

I üsul – toxumlar torpağa quru halda əkildikdən sonra;

II üsul – toxumlar 48 saat suda isladılıb torpağa əkildikdən sonra yemləmə kimi;

III üsul – toxumlar 48 saat hazırlanmış məhlullarda saxlanıldıqdan sonra torpağa əkilməklə istifadə edilmişdir.[4]

İki həftə ərzində hər gün fenoloji müşahidələr zamanı aparılmış və müəyyən olunmuşdur ki, bioloji–aktiv maddə kimi istifadə olunan neft turşusunun natrium, kalium və ammonium duzlarının 0,0001%-li məhlulları bitkinin ilkin inkişaf mərhələsində boyunun hündürlüyünün bütün variantlarda nəzarət (yəni yalnız su istifadə olunan) variantına nəzərən kəskin artmasına səbəb olmuşdur.[3]

Ədəbiyyat

1. Муромцев Г.С. Регуляторы роста растений - основа химической регуляции роста и продуктивности растений, М.,1987.

2. Резюме доклада группы экспертов высокого уровня (ГЭВУ) «Продовольственная безопасность и изменение климата», Рим, Италия, 15-20 октября, 2012 года, пункт III б.

3. C.Ş.Məmmədov, F.D.Qənbərova- “Neft mənşəli boy maddələrinin qarğıdalı bitkisinin inkişafına təsiri” AMEA Xəbərlər Məcmuəsi-“Təbiət və texnika elmləri” seriyası No-3(82), Elm nəşriyyatı,2021. Səh. 68-75

4. Məmmədov C.Ş., Pirəliyev A.G., Kərimova N.H., Quliyeva F.D., Ağayeva G.H., Mürsəlli S.N., Nəbiyeva N.D. Neft mənşəli təbii və sintetik boy maddəllərinin qarğıdalı bitkisinin ilkin inkiafına təsirinin öyrənilməsi. IX Бакинская Международная Мамедалиевская конференция по нефтехимии. Баку, 2016, 4-6 октября, с. 206.

5. Məmmədov C.Ş., Pirəliyev A.G., Quliyeva F.D., C.F.Sultanova, N.E.Hüseynova və b. “Neft əsaslı sintetik turşuların suda həll olan sadə və kompleks duzların sintezi” AMEA-nın Gəncə bölməsi, “Xəbərlər məcmuəsi” №4(78), Gəncə-2019, səh.60-66.

QARĞIDALI BİTKİSİNİN İNKİŞAFINA EKOLOJİ CƏHƏTDƏN TƏMİZ BOY STİMULLAŞDIRICILARININ TƏSİRİ

Məmmədov C.Ş., Qənbərova F.D., Hüseynova N.E.

Xülasə

Tezisdə boy stimullaşdırıcılarının alınması və istifadəsi zamanı ekologiyaya heç bir mənfi təsir göstərmədiyi haqqında məlumat əks olunmuşdur. Eyni zamanda nümunə olaraq boy stimulyatoru kimi hazırlanmış neft turşusu duzlarının 0,0001 %-li məhlullarının qarğıdalı bitkisinin inkişafına təsirindən bəhs edilmişdir.

ВЛИЯНИЕ ЭКОЛОГИЧНЫХ СТИМУЛЯТОРОВ РОСТА НА РАЗВИТИЕ РАСТЕНИЙ КУКУРУЗЫ

Мамедов Ч.Ш., Ганбарова Ф.Д., Гусейнова Н.Э.

Резюме

В тезисе содержится информация о том, что стимуляторы роста не оказывают негативного воздействия на окружающую среду при их приобретении и использовании. При этом в качестве примера обсуждалось влияние 0,0001%-ных растворов солей нефтяных кислот, приготовленных в качестве стимуляторов роста, на развитие растений кукурузы.

EFFECT OF ENVIRONMENTALLY FINE GROWTH PROMOTERS ON MAIZE PLANT DEVELOPMENT

Mammadov C.Sh., Ganbarova F.D., Huseynova N.E.

Summary

The thesis contains information that growth stimulants do not have a negative impact on the environment when they are purchased and used. At the same time, as an example, the influence of 0.0001% solutions of salts of petroleum acids, prepared as growth stimulants, on the development of corn plants was discussed.

MODİFİKASİYA EDİLMİŞ SEOLİT KATALİZATORLARI ÜZƏRİNDƏ YAĞ FRAKSİYALARININ OLEFİNLƏRLƏ ALKİLLƏŞMƏSİ

Qasımova G.Ə., Əliyeva N.M., Hüseynova Q.A.

akademik Y.H.Məmmədəliyev adına Neft- Kimya Prosesləri İnstitutu

Açar sözlər: *alkilləşmə, seolit, ZSM-5-ZrO_2, yağ fraksiyası, olefin, katalitik krekinq qazları, viscosity index.*

Keywords: *alkylation, zeolite, ZSM-5-ZrO_2, oil fraction, olefins, catalytic cracking gases, viscosity index.*

Ключевые слова: *алкилирование, цеолит, ZSM-5-ZrO_2, масляная фракция, олефины, газы каталитического крекинга, индекс вязкости.*

Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmış neft strategiyasının əsas vəzifəsi respublikamızın neft və qaz ehtiyatlarından səmərəli istifadə etməkdir. Neft emalı sənayesinin inkişafı neftdən istifadənin səmərəliliyinin artırılmasına, yeni texnologiyaların tətbiqi yolu ilə onun emalının dərinləşdirilməsinə, neft məhsullarının, o cümlədən müxtəlif təyinatlı yağların keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Azərbaycan yağlarından olan əsas yağlar qeyri-qənaətbəxş özlülük-temperatur xüsusiyyətləri (aşağı özlülük indeksi) ilə seçilir. Azərbaycan neftlərindən alınmış aşağı özlülüklü yağlardan

yalnız karbohidrogenlərin yenidən qurulması yolu ilə yüksək özlülük indeksinə malik yağlar əldə edilə bilər. Bu xassələrin təkmilləşdirilməsinin əsas istiqaməti kimyəvi tərkibi daha yüksək özlülük indeksinə malik karbohidrogenlərin əmələ gəlməsi istiqamətinə yönələn proseslərdən istifadə etməkdir. Neft fraksiyalarının izoparafin karbohidrogenlərlə doyması onların reoloji xassələrini yaxşılaşdırır, uçuculuğu azaldır, istilik-oksidləşmə dayanıqlığını, həmçinin bir sıra iş göstəricilərini artırır. Buna görə də alkilləşmə normal parafinləri izoparafinlərə çevirməklə izoparafin karbohidrogenlərini artırmaq yollarından biridir.
Məlumdur ki, yağ fraksiyalarının əsas komponentlərindən biri naften karbohidrogenləridir. Naften, aromatik karbohidrogenlər və onların alkil törəmələri özlülük xassələrinin formalaşmasında əsas rol oynayır, belə ki, onların tərkibində çox miqdarda normal və izoquruluşlu parafin karbohidrogenlər yoxdur.

Yüksək özlülük-temperatur xassələrinə malik məhsulların istehsalı üçün neft fraksiyalarının karbohidrogenlərə çevrilməsinə məqsədyönlü təsir neft emalı sənayesində əsas məsələlərdən biridir. Ona görə də ölkəmizdə xammaldan istifadə etməklə ekoloji cəhətdən təmiz, yüksək indeksli yağların istehsalı texnologiyasının yaradılması aktual məsələlərdən biridir. Keyfiyyətli yağların istehsalında katalitik krekinq qazları olan propan-propilen (PPF) və butan-butilen (BBF) fraksiyalarının tətbiqi perspektivli istiqamətlərdən biridir.

Əvvəllər Zeokar-600 və Omnikat-210P katalizatorlarında alkilləşmə prosesi öyrənilərkən, distillat kimi 40°C-də kinematik özlülükləri 27,8 və 76,4 mm^2/s və özlülük indeksləri müvafiq olaraq 32 və 55 olan turbin yağı distillatlarından istifadə edilmişdir [1, s.270; 2, s.1220; 3]. Bundan əlavə 40^oC-də kinematik özlülüyü 9,85 mm^2/s və özlülük indeksi 79 olan aşağı özlülüklü sənaye neft fraksiyasından istifadə edilmişdir. Zeokar-600 katalizatorunda 50°C temperaturda, 0,6 MPa təzyiqdə və 1:1 neft:qaz nisbətində alkilləşmə prosesinin həyata keçirilməsi turbin yağının distillə fraksiyasının özlülük indeksinin 32-dən 75-ə qədər artmasına gətirib çıxarır. Digər seolitlərdə alınan alkilatların özlülük göstəriciləri xeyli aşağıdır və 45-33 aralığındadır. Zeokar-600 katalizatoru ilə özlülük indeksi 55-dən 70-ə yüksəlir. Digər seolitlərdə isə bu rəqəm yalnız 60-a qədər ola bilir. Tədqiqatlar göstərir ki, neft fraksiyalarının özlülüyünün artması ilə müşahidə edilən alkilləşmə reaksiyaları daha zəif gedir.

T-30 yağının katalitik krekinq qazları ilə alkilləşməsi modifikasiya edilmiş ZSM-5-ZrO_2 katalizatorunda qarışdırıcı ilə təchiz edilmiş avtoklavda, 50°C temperaturda aparılmışdır. 50°C temperaturda qazların yaratdığı təzyiq 0,9 MPa olmuş və proses üçün 1,5 q katalizator götürülmşdür. Reaksiya 1 saat davam etmişdir.

Katalitik krekinq qazlarının həcmi 56,09% aşağıdakı kimi təyin edilimişdir, olefin karbohidrogenləri əsasən C_3-C_4-dür. İlkin katalitik krekinq qazlarının analizi Perkin Elmer şirkətinin "AutoSystem XL" qaz xromatoqrafında qaz daşıyıcısı helium, ionlaşdırıcı – alov detektoru və 10×2,5 m ölçüdə kapilyar kalondan istifadə etməklə aparılıb. Katalitik krekinq qazlarının tərkibi (% həcm) - etilen-etan (0,07), propilen (32,73), propan (11,08), izo-butan (21,89), buten-1 (11, 74), butan (8,43), trans-buten-2 (6,59), sis-buten-2 (4,63), 3-metilbuten-1 (0,24), izo-pentan (2,28)), 2-metilbuten-1 (0,14), penten-1 (0,10), pentan (0,03), trans-penten-2 (0,03), sis-penten-2 (0,01) , 2-metilbuten-2 (0,02).

T-30 distillat fraksiyasının əsas xassələri cədvəl 1-də verilmişdir.
550°C temperaturda közərdilmiş ZSM-5 və ZSM-5-ZrO_2 katalizatorlarının nümunələri üzrə alınmış alkilatın əsas fiziki-kimyəvi xassələri 2-ci cədvəldə verilmişdir.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, ZSM-5-ZrO_2 katalizatoru ilə alınmış alkilat ZSM-5-də alınmış alkilata nisbətən daha yaxşı özlülük-temperatur xassələri göstərmişdir. Eyni zamanda, alkilləşmə zamanı T-30 turbin yağının özünün özlülük indeksi 49,9-dan 137-yə yüksəldilib.

Beləliklə, ZSM-5 seolitinin tərkibinə ZrO_2, yəni sirkonium metalının oksidinin daxil edilməsi alkilləşmə reaksiyasında katalizatorun aktivliyini dəyişdi. Zr metalının ZSM-5-in

aktivliyinin artırılmasında iştirakını sübut etmək üçün katalizatorların faza tərkibi rentgen şüalarının difraksiyası ilə öyrənilmişdir. Şəkil 1-də 550°C temperaturda közərdilmiş ZSM-5-ZrO_2 və ZSM-5 seolitinin spektrləri və $ZrOCl_2 \cdot 6H_2O$ kristalhidratının spektrləri göstərilir.

550°C-də közərdilmiş ZSM-5-ZrO_2 katalizatorunun spektri kristal quruluşun mövcudluğunu və ZrO_2 fazasının pik xarakteristikasını göstərir. Buna görə də bu spektr,

Cədvəl 1

T-30 distilat yağının fraksiyasının əsas xüsusiyyətləri.

Göstəricilər	Metod	Distilat T-30 yağı
Kinematik özlülük, mm^2/s: 40°C-də	ASTM D445	49,870
100°C-də	ASTM D445	6,1284
Özlülük indeksi	ASTM D445	49,9
Açıq tiqeldə alışma temperaturu, °C	ГОСТ 4333-87	173
Donma temperaturu, °C	ГОСТ 20287-91	Mənfi 30
20°C-də sıxlıq, kq/m^3	ASTM D 5002	910,8

Cədvəl 2

Ad	Fiziki-kimyəvi xassələr				
	ρ_4^{20}, kq/m^3	n_D^{20}	Kinematik özlülük, mm^2/s		Özlülük indeksi
			40°C	100°C	
Alkilat (ZSM-5-ZrO_2, 550°C)	898,0	1,4954	37,986	7,0715	137
Alkilat (ZSM-5, 550°C)	897,8	1,4987	45,40	6,30	80,7

ZSM-5-ZrO_2 and ZSM-5 –dən əldə edilən alkilatın əsas fiziki-kimyəvi xassələri katalizatorun tərkibində ZSM-5 seolitinin Lyuis və Brensted turşu sahələrinin nisbətini dəyişdirən Zr-nin olmasını sübut etdi.



Şəkil 1. Spektr: zirkonium xlorid $ZrOCl_2 \cdot 6H_2O$ (1), seolit ZSM-5 (2) və modifikasiya olunmuş seolit ZSM-5-ZrO_2 (3).

Bu, Lewis turşusunun yerlərinin artmasına və Bronsted turşusunun yerlərinin azalmasına uyğun gəlir. Beləliklə, T-30 distilat fraksiyasının katalitik krekinq qazları ilə alkilləşməsi reaksiyasında həm Bronsted, həm də Lewis turşusu sahələri, lakin daha çox Lyuis yerləri iştirak edir. Bu, müxtəlif reaksiyalar zamanı metalların daxil olması ilə seolitlərdə turşu sahələrinin nisbətinin dəyişməsi ilə bağlı tədqiqatlarla təsdiqlənir [4, 5].

References

1. G. A. Huseynova, G. S. Muxtarova, N. M. Aliyeva, G. A. Gasimova, S. Yu. Rashidova, I. A. Hajiyeva. Alkylation of distillate oil fractions with catalytic cracking gases in various catalytic systems / Материалы XII Международной конференции «Химия нефти и газа» (26-30 сентября 2022г., Томск, Россия). – Томск: Изд-во ИОА СО РАН, 2022. - С.270-271. ISBN 978-5-94458-192-1.
2. Huseynova GA, Samedova FI, Rashidova S.Yu. et al. A Study of the Products of Turbine Oil Distillate Alkylation with Catalytic Cracking Gases //Petroleum Chemistry, 2019, Vol.59, №11, pp.1220-1225. DOI: 10.1134/S0965544119110070
3. Huseynova GA, Muxtarova GS, Rashidova SY, Guliev AI Process of alkilating of oily fractions with catalytic cracking gases //Petroleum &Petrochemical Engineering Journal, 2019, Volume 3, Issue 6 : 000212/ DOI: 10.23880/ppej-16000212
4. Zaikovsky V.I., Vosmerikova L.N., Vosmerikov A.V. Nature of the Aktive Centers of In-, ZR-and Zn-Aluminosilicates of the ZSM-5 Zeolite Structural Type //Russian Journal of Physical Chemistry A. 2018. Vol.92, №4, PP.689-6955. DOI: 10.7868/S0044453718040118
5. Kipnis M.A., Volnina E.A. Sintez metilasetata karbonilirovaniem dimetilovogo efira na zeolitax//Kinetikaikataliz. 2022. Vol.63, №2, PP.147-159. DOI: 10.31857/S0453881122020034

АЛКИЛИРОВАНИЕ МАСЛЯНЫХ ФРАКЦИЙ ОЛЕФИНАМИ НА МОДИФИЦИРОВАННЫХ ЦЕОЛИТАХ

Гасымова Г.Э., Алиева Н.М., Гусейнова Г.А.

Резюме

Приведены результаты алкилирования дистиллятной масляной фракции турбинного масла Т-30 газами каталитическоо крекинга с суммарным содержанием олефинов 56,09% при температуре 50ºС на катализаторах ZSM-5-ZrO_2 и ZSM-5. Определено, что алкилат, полученный на образце катализатора ZSM-5-ZrO_2, показал лучшие вязкостно-температурные свойства по сравнению с алкилатом, полученным на ZSM-5. При этом индекс вязкости исходного турбинного масла Т-30 в процессе алкилирования был увеличен от 49.9 до 137.

На спектрах, полученных методом X-ray дифракции, выявлено наличие кристаллической структуры и ZrO_2 в составе цеолита ZSM-5-ZrO_2, прокаленном при температуре 550ºС. Определено, что в реакции алкилирования дистиллятной фракции масла Т-30 газами каталитического крекинга принимают участие как бренстедовские, так и льюисовские кислотные центры катализатора.

ALKYLATION OF OIL FRACTIONS WITH OLEFINS ON A MODIFIED ZEOLITE CATALYST

Gasimova G.E., Aliyeva N.M., Huseynova G.A.

Summary

The results of alkylation of the distillate oil fraction of T-30 turbine oil with catalytic cracking gases with a total olefin content of 56.09% at a temperature of 50°C on ZSM-5-ZrO_2 and ZSM-5 catalysts are presented. It was determined that the alkylate obtained on a sample of the ZSM-5-ZrO_2 catalyst showed better viscosity-temperature properties compared to the alkylate obtained on ZSM-5. At the same time, the viscosity index of the original T-30 turbine oil during alkylation was increased from 49.9 to 137.

The X-ray diffraction spectra revealed the presence of a crystal structure and ZrO_2 in the ZSM-5-ZrO_2 zeolite calcined at a temperature of 550°C. It has been determined that both Bronsted and Lewis acid centers of the catalyst take part in the reaction of alkylation of the distillate fraction of T-30 oil with catalytic cracking gases.

AVROPIUM ÜSULU İLƏ MAKROSIKL KOMPLEKSİ ƏSASINDA FOTOLÜMINESSENT XASSƏLƏRƏ MALIK YENI POLİMER NANOKOMPOZITLƏRIN ALINMASI

Əmirov F., Quliyeva N., Əliyeva Z.,
Məmmədova A., Əzizova G., Bayramova S., Cəfərova D.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Açar sözlər: *dielektrik, nanometr, kompozisiya, faza, sintez*
Ключевые слова: *диэлектрик, нанометр, состав, фаза, синтез.*
Keywords: *dielectric, nanometer, composition, phase, synthesis.*

Kompozitlərin xassələri polimer matrisinin kimyəvi təbiəti, nanokompozitlərdə nisbəti mikrokompozitlərdən daha çox olan fazalararası sərhədlərin quruluşu, həmçinin hissəciklər və polimer arasındakı qarşılıqlı əlaqə ilə də müəyyən edilir.

Məlumdur ki, belə mürəkkəb çoxfazalı materialların fiziki xassələrinə nanohissəciklərin tərkibi, strukturu, ölçüləri, həcm tərkibi və nanokompozitlərin ayrı-ayrı komponentlərinin xassələri güclü təsir göstərir. Yeni fotolüminessent polimer nanokompozitlərin (PNCs) axtarışı və istehsalı çoxfazalı polimer sistemlərində enerjinin ötürülməsi və daşıyıcının daşınması mexanizmini başa düşmək üçün böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Bütün bu məsələlər flüoresan ekranlar, çeviricilər, sensorlar və bənzərsiz xüsusiyyətlərə malik və onların əsasında görünən spektrdə uzadılmış fosforessensiya vaxt intervalları olan digər cihazların yaradılması zamanı aktual görünür. İki və ya çoxlu sayda fazadan ibarət polimer nanokompozit materiallar struktur və xassələrini dəyişdirərək yeni aktiv elementlərin yaradılması üçün fiziki və kimyəvi əsasların işlənib hazırlanmasını tələb edir [1].

Məlumdur ki, polimerlərin məhv edilməsi polimerlərin həssaslığının pisləşməsinə səbəb ola bilər. Yarımkeçirici fotolüminessent nanohissəciklərlə səpələnmiş termoplastik polimerlər əsasında aktiv elementlərin yaradılması ilə bağlı istiqamət yeni imkanlar açır. Bu materiallar həm polimer matrisinin (çeviklik, istənilən konfiqurasiyanın elementlərini əldə etmək imkanı və s.), həm də aktiv doldurucunun (həssaslıq) müsbət xassələrini təcəssüm etdirir və fiziki və mexaniki xüsusiyyətlərlə birlikdə yaxşı fotolüminessent xüsusiyyətlərə malik ola bilər.

Beləliklə, avropiuma diqqət yetirərək və onu katod-şüa və plazma rəngli ekranlarda istifadə edilən fosforların əvəzedilməz komponenti kimi nəzərə alaraq, avro əskinasları avropium əsaslı fosforlar, məsələn, mikroelektronikada istifadə olunan avropium volfram fosforu, avropalı stronsium borat qara işıq lampalarında fosfor kimi istifadə olunur

Qeyd edək ki, europium aşağı zəhərli elementdir. Avropiuma məruz qalmanın insan orqanizminə təsiri haqqında məlumat yoxdur.

Makrosikllərin nəhəng imkanları prinsipcə yeni kimyəvi-texnoloji proseslər yaratmağa imkan verir. Liqand kimi fəaliyyət göstərən makrosiklik birləşmələr öz donor atomlarını fəzada elə yerləşdirməyə qadirdirlər ki, ion kompleksləşdirici agentin daxil olduğu koordinasiya birləşməsi əmələ gəlsin [2].

Makrosiklik liqandlar yüksək seçicidir-müəyyən ölçülü kationlarla xüsusilə güclü komplekslər əmələ gətirir. Bizim vəzifəmiz fotolüminessent xüsusiyyətlərə malik yeni polimer nanokompozitlər əldə etmək üçün makrotsikl kompleksini sintez etmək və onun boşluğuna europium ionlarını daxil etməkdir.

Texnologiyanın müxtəlif sahələrində istifadə oluna bilən fotolüminessensiya xassələri nümayiş etdirə bilən avropiumlu makrosiklin sintez edilmiş kompleksi əsasında yeni polimer nanokompozitlərin yaradılması, materialların mürəkkəb fiziki və kimyəvi eksperimental üsullarla tədqiqi molekulyar və nanokompozitlərin lüminessent, dielektrik xüsusiyyətləri bağlıdır.

Yeni fotolüminessent polimer nanokompozitlərin alınması texnologiyası işlənib hazırlanmışdır ki, bu da luminessensiya materiallarının yeni sinfinin yaradılmasının mühüm məsələlərini həll etməyə imkan verir, və makrosiklik birləşmənin avropiumla sintezi həyata keçirilir. Lüminessensiya xassələrinin dəyişmə qanunauyğunluqlarından asılı olaraq, doldurucunun elektrofiziki xüsusiyyətləri, dispersiya və həcm tərkibi, kompozitlərdə PL-in əmələ gəlməsində fazalərarası sərhəd qatının rolu müəyyən edilmişdir.

Ədəbiyyat

1. Суздалев И.П. Нанотехнология: физикохимия нанокластеров, наноструктур и наноматериалов. М: Комм.Книга.2006. 592 с.

2. Kuntz J. D., Zhan G.-D., Mukherjee A. K. Nanocrystalline - matrix ceramic composites for improved fracture toughness // MRS Bulletin. - 2004. - No. 1. - P. 22-27. Wilson J. L. et al. Synthesis and Magnetic Properties of Polymer Nanocomposites with Emedded Iron Nanoperticles // Journal of Applied Physics. - 2004. Vol. 95(3). - P. 1439-1443.

AVROPIUM ÜSULU İLƏ MAKROSIKL KOMPLEKSİ ƏSASINDA FOTOLÜMINESSENT XASSƏLƏRƏ MALIK YENI POLİMER NANOKOMPOZITLƏRIN ALINMASI

Əmirov F., Quliyeva N., Əliyeva Z., Məmmədova A., Əzizova G., Bayramova S., Cəfərova D.

Xülasə

Son zamanlar materialların yeni növünə - nanometr ölçülü hissəciklərin dielektrik polimer matrisinə daxil edilməsi qeyri-adi müsbət və aktiv xüsusiyyətlərə səbəb olan nanokompozitlərə maraq xeyli artmışdır.Qeyd etmək vacibdir ki, polimer matrislər - atomların, molekulların və kütləvi nümunələrin xassələrindən əsaslı şəkildə fərqlənən və nanohissəciklərin strukturunu təyin edən aktiv nanohissəciklərin sabitləşməsinə qədər azalmır.

ПОЛУЧЕНИЕ НОВЫХ ПОЛИМЕРНЫХ НАНОКОМПОЗИТОВ С ФОТОЛЮМИНЕСЦЕНТНЫМИ СВОЙСТВАМИ НА ОСНОВЕ МАКРОЦИКЛИЧЕСКОГО КОМПЛЕКСА ЕВРОПИЕВЫМ МЕТОДОМ

Амиров Ф., Гулиева Н., Алиева З., Мамедова А., Азизова Г., Байрамова С., Джафарова Д.

Резюме

В последнее время значительно возрос интерес к новому типу материалов – нанокомпозитов, в которых включения частиц нанометрового размера в диэлектрическую полимерную матрицу, приводят к необычным положительным и активным свойствам. Важно отметить, что роль полимерной матрицы не сводится только к стабилизации активных наночастиц, свойства которых принципиально отличаются от свойств атомов, молекул и массивных образцов, но и определяет структуру образованного в ней ансамбля наночастиц.

PREPARATION OF NEW POLYMER NANOCOMPOSITES WITH PHOTOLUMINESCENT PROPERTIES BASED ON MACROCYCLE COMPLEX BY EUROPIUM METHOD

Amirov F., Guliyeva N., Aliyeva Z., Mammadova A., Azizova G., Bayramova S., Jafarova D.

Summary

Recently, there has been a significant increase in interest in a new type of materials - nanocomposites, in which the inclusion of nanometer-sized particles in the dielectric polymer matrix leads to unusual positive and active properties. It is important to note that the role of the polymer matrix is not limited to the stabilization of active nanoparticles, the properties of which are fundamentally different from the properties of atoms, molecules and massive samples, but also determines the structure of the ensemble of nanoparticles formed in it.

Ce-Cu-O KATALİZATORLARIN ETANOLUN DEHİDROGENLƏŞMƏSİ REAKSİYASINDA TƏDQİQİ

Məmmədova S.H.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Açar sözlər: *Etanolun dehidrogenləşməsi, binar katalizatorlar, kristalliklik.*

Keywords: *ethanol dehydrogenation, binary catalysts, crystallinity.*

Ключевые слова: *дегидрирование этанола, бинарные катализаторы, кристалличность.*

Giriş

Məlumdur ki, bərpa olunan bioetanol müxtəlif kimyəvi birləşmələrin istehsalı üçün perspektivli xammallardan biridir [1,2]. Etanolun çevrilmə reaksiyası ilə asetaldehid, sirkə turşusu, etilasetat, aseton, dietil efiri və s. kimi kimyəvi maddələr əldə etmək olar. Etanolun dehidrogenləşməsi reaksiyaları üçün serium,xrom, sink, mis və s. oksidləri əsasında müxtəlif katalitik sistemlərdən istifadə olunur [3,4]. Biz əvvəllər göstərmişdik ki, etanol müxtəlif binar serium-mis tərkibli katalizatorlarda yüksək sürətlə asetona, sirkə turşusuna çevrilir [5]. Məlumdur ki, katalizatorun faza tərkibi, yəni struktur xüsusiyyətləri onun aktivliyinə güclü təsir göstərə bilər [6]. Katalizatorun struktur xüsusiyyətlərindən biri onun kristallığıdır ki, bu da həm onu hazırlamaq üçün istifadə olunan əsas birləşmələrdən, həm də onun hazırlanma şəraitindən asılıdır.

Eksperimental hissə

Müxtəlif tərkibli binar serium mis oksid katalizatorları serium və mis nitratın sulu məhlullarından birgə çökdürmə yolu ilə hazırlanmışdır. Nəticədə qarışıq ardıcıl olaraq buxarlanır və 100-120 ° C-də qurudulur, azot oksidləri 250 °-350 C-də tamamilə parçalanır və sonra 10 saat ərzində 550 ° C-də közərdilir. Beləliklə, elementlərin atom nisbəti Ce:Cu = 1:9-dan Ce:Cu = 9:1-ə qədər olan 9 katalizator sintez edilmişdir. Sintez edilmiş katalizatorların etanolun dehidrogenləşməsi və buten-1 izomerləşməsi reaksiyasında aktivliyi kvars reaktoru olan axın qurğusunda 150 – 450°C temperatur intervalında tədqiq edilmişdir. 1,0-2,0 mm ölçüsündə olan tədqiq edilmiş katalizatordan 5 ml reaktora doldurulur və etanolun dehidrogenləşlmə reaksiyasında aktivliyi öyrənilmişdir. Etanolun çevrilməsi azot axınında həyata keçirildi. Etanol və onun çevrilmə məhsulları xromatoqrafiya üsulu ilə təyin edilmişdir. Binar serium-mis oksid katalizatorlarının rentgen tədqiqatları Bruker şirkətinin avtomatik D2 Phaser toz difraktometrində (CuKα şüalanması, Ni filtri, $3 \leq 2\theta \geq 80$ °) aparılmışdır.

Nəticələr və müzakirə

Tədqiqatlar göstərdi ki, etanolun serium-mis oksid katalizatorları üzərində çevrilməsinin əsas məhsulu aşağı temperaturda sirkə aldehidi və etilasetatdırsa yüksək temperaturda sirkı aldehidilə yanaşı aseton reaksiya məhsulu hesab edilir. Həmçinin etilen, karbon dioksid və karbon monoksid kimi məhsulları əmələ gəlir. Şəkil 1-dən göründüyü kimi sirkə aldehidi ən çox Ce:Cu = 1:9 katalizatorunda əmələ gəlir.



Şəkil 1 Ce:Cu=6:4 katalizatorda etanol çevrilmə məhsullarının məhsuldarlığına temperaturun təsiri.

Etilasetatın ən yüksək çıxımı Ce-Cu=2:8 nümunəsində 26.1%, asetonun isə yüksək çıxımı Ce-Cu=6:4 nisbətində 43,2% müşahidə olunur Şəkil 1-dən görünür ki, tədqiq olunan katalizatorda etanolun dehidrogenləşməsi reaksiyası 150°C temperaturda başlayır və bu temperaturda 9,9% həcmində yalnız sirkə aldehidi əmələ gəlir. Reaksiya temperaturunun artması digər reaksiya məhsullarının əmələ gəlməsinə səbəb olur. Sirkə aldehidinin maksimum məhsuldarlığı 300°C-də 44,6%-ə çatır.

Etilen, aseton və karbon dioksidin əmələ gəlməsi 350° C temperaturda başlayır. Şəkil 1-də göstərilir ki, reaksiya temperaturu artdıqca etilen və asetonun məhsuldarlığı artır. Etilen və asetonun ən yüksək məhsuldarlığı 450°C temperaturda müşahidə edilir və müvafiq olaraq 30,2 və 28% təşkil edir. Etil asetatın əmələ gəlməsi 200°C temperaturdan müşahidə edilir və 19,8%-dən başlayır. Ce:Cu = 1:9 katalizatorunda maksimum etanolun konversiyası 450°C-də 92,6%-ə çatır.

İlkin tədqiqatlarımız göstərdi ki, seriumun misə atom nisbəti etanolun çevrilməsi reaksiyasında serium-mis oksidi katalizatorlarının aktivliyinə güclü təsir göstərir. Bununla əlaqədar olaraq serium mis katalizatorunun tərkibinin onun aktivliyinə təsirini öyrəndik. Cədvəl 1-də 300°C temperaturda müxtəlif tərkibli serium mis oksidi katalizatorlarında etanolin dehidrogenləşdirilməsi reaksiyasında sirkə aldehidinin, etilasetatın , asetonun, etilenin və karbon oksidlərinin çıxımı məhsuldarlığı və selektivliyi göstərilir.

Cədvəl 1-dən göründüyü kimi, katalizatorun tərkibində seriumun miqdarının artması ilə sirkə aldehidin Ce:Cu = 1:9 katalizatorda 44,6% etilasetaın çıxımı Ce:Cu = 2:8 katalizatorda 26,1% və asetonun çıxımı isə Ce:Cu = 6:4 katalizatorda maksimum 43.2% təşkil edir və keçir. Cədvəl həmçinin göstərir ki, katalizatorda seriumun miqdarının artması ilə sirkə aldehid üçün reaksiyanın seçiciliyi demək olar ki, 98% -ə qədər yüksəlir və sonra dəyişməz qalır. Tədqiq olunan nümunələrdə etanolun maksimal çevrilməsi 81,5%-ə çatır.

Cədvəl 1.

Reaksiya məhsullarının çıxımlarının seriumun misə atom nisbətindən asılılığı. T = 300°C.

Ce/Cu atom nisbəti	1:9	2:8	3:7	4:6	5:5	6:4	7:3	8:2	9:1
Reaksiya məhsulları	Çıxım, %								
CH3CHO	44,6	27,8	35,3	43,9	0.6	1.9	19,6	61,1	12.8
CH3COCH3	16.9	34.4	33.8	20.4	0	24.4	14.4	16.7	25.7
CH3COOC2H5	8.9	26.1	19	13.8	0	0	16.8	15.7	6.7
C2H4	9,6	7,2	10,6	3,4	0	7.2	2.9	1.9	0
CO+CO2	5.6	5.7	13.4	17.2	67.5	13.5	12.4	18.2	25.6
konversiya	80,6	78	92,6	73,9	77	84,9	57,9	70,5	.67,8

Belə ki, aparılan tədqiqatlara əsasən söyləmək olar ki, sirkə aldehidi, etilasetat və aseton serium-mis katalizatorlarında əsas reaksiya məhsuludur. Reaksiya məhsullarının serium mis

katalizatorları üzərində çıxması və paylanması həm reaksiya temperaturundan, həm də seriumun misə atom nisbətindən asılıdır.

Məlumdur ki, katalizatorun faza tərkibi, yəni struktur xüsusiyyətləri onun fəaliyyətinə güclü təsir göstərə bilər. Katalizatorun struktur xüsusiyyətlərindən biri onun kristallikliyidir ki, bu da həm onu hazırlamaq üçün istifadə olunan əsas birləşmələrdən, həm də onun hazırlanma şəraitindən asılıdır. Bu səbəbdən biz sintez etdiyimiz katalizatorların etanolun dehidrogenləşməsi reaksiyasında aktivliyin onların kristallik dərəcəsindən asılılığını öyrənmişik.

Ce-Cu-O katalitik sisteminin rentgen tədqiqatları göstərir ki, iki əsas oksidin fazalarına əlavə həm də metallic mis fazası əmələ gəlir. Ce-Cu-O sistemində difraksiya əyrilərinin təhlili bütün nümunələrdə CeO2, CuO və yalnız Ce-Cu=1:9nisbətində isə metallik Cu fazası əmələ gəlməsini göstərir.

Biz həmçinin DIFFRAC.EVA proqramından istifadə etməklə D2 Phaser-də bütün fazaların kristallaşma dərəcələrini hesabladıq. Alınan nəticələr cədvəl 3-də göstərilmişdir.Cədvəl 3-dən göründüyü kimi, misin miqdarı azaldıqca tədqiq olunan katalitik sistemdə kristallıq dərəcəsi artır. Beləliklə, Ce-Cu-O katalitik sistemində artan seriumun tərkibi ilə kristallaşma dərəcəsi 52,7% -dən 71,2% -ə qədər yüksəlir.

Cədvəl 3.

er-Cu-O katalitik sisteminin nümunələrinin kristallıq dərəcəsi.

Ce:Cu nisbəti	1:9	2:8	3:7	4:6	5:5	6:4	7:3	8:2	9:1
Kristallıq dərəcəsi, %	66,7	59,1	63.0	52,7	62.4	70.4	67,9	64.6	71.2

Şəkil 3-də serium mis oksid katalizatorlarının iştirakı ilə etanolun çevrilməsi reaksiyasında asetaldehid, etilasetat, aseton, etilen, karbon qazı çıxımlarının nümunələrin kristallıq dərəcəsindən asılılığı göstərilir. Şəkildən göründüyü kimi, serium-mis oksid katalizatorlarının kristallikliyi artdıqca, etilasetatın çıxımı azalır asetaldehidin çıxımı isə maksimumdan keçir bna əsasən deyə bilərik ki etilasetat zəif asetaldehid isə yüksək kristallik dərəcəsinə malik olan nümunələrdə əmələ gəlir.



Şəkil 3. Etanolun dehidrogenləşməsi reaksiyasında serium-mis oksid katalizatorunun aktivliyinin kristallıq dərəcəsindən asılılığı. T = 300 °C.

Həmçinin, görünür ki, kristalliklik artması ilə aseton və karbon qazının çıxımları da artır yəni simbat olaraq dəyişir. Buna əsasən demək olar ki,aseton və karbon qazı eyni reaksiya məhsullarıdır və eyni mərkəzdə əmələ gəlirlər.

Nəticələr

- Serium-mis oksid katalizatorları üzərində etanolun dehidrogenləşmə reaksiyasının əsas məhsulu aşağı temperaturda asetaldehid və etilasetat yüksək temperaturda isə sirkə aldehididir və asetondur.

- Serium-mis oksid katalizatorlarının kristallıq dərəcəsinin artması sirkə aldehidinin çıxımı maksimumdan keçir və etanola çevrilmə reaksiyasında onun selektivliyinin artmasına səbəb olur.
- Rentgenoqrafik tədqiqatlar nəticəsində müəyyən olundu ki, bu sistemdə CeO2 CuO və metallik mis fazaları əmələ gəlir.

Ədəbiyyat

1. Megumu İnaba, Kazuhisa Murata, Masahiro Saito və İsao Takahara. Etanolun bir neçə seolit katalizatoru üzərində aromatik karbohidrogenlərə çevrilməsi // Reaksiya Kinetikası və Kataliz Məktubları. 2006 cild. 88, səh. 135–141.
2. Dapeng Liu, Yan Liu, Eileen Yi Ling Goh, Christina Jia Ying Chu, Chuandayani Gunawan Gwie, Jie Chang, Armando Borgna. ZSM-11 əsaslı katalizatorlar üzərində etanolun katalitik çevrilməsi // Applied Catalysis A: General, 2016, Vol. 523, səh. 118–129.
3. Hala R. Mahmud. Etanolun çevrilməsi üçün yeni katalizatorlar kimi yüksək dispersli Cr2O3–ZrO2 ikili oksid nanomaterialları // Molekulyar Kataliz jurnalı A. Kimya. 2014, Cild. 392, səh. 216–222.
4. Isabel C. Freitas, Jean Marcel R. Gallo, José Maria C. Bueno və Clélia MP Markes. Etanolun çevrilməsi üçün Cu/ZrO2 Performansında Ag-nin Təsiri // Katalizdə Mövzular. 2016, cild. 59, səh 357–365.
5. Məmmədova S.H., Ağayeva K.X. Etanolun ikili mis tərkibli katalizatorlara çevrilməsi // Kimyə problemləri. 2020, cild 18, No 2, səh.199-205.
6. Kushal Singh, Kundan Kumar, Saurabh Srivastava, Anirban Chowdhury, CeO2 matrisində nadir torpaq dopinqinin təsiri: Struktur, katalitik və görünən işıq fotokatalitik xassələri ilə korrelyasiya, Ceramics International, Cilt 43, Sayı 18, 15 dekabr, 21-ci səhifə

Ce-Cu-O KATALİZATORLARIN ETANOLUN DEHİDROGENLƏŞMƏSİ REAKSİYASINDA TƏDQİQİ

Məmmədova S.H.

Xülasə

İşdə etanolun dehidrogenləşdirilməsi reaksiyası serium mis oksidi katalizatorları üzərində tədqiq edilmişdir. Göstərilmişdir ki, asetaldehid, etilasetat və aseton etanola çevrilmə reaksiyasının əsas məhsullarıdur. Müəyyən edilmişdir ki, temperaturun artması ilə etanolun dehidrogenləşməsi reaksiyasının məhsullarının çıxımı da dəyişir. Tədqiqatlar göstərmişdir ki, katalizatorun tərkibindəki seriumun misə atom nisbəti də serium-mis oksidi katalizatorlarunun aktivliyinə güclü təsir göstərir. Müəyyən edilmişdir ki, katalizatorun tərkibində seriumun miqdarı çox olan nümunələr sirkə aldehidinin əmələ gəlməsi reaksiyasında ən böyük aktivliyə malikdir. Rentgen tədqiqatları göstərdi ki, Ce-Cu-O katalizatorları əsasən ilkin oksidlərdən CeO və CuO ibarətdir və yalnız Ce-Cu=1:9 nümunədə CeO və metallik Cu fazası mövcuddur. Rentgen tədqiqatları onu da göstərir ki, misin miqdarının azalması ilə tədqiq olunan katalitik sistemdə kristallıq dərəcəsi artır. Ce-Cu-O katalizatorlarının aktivliyinin onların kristallıq dərəcəsi ilə müqayisəsi göstərdi ki, serium-mis oksid katalizatorlarının kristallıq dərəcəsinin artması sirkə aldehidinin çıxımı maksimumdan və etilasetatın çıxımı isə kristallik dərəcəsinin artması ilı azalır.

ИССЛЕДОВАНИЕ Ce-Cu-O КАТАЛИЗАТОРОВ В РЕАКЦИИ ДЕГИДРИРОВАНИЯ ЭТАНОЛА

Мамедова С.Г.

Резюме

В работе исследовано реакция дегидрирования этанола на катализаторах из оксида церия и меди. Показано, что основными продуктами реакции превращения в

этанол являются ацетальдегид, этилацетат и ацетон. Установлено, что выход продуктов реакции дегидрирования этанола изменяется с повышением температуры. Показано, что атомное соотношение церия и меди в катализаторе сильно влияет на активность церий-медных оксидных катализаторов. Установлено, что образцы с высоким содержанием церия в катализаторе обладают наибольшей активностью в реакции образования уксусного альдегида. Рентгеновские исследования показали, что катализаторы Ce-Cu-O состоят в основном из первичных оксидов CeO и CuO, и только образец Ce-Cu=1:9 содержит CeO и металлическую Cu фазу. Установлено, что степень кристалличности в исследуемой каталитической системе увеличивается с уменьшением содержания меди. Сопоставление активности Ce-Cu-O катализаторов со степенью их кристалличности показало, что увеличение степени кристалличности церий-медных оксидных катализаторов повышает выход уксусного альдегида, а выход этилацетата снижается.

RESEARCH OF Ce-Cu-O CATALYSTS ACTIVITY IN ETHANOL DEHYDROGENATION REACTION

Mammadova S.G.

Summary

The reaction of ethanol dehydrogenation over catalysts of cerium oxide and copper has been investigated. It was shown that the main products of ethanol conversion reaction are acetaldehyde, ethyl acetate and acetone. It has been established that the yield of products of ethanol dehydrogenation reaction changes with increasing temperature. The atomic ratio of cerium and copper in the catalyst was shown to strongly influence the activity of cerium-copper oxide catalysts. It was found that samples with high cerium content in the catalyst have the highest activity in the reaction of acetic aldehyde formation. X-ray studies showed that Ce-Cu-O catalysts consist mainly of primary CeO and CuO oxides, and only Ce-Cu=1:9 sample contains CeO and metallic Cu phase. It was found that the degree of crystallinity in the investigated catalytic system increases with decreasing copper content. Comparison of the activity of Ce-Cu-O catalysts with their degree of crystallinity showed that increasing the degree of crystallinity of ceria-copper oxide catalysts increases the yield of acetic aldehyde while the yield of ethyl acetate decreases.

СИНТЕЗ АЛКИЛТИОАМИНОПРОИЗВОДНЫХ ТРИЦИКЛОДЕКАНА И ИССЛЕДОВАНИЕ ИХ БАКТЕРИЦИДНЫХ СВОЙСТВ

Бабаев Н.Р., Садыгов О.А., Алимарданов Х.М.

Институт Нефтехимических Процессов им. Ю.Г. Мамедалиева
nijat79@mail.ru

Ключевые слова: *трицикло[5.2.1.0^{2,6}]децен, бромгидрин трициклодекана, морфолин, пиперидин, пентан-1-тиол, морфолино- и пиперидинотрициклодеканолы, пентилтиоаминотрициклодеканы.*

Многофункциональные производные C_{10}-C_{14} циклических непредельных углеводородов с мостиковой структурой представляет большой интерес в различных областях нефтехимического и органического синтеза [1-5]. В частности, кислород-, азот- и серосодержащие производные этих углеводородов находят применение в производстве синтетических лекарственных препаратов [3], парфюмерно-косметических изделий [4], различных добавок к полимерным материалам [5]. Би- и трициклические аминоспирты с фрагментами морфолина или пиперидина проявляют

высокую активность в качестве многофункциональных присадок, повышающих, в частности, антимикробные, фунгицидные и другие защитные свойства смазочных масел [6-8].

Целью настоящего исследования является получение O-, N- и S-содержащих производных трицикло[5.2.1.0$^{2.6}$]децена и изучение их антимикробных свойств в смазочном масле.

Обсуждение результатов

Исходный углеводород - экзо-трицикло[5.2.1.0$^{2.6}$]децен нами получен по ранее разработанной методике [9]. Согласно данным ГХМ, ИК-, ЯМР ^{1}H и хромато-масс-спектроскопии полученный циклоолефин состоит из трудноразделяемой смеси четырех изомеров – экзо- эндо-; 3а, 4, 5, 6, 7, 7а - (90%) (I) и экзо- и эндо - 2, 3, 3а, 4, 7, 7а-гексагидро-1H-4,7-метаноиндена (10%) (II). Синтез аминоспиртов мостиковой структуры, в частности, аминометоксибицикло [2,2,1] гептанола ранее нами был осуществлен через стадии эпоксидирования и дигидроксилирования олефина [10]. Максимальные выходы кислородсодержащих производных (70-72,8%) достигается при температуре 60-70^{0}C и продолжительности опыта 6-7 часов. В отличие от бицикло [2,2,1] гептена жидкофазное окисление изомеров гексагидрометаноиндена (трицикло [5.2.1.0$^{2.6}$] децена) протекает при более жестких условиях (температура 80-95^{0}C, продолжительность 8-10 ч.). Наряду с соответствующими эпокси- и дигидроксипроизводными при окислении данного циклоолефина образуется также значительное количество продуктов оксиолигомеризации.

N-замещенные трициклические аминоспирты более селективно получаются через промежуточной стадии получения соответствующих гидроксибромидов.

Изомеры трициклических моноолефинов (I, II) в мягких условиях (30-50^{0}C) легко вступают в реакцию присоединения с электрофильными интермедиатами, образующиеся в режиме «in situ» из смеси H_2O_2+HBr (8-10%-ный водный раствор), с образованием смеси изомеров гидроксибромида (III, IV) (схема 1) [12,13].



На основе полученных 2(6)-бромоктагидро-1H-4,7-метаноинден-1(5)олов при температуре 50-60^{0}C и продолжительности 3,5-4 часов с участием KOH в растворе пропанола-2 были синтезированы N-замещенные аминоспирты по схеме:



R^1R^2=(-CH_2-)$_5$ (V, VII), (-CH_2CH_2)$_2$O (VI, VIII)

Направление превращения бромгидринов (III, IV) и выход 2(6)-морфолино или пиперидинооктагидро-1H-4,7-метаноинден-1(5)-олов (V-VIII) в основном зависит от изменения температуры реакции, значения pH среды и полярности используемых растворителей. Установлено, что повышение температуры в интервале 20-60^{0}C способствует увеличению выхода аминоспиртов, а также сокращению продолжительности реакции от 9 до 3,5-4,5 ч. Изменение значения pH и полярности растворителя сильно влияет не только на выход аминоспиртов, но и на возможность протекания самой реакции. Так, например, реакция между бромгидрином и аминами в присутствии неполярных или слабополярных растворителей практически не протекает,

напротив, сильнополярные растворители (вода, CH_3OH, C_2H_5OH, CH_3-CH(OH)-CH_3) способствуют ускорению реакции. При увеличении pH среды от 8,2 до 10,2 реакция эффективно протекает в диапазоне температуре 40-60^{0}C. С увеличением pH среды выше 10,5 наблюдается также увеличение скорости дегидробромирования исходного бромгидрина в соответствующий оксиран.

На основе синтезированных аминоспиртов взаимодействием их пентан-1-тиолом в растворе петролейного эфира в присутствии безводного $ZnCl_2$ получен N,S-содержащие производные трицикло[5.2.1.0$^{2.6}$]дец-1-ена по схеме:



Синтезированные аминоспирты (V-VIII) и аминотиосоединения (IX-XII) были протестированы в качестве антимикробных присадок к моторному маслу М-10 и эмульсионной смазочно-охлаждающей жидкости Азерол-5 (табл. 1).

Эксперементальная часть.

Синтез соответствующих бромгидрина и аминоспиртов осуществлены по ранее разработанной нами методике [6,8].

Общая методика получения аминоалкилтиотрициклодекана. В круглодонную колбу, снабженную обратным холодильником и магнитной мешалкой, помещали 5,2 г (0,05 моль) пентан-1-тиола, 50 мл изопропилового спирта и 1,0-1,2 г безводного $ZnCl_2$. К смеси при перемешивании и температуре 45-50^{0}C 6,0 г. (0,025 моль) смеси изомеров 2(6)-морфолинил- или пиперидинилоктагидро-1H-4,7-метаноинден-1(5)-ола в растворе изопропилового спирта. Реакционную массу перемешивают 1,5-2 часа при 60-70^{0}C. Продукт реакции выделяют в виде вязкой массы, которая после отделения от растворителя высушивается и подвергается анализу. Строение синтезированных соединений подтвержены ИК-, ЯМР ^{1}H и ^{13}C и хромато-масс-спектроскопическими методами.

Таблица 1

Антимикробные свойства некоторых синтезированных O-,N-,S-производных трициклических углеводородов.

Соединения	Концен-трация, %	Диаметр зоны угнетения микроорганизмов			
		Масло М-8		СОЖ	
		Смесь бактерий (МПА)	Смесь грибов (СА)	Смесь бактерий (МПА)	Смесь грибов (СА)
смесь VI, VIII	1 0,5 0,25	2,4-2,6 2,2-2,4 1,8-2,0	1,8-2,0 1,3-1,6 1,2-1,4	2,6-2,4 2,2-2,4 1,8-2,0	2,0-2,2 1,8-2,0 1,6-1,8
смесь IX, XI	1 0,5 0,25	2,5-2,7 2,3-2,6 2,1-2,3	1,6-1,8 + + + +	1,6-2,0 1,4-1,8 1,2-1,2	1,6-1,8 1,4-1,6 1,1-1,1
Пентахлорфенолят натрия	1 0,5	1,1-1,3 0,8-1,2	1,4-1,4 0,8-1,2		
М-10 (без присадки)		+ +	+ +		
СОЖ Азерол-5				+ +	+ +

Смесь изомеров 1-морфолинил-2-пентилтио (XII) и 5-морфолинил-6-пентилтио октагидро-1H-4,7-метаноиндена. получали из 7,1 г (30 ммоль) смеси изомеров VI, VIII

и 3,12 г (30 ммоль) пентантиола. Выход – 5,92 г (78,5%). ИК спектр, υ, см$^{-1}$: 3325 (C-N), 2890, 2865 (CH_2), 1530,1210 (N-C), 1255 (C-O-C), 785-680 (C-S). Спектр ЯМР ^{1}H, δ, м.д.: 0.96 т. (3H, CH_3), 1,36-2,19 м. (14H, 5CH_2, 4CH), 2,62 т. (2H, HC-S-$\underline{CH_2}$), 2,69 т. (4H, H_2C-N-CH_2), 2,75 т. (H, HC-S), 2,80 т. (H, HC-S) для изомера (6), 2.86 т. (H, N-CH), 2,94 т. (H, N-CH), 3,56 т. (4H? CH_2-N-CH_2). Спектр ЯМР ^{13}C, δ, м.д.: 72.3 (C^7), 48.4 (C^9), 44,1 (C^2), 41,0 (C^4), 34,9 (C^5 C^8 C^{10}), 29,1 (C^6 C^7), 67,2 (C^3 C^5), 52,1 (C^2, C^2), морфолин, 36,6 (C^1), 31 (C^2, C^3), 22.1 (C^4), 14.2 (C^5) пенттилтио.

Литература

1. Хуснутдинов Р.И., Байгузина А.Р., Джемлилев У.М.// ЖОрХ, 2012, т.48, №3, с. 319-356
2. Anca Marton, Luminitza Parvulesen, Constantin Draghici, Richard A. Varga, Mircea D.Gheorghin// Tetrahedron, 2009, v.65, N 36, p.7504-7509
3. Машковский М.Д. Лекарственные средства// М.Медицина, 2000, ч.1, с.621
4. Алимарданов Х.М., Сулейманова Э.Т. Химия душистых вещ.// Баку, Эльм, 2018, с.281-331
5. Пальчиков В.А. Морфолины.Син. и биологическая актив.// ЖОрХ, 2013, т.49, №6,с.807-831
6. Алимарданов Х.М.,Садыгов О.А.,Сулейманова Э.Т.идр.//ЖПХ,2009,т.79, в.8,с.1338-1343
7. Saiz C., Villamil V., Gonzalez M.M. et al./ Tetrahedron: Asym. 2017, v.28, N1, p.110
8. Садыгов О.А., Алимарданов Х.М., Исмайлова Ш.И., Бабаев Н.Р. // ЖОрХ, 2020, т.56, №6, с.893-899
9. Садыгов О.А., Алимарданов Х.М., Исмайлова Ш.И.// ЖОХ, 2018, т.88, вып. , с. 717-723
10. Алимарданов Х.М., Садыгов О.А., Джалилова А.А., Алмарданова М.Б.// Аз.Хим.Журнал, 2015, №3, с.67-73

TRİTSİKLODEKANIN ALKİLTİOAMİN TÖRƏMƏLƏRİN SİNTEZİ VƏ ONLARIN BAKTERİSİD XASSƏLƏRİNİN TƏDQİQİ

Babayev N.R., Sadıqov Ö.Ə., Əlimərdanov H.M.

Xülasə

Tritsiklo [5.2.1.0$^{2.6}$]des-1-en əsasında alkiltiomorfolinil- və alkiltiopiperidiniloktahirdo-1H-4,7-metanoindenlər sintez edilmiş, onların M-10 markalı sürtkü yağında və SYM-də antimikrob xassələri tədqiq edilmişdir. Onların bəzi nümayəndələrinin yüksək müdafiə qabliyyətli olması müəyyən edilmişdir.

SYNTHESIS OF ALKYLTHIOAMINE DERIVATIVES OF TRICYCLODECANE AND STUDY OF THEIR BACTERICIDAL PROPERTIES

Babaev N.R., Sadiqov O.A. Alimardanov H.M.

Summary

Alkylthiomorpholinyl- and alkylthiopiperidinyloctahirdo-1H-4,7-methanoindenes were synthesized based on tricyclo [5.2.1.0$^{2.6}$]des-1-ene, and their antimicrobial properties were studied in M-10 brand oil and cutting fluids. It has been determined that some of their representatives have high defense capabilities.

QAZ BENZİNİ VƏ PROPAN-BUTAN FRAKSIYASININ BIRGƏ ÇEVRILMƏSINDƏ BIMOLEKULYAR INTERMEDIATLARIN QOŞULMUŞ ƏMƏLƏ GƏLMƏSI, IZOMERLƏŞMƏSI VƏ HIDROPARÇALANMASININ ROLU

Məmmədova M.T.

Y.H. Məmmədəliyev adına Neft Kimya Problemləri İnstitutu

Açar sözlər: *qaz benzini, propan-butan fraksiyası, kompozisiya tərkibli katalizator, aşağı temperaturlu izomerləşmə, bimolekulyar intermediat, sinkretizasiya, yüksək oktanlı benzin komponenti.*

Keywords: *gas gasoline, propane-butane fraction, composite catalyst, low-temperature isomerization, bimolecular intermediate, syncretization, high-octane gasoline component.*

Ключевые слова: *газовый бензин, пропан-бутановая фракция, композиционный катализатор, низкотемпературная изомеризация, бимолекулярный интермедиат, синкретизация, высокооктановый компонент бензина.*

Karbohidrogen xammalına olan tələbatın günü-gündən artması əlavə, o cümlədən, alternativ karbohidrogen xammalı mənbələrinin axtarışını vacib edir. Problemi həll etmək üçün yanacağın (benzinin) alınması prosesinə səmt qazlarının cəlb edilməsinin mümkünlüyünün araşdırılmasının praktiki əhəmiyyəti vardır. Bu məqsədlə sulfatlaşdırılmış sirkonium dioksid və kobaltla modifikasiya olunmuş HZSM-5 seoliti əsasında sintez edilmiş konpozisiya tərkibli aşağı temperaturlu izomerləşdirmə katalizatoru üzərində səmt qazlarının əsas tərkib hissəsi olan propan-butan fraksiyasının (PBF) Qaradağ Qaz Emalı zavodundan alınmış qaz benzini (QB) ilə birgə izomerləşdirici emala cəlb edilməsi imkanları araşdırılmışdır.

Tədqiqatlar sintez edilmiş 0.4%Co/HZSM-5/2%$SO_4^{2-}$$ZrO_2$ tərkibli katalizator nümunəsi üzərində, axın tipli laboratoriya qurğusunda, adi atmosfer təzyiqində, hidrogen mühitində aparılmışdır.

QB-nin PBF ilə durulaşdırılması şəraitində aparılmış təcrübələrin nəticələri cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.

Temperaturun qaz benzininin propan-butan fraksiyası ilə qarışığının (1:1küt. nisbəti) çevrilməsinə təsiri. MHS_{QB}= 2 s^{-1}, $QHS_{PBF.}$=500s^{-1}.

T, ^{0}C	İlkin qarışığın tərkibi (QB : PBF = 1 : 1küt. nisbəti)									
	C_2	C_3	iC_4	C_4	iC_5	C_5	iC_6	C_6	iC_7	C_{7+}
	5	17.8	9.9	16.7	15.1	12.3	8.1	3.7	2.4	9
	Katalizatın tərkibi, küt.%									
160	-	-	-	8.8	19.3	22.8	28.6	3	14	3.5
180	-	-	-	7.4	31.2	25.2	17.6	2.2	10.2	5.2
200	-	-	-	2.5	25	15.2	29.5	1.8	12.5	13.5

Cədvəldə verilmiş nəticələrdən görünür ki, hətta 160^{0}C kimi aşağı temperaturda QB və PBF-nin 1:1 nisbətindən ibarət olan qarışığın sintez edilmiş kompozisiya tərkibli katalizarot ilə təması zamanı reaktantın tərkibinin intensiv dəyişməsi müşahidə olunur. PBF C_2 – i-C_4– ün tam və n-C_4-ün 50%-ə qədər udulması ilə gedən intensiv sərfiyyata məruz qalır. Bu zaman, həmçinin QB-nin daha yüksək molekullu komponentlərinin sərfiyyatı da (61%-ə qədər) müşahidə olunur, qarışığın çevrilmə məhsulları isə izomer tərkibli i-C_5 – i-C_6 komponentləri ilə 30 %– ə qədər zənginləşir, n-C_5–in miqdarı 2 dəfəyə qədər artır.

Cədvəl 1-in nəticələrindən görünür ki, PBF-nin və QB-nin C_{7+} komponentlərinin sərfi prosesin temperaturundan asılıdır. 160^{0}C-də propan-butan fraksiyasının və QB-nin C_{7+} komponentlərinin konversiyası, həmçinin də i-C_6 və i-C_7-nin çıxımı i-C_5-ə nisbətən xeyli yüksək olur.

Temperaturu 180^{0}C-ə qədər yüksəltdikdə izokomponentlərin çıxımı i-C_5-in miqdarının üstün yüksəlməsi ilə artır. Bu zaman i-C_6 və i-C_7-nin çıxımı azalır. Belə azalma BPF-in və QB-nin C_{7+} komponentinin konversiyasına da aiddir. Temperaturun sonrakı 200^{0}C-ə qədər yüksəldilməsi məhsulların karbohidrogen tərkibinin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb

olur. Temperaturun 180^0C-dən 200^0C-yə qədər yüksəldilməsi $\sum C_5 - C_6$-ların miqdarının 1.6 dəfəyə qədər azalmasına, i-C_7–nin isə artmasına gətirib çıxardır.

Xüsusi ilə qeyd etmək lazımdır ki, əgər 160 – 180^0C temperatur intervalında propan-butan fraksiyasının sərfi praktiki olaraq sabitdirsə (83%), temperaturun 200^0C-yə qədər yüksəldilməsi zamanı onun qiyməti 90%-ə çatır. Bu temperaturda C_{7+}-nin sərfi C_4-ün sərfindən kəskin fərqlənir. Əgər 160 – 180^0C temperaturlarında bu komponentin sərf olunması baş verirsə, 200^0C-də əksinə prosesdə - C_{7+} komponentlərinin toplanması ($\sim 50\%$) müşahidə olunur. Bu qarışığın belə çevrilməsi C_{4-} və C_{7+} karbohidrogenlərindən C_{10}, C_{11} və s. kimi intermediatların əmələ gəlməsinin bimolekulyar xarakteri və onların sonrakı izomer quruluşlu C_5, C_6 və ya C_7 alkanlarının əmələ gəlməsilə hidroparçalanması ilə izah edilə bilər.

Proses nəticəsində alınan məhsullardan (cədvəl 1) görünür ki, propan-butan fraksiyası ilə QB qarışığının yuxarıda göstərilən çevrilməsi izomerləşmə-disproporsiyalaşma mexanizminə tabe olur. Belə çevrilmənin nəticəsi C_5 - C_6 karbohidrogenlərin toplanmasıdır, başqa sözlə, reaktantda olan karbohidrogenlərin molekul kütləsinin ortalanması, yəni sinkretizasiyadır. Temperatur yüksəldikcə 200^0C-də C_{7+} karbohidrogenlərin müşahidə olunan toplanması onların temperatur artdıqca bimolekulyar intermediatın əmələ gəlməsinə cəlb edilməsinin azalmasının nəticəsidir.

Sinkretizasiya prosesinin qaz halında olan alkanların iştirakı ilə getməsi onun səmt neft qazları komponentlərinin mayeləşdirilməsində effektiv proses ola biləcəyini göstərir.

Cədvəl 2-in nəticələrinin müqayisəsi göstərir ki, prosesin gedişi PBF-in qaz benzininə olan nisbətindən asılı ola bilər.

Cədvəl 2.

PBF : QB kütlə nisbətinin onların konversiyasına və C_5 – C_6 alkanlarının toplanmasına təsiri .
T= 180^0C, MHS_{QB}=2 s^{-1}, $QHS_{PBF.}$=500s^{-1}, τ = 30 – 45 dəq.

PBF:QB (kütlə nisbəti)	5.5:94.5	25:75	50:50	75:25
PBF konversiyası, %	72	90	88	48
QB-nin C_{7+} komponentinin konversiyası, %	40	48	36	25
$\sum C_5 - C_6$ toplanması, %	18	25	45	25

Uyğun asılılığın müəyyənləşdirilməsi üçün aparılmış əlavə tədqiqatlar bu mühakimənin real olduğunu göstərdi. Cədvəl 2-də verilmiş nəticələrdən görünür ki, reaksiya qarışığında qaz halında olan karbohidrogenlərin miqdarı artdıqca PBF-in konversiyası və C_5 - C_6 alkanlarının toplanması maksimumdan keçir və 50:50 nisbətindən yuxarı qalxmaq sinkretizasiya prosesinin effektivliyini xarakterizə edən bütün parametrlərin azalmasına gətirib çıxardır.

Kompozisiya tərkibli katalizatorların komponentlərində ayrı-ayrılıda uyğun aktivliyin olmamasını, proses nəticəsində alınan məhsulları, Co/H-seolitin hidrokrekinq aktivliyini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, QB və PBF qarışığının konversiyası C_{7+} və C_{4-} komponentlərinin iştirakı ilə [C_{4-} - C_{7+}] intermediatlarının əmələ gəlməsi və izomerləşməsinin onların hidrokrekinqi ilə qoşulması yolu ilə gedir.

QAZ BENZİNİ VƏ PROPAN-BUTAN FRAKSIYASININ BIRGƏ ÇEVRILMƏSINDƏ BIMOLEKULYAR INTERMEDIATLARIN QOŞULMUŞ ƏMƏLƏ GƏLMƏSI, IZOMERLƏŞMƏSI VƏ HIDROPARÇALANMASININ ROLU

Məmmədova M.T.

Xülasə

Sulfarlaşdırılmış sirkonium dioksid və kobaltla modifikasiya olunmuş HZSM-5 seoliti əsasında kompozisiya tərkibli katalizator sintez edilmiş və onun qaz benzini ilə propan-butan

fraksiyası qarışığının çevrilməsində aktivliyi öyrənilmişdir. Məlun olmuşdur ki, 160-180^{0}C temperaturlarda, adi atmosfer təzyiqində qarışığın izomer C_5-C_6 alkanların üstün alınması ilə gedən çevrilməsi baş verir. Bu zaman qarışığın aşağı (C_{4-}) və yüksək molekullu (C_{7+}) komponentlərinin orta molekullu və əsasən də izoquruluşlu alkanlara çevrilməsi baş verir. Qarışığın tərkibinin belə ortalanması "sinkretizasiya" prosesi adlandırılmış və gösrətilmişdir ki, bu proses aşağı və yüksək molekullu alkanlardan bimolekulyar intermediatların əmələ gəlməsi və izomerləşməsinin onların hidroparçalanması ilə qoşulması ilə gedir. Öyrənilən proses qaz benzini və propan-butan fraksiyasının birgə çevrilməsi yolu ilə yüksək oktanlı benzinlərin izo-C_5-C_6 komponentlərini almağa imkan verir.

РОЛЬ СОВМЕСТНОЙ РЕАКЦИИ, ИЗОМЕРИЗАЦИИ И ГИДРОКРАКТИНГА БИМОЛЛЕКУЛЯРНЫХ ПРОМЕЖУТОЧНЫХ ПРОДУКТОВ В СОКОНВЕРСИИ БЕНЗИНА И ПРОПАН-БУТАНовой ФРАКЦИИ

Мамедова М.Т.

Резюме

Синтезирован композиционный катализатор на основе сульфатированного диоксида циркония и модифицированного кобальтом цеолита HZSM-5, изучена его активность в конверсии смеси газового бензина и пропан-бутановой фракций. Установлено, что при температурах 160-180°C при обычном атмосферном давлении происходит превращение смеси с преимущественным образованием изомерных C_5-C_6 алканов. В это время происходит превращение низкомолекулярных (C_{4-}) и высокомолекулярных (C_{7+}) компонентов смеси в среднемолекулярные (преимущественно изоструктурные) алканы. Такое усреднение состава смеси было названо процессом «синкретизации» и показано, что этот процесс происходит сопряжением образования и изомеризации бимолекулярных интермедиатов из низко- и высокомолекулярных алканов с их гидрорасщеплением. Исследуемый процесс позволяет получать изо-C_5-C_6 компоненты высокооктановых бензинов путем совместной конверсии газового бензина и пропан-бутановой фракции.

THE ROLE OF COUPLED REACTION, ISOMERIZATION AND HYDROCRACTING OF BIMOLECULAR INTERMEDIATES IN THE CO-CONVERSION OF GASOLINE AND PROPANE-BUTANE FRACTION

Mammadova M.T.

Summary

A composite catalyst based on sulfated zirconium dioxide and cobalt-modified HZSM-5 zeolite was synthesized and its activity in the conversion of gas gasoline and propane-butane fraction mixture was studied. It was found that at temperatures of 160-180^{0}C, at atmospheric pressure, the conversion of the mixture takes place with the preferential formation of isomeric C_5-C_6 alkanes. At this time, the conversion of low (C_{4-}) and high molecular (C_{7+}) components of the mixture into medium molecular and mostly isostructured alkanes takes place. Such averaging of the composition of the mixture was called the "syncretization" process and it was shown that this process proceed by conjugation of formation and isomerization of bimolecular intermediates with their hydrocracking. The studied process makes it possible to obtain iso-C_5-C_6 components of high-octane gasolines through co-transformation of gas gasoline and propane-butane fraction.

(Z)-N,N,-DİMETİL-2-(PERFLÜORFENİL)-2-(2-FENİLHİDRAZİNEYLİDEN) ASETAMİDİN QURULUŞ TƏDQİQATLARI

[1]Əsgərova Ü.F., [1]Namiq Ş.Q., [1]Bunyatova İ.H., [2]Veysova S.M. , [3]Demuxamedova S.D., [3]Haqverdiyeva G.Ə.

[1]Üzvi kimya kafedrası, Bakı Dövlət Universiteti
[2]Ümumi və qeyri-üzvi kimya kafedrası, Bakı Dövlət Universiteti
[3]Fizika Problemləri Institutu, Bakı Dövlət Universiteti
namiqst@gmail.com, veysova_s@mail.ru,askerova.ulviyya.69@gmail.com, svetlanabest@mail.ru,hagverdigulnara@gmail.com

Açar sözlər: *(Z)-N,N,-dimetil-2-(perflüorofenil)-2-(2-fenilhidrazineyliden)asetamid; quruluş parametrləri; DFT hesablamaları.*

Keywords: Z) -N,N,-dimethyl-2- (perfluorophenyl) -2 -(2phenylhydrazineylidene) acetamide; structure parameters; DFT calculations

Ключевые слова: Z) -N,N,-диметил-2- (перфторфенил) -2- (2-фенилгидразинилиден) ацетамид; структурные параметры; Расчеты ДПФ.

(Z)-N,N,-dimetil-2-(perflüorofenil)-2-(2-fenilhidrazineyliden)asetamid fizioloji aktiv dərmanların məqsədyönlü sintezində mühüm rol oynayır. Biz müəyyən etmişik ki, bu maddə psixotrop serotonin reseptorlarının tərs agonistidir [1]. Əvvəlki işlərimizdə bu birləşmənin sintezi, onun quruluşunun NMR və XRD analizinin nəticələri haqqında məlumat vermişdik [2,3]. Təqdim olunan işdə DFT/B3LYP/6-31+G(d,p) nəzəriyyə səviyyəsində Gaussian09 və GaussView proqramlar paketindən [4,5] istifadə edərək bu molekulun quruluş xüsiyyətləri, enerji parametrləri, molekulyar və reaktivlik xassələri araşdırılmışdır. Optimallaşdırılmış quruluş Şəkildə göstərilmişdir. Kimyəvi rabitələrin *uzunluqlarının*, *valent* və torsion bucaqlarının hesablanmış və təcrübi qiymətləri müqaisə edilmişdir. Müəyyən olmuşdur ki, optimallaşdırmadan sonra kimyəvi rabitələrin *uzunluqlarının* və valent bucaqlarının qiymətlərində nəzərə çarpacaq dəyişikliklər müşahidə olunmur, lakin bəzi torsion bucaqlarının qiymətlərində onların təcrübil qiymətlərinə nisbətən 20° qədər dəyişikliklər müşahidə olunur. Bu birləşməyə xas olan quruluş xüsusiyyətləri təhlil edilmişdir. Belə ki, karbon-azot bağlarının uzunluqlarının C7N29 < C8N28 < C17N30 < C9N28 < C13N28 qaydasında artdığı aşkar edilmişdir. Bu tendensiya təcrübi məlumatlar ilə təsdiqlənir. Müəyyən edilmişdir ki, (Z)-N,N,-dimetil-2-(perflüorofenil)-2-(2-fenilhidrazineyliden) asetamid molekulunun skeleti üç müstəvidə yerləşmir: benzol və pentaflüorbenzol halqaları arasındakı ikiqat bucaq 34°-yə yaxındır, asetamid qrupu isə onlara demək olar ki, perpendikulyar vəziyyətdə yerləşir, bu da ki, XRD analizinin nəticələri ilə təsdiqlənir. Atomlararası məsafə vektorlarının üfüqi və şaquli oxlar üzrə proyeksiyalarının təhlili nəticəsində acetamidin uzunluğu və eni qiymətləndirilmişdir. Molekulun ölçüləri haqqında alınmış məlumat onun spesifik reseptorun cibində yerləşməsini öyrənmək üçün vacibdir. Molekulun funksional qruplarının N28, N29, N30, O31, F32, F36 elektromənfi atomları arasında məsafələr qiymətləndirilmişdir. Mulliken populyasiya analizi ilə hesablanmış yüklərin təhlili göstərmişdir ki, fenil qrupunun C17, C20, C24 atomları, pentaflüorofenil qrupunun C1 və flüor atomları, asetamid qrupunun C5, C8, C9, C13, O31 atomları böyük mənfi yük daşıyır, bir qədər az mənfi yük bu molekulun N28 və N30 azot atomlarında da lokallaşmışdır. Pentaflüorfenil qrupunun C2, C3, C4, C6 atomları, fenil qrupunun C26, hidrazon qrupunun C7 və H37 atomları əhəmiyyətli müsbət yüklər daşıyır, cüzi müsbət yük C18, C22 və N29 atomlarında da lokallaşmışdır. Bu birləşmənin əmələ gəlməsi nəticəsində karbon və azot atomlarının yüklərinin həm qiymətlərində, həm də işarələrində dəyişmələr baş vermişdir. Müəyyən edilmişdir ki, kompleksləşmə reaksiyalarında bu birləşmə əsasən mənfi yükün ən yüksək lokalizasiyasına malik karbon və flüor atomları vasitəsilə baş verə bilər.

Təqdim olunan məlumatlardan göründüyü kimi, enerjinin optimallaşdırılması müsbət yükün C2, C4, C6, C7, C26, N29, H37 atomların üzərinə sürüşməsi, mənfi yükün isə əhəmiyyətli dərəcədə C1, C5, C8, C17, O31 və flüor atomların üzərinə sürüşməsi ilə nəticələnir, budaki, molekulun qeyri-xətti optik xüsusiyyətini əks etdirən dipol momentinin qiymətində əks olunur. Alınan məlumatlar kimyəvi reaksiyalarda elektronmənfiliyin bərabərləşməsi və yüklərin ötürülməsinin mümkün prosesini təsvir edir.



Şəkil 1. (Z)-N,N,-dimetil-2-(perfluorfenil)-2-(fenildiazenil) acetamidin optimallaşdırılmış quruluşu.

Sərhəd molekulyar orbitallar enerjiləri, enerji boşluğu (ΔE), ionlaşma potensialı I və elektron afinlik A, həmçinin elektromənfilik (χ), kimyəvi sərtlik (η), yumşaqlıq (S), kimyəvi potensial (μ) və elektrofillik indeksi (ω) kimi reaktivlik deskriptorları qiymətləndirilmişdir. HOMO və LUMO orbitalları elektrofillər və nukleofillər üçün əlçatan olduğundan, onlar kimyəvi reaktivlikdə iştirak edirlər. ΔE mühüm sabitlik indeksidir və eyni zamanda molekulun kimyəvi aktivliyini əks etdirir. Nəticələrdən göründüyü kimi, bu molekul böyük enerji boşluğuna, yüksək sərtliyə, aşağı kimyəvi potensiala və yumşaqlığa malikdir ki, bu da molekulun sabit və sərt molekul olduğunu göstərir. Qurulmuş molekulyar elektrostatik potensial xəritələri yük paylanmalarını vizuallaşdırmağa imkan vermişdir: müəyyən olmuşdur ki, mənfi potensial bölgələr karbonil qrupunun oksigen atomu və bir qədər pentafluorfenil qrupunun flüor atomları üzərində, müsbət potensial bölgələr isə dimetilamin qrupunun hidrogen atomları və cüzi olaraq fenil qrupunun hidrogenləri üzərində lokallaşmışdır. Beləliklə, O, F və qeyd etdiyimiz H atomları müvafiq olaraq ən güclü itələmə və ən güclü cazibəni göstərir. Qeyd olunan aktiv sahələr elektrostatik və hidrogen rabitələri qarşılıqlı təsirləri üçün vacib ola bilər. Müəyyən olmuşdur ki, tədqiq olunan asetamidin quruluşu N-əvəz edilmiş hidrazon qrupunun H37 atomu ilə elektronmənfi oksigen və azot atomları arasında güclü hidrogen bağları ilə stabilləşir: H37···O31 (3.37Å), H37···N28 (2.37 Å), H37···N29 (2.04 Å). Həmçinin bu birləşmədə CH···O, CH···N, CH···F zəif hidrogen bağlarının formalaşması müşahidə olunur.

Ədəbiyyat

1. U.F. Askerova. Quantitative prediction of counter attack profiles for (Z) -N, N-dimethyl-2-(perfluorophenyl) -2- (2-phenylhydrazinylidine) acetamide using the GUSAR program. U.F. Askerova. UNEC Journal of Engineering and Applied Sciences Vol.2,No1,2022, pp.58-63.
2. Ülviyyə Əsgərova, Gülnar Atakişiyeva, İradə Şıxaliyeva, Abel Məhərrəmov, Namiq Şıxəliyev. (Z)-N,N-dimetil-2-(perflüorfenil)-2-(2-fenilhidrazinilidin)asetamid birləşmə-sinin sintezi. «Kimya və kimya texnologiyası» Respublika elmi konfransı. 2022, 364.
3. Crystal structure and Hirshfeld surface analysis of (2Z)-N,N-dimethyl-2-(pentafluorophenyl)-2-(2-phenylhydrazin-1-ylidene)acetamideAtiog˘lu, Z., Akkurt, M., Shikhaliyev, N.Q., Askerova, U.F., Niyazova, A.A. & Mlowe, S. (2021). Acta Cryst. E77, https://doi.org/10.1107/S2056989021007349.

4. M. J. Frisch, G. W. Trucks, H. B. Schlegel, G. E. Scuseria, et al. Gaussian 09, Revision D.01, *Gaussian, Inc., Wallingford CT*, 2013, https://gaussian.com/g09citation/
5. Roy Dennington, Todd A. Keith, and John M. Millam, GaussView, Version6.0, *Semichem Inc., Shawnee Mission, KS*, 2016, https://gaussian.com/citation.

(Z)-N,N,-DİMETİL-2-(PERFLÜORFENİL)-2-(2-FENİLHİDRAZİNEYLİDEN) ASETAMİDİN QURULUŞ TƏDQİQATLARI

Əsgərova Ü.F., Namiq Ş.Q., Bunyatova İ.H., Veysova S.M., Demuxamedova S.D., Haqverdiyeva G.Ə.

Xülasə

Bu işdə (Z)-N,N,-dimetil-2-(perfluorfenil)-2-(fenildiazenil) acetamidin həndəsə, enerji və elektron parametrləri DFT hesablamaları ilə tədqiq edilmişdir. Bu birləşmə üçün sərhəd molekulyar orbitalların enerjiləri, enerji boşluğu, kimyəvi reaktivlik deskriptorları, atom yükləri, dipol momenti hesablanmış, molekulyar qarşılıqlı təsirlərin baş verə biləcəyi elektrofil və nukleofil bölgələrin yerləri müəyyən edilmiş, elektron sıxlığının ötürülməsi aydınlaşdırılmışdır. Müəyyən edilmişdir ki, bu molekul üçün təcrübi və nəzəri hesablamalar ilə alınmış parametrləri yaxşı uyğun gəlir.

STRUCTURE STUDY OF (Z)-N,N,-DIMETHYL-2-(PERFLUOROPHENYL)-2-(2-PHENYLHYDRAZINYLIDENE)ACETAMIDE

Askerova Yu.F., Namig.S.K., Bunyatova.I.K., Veysova S.M., Demuhamedova S.D., Hagverdieva.G.A

Summary

In this work, the geometry, energy, and electronic parameters of (Z)-N,N,-dimethyl-2-(perfluorophenyl)-2-(phenyldiazenyl)acetamide are investigated by DFT calculations.The energies of frontier molecular orbitals, energy gap, chemical reactivity descriptors, atomic charges, dipole moment were calculated for this compound, the locations of electrophilic and nucleophilic regions where molecular interactions can occur were determined, electron density transfer was clarified. It was found that the experimental and theoretically obtained parameters for this molecule are in good agreement.

ИССЛЕДОВАНИЕ СТРУКТУРЫ (Z)-N,N,-ДИМЕТИЛ-2-(ПЕРФТОРФЕНИЛ)-2-(2-ФЕНИЛГИДРАЗИНИЛИДЕН)АЦЕТАМИДА

Аскерова Ю.Ф., Намиг С.К., Бунятова И.Х., Вейсова С.М., Демухамедова С.Д., Хагвердиева Г.А.

Резюме

В данной работе геометрические, энергетические и электронные параметры (Z)-N,N,-диметил-2-(перфторфенил)-2-(фенилдиазенил) ацетамида исследованы проведением DFT расчетов. Для этого соединения были рассчитаны энергии граничных молекулярных орбиталей, энергетическая щель, дескрипторы химической активности, атомные заряды, дипольный момент, определены положения электрофильных и нуклеофильных областей, в которых могут происходить молекулярные взаимодействия, уточнен перенос электронной плотности. Установлено, что экспериментальные и теоретически полученные параметры для данной молекулы хорошо согласуются.

DİASETİL-(DİAMİNOMETİL)TİO KADMİUM DUZUNUN ALINMASI VƏ XASSƏLƏRİ

Qocayeva S.S., Nəzərov N.N., Əhmədova C.C., Babayev S.S.

AMEA Ə.M. Quliyev adına Aşqarlar Kimyası İnstitutu

Açar sözlər: *tiokarbamid, kadmium asetat dihidratı, qələvi, karbamid, salisil aldehidi.*

Key words: *thiourea, cadmium acetate dihydrate, alkali, urea, salicyl aldehyde.*

Ключевые слова: *тиомочевина, дигидрат ацетата кадмия, щелочь, мочевина, салициловый альдегид.*

Giriş

Koordinasion birləşmələr kimyasında tədqiq edilən əsas sahə, mərkəzi hissəcik və onun ətrafında koordinasiya edən liqandlardan təşkil olunmuş molekul və ionlardır [1]. Koordinasiya nəzəriyyəsindən məlumdur ki, kompleks birləşmələr daxili və xarici sferadan ibarətdir[2-3]. Kompleks birləşmənin dissosasiya xarakterini, həmçinin kimyəvi reaksiyaya daxil olmasını öyrənməklə kompleksdəki rabitələrin təbiətini müəyyən etmək olur. Liqandlar kompleks əmələgətirici ilə donor –akseptor koordinativ rabitə əmələ gətirirlər[4]. Liqandlar mərkəzi atoma ikimərkəzli σ –, π –və δ–rabitələri ilə və çox mərkəzli rabitələrlə birləşirlər. İkimərkəzli mərkəzi atom –liqand σ –rabitəsi metal kationunun boş orbitalı ilə liqandın donor atomunun bölünməmiş elektron cütünün ümumiləşməsi hesabına donor –akseptor mexanizmi əsasında yaranır[5-6]. Liqandlar σ –elektron donoru olmaqla yanaşı, eyni zamanda π –elektronlarının akseptoru da olurlar. π –rabitə metal kationunun bölünməmiş elektron cütünün donoru və liqand atomunun boş orbitalının akseptoru hesabına donor –akseptor mexanizmi ilə yaranır[7]. Bunların əmələgəlmə mexanizminə növbəti bölmələrdə baxılacaq. Beləliklə, kompleks birləşmələrdə liqandlar mərkəzi atoma koordinasiya edir [8]. Kompleks birləşmənin mərkəzi atomuna (hissəsinə) koordinasiya edən atomların və ya atom qruplarının sayı koordinasiya ədədi adlanır. Əgər mərkəzi atom –liqand rabitəsi ikimərkəzlidirsə onda, koordinasiya ədədi mərkəzi atomda yaranan σ –rabitələrin sayına bərabərdir. Məsələn, ionunda 4σ –rabitə olduğundan koordinasiya ədədi dördə bərabərdir [9].Kompleks birləşmədə koordinativ rabitə əmələgətirən liqand atomlarının sayı, başqa sözlə koordinasiya sferasında liqandın tutduğu yerin sayı həmin liqandın dentantlığı (koordinasiya tutumu) adlanır. Liqandın tərkibində olan bir və ya bir neçə atom kompleks əmələgətirici ilə eyni zamanda birbaşa rabitə əmələgətirə bilər. Belə atomların miqdarından asılı olaraq onlar monodentant və polidentant liqandlara ayrılır. Monodentant liqandlarda yalnız bir atom donor kimi istifadə edilir və bir koordinasiya yeri tutur [10].

Təcrübi hissə

Təcrübə üçün kadmium asetat dihidratı və tiokarbamid götürülmüşdür. Hərəsi öz həlledicisində həll edilir, bir neçə mühitdə həlledici yoxlanılır və sübut olunur ki, qələvi mühitdə çıxım yüksək olur. Hər birinin ayrı ayrılıqda məhlulu hazırlanır. Alınmış məhlullar 40-45^{0}C temperaturda 60-90 dəqiqə qarışdırılır. Nəticədə diasetil-(diaminometil)tio kadmium duzunun kristalı alınır.

Tələb olunan məbləğdə qismən susuzlaşdırılmış duzlar minimum həll edilmişdir. Susuzlaşdırma məhsulu metal duzları ilə reaksiya verərək hesablanmışdır. Susuzlaşdırıcı vasitə kimi 2,2-dimetoksi propan götürülmüşdür. Həll edilmiş liqand yavaş-yavaş əlavə edildi daimi qarışdırmaqla metal duz məhlulu hazırlanır. Möhkəm kompleks iki məhlulun qarışdırılması ilə dərhal əmələ gəlirhəcmini azaltmaqla hər iki hal kompleksi əldə edilmişdir məhlul fırlanan buxarlandırıcıda. Məhsullar süzülür və sinterlənmiş şüşə qabdan keçir, bir neçə dəfə n-heksan və ya qurudulmuş etanol ilə yuyulur və vakuum altında qurudulur.

Koordinasiya birləşmələrinin bir çox mühüm xüsusiyyətləri donor liqand təbiətini əhatə edir, hidrazidlər ən uyğun olanlardan biridir. Metalın müəyyən vacib xüsusiyyətlərini artırmaq üçün ligand onların antimikrobiyal, antifungal və antibakterial təsiri nəticəsində

xassələri , hidrazidlər böyük bioloji əhəmiyyətə malikdir. Metal komplekslərinin formalaşması mühüm rol oynayır. Spektral, maqnit və elektrik ölçmələrinin ayrı ondan hidrazid kompleksləri olan metaldan istifadə etmək olar. Çox yönlü yarımkeçiricilər üçün kobalt kompleksləri kimi qəfəs vasitəsilə onlarda hidrogen bağı formalaşır.

Keçiricilik məlumatları metal komplekslərinin olduğunu göstərir. Elektrolit olmayan asetat ionlarının içərisində koordinasiya sferasındadır və koordinasiyada metal mərkəzi ilə bilavasitə iştirak edirlər. Əksər komplekslər maqnit tutma qabiliyyətinə malikdir.

Nəticələrin müzakirəsi

Kadmium asetat dihidratı və tiokarbamid reaksiyaya girərək diasetil-(diaminometil)tio kadmium duzunun kristalı alımışdır.



Liqand proton NMR, kütləvi spektr trometriyası, elementar analiz və infraqırmızı tədqiqatlar ilə xarakterizə olunur. Liqanda xelasiya qabiliyyətinə malik olan NH2 hissəsi var. Buna görə də komplekslər Co(II) asetatlardan hazırlanmışdır. Bu komplekslər elementar analiz, infraqırmızı, keçiricilik və maqnit həssaslıq tədqiqatları ilə xarakterizə olunur. İnfraqırmızı spektrlər ligand olduğunu göstərdi. Elementar analiz zamanı —NH2 hissəsi vasitəsilə komplekslər əmələ gətirir. Koordinasiya birləşmələrinin M(ABH)(NO3)2 tərkibini təklif edir, ABH bidentat ligand kimi çıxış edir.

ABH liqandının sintez edilmiş kompleksləri təhrif olunmuş tetrahedral həndəsələri göstərir. Maqnetik moment tədqiqatları və keçiricilik tədqiqatları sübut edir. Metal komplekslərinin məhlulunun molar keçiricilikləri HI8333 tipli keçiricilik ölçmə cihazı ilə müəyyən edilmişdir. Ölçmələr otaq temperaturunda təzə hazırlanmış məhlulla aparılmışdır. Maqnit həssaslıqları ölçüldü, standart olaraq Hg[Co[SCN]4 istifadə edərək otaq temperaturunda, maqnit momentləri beləliklə hesablanmışdır. Kationlar və anionlar tipik analitik prosedurdan istifadə etməklə qiymətləndirilmişdir.

Ədəbiyyat

1. Albertin, G.; Antoniutti, S.; Bordignon, E.; Chimisso, F. Inorg. Chem, Comm. 2001, 4, 402-404.
2. Redshaw, C.; Elsegood, M. R. J. Chem. Comm. 2006, 523-525.
3. Kost, D.; Kalikhman I. Acc. Chem. Res. 2009, 42, 303-314.
4. Rehman, S. U.; Noreen, S.; Rashida, I. M.; Ali, K.; Ahmad, I.; Arshad, M.; Bukhari, I. H. The Nucleus 2009, 46, 501-506.
5. Galal, S. A.; Hegab, K. H.; Kassab, A. S.; Rodriguez, M. L.; Kerwin, S. M.; El-Khamry, A. M. A.; Diwani, H. I. Eur. J. Med. Chem. 2009, 44, 1500-1508.
6. Chang R. Physical Ch. for the Biosciences. University Science Books, Mill Valley, 2005, 482.
7. Trzaskowski, B.; Adamowicz, L.; Deymier, P. A. J. Biol. Inorg. Chem. 2008, 13, 133.
8. Dudev, T.; Lim, C. J. Am. Chem. Soc. 2000, 122, 11146-11153.
9. Chang, R. Physical Chemistry for the Biosciences. University Science Books, Mill Valley, 2005, 482.
10. Rehman, S. U.; Ikram, M.; Rehman, S. Front. Chem. China 2010.

PREPARATION AND PROPERTIES OF DIACETYL-(DIAMINOMETHYL) THIO CADMIUM SALT

Gojayeva S.S., Nazarov N.N., Ahmadova C.C., Babayev S.S.

Summary

Diacetyl-(diaminomethyl)thio cadmium salt was obtained in crystalline form from the interaction of cadmium acetate dihydrate and thiocarbamide in an alkaline medium, and the

geometric, energy and electronic parameters characterizing the stable structures of these compounds were determined, based on the density functional theory, the energies of frontier molecular orbitals, energy gap, chemical reactivity were determined. descriptors, atomic charges, dipole moment and polarizability were calculated, the locations of electrophilic and nucleophilic regions where molecular interactions can occur for the reagent and complex were determined, and electron density transfer and hyperconjugative interactions were clarified and confirmed to show high results. At the same time, the antioxidant properties of the synthesized compounds were studied in model reactions. It was found that these compounds have a high inhibitory property against the oxidation of lubricants.

ПОЛУЧЕНИЕ И СВОЙСТВА ДИАЦЕТИЛ-(ДИАМИНОМЕТИЛ)ТИОКАДМИЙНОЙ СОЛИ

Годжаева С.С., Назаров Н.Н., Ахмадова С.Ч., Бабаев С.С.

Резюме

Диацетил-(диаминометил)тиокадмиевая соль получена в кристаллическом виде при взаимодействии дигидрата ацетата кадмия и тиокарбамида в щелочной среде и определены геометрические, энергетические и электронные параметры, характеризующие устойчивые структуры этих соединений, на основе функционала плотности теории определены энергии граничных молекулярных орбиталей, энергетическая щель, химическая реакционная способность, рассчитаны дескрипторы, атомные заряды, дипольный момент и поляризуемость, определены положения электрофильных и нуклеофильных областей, где могут происходить молекулярные взаимодействия для реагента и комплекса, и перенос электронной плотности и гиперконъюгативные взаимодействия были выяснены и подтверждены, чтобы показать высокие результаты. При этом антиоксидантные свойства синтезированных соединений изучались в модельных реакциях. Было обнаружено, что эти соединения обладают высоким ингибирующим свойством в отношении окисления смазочных материалов.

DİASETİL-(DİAMİNOMETİL)TİO KADMİUM DUZUNUN ALINMASI VƏ XASSƏLƏRİ

Qocayeva S.S., Nəzərov N.N., Əhmədova C.C., Babayev S.S.

Xülasə

Diasetil-(diaminometil)tio kadmium duzu kadmium asetat dihidratı və tiokarbamidin qələvi mühitdə qarşılıqlı təsirindən kristal halda alınmış və bu birləşmələrin sabit strukturlarını xarakterizə edən həndəsi, enerji və elektron parametrləri müəyyən olunub, funksional sıxlıq nəzəriyyəsi əsasında sərhəd molekulyar orbitalların enerjiləri, enerji boşluğu, kimyəvi reaktivlik deskriptorları, atom yükləri, dipol momenti və qütbləşmə qabiliyyəti hesablanıb, reagent və kompleks üçün molekulyar qarşılıqlı təsirlərin baş verə biləcəyi elektrofil və nukleofil bölgələrin yerləri müəyyən olunub, elektron sıxlığının ötürülməsi və hiper konyuqativ qarşılıqlı təsirlər isə aydınlaşdırılır və yüksək nəticə göstərdiyi təsdiqlənib. Eyni zamanda sintez edilmiş birləşmələrin antioksidant xüsusiyyətləri model reaksiyalarında tədqiq edilib. Məlum olub ki, bu birləşmələr sürtkü materiallarının oksidləşməsinə qarşı yüksək inhibitor xassəyə malikdir.

p-TOLUOLSULFONAMİDOMETİLDİBUTİLBORAT YAĞLAYICI-SOYUDUCU MAYELƏRƏ BAKTERİSİD AŞQAR KİMİ

Novotorjina N.N., Kazımzadə Ş.K., İsmayılova G.G., Qəhrəmanova Q.A., Quliyeva Q.M., Mustafayeva Y.S.

Aşqarlar Kimyası İnstitutu akad. Əli Quliyev adına
aki05@mail.ru

Açar sözlər: *Toluolsulfonamid, yağlayıcı-soyuducu mayelər, bakterisid, aşqar*

Su və su-emulsion yağlayıcı-soyuducu mayelər (YSM) istismar zamanı mikrobioloji zədələnməyə məruz qalır. Bu zaman YSM-in texnoloji, istismar, fiziki-kimyəvi göstəriciləri pisləşir və onlar istifadəyə yararsız hala düşür.

Su və su-emulsion YSM üçün mikroblara qarşı aşqar kimi biosidlərdən istifadə olunur, bunlar da müxtəlif üzvi birləşmələr sinfinə aiddir.

Ədəbiyyatda antimikrob aşqar kimi istifadə olunan maddələr məlumdur [1, 2, 3]. Lakin eyni maddələrdən istifadə edildikdə, mikroblar aşqarlara uyğunlaşır, bu da mikrobların məhvedilməsini çətinləşdirir. Buna görə də, biosid aşqarların növlərinin genişləndirilməsi indiyə qədər aktualdır.

Bu işin müəllifləri tərəfindən biosid aşqar kimi yeni olan p-toluolsulfonamido-metildibutilborat alınmışdır:



Maddə kristaldır, ərimə temperaturu 148-150^{0}C-dir. Birləşmənin strukturu İQ spektr və element analizinin öyrənilməsi ilə təsdiq olunmuşdur.

Maddənin alınması iki mərhələdən ibarətdir. Birinci mərhələdə p-toluolsulfonamid və paraformun qarşılıqlı sintezindən hidroksimetil-p-toluolsulfonamid alınır. Reaksiyanın sxemi aşağıdakı kimidir:



İkinci mərhələdə hidroksimetil-p-toluolsulfonamid və dibutilboratın kondensləşmə reaksiyasından p-toluolsulfonamidometildibutilborat alınmışdır.



Alınmış maddənin bakterisid xassələri Azerol-5 YSM-də ГОСТ 9,085-78 üzrə zonal diffuziya üsulu ilə tədqiq edilmişdir.

Sınaq nəticələri göstərmişdir ki, alınan maddə YSM-də 0,5% qatılıqda yüksək bakterisid xassəyə malikdir.

Ədəbiyyat

1. Шамхалов Р.М., Рзаев Ф.Ф., Гаджиева М.А. Авт. Свид. № 1071621, 07.02.1984. Бюл. № 5.

2. Садыхов К.И., Агамалиева М.М., Сардарова С.А., Гаджиева М.А., Алиев С.М. Авт. Свид. № 1517315, 1989.
3. Sərdarova S.Ə., Osmanova S.F., Məmmədov F.Ə., Məmmədova P.Ş., Sultanova S.Ə. 2,2′-[(1-feniletiliden)bis-sirkə turşusunun piridin-2-amidi yağlayıcı-soyuducu mayelərə antimikrob aşqar kimi / Az. patenti i2018 0050.

p-TOLUOLSULFONAMİDOMETİLDİBUTİLBORAT YAĞLAYICI-SOYUDUCU MAYELƏRƏ BAKTERİSİD AŞQAR KiMi

Novotorjina N.N., Kazımzadə Ş.K., İsmayılova G.G., Qəhrəmanova Q.A., Quliyeva Q.M., Mustafayeva Y.S.

Xülasə

Tərkibində kükürd və bor törəmələri olan aromatik üzvi maddələr yağlayıcı-soyuducu mayelərdə bakterisid aşqar kimi yüksək keyfiyyətə malik olduğuna görə, bu məqsədlə p-toluolsulfonamidometildibutilborat sintez edilmiş və yağlayıcı-soyuducu mayelərdə bakterisid aşqar kimi tədqiq edilmişdir.

п-ТОЛУОЛСУЛЬФОНАМИДОМЕТИЛДИБУТИЛБОРАТ БАКТЕРИЦИДНАЯ ДОБАВКА В СМАЗОЧНО-ОХЛАЖДАЮЩИЕ ЖИДКОСТИ

Новоторжина Н.Н., Казимзаде Ш.К., Исмаилова Г.Г., Кахраманова Г.А., Гулиева Г.М., Мустафаева Ю.С.

Резюме

Ароматические органические вещества, содержащие производные серы и бора, имеют высокое качество в качестве бактерицидной добавки в смазочно-охлаждающие жидкости, для этой цели был синтезирован и исследован п-толуолсульфонамид-ометилдибутилборат в качестве бактерицидной добавки в смазочно-охлаждающие жидкости.

p-TOLUOLESULFONAMIDOMETHYLDIBUTYLBORATE BACTERICIDAL ADDITION TO LUBRICANT-COOLANT FLUIDS

Novotorjina N.N., Kazimzade Sh.K., Ismayilova G.G., Kahramanova G.A., Guliyeva G.M., Mustafayeva Y.S.

Summary

Aromatic organic substances containing sulfur and boron derivatives are of high quality as a bactericidal additive in cutting fluids, for this purpose p-toluenesulfonamid-omethyldibutylborate was synthesized and studied as a bactericidal additive in cutting fluids.

MÜXTƏLİF QƏLƏVİLİ KALSİUM SULFONATLARININ ALINMASI VƏ TƏDQİQİ

[1]Salmanova K.Ə., [2]Güləliyev İ.C.,[2]Sədirzadə İ.Ə.

[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti
[2]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutu
aki05@mail.ru

Açar sözlər: *kondensləşmiş nonilfenol, sulfometilləşmə, sintetik sulfonatlar, çoxfunksiyalı xassələr, müxtəlif qələvili aşqarlar.*

Key words: *condensed nonylphenol, sulfomethylation, synthetic sulfonates, multifunctional properties, additives with various alkalinities.*

Ключевые слова: *конденсированный нонилфенол, сульфометилирование, синтетические сульфонаты, многофункциональные свойства, присадки с различной щелочностью.*

Hal-hazırda dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi motor yağlarında müxtəlif funksional təsirə malik aşqarların balanslaşdırılmış paketlərindən istifadə edilir [1]. Tətbiq olunan paketlərin əsas komponentlərindən biri mineral yağlar və sintetik alkilaromatik karbohidrogenlər əsasında istehsal edilən müxtəlif qələvili sulfonat aşqarlarıdır [2].

Bunları nəzərə alaraq, müasir tələblərə cavab verən ekoloji təhlükəsiz texnologiyaya malik yeni nəsil daha təsirli sulfonat aşqarının yaradılması xüsusi aktuallıq kəsb edir.

Yağda həll olan effektli sulfonatların alınması məqsədilə ilkin xammal kimi götürülmüş texniki nonilfenolun formaldehidlə kondensləşmə reaksiyası aparılmışdır. Alınan metilen-bis-alkilfenol ekoloji təmiz üsulla – hidroksimetansulfoturşunun natrium duzu ilə 75-80^{0}C temperaturda 8 saat ərzində oktan həlledicisində sulfometilləşdirilmişdir. Alınmış metilen-bis-alkilfenolmetilensulfoturşunun natrium duzu kalsium hidroksidin sulu məhlulu ilə 70-75^{0}C-də 5 saat müddətində işləməklə kalsium sulfonata çevrilir, qurudulur, mexaniki qarışıqlardan təmizlənir və həlledici qovulur. Sintez edilmiş əsası sulfonat aşağıdakı göstəricilərə malikdir: qələvi ədədi – 42-45 mq KOH/q; aktiv komponentin miqdarı – 40-45%; sulfat külü – 8,3-8,7%; mexaniki qarışıqların miqdarı - 0,03-0,04%.

Orta qələvili aşqar əsası sulfonatın kalsium hidroksidin iştirakı ilə toluol həlledicisində promotor sirkə turşusundan istifadə etməklə 82-85^{0}C temperaturda karbon qazı ilə karbonatasiya reaksiyası nəticəsində alınır. Sintez edilmiş müxtəlif qələvili ƏSK$_{fk}$ və SS-150$_{fk}$ sulfonat aşqarları tünd qəhvəyi qatı mayelərdir. Onların ilkin laboratoriya sınaqlarının nəticələri cədvəl 1-də göstərilmişdir. Müqayisə üçün həmin cədvəldə xarici analoq olan Xaytek 6060M aşqarın ("Edvin Kuper" firması) göstəriciləri verilmişdir.

Cədvəl 1.

Sulfonat aşqarlarının fiziki-kimyəvi və funksional xassələri.

Göstəricilər	Müxtəlif qələvili sulfonatlar		
	ƏSK$_{fk}$	SS-150$_{fk}$	Xaytek 6060M
Qələvi ədədi, mq KOH/q	45	153	142
PVX üçün termostabilizatorların klasifikasiyası və xarakteristikaları. Bu gün PVX-nin emalı sənayesində bir çox termostabilizator növlərindən istifadə edilir. Termostabilizator seçərkən bir çox amillər nəzərə alınmalı və ən uyğun termostabilizator emal prosesində tətbiq edilməlidir. PVX üçün termostabilizatorlar kimyəvi tərkibinə görə üzvi, metal – üzvi birləşmələr və qeyri -üzvi termostabilizatorlara ayrılırlar. Yaxın tarixdə müvafiq qruplara aid olan, təbii və sintetik mənşəli bir sıra birləşmələrin PVX-nin termostabilliyinə təsiri tədqiq edilmişdir. Qurğuşun kimi ağır metalların birləşmələri PVX termostabilizatorları kimi kütləvi olaraq istifadə edilir. Bu birləşmələrin toksiki olması ətraf mühitlə bağlı narahatlıqları da özü ilə gətirir. Ekoloji olaraq təmiz termostabilizatorların tapılması məqsədi ilə balqabaq tumunun yağı tədqiq edilmişdir. PVX əsaslı listlər balqabaq tumu yağı əlavə edilərək və edilməyərək hazırlanmışdır. PVX nümunələrinin fiziki xarakteristikaları yüksək temperatur tətbiq edilərək aparılmışdır. Nümunələrdə sarımtıl ləkələr əmələ gəlmiş, bu həmin bölgələrdə destruksiyanın getdiyini göstərmişdir. Destruksiyaya məruz qalmış nümunələrdə qurğuşun elementinin olub olmaması ABŞ EPA 3050B metodu ilə sınanılmış və həqiqətən də nümunələrdə toksiki metal izinə rast gəlinməmişdir. Balqabaq tumu yağı daxil edilmiş nümunə digərləri ilə müqayisədə 168 saniyə daha çox temperatura dayanıqlıq göstərmişdir. Burdan çıxan nəticəyə görə balqabaq tumu yağı toksiki termostabilizatorları əvəz edə bilər.

Liqnin Hİ tuşusu ilə emal edilmiş və növbəti mərhələdə kalsium-liqnin şelasiyasının hazırlanması üçün kalsium hidroksid ilə qarışdırılmışdır. Bu kompleks PVX-ə termostabilləşdirici təsirinin öyrənilməsi üçün 0, 1, 2, 4 k.h polimerə daxil edilmiş və qarışığın termodestruksiyasını öyrənmək üçün nümunələr 2 saat müddətində 190° C-də saxlanılmışdır. İQ spektroskopiya və diqər analiz nəticələrinə görə Ca-lignin kompleksi PVX-ə termostabilizator kimi təsir göstərə bilir. [2]

Tanninlərdən alınmış tannin-Ca kompleksinin bio-əsaslı termostabilizator və antioksidant kimi PVX-ə təsiri öyrənilmişdir. Bu tədqiqat işində istinad ediləcək termostabilizator kimi B-NT/7060 markalı termostabilizatoru tətbiq edilmişdir. Tannin-Ca kompleksi 1, 2, 3 k.h-lərdə 10 k.h DOF (dioktil ftalat) plastifikatoru əlavə edilmiş PVX kompozisiyası ilə 165° C-də qapalı qarışdırıcıdan istifadə edərək qarışdırılmışdır. Kompleksin kompozisiyaya termostabilləşdirici təsiri skanedən elektron mikroskopu (SEM), Furye transformasiyalı infraqırmızı spektroskopiya (FTİR), differensiyal skanedən kalorimetr (DSC) və s. metodlardan istifadə edilərək tədqiq edilmişdir. Termo qravimetrik analiz (TGA) nəticələri göstərmişdir ki, tannin-Ca kompleksi daxil edilmiş kompozisiyanın əsas termodestruksiyası 280-310° C, istinad edilmiş ənənəvi termostabilizatorda isə 255-293° C olmuşdur. Aparılmış analizlərdən tannin-Ca kompleksinin həm termo həm də termoksi destruksiyanı yavaşlatdığı müşahidə edilmişdir. [3]

Palma yağının fraksiyalarından Ca və Zn karboksilatları alınmış və onların PVX-nin termostabilliyinə təsiri tədqiq edilmişdir. alınmış karboksilatların tərkibi infraqirmizi

spektroskopiya və rentgen difraksiyası analiz və TGA ilə analiz edilmişdir. Ca – Zn karboksilatların müvafiq olaraq 14% və 19% kütlə itirmə temperaturları 393ºC və 311º C olmuşdur. Onların PVX-ə təsiri öyrənilmiş və ən effektiv təsir Ca – Zn karboksilatlarının kütlə nisbətinin 4:1 olduğu halda əldə edilmişdir. [4] Yuxarıdakı, əlverişli, ekoloji təmiz, üzvi və qeyri-üzvi mənşəli komponentlər PVX və PVX əsaslı kompozisiyalar üçün termostabilizatorlar kimi gələcəkdə sənayedə tətbiq edilmə prespektivlərini ehtiva edirlər.

Nəticə

Ətraf mühitin qorunması və ekoloji təmiz komponentlərdən istifadənin təşfiq edilməsi məqsədi ilə bu gün bir sıra elmi sahələrdə müxtəlif tədqiqatlar aparılmaqdadır. PVX emalı sənayesində tətbiq edilən termostabilizatorların da ekoloji təmiz və asan əldə olunan komponentlərlə əvəz edilməsi diqqət mərkəzindədir. Müvafiq sahədə aparılmış elmi işlərə və ədəbiyyatlara nəzər saldıqda bir çox təbii və ya bitki mənşəli xammalardan alınmış komponentlərin yüksək termostabilləşdirici təsir göstərdiyini görmək mümkündür. Yuxarıda sadalanan bir sıra elmi-tədqiqat işlərində də bitki mənşəli xammaldan istifadə edilmiş və müsbət nəticələr əldə edilmişdir. Gələcəkdə də bitki mənşəli xammalardan istifadə edərək yeni tərkibdə, effektiv, iqtisadi səmərəli, ekoloji təmiz termostabilizatorların və polimer sənayesi üçün bir çox əlavələrin alınması həyata keçirilə bilər və bu elmi yanaşmanın prespektiv istiqamətləri mövcuddur.

Ədəbiyyat

1. Labasan, K. B., Manuel, N. A. J. A., & Cabuang, T. A. G. (2017). Squash (Cucurbita maxima D.) Seed Oil as Thermal Stabilizer for Polyvinyl Chloride (PVC). *World Journal of Environmental Research*, *7*(1), 2–16. https://doi.org/10.18844/wjer.v7i1.1705
2. Shnawa, Hussein. (2011). Evaluation of Lignin-Calcium Complex as Thermal Stabilizer for Poly VinylChloride.MaterialsSciencesandApplications.02.692-699. 10.4236/msa.2011.26095.
3. Shnawa, H. , Khalaf, M. , Jahani, Y. and Taobi, A. (2015) Efficient Thermal Stabilization of Polyvinyl Chloride with Tannin-Ca Complex as Bio-Based Thermal Stabilizer. Materials Sciences and Applications, 6, 360-372. doi: 10.4236/msa.2015.65042.
4. Putrawan IDGA, Indarto A, Octavia Y. Thermal stabilization of polyvinyl chloride by calcium and zinc carboxylates derived from byproduct of palm oil refining. Heliyon.2022 Aug12;8(8):e10079.doi:10.1016/j.heliyon.2022.e10079.PMID:36051272;PMCID:PMC9424953.

POLİVİNİL XLORİD ƏSASINDA KOMPOZİSİYALARIN ALINMASI PROSESİNDƏ İSTİFADƏ EDİLƏN TERMOSTABİLİZATORLARIN MÜASİR PROBLEMLƏRİ VƏ PRESPEKTİV İSTİQAMƏTLƏRİ

Həsənov R.M.

Xülasə

Polivinil xlorid dünyda geniş şəkildə istifadə edilən polimerlərdən biridir, ancaq termiki olaraq dayanıqlılığı zəif olduğuna görə emal edildikə termodestruksiyaya məruz qalır. PVX-nin emalı zamanı göstərilən problemi həll etmək üçün termostabilizatorların istifadəsi zəruridir. Sənayedə geniş istifadə edilməkdə olan termostabilizatorlar qurğuşun duzları, bəzi metal karboksilatları, qalay-üzvi komponentlər və başqalarıdır. Sözü gedən komponentlər növündən asılı olaraq, iqtisadi səmərəsiz, insan sağlamlığı və ətraf mühit üçün təhlükəli olma və ya termostabilləşdirmə təsiri kifayyət qədər effektiv olmamaq kimi mənfi xüsusiyyətlərə malikdirlər. Bu gün dünyada PVX üçün termiki stabilləşdirici təsiri göstərə bilən müxtəlif komponentlərin müsbət tərəflərini özündə ehtiva edən termostabilizatorların tapılması üçün geniş elmi tədqiqat işləri aparılmaqdadır. Hazırlanması arzu olunan termostabilizator insan sağlamlığı və ətraf mühit üçün təhlükəli olmamalı, termiki stabilləşdirmə təsirini uzun müddət qorumalı, asan əldə edilən və iqtisadi səmərəli olmalıdır.

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ ТЕРМОСТАБИЛИЗАТОРОВ В ПРОЦЕССЕ ПЕРЕРАБОТКИ КОМПОЗИЦИЙ НА ОСНОВЕ ПОЛИВИНИЛХЛОРИДА

Гасанов Р. М.

Резюме

Поливинилхлорид является одним из широко используемых в мире полимеров, но из-за плохой термической стабильности при переработке подвергается термодеструкции. Использование термостабилизаторов необходимо для решения этой проблемы при переработке ПВХ. Широко применяемыми в промышленности термостабилизаторами являются соли свинца, карбоксилаты некоторых металлов, оловоорганические компоненты и др. В зависимости от типа рассматриваемых компонентов они обладают такими отрицательными характеристиками, как экономическая неэффективность, опасность для здоровья человека и окружающей среды, недостаточно эффективное термостабилизирующее действие. Сегодня в мире ведутся обширные научные исследования по поиску термостабилизаторов, содержащих положительные стороны различных компонентов, способных оказывать термостабилизирующее действие на ПВХ. Желаемый термостабилизатор не должен быть опасен для здоровья человека и окружающей среды, должен сохранять эффект термостабилизации в течение длительного времени, быть легкодоступным и экономически выгодным.

MODERN PROBLEMS AND PROSPECTIVE DIRECTIONS OF THERMOSTABILIZERS USED IN THE PROCESS OF PROCESSING COMPOSITIONS BASED ON POLYVINYL CHLORIDE

Hasanov R.M.

Summary

Polyvinyl chloride is one of the widely used polymers in the world, but due to its poor thermal stability, it undergoes thermodestruction during processing. The use of thermostabilizers is necessary to solve this problem during the processing of PVC. Thermostabilizers widely used in industry are lead salts, some metal carboxylates, tin-organic components and others. Depending on the type of components in question, they have negative characteristics such as being economically inefficient, dangerous for human health and the environment, or not having a sufficiently effective thermostabilizing effect. Today, extensive scientific research is being conducted in the world to find thermostabilizers that contain the positive aspects of various components that can have a thermal stabilizing effect for PVC. The desired thermostabilizer should not be dangerous for human health and the environment, it should maintain the thermal stabilization effect for a long time, it should be easily available and economically efficient.

MAZUTUN HİDROKREKİNQİ PROSESİNDƏN ALINAN BENZİN, DİZEL FRAKSİYASININ HİDROADSORBSİYASININ TƏDQİQİ

[1]Həsənova A.B., [2]Muxtarova G.S.

Bioresurslar İnstitutu[1]

Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu[2]

ayshe_hesenova@rambler.ru

Açar sözlər: *hidrokrekinq, hidroadsorbsiya, mazut, keçid metalları, benzin fraksiyası, dizel fraksiyası.*

Dünya neft emalı sənayesinin qarşısında duran əsas məsələlərdən biri yeni yüksək effektli, ekoloji təmiz proses və texnologiyalar işləyib hazırlamaqla neftin emal dərinliyini artırmaqdan ibarətdir. Neftin emal dərinliyinin artırılması və müasir standartlara cavab verən əmtəə məhsullarının alınması məsələlərinini katalitik krekinq, hidrokrekinq, visbkrekinq, kokslaşma kimi təkrar emal proseslərindən alınan fraksiyaların yeni emal metodlarının işlənib hazırlanması və istifadəsi vasitəsilə həll etmək olar [1].

Bakı neftlərindən alınan mazutun hidrokrekinqindən alınan benzin, dizel fraksiyasının hidroadsorbsiya ilə kükürddən təmizlənməsi prosesi axar tipli Macar qurğusunda 240-300ºC temperaturda, 2.5 MPa təzyiqdə, hidrogenin xammala nisbəti 1500/500 l/l olaraq, 0.5-1.5 s^{-1} həcmi sürətdə həyata keçirilmişdir. Prosesin gedişinə temperaturun təsiri tədqiq edilərək optimal rejim parametri təyin edilmişdir. Hidrotəmizləmə prosesində ilkin xammal olaraq mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyası istifadə edilmişdir. Cədvəl 1-də mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyasının keyfiyyət göstəriciləri təqdim edilmişdir.

Cədvəl 1.

Mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyasının keyfiyyət göstəriciləri

Benzin fraksiyası	
Sıxlığı 20ºC-də, kq/m^3	721.6
Fraksiya tərkibi, %:	
q.b.	62
10 %	95
50 %	128
90 %	190
q.s.	200
Karbohidrogen tərkibi, % küt.	
olefinlər	3.19
parafinlər	37.99
i-parafinlər	35.87
Aromatik	10.21
naftenlər	12.74
Oktan tədqiqat üsulu ilə	70.0
Kükürdün miqdarı, % küt.	0.045
Yod ədədi, q J_2/100 q	8.0
Dizel fraksiyası	
Sıxlıq, 20ºC-də, kq/m^3	849.7
Fraksiya tərkibi, ºC:	
q.b.	191
10 %	201
50 %	248
90 %	352
q.s.	360
Kükürdün miqdarı, % kütlə	0.20
Yod ədədi, qrJ_2 / 100q yanacağa	16
Donma temperaturu, ºC	-28
Sulfolaşma, %, həcm	31-33
Karbohidrogen tərkibi, % NMR ilə	
Aromatik	13.2
Doymamış	10.1
Naften-parafin	76.7
Setan ədədi NMR	45

Cədvəl 2.

Mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyasının hidrotəmizlənmə prosesinə temperaturun təsiri (P=25 atm, H_2=150 ml/s, V=1s^{-1})

Göstəricilər	Az-4+ Mo, Ni		
	240°C	270°C	300°C
Benzin fraksiyası			
Sıxlığı 20°C-də, kq/м^3	0.719	0.718	0.716
Fraksiya tərkibi, °C:			
q. b.	58	60	60
10 %	93	98	95
50 %	121	123	120
90 %	184	194	191
q. s.	196	201	200
Yod ədədi, qJ_2/100 qməhsul	7	6	5
Karbohidrogen tərkibi, % küt.:			
parafinlər	37.78	36.69	36.08
i-parafinlər	34	36.75	39.9
olefinlər	2.48	1.45	1.3
naftenlər	13.48	13.4	12.1
aromatika	11.86	11.71	10.62
Oktan ədədi tədqiqat üsulu ilə	71	72	71
Kükürd, ppm	34	30	32
Dizel fraksiyası			
Sıxlıq, 20°C-də, kq/m^3	865.2.	859.2	858.5
Fraksiya tərkibi, %:			
q.b.	187	190	190
10 %	192	193	193
50 %	247	250	250
90 %	354	357	357
q.s.	359	360	360
Yod ədədi, qrJ_2 100q yanacağa	17	15	16
Karbohidrogen tərkibi, % NMR ilə			
Aromatik	33.14	32.01	34.25
Doymamış	0.5	0.5	0.5
naften-parafin	66.32	66.48	66.78
Kükürd, ppm	54	49	50
Setan ədədi NMR	41	45	42

Cədvəl 2-də mazutun hidrokrekinqi prosesindən alınan benzin və dizel fraksiyasının hidrotəmizlənməsindən alınan nəticələr verilmişdir. Cədvəldən göründüyü kimi Mo, Ni ilə modifikasiya olunmuş Az-4 üzərində hidroadsorbsiya üsulu ilə təmizləmədə temperaturun 240°C-dən 270°C-yə yüksəlməsi ilə benzin fraksiyasının tərkibində kükürdün miqdarı 34 ppm-dən 32 ppm-ə qədər, dizel fraksiyasında isə 54 ppm-dən 49 ppm-ə qədər azalır. Prosedə kükürdsüzləşmə ilk olaraq artır. Temperaturun sonrakı 300°C-yə yüksəlməsində kükürdün miqdarı benzin fraksiyasında 30 ppm-dən 32 ppm-ə və dizel fraksiyasında 49 ppm-dən 50 ppm-ə qədər artır. Çünki temperaturun yüksəlməsi maye molekullarının adsorbentin mikroməsamələrinə daxil olmasına müsbət təsir edir və yaxud da sürətləndirir. Lakin temperaturun yenidən yüksəlməsi desorbsiya prosesinin getməsinə səbəb olur.

Mo, Ni ilə modifikasiya olunmuş Az-4 üzərində hidrotəmizlənmədən sonra benzin və dizel fraksiyasının karbohidrogen tərkibi temperatur artdıqda doymamış karbohidrogenlərin miqdarı azalır, izo-quruluşlu karbohidrogenlərin miqdarı isə artır [2]. Bu zaman qeyd edə bilərik ki, doymamış karbohidrogenlər parçalanma, izomerləşmə və hidrogenləşmə

reaksiyalarına məruz qalırlar. Aromatik karbohidrogenlər isə hidrogenləşmə reaksiyasına daxil olmur.

Mazutun hidrokrekinqindən alınan benzin və dizel fraksiyasının Mo, Ni ilə modifikasiya olunmuş Az-4 üzərində hidroadsorbsiya metodu ilə hidrotəmizləmə prosesini 270°C temperaturda aparılması daha əlverişlidir. Proses zamanı fraksiyanın tərkibində olan normal quruluşlu doymamış karbohidrogenlər parçalanma, izomerləşmə və hidrogenləşmə reaksiyalarına məruz qalır. Aromatik karbohidrogenlər isə az miqdarda hidrogenləşmə reaksiyasına daxil olur. Benzinin tərkibində kükürdün miqdarı 450 ppm-dən 30-40 ppm-ə qədər azalır. Benzinin keyfiyyət göstəriciləri yüksələrək oktan ədədi 1punkta qədər artır. Dizel fraksiyasında kükürdün miqdarı 2000 ppm-dən 55-50 ppm-ə qədər azalır. Dizel fraksiyasının setan ədədi 45 olur.

Ədəbiyyat

1. Ali, M. A., Tatsumi, T., Masuda, T. Development of heavy oil hydrocracking catalysts using amorphous silica-alumina and zeolites as catalyst supports. Applied Catalysis A: General, 2002, Vol. 233, pp. 77-90.

2. Landau, M.V. Hydrocracking of Heavy Vacuum Gas Oil with a Pt/H-beta-Al2O3 Catalyst: Effect of Zeolite Crystal Size in the Nanoscale Range. Industrial Engineering Chemistry Research, 2003,Vol. 42, pp. 2773-2782.

ИССЛЕДОВАНИЕ ГИДРОАДСОРБЦИИ БЕНЗИНА, ДИЗЕЛЬНОЙ ФРАКЦИИ ИЗ ПРОЦЕССА ГИДРОКРЕКИНГА ТОПЛИВА

Гасанова А.Б., Мухтарова Г.С

Резюме

Состав и качественные показатели исходного сырья и бензиновых и дизельных фракций, получаемых в процессе, определяли по результатам соответствующих анализов. Содержание углеводородов в бензиновой и дизельной фракциях, полученных в процессе гидроочистки, до и после индивидуальной и групповой определяли методом хроматографии (ПИОНА). В ходе исследований для синтеза катализатора был использован природный цеолит Az-4 (условно названный Az-4), добытый с территории Имишлинского района Азербайджана.

STUDY OF HYDROADSORPTION OF GASOLINE, DIESEL FRACTION FROM THE HYDROCRACKING PROCESS OF FUEL

Hasanova A.B., Mukhtarova G.S.

Summary

The composition and quality indicators of primary raw materials and gasoline and diesel fractions obtained from the process were determined based on the results of appropriate analyses. The hydrocarbon content of the gasoline and diesel fractions obtained from the hydrotreating process before and after individual and group was determined by chromatography (PIONA) method. During the research, natural zeolite Az-4 (conditionally named Az-4) taken from the territory of Imishli region of Azerbaijan was used in the synthesis of the catalyst.

MAZUTUN HİDROKREKİNQİ PROSESİNDƏN ALINAN BENZİN, DİZEL FRAKSİYASININ HİDROADSORBSİYASININ TƏDQİQİ

Həsənova A.B., Muxtarova G.S.

Xülasə

İlkin xammalın və prosesdən alınan benzin və dizel fraksiyalarının tərkibi və keyfiyyət

göstəriciləri uyğun analizlərin nəticələrinə əsasən təyin edilmişdir. Hidrotəmizləmə prosesindən alınan benzin və dizel fraksiyaların əvvəl və sonra individual, qrup şəklində karbohidrogen tərkibi xromatoqrafiya (PİONA) üsulu ilə müəyyən edilmişdir. Tədqiqat zamanı katalizatorun sintezində Azərbaycanın İmişli rayonu ərazisindən götürülmüş Az-4 (şərti olaraq Az-4 adlandırılmışdır) təbii seolitindən istifadə edilmişdir.

TÖRƏMƏLƏRİNİN KARBOHİDROGENLƏRİN OKSİDLƏŞMƏSİNİN QARŞISINI ALAN ANTİOKSİDANT AŞQAR KİMİ TƏDQİQİ

Hüseynova M.T., Həmidova Ş.Y., Əfəndiyeva S.S., İsmayılova S.Z.

Akademik Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu

Akademik M.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu

Açar sözlər: *tiosemikarbazonlar, metal kompleksləri, antioksidant aşqarlar.*

Key words: *thiosemicarbazones, metal complexes, antioxidant additives.*

Ключевые слова: *тиосемикарбазоны, металлокомплексы, антиоксидантные добавки.*

Yüksək keyfiyyətli neft məhsullarının, sürtkü yağlarının, yanacaqların yaradılması tələbi texnikanın inkişafı ilə əlaqəli olaraq gündən-günə artır. Bu da öz növbəsində yüksək keyfiyyətli aşqarların alınması məsələsini gündəmə gətirir. Son illərin ədəbiyyat axtarışları zamanı tiosemikarbazonların keçid sıra elementləri ilə əmələ gətirdiyi komplekslərinin kimyəvi və farmakoloji xüsusiyyətlərinin daha çox maraq doğurduğu aşkarlanmışdır. Bu birləşmələr tərkibindəki bir neçə funksional qrupların olması ilə əlaqəli olub keçid sırası metal duzları ilə müxtəlif tip kompleks birləşmələr əmələ gətirməsinə imkan verir. Aparılan elmi-tədqiqatların araşdırılması nəticəsində neft məhsullarının, sürtkü yağlarının, yanacaqların tərkibində karbohidrogenlərin oksidləşmə prosesini dayandıran, eləcə də mikrobioloji zədələnmələrdən mühafizə edən antioksidant aşqarı kimi, biosid aşqarı kimi ümumilikdə universal aşqar kimi tədqiqat sahəsinə malik olduğu aşkarlanmışdır. Əgər nəzərə alsaq ki, sürtkü yağlarının funksional xassələrinin ən önəmlisi oksidləşməyə qarşı davamlılığıdır və oksidləşmə məhsullarının əmələ gəlməsi bilavasitə istismar müddətinə təsir edir onda yüksək keyfiyyətli antioksidant aşqarlarının yaradılması əsas məslələrdən birinə çevrilmiş olur. Bu səbəbdən də tiosemikarbazonlardan qlioksal turşusunun tiosemikarbazonu (H_2GAT) və onun keçid metal ($Ni(HGAT)_2{\cdot}2H_2O$, $[Zn(HGAT)_2]_2{\cdot}3H_2O$) komplekslərinin tədqiqi müəyyən əhəmiyyətə malikdir.

Göstərilən oksidləşmə prosesinin qarşısını almaq üçün elə aşqarlar seçilməlidir ki, onlar yaranan radikallarla reaksiyaya girib, radikal əmələ gətirmədən hidroperoksidlərə parçalansın.

Bir çox elmi-tədqiqat işlərində kükürdlü birləşmələrin antioksidləşdirici xassələrini əhatə edən nəşrlərə rast gəlinir [1-3], lakin kükürdlü və azotlu metal kompleks birləşmələrin bu istiqamətdə tədqiqi çox zəifdir, məhz bu səbəbdən də tərəfimizdən sintez olunmuş kükürd və azot fraqmentinə malik qlioksal turşusunun tiosemikarbazonun keçid sırası metal komplekslərinin bu istiqamətdə araşdırmaları aparılmışdır. Bu birləşmələrin antioksidləşdirici yəni oksidləşmə inhibitoru kimi təsiri kinetik üsulla öyrənilmişdir. Üsulun əsas mahiyyəti yuxarıda da qeyd olunduğu kimi peroksid radikalları ilə reaksiyaya girərək oksidləşmə zəncirinin qırılmasını və hidroperoksidlərin parçalanmasını təmin etməkdir.

Qeyd etmək lazımdır ki, tərəfimizdən sintez olunan H_2GAT [5], $Ni(HGAT)_2{\cdot}2H_2O$, $[Zn(HGAT){\cdot}H_2O]_n$ [4] birləşmələrin antioksidant təsirini kumolun oksidləşmə reaksiyaları − kumolun avtooksidləşməsi və kumilperoksidlə reaksiyası vasitəsilə tədqiq edilmişdir [6]. H_2GAT, $[Zn(HGAT){\cdot}H_2O]_n$, $Ni(HGAT)_2{\cdot}2H_2O$ birləşmələrin iştirakı nəticəsində oksidləşmənin qarşısını alan inhibitor və ya antioksidant kimi təsir mexanizmininin müəyyən olunması kumolun avtooksidləşməsinin araşdırılması ilə öyrənilmişdir.

Elmi aştarışlar zamanı H2GAT, [Zn(HGAT)·H2O]n, Ni(HGAT)2·2H2O birləşmələrinin kifayət qədər yüksək antioksidant aktivliyinə malik olduqları ortaya çıxmışdır və cədvəldə tədqiq olunan liqand və kompleks birləşmələrin iştirakı ilə kumolun insiatorlaşdırılmış oksidləşməsinin kinetik parametrləri qeyd olunmuşdur. Kinetik parametrlərdən də göründüyü kimi inhibitor kimi tədqiq olunan birləşmələr kumilperoksid radikalları ilə reaksiyaya girərək oksidləşmənin qarşısını alır:

Cədvəl 1.

Kumolun avtooksidləşməsinin induksiya dövrünün qiymətləri, H_2GAT, kumilperoksid radikalları $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ birləşmələrinin reaksiyasının kinetik parametrləri.

Birləşmələr	T = 60˚ C		T = 110˚ C
	f	$K_7 = 10^{-4}$ $l^{-1}\cdot mol^{-1}\cdot san^{-1}$	τ, *dəq.*
H_2GAT	2.064	2.05	120
$[Zn(HGAT)\cdot H_2O]_n$	3.36	2.9	200
$Ni(HGAT)_2$	3.96	4.59	220
İonol (etalon antioksidant)	2.00	2.10	150

τ – induksiya dövrü, K_7-oksigenin udulmasının kinetikasına görə inhibitorların peroksid radikalları ilə qarşılıqlı təsirinin sürət sabiti, *f*- inhibitorlaşmanın stexiometriya əmsalı.

Cədvələ əsasən H_2GAT, $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ inhibitorlarının göstəriciləri etalon antioksidantın ionolun göstəricilərindən kifayət qədər yüksəkdir, həmçinin, $Ni(HGAT)_2\cdot 2H_2O$ kompleksi ən yüksək nəticəyə τ_{ind}= 220dəq malikdir. Bu nəticələrə əsasən $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ kompleksləri karbohidrogenlərin oksidləşməsinin qarşısını alan antioksidant aşqarı kimi isdifadəsi tövsiyə oluna bilər.

Ədəbiyyat

[1] Əhmədov, R.Y., Cavadova, L.A. və Rzayeva, İ.Ə. (2005). Bəzi tiokarbamidlərin antioksidləşdirici xassələrinin tədqiqi. *Kimya Problemləri Jurnalı, 3*, 75-77.

[2] Fərzəliyev, V.M., Zamanova, A.V. və Rzayeva, S.C. (2008). Funksionaləvəzli dihidroprimidinlər-effektiv antimikrob preparatlar kimi. *Sağlamlıq Jurnalı*, 109-112.

[3] Fərzəliyev, V.M. (2008). Neft məhsullarına antioksidləşdirici aşqar. *Azərbaycan Respublikası İxtira* i2008 0200.

[4] Huseynova, M.T., Taslimi, P. & Medjidov, A.A. (2019). Synthesis, Characterization, Crystal Structure of the Coordination Polymer Zn(II) with Thiosemicarbazone of Glyoxylic Acid and Their Inhibitory Properties Against Some Metabolic Enzymes. *Bioorganic Chemistry, (83),* 55-62.

[5] Huseynova, M.T. Aliyeva, M.N. Medjidov, A.A. et al., (2019). Cu(II) complex with thiosemicarbazone of glyoxylic acid as an anion ligand in a polymeric structure. *Journal of Molecular Structure, 1176,* 895-900.

[6] Sujayev, A.R., Safarov, Y.S. & Allahverdiyev, M. (2013). Antioxidant properties of some tiourea derivatives. *Journal of applied chemistry, (3),* 96-100.

ИССЛЕДОВАНИЕ ПРОИЗВОДНЫХ ТИОСЕМИКАРБАЗОНА КАК АНТИОКСИДАНТНЫХ ДОБАВОК, ПРЕПЯТСТВУЮЩИХ ОКИСЛЕНИЮ УГЛЕВОДОРОДОВ

Мансура Г.Т., Хамидова Ш.Я., Эфендиева С.С., Исмаилова С.З.

Резюме

Спрос на создание качественных нефтепродуктов, смазочных материалов и топлива с каждым днем возрастает в связи с развитием технологий. Это, в свою очередь, ставит вопрос о покупке качественных присадок. В ходе литературных поисков последних лет стало известно, что больший интерес представляют химические и фармакологические свойства комплексов, образованных тиосемикарбазонами с элементами переходного ряда. Таким образом, эти соединения связаны с наличием в их составе нескольких функциональных групп, а порядок перехода позволяет им образовывать различные типы комплексных соединений с солями металлов. В результате проведенных научных исследований добавлено, что имеет исследовательское поле как антиоксидантная добавка и как биоцидная добавка, которая предотвращает окисление углеводородов в нефтепродуктах, смазочных материалах и топливах, а также защищает от микробиологического повреждения. Если учесть, что важнейшим из функциональных свойств смазочных масел является стойкость к окислению, а образование продуктов окисления напрямую влияет на срок службы, то создание качественных антиокислительных присадок становится одним из основных вопросов. По этой причине изучение тиосемикарбазона глиоксалевой кислоты (H_2GAT) и ее комплексов переходных металлов ($Ni(HGAT)_2{\cdot}2H_2O$, $[Zn(HGAT)_2]_2{\cdot}3H_2O$) имеет определенное значение.

INVESTIGATION OF THIOSEMICARBAZONE DERIVATIVES AS ANTIOXIDANT ADDITIVES PREVENTING HYDROCARBON OXIDATION

Mansura H.T., Hamidova S.Y., Efendiyeva S.S., Ismayilova S.Z.

Summary

The demand for the creation of high-quality petroleum products, lubricants and fuels is increasing every day due to the development of technology. This, in turn, raises the question of buying quality additives. In the course of recent literature searches, it became known that the chemical and pharmacological properties of complexes formed by thiosemicarbazones with elements of the transition series are of greater interest. These compounds are associated with the presence of several functional groups in their composition, and the transition order allows them to form various types of complex compounds with metal salts.As a result of scientific research, it has been added that it has a research field as an antioxidant additive and as a biocidal additive, which prevents the oxidation of hydrocarbons in petroleum products, lubricants and fuels, and also protects against microbiological damage. Considering that the most important of the functional properties of lubricating oils is oxidation resistance, and the formation of oxidation products directly affects the service life, the creation of high-quality antioxidant additives becomes one of the main issues. For this reason, the study of glyoxylic acid thiosemicarbazone (H_2GAT) and its transition metal complexes ($Ni(HGAT)_2{\cdot}2H_2O$, $[Zn(HGAT)_2]_2{\cdot}3H_2O$) is of particular importance.

C+N/TiO_2 SİSTEMİNDƏ GEDƏN FOTOKİMYƏVİ REAKSİYALARİN TƏDQİQİ

Qədirova E.M., Rüstəmova U.N.

Bakı Dövlət Universiteti

Açar sözlər: *UB , fotoliz , fenol, XRD, nano-TiO_2.*
Ключевые слова: *УФ, фотолиз, фенол, ХРД, нано-TiO_2.*
Key words: *UV, photolysis, phenol, XRD, nano-TiO_2.*

Giriş

TiO_2 nanohissəciklərindən istifadə çox ekoloji baxımdan çox sərfəlidir;çünki TiO_2 kimyəvi baxımdan dayanaıqlıdır,mülayim şəraitdə sintez edilir,asan başa gəlir,ən əsası isə toksiki deyildir və ekoloji baxımdan təmizdir [1;s.683,2;s.17,3;4].

İşin gedişi

Tullantı sularından fenolun təmizlənməsi üçün TiO_2 nanohissəciklərindən və ($C_{26}H_{22}N_4O_3$)etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksan karboksilatdan istifadə etməklə fotokimyəvi reaksiyalar vasitəsilə fenolun parçalanması reaksiyaları həyata keçirilmişdir.Məqsəd yeni sintez edilmiş azotlu birləşmənin fotokimyəvi reaksiyalarda necə effektivlik göstərməsini təyin etmək olmuşdur. Bu məqsədlə kütləsi 0,05 qr olan etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksan karboksilat və 0,05qr TiO_2-nin 10 ml distillə suyunda bərabər paylanmış məhlulu hazırlanmışdır.Alınmış qarışıqdan 5 ml götürülərək 20 ml 1 mq/l(mgL^{-1}) fenol məhluluna əlavə edilmiş və sonra üzərinə 0,05qr etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksan karboksilat əlavə edilmiş və UB-görünən oblast sahəsində fotokimyəvi dissosiasiyaya məruz qalmışdır.

TiO_2 nanohissəciklərinin kristallılığı və təmizliyi XRD metodu ilə təyin edilmişdir. Şəkil 2-də TiO_2 nanohissəciklərinin rentgen quruluşu göstərilmişdir.

Şəkil 1. TiO_2 nanohissəciklərinin rentgen quruluşu (XRD).



Tərəfimizdən ilk dəfə alınmış ($C_{26}H_{22}N_4O_3$) etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksan karboksilat (ümumi formulu $C_{26}H_{22}N_4O_3$, $T_{ər}$=120-124^{0}C) maddəsinin rentgen quruluşu «Bruker APEX II CCD» (T = 100 K, λM_oK_α- şüalanma, qrafit monoxromator, φ- və ω- skan olunma , $2\theta_{max}$ = 56˚) difraktometrində analiz edilmiş və aşağıdakı quruluş əldə edilmişdir.



Alınmış($C_{26}H_{22}N_4O_3$)maddəsi yeni maddədir-etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsiklo -heksan karboksilat ağ kristallardan ibarətdir. Etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksan karboksilatın kimyəvi quruluşu rentgen quruluş analizi vasitəsi ilə dəqiqləşdirilmiş, maddə Kembric quruluş bazası deposunda CCDC1839026 nömrəsi ilə qeydə alınmışdır.

Şəkil 2. UB sahədə fenol+C-N/TiO_2 sisteminin fotoliz prosesindən qabaq və sonra alınan şüalanma əyrilərinin müqaisəsi



Baxılan məqalədə tullantı sularının ətraf mühitdə yaratdığı ekoloji problemlərin həllində TiO_2 nanaohissəciklərin yanaşmasından bəhs edilmişdir[5,6;s.7,7;s.1883].Belə ki, son 30 ildə nanotexnoloji yanaşmadan istifadə etməklə müxtəlif sistemli nanohissəciklərin köməyilə çirklənmiş və ya tullantı sularından toksiki təsirli üzvi maddələrin(fenol) ayrılması əsas ekoloji problemlərdəndir. Məlumdur ki, şirin su ehtiyatı dünyada getdikcə azalmaqdadır,bu baxımdan tullantı sularının maksimum dərəcədə təmizlənməsi probleminin həlli hazırda dünyada çox vacib ekoloji məsələlərdəndir.

Ədəbiyyat

[1].Hu, Xuebing; Yu, Yun; Ren, Shuang; Lin, Na; Wang, Yongqing; Zhou, Jianer. Highly efficient removal of phenol from aqueous solutions using graphene oxide/Al_2O_3 composite membrane .Journal of Porous Materials, vol.25# 3pp.719 -726,2018.

[2].A.Fujishima, T.N.Rao and D. A.Tryk.Titanium dioxide photocatalysis. Journal of Photochemistry and Photobiology,vol. 1,No.1,pp.1-21,2000.

[3].Yangchun Xu, Ruizhi Feng, Minglu Zhang,et al.Preparation and characterization of a novel blue-TiO_2/PbO_2-carbon nanotube electrode and its application for degradation. Journal of Environmental Sciences, Available online 02 May,2022. https://doi.org/10.1016/j.jes.2022.04.027

[4].Niloufar Torkian, Abbas Bahrami, Afrouzossadat Hosseini, et al. Synthesis and characterization of Ag-ion-exchanged zeolite/TiO_2 nanocomposites for antibacterial applications and photocatalytic degradation of antibiotics, Jour. of Env. Res, 207,112157,2022.

[5].Shamshad Khan, Mu.Naushad,Muthusamy Govarthanan,et al.Emerging contaminants of high concern for the environment: Cur. trends and future re.,Jour.of Env.Res, 207, 112609, 2022.

[6].X.Qiu and C.Burda.Chemically synthesized nitrogen-doped metal oxide nanoparticles.Chemical Physics,vol.339,No.1-3,pp.1-10,2007.

[7].Y. Li, W. Cao, F. Ran, and X. Zhang.Photocatalytic degradation of methylene blue aqueous solution under visible light irradiation by using N-doped titanium dioxide.Key Engineering Materials,vol.338, pp.1972-1975,2007.

C+N/TiO_2 SİSTEMİNDƏ GEDƏN FOTOKİMYƏVİ REAKSİYALARİN TƏDQİQİ

Qədirova E.M., Rüstəmova U.N.

Xülasə

Baxılan məqalədə mülayim şəraitdə sintez edilən və ölçüləri 10-30 nm arasında olan TiO_2 nanohissəcikləri və ilk dəfə tərəfimizdən sintez edilən kristalın-etil-3,3,5,5-tetrasiano-2-hidroksi-2-metil-4,6-difeniltsikloheksankarboksilat($C_{26}H_{22}N_4O_3$)iştirakında fenol məhlulunun fotokimyəvi reaksiyası aparılmış və proses araşdırılmışdır. Fotokimyəvi dissosiasiyanın getməsi prosesdən qabaq və sonra reaksiya məhsulu üçün çəkilən absorbsiya əyrilərinin fərqinə əsasən təsdiq edilmiş,prosesin gedişi isə“Varian Cary 50”cihazında izlənilmişdir. UB-

görünən sahədə fenolun fotokimyəvi parçalanması və ya dissosiasiyasının həyata keçirilməsi təcrübələr ilə təsdiqlənmişdir.Fenolun fotokimyəvi parçalanması 52% arasında olmuşdur.

ИССЛЕДОВАНИЕ ФОТОХИМИЧЕСКИХ РЕАКЦИЙ В СИСТЕМЕ C+N/TiO_2

Кадырова Э.М., Рустамова У.Н.

Резюме

Впервые проведена фотохимическая реакция раствора фенола в присутствии наночастиц TiO_2 размером 10-30 нм и синтезированный в мягких условиях нами кристаллический этил-3,3,5,5-тетрациано-2-гидрокси-2-метил-4,6-дифенилциклогексан карбоксилата ($C_{26}H_{22}N_4O_3$).Ход фотохимической диссоциации подтвержден различием кривых поглощения продукта реакции до и после процесса фотолиза, а также контролировали процесс на приборе «Varian Cary 50».Экспериментально подтверждено фотохимическое разложение или диссоциация фенола в УФ-видимом диапазоне. Фотохимическое разложение фенола составил 52%.

STUDY OF PHOTOCHEMICAL REACTIONS IN THE C+N/TiO_2 SYSTEM

Gadirova E.M., Rustamova U.N.

Summary

For the first time,a photochemical reaction of a phenol solution in the presence of TiO_2 nanoparticles 10–30 nm in size and crystalline ethyl 3,3,5,5-tetracyano-2-hydroxy-2-methyl-4,6-diphenylcyclohexane carboxylate($C_{26}H_{22}N_4O_3$)synthesized under mild conditions was carried out for the first time.The course of photochemical dissociation was confirmed by the difference in the absorption curves of the reaction product before and after the photolysis process and the process was also monitored on a“Varian Cary 50”device.The photochemical decomposition or dissociation of phenol in the UV-Visible area has been experimentally confirmed. The photochemical decomposition of phenol was 52%.

.

PARA-TSİKLOALKİLFENOLAMİN OLİQOMERLƏRİNİN ALINMASI VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Qasımova F.İ., Əkbərli G.N., Ağamalıyev Z.Z.

akad. Y.H.Məmmədəliyev adına Neft- Kimya Prosesləri İnstitutu
fatimahuseynova89@gmail.com

Açar sözlər: *metiltsikloheksen,tsiklopentadien, para-tsikloalkilfenol, urotropin, para-tsikloalkilfenolaminoliqomeri.*

Ключевые слова: *метилциклогексен, циклопентадиен, пара-циклоалкилфенол, уротропин, олигомерпара-циклоалкилфеноламина.*

Keywords*: methylcyclohexene, cyclopentadiene, para-cycloalkylphenol, urotropin, para-cycloalkylphenolamineoligomer.*

Təqdim olunan işdə tərkibində izopren və piperilen ilə zəngin olan C_5 fraksiyası ilə etilenin termiki kondensasiyası nəticəsində alınan 1- və 3-metiltsikloheksenlərlə, eyni zamanda tsiklopentadienlə, 1-metiltsiklopentadienlə və 1-metiltsiklopentenlə orto-fosfat turşusu hopdurulmuş Seolit-Y katalizatorunun iştirakında fenolun tsikloalkil-ləşməreaksiyalarından alınmış *para*-tsikloalkilfenolların urotropinlə aminometilləşmə reaksiyalarına cəlb olunaraq alkilfenolaminoliqomerlərinin sintezindən bəhs edilir [1,2].

Fenolun tsikloolefinlərlətsikloalkilləşmə reaksiyaları 80-140° C temperaturda, 2-6 saat müddətində, komponentlərin mol nisbətləri 0.5:1-2 mol, katalizatorun miqdarı 5-20%

(götürülən fenola görə) həddində tədqiq olunmuşdur. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, aparılan alkilləşmə reaksiyalarının optimal şəraitlərində məqsədli məhsulların çıxımları götürülən fenola görə 68.3-73.8%, seçicilikləri isə məqsədli məhsula görə 92.1-95.7% təşkil edir.

Alınmış *para*-metiltsikloheksil(tsiklopentil)-fenolların heksametilentetraaminlə qarşılıqlı təsirindən *para*-metiltsikloheksil-, *para*-tsiklopentil- və *para*-tsiklopentenil-aminoliqomerləri sintez olunmuşdur.



Reaksiya 140°C-də amonyak tam ayrılanadək aparılır.

Cədvəldə *para*-tsikloalkilaminoliqomerlərinin fiziki-kimyəvi xassələri verilir.

Cədvəl 1.

Amin oliqomerlərinin fiziki-kimyəvi xassələri.

Adları	Mol.kütlə	Yumşalma temperaturu, ^{o}C	Element tərkibi, %			Funksional tərkib, %	
			C	H	N	OH	NH
PAFAQ - I	1025	104	77.21	6.93	5.5	7.74	6.33
PAFAQ – II	1024	98	79.45	7.35	6.3	7.63	6.05
PAFAQ – III	884	87	79.67	7.47	5.8	7.52	5.86
PAFAQ – IV	918	91	78.33	6.88	5.1	7.35	5.2
PAFAQ - V	946	96	80.04	7.50	6.2	7.86	6.73

Sintez olunmuş *para*-metiltsikloheksil-, *para*-tsiklopentilfenolaminoliqomerləri lak-boya materiallarında örtükəmələgətirici kimi sınaqdan çıxarılmışdır.

Sınaqlar nəticəsində *para*-tsikloalkilfenolaminoliqomerlərinin əsasında alınmış örtüklərin yüksək möhkəmlik və adgeziya xassələrinə malik olduğu müəyyən edilmişdir.

Ədəbiyyat

1. Ch.G. Rasulov, Z.Z. Aghamaliyev, I.A. Alakbarova. Impactreactıons of para-cresol with 1(3)-methylcyclohexanes in a continuously operating pilot device // Processes of Petrochemistry And Oil Refining (PPOR), 2020, V. 21, № 2, p.208-215.

2. C.K.Rasulov, F.İ.Gasimova. Some features of cycloalkylation reactions of phenol with 1-methylcyclopentene // Key Engineering Materials, 2021, V. 899, p.726-732.

ПОЛУЧЕНИЕ И ИССЛЕДОВАНИЕ СВОЙСТВ *ПАРА*-ЦИКЛОАЛКИЛФЕНОЛАМИННЫХОЛИГОМЕРОВ

Гасымова Ф.И., Акбарли Г.Н., Агамалиев З.З

Резюме

В представленной работе рассматриваются получения алкилфеноламинные олигомеры аминометилированием пара-циклоалкилфенолов с уротропином и изучение их свойств.

ACQUISITION AND STUDY PROPERTIES OF *PARA*-CYCLOALKYLPHENOLAMIN OLIGOMERS

Gasimova F.I., Akbarli G.N., Agamaliev Z.Z.

Summary

In the present work, are considered obtaining alkylphenolamine oligomers from the aminomethylation reactions of para-cycloalkylphenols with urotropin and the study of their properties.

PARA-TSİKLOALKİLFENOLAMİN OLİQOMERLƏRİNİN ALINMASI VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Qasımova F.İ., Əkbərli G.N., Ağamalıyev Z.Z.

Xülasə

Təqdim etdiyimiz işdə *para*-tsikloalkilfenolların urotropinlə aminometilləşmə reaksiyalarından alkilfenolamin oliqomerlərinin alınması və xassələrinin tədqiqindən bəhs edilir.

PİROLİZİN MAYE MƏHSULLARININ 130-190°C FRAKSİYASI ƏSASINDA ASETOFENONUN SİNTEZİ

Heydərli G.Z., Qurbanlı Ü.R.,Həsənova G.C., Hacızadə S.M.

akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
heyderligunay6@gmail.com

Açar sözlər:*fenol, piroliz prosesinin maye məhsulları, arilalkilləşmə, sirkə turşusu, nanokatalizator, asilləşmə, asetofenon*

Ключевые слова: *фенол, жидкий продукт пиролиза, арилалкилирование, уксусная кислота, нанокатализатор, ацилирование, ацетофенон*

Key words: *phenol, liquid product of pyrolysis processes, arylalkylation, acetic acid, nanocatalyst, acylation, acetophenone*

Aşağı oktanlı benzinlərin piroliz prosesində alınan yan məhsulların hələ də kifayət qədər istifadə sahəsi olmadığı üçün onlar biosferə atılaraq ətraf mühitin çirklənməsinə və ekoloji problemlərə səbəb olurlar. Bu baxımdan, piroliz prosesində alınan məhsullar əsasında kimyəvi qatqıların alınması ekoloji və iqtisadi baxımdan xüsusi əhəmiyyət kəsb edir [1-5].

Təqdim olunan işdə modifikasiya edilmiş seolit tərkibli KH-30M katalizatoru iştirakında pirolizin maye məhsullarının (PMMF) 130-190°C fraksiyası ilə fenolun

arilalkilləşmə reaksiyası nəticəsində əldə olunmuş *p*-arilalkilfenolların nano-katalitik sistemdə sirkə turşusu ilə asilləşmə reaksiyaları əsasında *p*-arilalkilasetofenonların alınması reaksiyalarının tədqiqindən bəhs olunur.

Aparılmış araşdırmalar nəticəsində fasiləsiz işləyən qurğuda fenolun PMMF ilə modifikasiya edilmiş seolit tərkibli KH-30M katalizatoru iştirakında arilalkilləşmə reaksiyaları üçün səmərəli şərait tapılmışdır: temperatur - 120°C, fenolun PMMF-ə mol nisbəti 1:3, həcmi sürət 0.5 saat^{-1} . Tapılmış bu şəraitdə *p*-arilalkilfenolun götürülən fenola görə çıxımı 71.4%, seçiciliyi isə məqsədli məhsula görə 94.2% təşkil edir. PMMF-in xromotoqrafik analizi göstərir ki, fenol ilə əsasən doymamış karbohidrogenlər reaksiyaya girirlər. Bu zaman reaksiyadan sonra PMMF-in tərkibində stirolun miqdarı 32.18-dən 3.42%-dək azalır. Alınmış *p*-arilakilfenolun 95.0%-ni *p*-α-metilbenzilfenol təşkil edir.

p-Arilalkilfenolun nano-katalitik sistemdə sirkə turşusu ilə qarşılıqlı təsir reaksiyası tədqiq edilmişdir.



2-Hidroksi-5-arilalkilasetofenonun sintezi üçün nanoölçülü $ZnCl_2$ katalizatoru iştirakında *p*-arilalkilfenolun sirkə turşusu (ST) ilə qarşılıqlı reaksiyasından istifadə edilmişdir. Tədqiqatlar nəticəsində asilləşmə reaksiyası üçün optimal şərait tapılmışdır: temperatur 140°C, reaksiya müddəti 40 dəqiqə, *p*-arilalkilfenolun sirkə turşusuna mol nisbəti 1:2. Müəyyən edilmişdir ki, məqsədli məhsulun çıxımı götürülmüş *p*-arilalkilfenola görə 66.7% təşkil edir.

Sintez olunmuş 2-hidroksi-5-arilalkilasetofenon polistirolda termostabilizator kimi yoxlanılmışdır.

Ədəbiyyat

1. Коренев Д.К., Заворотный В.А., Келарев В.Б. Поиск катализатора алкилирования фенола олефинами. // Химия и технология топлив и масел. 2003. №1. с.61-63.
2. Магеррамов А.М., Байрамов М.Р., Мехтиева Г.М., Агаева М.А. Получение аминометилированных производных алкилфенолов и исследование их антимикробных свойств в моторном масле // Журн. прикл. химии. 2007. т.80, вып. 4. с.681-686.
3. Гасанов А.А, .Гурбанлы У.Р., Гейдарли Г.З., Нагиева М.В., Расулов Ч.К. Синтез и свойства 2-гидрокси-3[3(4)-метилциклогексен-3-ил-изопропил]-5-арилалкилацетофенона // Российский химический журнал, 2022, № 4, с.42-48.
4. Гейдарли Г.З., Нагиева М.В., Агамалиев З.З., Салманова Ч.К., Расулов Ч.К Синтез 2-гидрокси-3[3(4)-метилциклогексен-3-ил-изопропил]-5-метилацетофенонов // Химия и химическая технология. 2022. т. 65. № 3. с.100-106.
5. Гейдарли Г.З., Джафаров Р.П., Расулов Ч.К., Манафова А.Р.Оптимизация процесса ацилирования пара-(1-метилциклогексил)фенола уксусной кислотой в присутствии нано-каталитической системы // Мир нефтепродуктов. 2022. №5. с.32-36.

PİROLİZİN MAYE MƏHSULLARININ 130-190°C FRAKSİYASI ƏSASINDA ASETOFENONUN SİNTEZİ

Heydərli G.Z., Qurbanlı Ü.R., Həsənova G.C., Hacızadə S.M.

Xülasə

Təqdim olunan işdə modifikasiya edilmiş seolit tərkibli KH-30M katalizatoru iştirakında pirolizin maye məhsullarının 130-190°C fraksiyası ilə fenolun arilalkilləşmə reaksiyası nəticəsində əldə olunmuş *p*-arilalkilfenolların nano-katalitik sistemdə sirkə turşusu ilə asilləşmə reaksiyaları əsasında 2-hidroksi-5-arilalkilasetofenon alınması reaksiyalarının tədqiqindən bəhs olunur. Tədqiqatlar nəticəsində asilləşmə reaksiyası üçün optimal şərait tapılmışdır: temperatur 140°C, reaksiya müddəti 40 dəqiqə, p-arilalkilfenolun sirkə turşusuna mol nisbəti 1:2. Tapılmış optimal şəraitdə məqsədli məhsulun çıxımı götürülmüş p-arilalkilfenola görə 66.7% təşkil edir.

SYNTHESIS OF ACETOPHENONES BASED ON THE 130-190°C FRACTION OF LIQUID PRODUCTS OF PYROLYSIS

Haydarli G.Z., Gurbanli U.R., Hasanova G.C., Hajizadeh S.M.

Summary

The present work is devoted to the study of reactions for the preparation of 2-hydoxy-5arylalkylacetophenon based on the acylation reactions of p-arylalkylphenols obtained as a result of the reaction of arylalkylation of phenol with a fraction of 130-190°C of liquid pyrolysis products in the presence of a modified zeolite-containing catalyst KH-30M in a nanocatalytic system with acetic acid. As a result of the research, the optimal conditions for the acylation reaction were found: temperature 140°C, reaction time 40 minutes, molar ratio of p-arylalkylphenol and acetic acid 1:2. The yield of the target product under the found optimal conditions is 66.7%.

СИНТЕЗ АЦЕТОФЕНОНА НА ОСНОВЕ 130-190°C ФРАКЦИИ ЖИДКИХ ПРОДУКТОВ ПИРОЛИЗА

Гейдарлы Г.З., Курбанлы У.Р., Гасанова Г.Дж., Гаджизаде С.М.

Резюме

Представленная работа посвящена изучению реакций получения 2-гидрокси-5-арилалкилацетофенонов на основе реакций ацилирования *n*-арилалкилфенолов, полученных в результате реакции арилалкилирования фенола фракцией 130-190°C жидких продуктов пиролиза в присутствии модифицированного цеолитсодержащего катализатора KH-30M в нанокаталитической системе с уксусной кислотой. В результате исследований были найдены оптимальные условия проведения реакции ацилирования: температура 140°C, время реакции 40 минут, молярное соотношение *n*-арилалкилфенола и уксусной кислоты 1:2. Выход целевого продукта в найденных оптимальных условиях составляет 66,7% в расчете на полученный *n*-арилалкилфенол.

SELLULOZANIN HƏLLOLMASI VƏ KİMYƏVİ ÇEVRİLMƏLƏLƏRİN TƏDQİQİ

Paşayeva Z.N., Abdullayeva F.M.

Akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

Açar sözlər: *selluloza, nanoselluloza, ion maye, kompozisiya materialları.*

Ключевые слова:*целлюлоза, наноцеллюлоза, ионная жидкость, композиционные материалы.*

Keywords: *ellulose, nanocellulose, ionicliquid, composite materials.*

Ağardılmış sulfat sellülozanın ion mayeləri N-metilpirolidon asetat, di-, trietilamin asetat, morfolinformiat, həmçinin üzvi həlledici etilenqlikolda 80-160 ^{0}C temperatur intervalında həllolma dinamikası öyrənilmişdir. Müəyyən edilmişdir ki, N-metilpirolidon asetat sellülozaya münasibətdə digər ion mayelərinə nisbətən daha yaxşı həlledici gücə malikdir. Həmçinin nanokristallik sellülozun alınması prosesinin tədqiqatlarının nəticələri təqdim edilmiş, müxtəlif morfologiyalı və ölçülü fenol-formaldehid qatranı və sellüloza əsasında plyonkaların nümunələri tədqiq edilmişdir.

Müasir dövrdə bərpa olunan təbii polimerlərdən istifadə imkanlarının araşdırılması tədqiqatçıların diqqət mərkəzindədir. Selluloza bir çox bərpa olunan kimyəvi reagentlərin, bioyanacaqların alınmasında istifadəyə yararlı olub liqnosellulozanın, biokütlənin əsas komponentidir və neftkimyası, neftkimya məhsullarına alternativdir [1, 2]. Lakin sellulozanın lazımlı kimyəvi birləşmələrə çevrilmə prosesi onun müxtəlif sinif həlledicilərdə pis həllolması ilə əlaqədar olaraq olduqca məhdudlaşmış və buna əsaslanaraq selluloza üçün həlledicilərin müəyyən edilməsi olduqca aktualdır. Bu baxımdan sellulozanın emal prosesində mövcud olan çətinlikləri nəzərə alaraq onun həllolmasını təmin edən həlledicilərin müəyyən edilməsi aktual bir problemdir. Belə ki, sellulozanın modifikasiyası, kimyəvi reaksiyalara cəlb edilməsi onun həllolmasının təmin edilməsindən tam mənası ilə asılıdır. Son vaxtlar bu məqsədlə ion-maye duzlardan istifadə edilməsi sahəsində tədqiqatlar aparılır və 1- butil-3 -metilimidazolium kationu və Luis[λ=Cl] və Brensted[λ=HSO^{-}_{4}] əsası tərkibli ion mayelərindənsellulozanın bir başa katalitik çevrilmə proseslərində həlledici kimi tədqiq edilmişdir [3, 4].

Yuxarıda qeyd olunanları nəzərə alaraq, sellulozanın müxtəlif tərkib ion mayelərində, o cümlədən N-metilpirrolidonasetat, dietilaminasetat, dibutilaminasetat, morfolinformiat, üzvi həlledicilərdən etilenqlikolda həllolması tədqiq olunmuşdur. İon- mayelərində və etilenqlikolda həllolma prosesinə temperaturun, vaxtın və həlledicinin miqdarının təsiri araşdırılmışdır.

Sellulozanın yuxarıda qeyd olunmuş müxtəlif tərkib ion mayelərində həllolmasının tədqiqi sahəsində araşdırmalar iki istiqamətdə aparılmışdır:

- İon mayesi sellulozaya görə müxtəlif miqdarlarda götürülmüş, yəni həllolma prosesinə komponentlərin nisbəti və temperaturun təsiri araşdırılmışdır;
- Selluloza ilk əvvəl suda şişirdilmiş, sonra götürülmüş ion mayesində həllolması tədqiq olunmuşdur.

İon mayelərində sellülozun həlli ^{1}H, ^{13}C NMR və İQ spektroskopiya analiz üsulları ilə də təsdiq edilmişdir. Belə ki, təmiz ion mayelərin İQ və NMR spektrlərini, sellülozanın ion mayesindəki məhlulunu müqayisəetdkidə məlum olmuşdur ki, sonuncunun spektrində yeni udulma zolaqları yaranmışdır.

Tədqiqatların sonrakı mərhələsində xammal kimi götürülmüş selluloza və həlledicilərlə emaldan sonra alınmış selluloza nümunəsinin SEM analizi həyata keçirilmişdir. Nanoselülozanın səth quruluşu və ölçülərini öyrənmək üçün sellüloza nümunələrinin (emaldan əvvəl və sonra) səthini elektron mikroşəkilləri alınmışdır. Müəyyən edilmişdir ki, emal olunmamış selluloza nümunəsi lif , nanosellüloza isə iynə quruluşludur.

Son illər ekoloji cəhətdən təmiz, təkrar emal oluna bilən, qeyri-toksik və bioloji parçalanma anlayışlarına artan tələb təbii liflərin istilik, fiziki və fiziki-kimyəvi xüsusiyyətləri yaxşılaşdırmaq üçün yaşıl doldurucu maddələrin istifadəsinə yönəltməyə vadar etmişdir. Bu baxımdan nanosellulozanın doldurucu kimi polimer kompozisiyalarının sintezində mühim rolu vardır. Hal hazırda bizim tərəfimizdən nanosellülozanınfenoformalit qatranlarına doldurucu kimi tətbiqinə dair tədqiqatlar aparılır.

Ədəbiyyat

1. Qiao J. et al. Integrated biorefiner yapproaches for the in dustrialization of cellulosicethanolfuel //BioresourceTechnology. – 2022. – P. 127516.

2. Rizzo C. et al. Bio-basedchitosan and celluloseionicliquidgels: Polymericsof tmaterialsforthe desulfurization of fuel //GreenChemistry. – 2022. – T. 24. – №. 3. – C. 1318-1334.
3. Taokaew S., Kriangkrai W. Recent Progressin Processing Cellulose Using Ionic Liquids as Solvents // Polysaccharides. – 2022. – T. 3. – №. 4. – P. 671-691.
4. Azimi B. et al. Cellulose-basedfiberspinning processesusingionic liquids //Cellulose. – 2022. – T. 29. – №. 6. – P. 3079-3129.

ИЗУЧЕНИЕ РАСТВОРЕНИЯ И ХИМИЧЕСКОГО ПРЕВРАЩЕНИЯ ЦЕЛЛЮЛОЗЫ

Пашаева З.Н., Абдуллаева Ф.М.

Резюме

2. Əsədov Z.H., Poladov T.Ə., Rəhimov R.A. Dodesilpropilammonium bromid duzunun sintezi və nazik neft təbəqələrini su səthindən kənar edən yeni reagent kimi tədqiqi // IX БакинскаяМеждународнаяконференцияпонефтехимии, Баку, 2016. с.213

STUDY OF THE OIL-COLLECTING AND DISPERSION PROPERTIES OF OCTYL BROMIDE AMİDE COMPLEX BASED ON BICYCLO[2.2.1]-HEPT-5-ENE-2-CARBOXYLIC ACID AND TRİETHYLENETETRAAMINE.

Mammadbayli E.H., Babayeva V.H., Salamova N.V., Mehdizade U.S.

Summary

The presented article is devoted to the synthesis of a new surfactant and the study of its oil-collecting and dispersing properties. The article shows the synthesis of an amide based on bicycle[2.2.1]-hept-5-ene-2-carboxylic acid and triethylenetetraamine and the octyl bromide complex of the obtained amide. The density and refractive index of the resulting complex were determined. The oil-collecting and dispersion properties of the obtained complex were tested. This compound has been found to have a high surface activity. It has been experimentally established that the maximum value of the oil collection coefficient in drinking water at τ ~1.0-6.0 hours K=30.4 The dispersant exhibits dispersion properties in drinking water for τ ~99.0 hours K_D=96.7%, in sea water at τ ~99.0 K_D=95.6%.

ИЗУЧЕНИЕ НЕФТЕСОБИРАЮЩИХ И ДИСПЕРСИОННЫХ СВОЙСТВ ОКТИЛБРОМИДНОГО КОМПЛЕКСА АМИДА НА ОСНОВЕ БИЦИКЛО(2.2.1)-ГЕПТ-5-ЕН-2-КАРБОНОВОЙ КИСЛОТЫ И ТРИЭТИЛЕНТЕТРААМИНА

Мамедбейли Э.Г., Бабаева В.Г., Саламова Н.В., МехтизадеУ.С.

Резюме

Представленная статья посвящена синтезу нового поверхностно-активного вещества и изучению его нефтесобирающих и диспергирующих свойств. В статье показан синтез амида на основе бицикло(2.2.1)-гепт-5-ен-2-карбоновой кислоты и триэтилентетраамина и октилбромидного комплекса полученного амида. Определены плотность и показатель преломления полученного комплекса. Проведены испытания нефтесобирающих и дисперсионных свойств полученного комплекса. Установлено, что это соединение обладает высокой поверхностной активностью. Экспериментально установлено, что максимальное значение коэффициента нефтесобиранияв

питьевойводеприτ~1,0-6,0 ч. K=30.4.Диспергентпроявляетдисперсиооныесвойства в питьевойводе в течениеτ~99,0 ч. K_D=96,7%, а в морскойводеприτ~99,0 ч. K_D=95,6%.

BİTSİKLO[2.2.1]-HEPT-5-EN-2-KARBON TURŞUSU VƏ TRİETİLENTETRAAMİN ƏSASLI AMİDİN OKTİL BROMİD KOMPLEKSİNİN NEFTYIĞMA VƏ DİSPERSLƏMƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Məmmədbəyli E.H., Babayeva V.H., Salamova N.V., Mehdizadə Ü.S.

Xülasə

Təqdim olunan məqalə yeni səthi aktiv maddənin sintezinə və neftyığma və dispersləmə xassəsinin tədqiqinə həsr olunmuşdur. Məqalədəbitsiklo[2.2.1]-hept-5-en-2-karbon turşusu və trietilentetraamin əsasında amid və alınmış amidin oktilbromidkompleksininsinteziözəksinitapmışdır. Alınan kompleksin sıxlığı və şüasındırma əmsalı təyin edilmişdir. Kompleksin neftyığma və dispersləmə qabiliyyəti sınaqdan keçirilmişdir. Müəyyən olunmuşdur ki, bu birləşmə yüksək səthi aktivliyə malik birləşmədir. Təcrübə zamanı müəyyən edilmişdir ki, reagentin maksimal neftyığma əmsalı içməli suda τ~1.0-6.0 saatda K=30.4 səviyyəsindədir. Dispergent içməli suda sudaτ~99.0 saatda K_D=96.7%, dəniz suyunda isə τ~99.0 saatda K_D=95.6% dispersləyici təsir göstərir.

ETANOLAMİNLƏR VƏ HEPTİLBROMİD ƏSASINDA YENİ İON-MAYE TİPLİ SƏTHİ-AKTİV MADDƏLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Nəsibova Ş.M., Əbilova A.Z., Hüseynova S.M., İsayeva A.M.

akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
nesibova.sefiqe@mail

Açar sözlər: *ion-maye, səthi-aktiv maddə, səthi gərilmə, xüsusi elektrik keçiriciliyi, neftyığma.*

Ключевые слова:*ионная жидкость, поверхностно-активное вещество, поверхностное натяжение, удельная электропроводимость, нефтесобирание.*

Key words:*ionic liquid, surfactant, surface tension, electrical conductivity, oil-collecting.*

Ədəbiyyat araşdırmaları göstərir ki, keçən əsrin sonuncu onilliyindən başlayaraq kimyaçıların ion mayelərinə (İM) artmaqda olan marağı zəifləmir. İM-lərin xassələrinin müxtəlifliyi, o cümlədən üzvi, qeyri-üzvi, eləcə də polimer maddələrini böyük miqdarda özündə həll etməsi, qeyri-korroziyalılığı, aşağı özlülüyə malik olması və buxar təzyiqinin çox aşağı olması, onların müxtəlif neft-kimya sintezləri üçün effektiv katalizator və ekoloji təmiz ("yaşıl kimya") həlledici kimi istifadəsinə geniş imkan yaradır. Onların çoxfazalı katalitik reaksiyalarda istifadə edilməsi getdikcə daha çox maraq dairəsinə səbəb olmuşdur [1-4]. Onlar həmçinin biokatalizdə ifrat böhran halında olan mayelərlə birgə tətbiq oluna bilər [5]. Son illərdə kation-aktiv İM tipli səthi-aktiv maddələrin (SAM) yuyucu vasitələrin, antistatik agentlərin, parcayumşaldıcıların, bakterisidlərin, mineral flotasiya agentlərinin, kosmetik əlavələrin alınmasında, eləcə də neftlə çirklənmiş su səthlərinin təmizlənməsində müvəffəqiyyətlə istifadə olunması imkanları aşkarlanmışdır [6-11]. Yuxarıda qeyd olunanları nəzərə alaraq azot atomuna birləşmiş hidroksietil kation-aktiv SAM-ların sintezi və xassələrinin tədqiqi praktiki və elmi əhəmiyyət kəsb edir.

Təqdim olunan iş dietanolamin (DEA), trietanolamin (TEA), metilaminoetanol (MAE), metildietanolamin (MDEA) və heptil bromid əsasında İM tipli yeni SAM-ların sintezinə və xassələrinin tədqiqinə həsr olunmuşdur.

DEA, TEA, MAE, MDEA və heptilbromid əsasında 1:1 mol nisbətində kvaternizasiya

reaksiyası ilə yeni İM tipli SAM-lar sintez edilmişdir, yəni heptildietilolammonium bromid (HDEAB), heptiltrietilolammonium bromid (HTEAB), heptilmetiletilolammonium bromid (HMEAB) və heptilmetildietilolammonium bromid (HMDEAB). Reaksiyanı sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar:

$$R_x(C_2H_4OH)_yH_zN + C_7H_{15}Br \rightarrow [R_x(C_2H_4OH)_yH_zN^+(C_7H_{15})]Br^-$$

burada x - 0-1-ə, y - 1-3-ə, z isə 0-1-ə bərabərdir.

HDEAB açıq-sarı rəngli özlü maddədir. HTEAB narıncı rəngli kristal maye şəkilli özlü maddədir. HMEAB qızılı rəngli şəffaf özlü maddədir. HMDEAB bulanıq kəhrəba rəngli özlü maddədir. Alınmış bütün maddələr suda, etil spirtində, etilasetatda və asetonda həll olur.

Alınmış yeni məhsulların quruluşu İQ-spektroskopiya üsulu ilə identifikasiyaedilmişdir. Nümunələrin İQ-spektrində 3345 sm^{-1}-də O-H rabitəsinə aid valent rəqsləri, 2954, 2922, 2853 sm^{-1}-də CH_3 və CH_2 qruplarına aid C-H rabitəsinin valent rəqsləri, 2627sm^{-1}-də ammonium qrupuna aid udma zolağı, 1631sm^{-1}-də N-H rabitəsinin deformasiya rəqsləri və 1065 sm^{-1}-də isə C-O rabitəsinin valent rəqsləri müşahidə olunur.

Sintez edilmiş maddələrin səthi aktivlikləri 20°C-də, maddələrin müxtəlif qatılıqlı sulu məhlullarının hava ilə sərhəddə halqanın qopması üsulu ilə təyin edilmişdir. Nəticələr cədvəl 1-də verilmişdir.

Cədvəl 1.

HDEAB, HTEAB, HMEAB və HMDEAB-in sulu məhlullarının hava ilə sərhəddə səthi gərilmə əmsalının qiymətləri (20°C)

Reagent	Maddəninqatılığı, % (kütləilə)								
	0.01	0.025	0.05	0.075	0.1	0.25	0.5	0.75	1.0
	Fazalararası səthi gərilmə, mN/m								
HDEAB	65.78	53.18	48.0	40.4	46.0	41.0	43.6	43.6	44.6
HTEAB	67.4	62.5	53.0	44.7	38.7	37.2	37.5	37.0	32.6
HMEAB	67.4	64.8	62.0	55.6	44.7	44.5	44.3	44.3	44.1
HMDEAB	70.5	68.3	65.2	62.3	61.8	56.0	48.5	42.6	40.0

Yeni İM-lərin elektrolit xassəli olması, onun müxtəlif qatılıqlarda hazırlanmış sulu məhlullarının xüsusi elektikkeçiriciliyinikonduktometriya üsulu ilə təyin etməklə təsdiqlənmişdir. Alınmış nəticələr cədvəl 2-də verilmişdir.

Cədvəl 2.

HDEAB, HTEAB, HMEAB və HMDEAB-in xüsusi elektrik keçiriciliyinin qiymətləri (20°C)

Reagent	Maddəninqatılığı, % (kütləilə)								
	0.005	0.0125	0.025	0.0375	0.05	0.125	0.25	0.375	0.5
	Xüsusi elektrik keçiriciliyi, mkS/sm								
HDEAB	41.0	65.4	71.3	117.7	127.0	204.0	228.4	483.5	937.0
HTEAB	25.4	40.5	54.9	81.8	95.5	112.6	170.9	199.9	235.9
HMEAB	15.5	18.9	22.7	22.8	29.9	45.7	58.0	247.6	349.8
HMDEAB	25.0	43.4	54.8	58.8	67.1	119.5	138.9	255.9	345.9

Alınmış yeni reagentlərin laboratoriya şəraitində tətbiq sahələri də tədqiq edilmişdir. Onların nazik neft təbəqəsi ilə çirklənmiş su hövzələrin təmizlənməsində yararlığı tədqiq edilmişdir. Tədqiqatlar minerallaşma dərəcəsi müxtəlif olan üç su (dəniz, içməli və distillə) səthinin nazik (<0.17 mm) neft təbəqəsindən təmizlənməsi istiqamətində aparılmışdır. Müəyyən edilmişdir ki, sintez edilmiş reagentlər hər üç suda neftyığma xassəsi nümayiş etdirirlər. Lakin, bu reagentlər arasında ən güclü neftyığma xassəsini HTEAB nümayiş etdirir. Bu reagentin maksimal neftyığma əmsalı (K_{maks}) dəniz suyu üçün 56.0, içməli su üçün 30.2,

distillə suyu üçün isə 76.0-ya bərabərdir. Bu kəmiyyət HDEAB üçün daha aşağı qiymətlərə malikdir: dəniz suyu üçün 4.8, icməli su üçün 8.6, distillə suyu üçün isə 53.8-ə bərabərdir. Digər iki reagent isə daha zəif nəticə göstərir. Alınan nəticələrdən belə qənaətə gəlinir ki, suyun minerallaşma dərəcəsi artdıqca reagentlərin neftyığma xassəsi zəifləyir. Reagentlərin təsir müddəti 5 gündür.

Ədəbiyyat

1. Васкев А.В., Грейм А.А., Беспалова Н.Б. и др. Ионныежидкости как реакционные среды метатезисагексена на W–содержащих катализаторах с кремнийорганическими промоторами. Нефтехимия, 2005, Т. 45, №1 с.25-29
2. LiDau-dong, GaoPeng, Zhao De-Zhi. Chemicalreactions (oligomerization, polymerization, hydrogenation and others) of olefins, dienes, cycloalkenesinionicliquids. J. LiaoningUniversityPetrol and Chem. Technol. 2004, 24, №2, pp. 27-30
3. Oliver-Bourbigou H. Catalysis in Nonaqueous Ionic Liquids. Wiley-VCH Verlag Gmb H & Co. KGaA, Weinheim, 2005, 603p
4. Bodnar K., Szarka K., Nagy M., Meszaros R. Effect of the charge regulation behavior of polyelectrolytes on their nonequilibrium complexation with oppositely charged surfactants. J. Phys.Chem. B 120, 49, 2016, pp. 12720-12729
5. Para G., Hamerska-Dudra A., Wilk K.A., Warszynski P. Surfase activity of cationic surfactants; influence of molecular structure. ColloidsSurf. A Physicochem. Eng. Asp. 365 (2010) pp.215-221
6. Asadov Z.H., Rahimov R.A., NasibovaSh.M. et al. SurfaceActivity, Thermodynamics of Micellization and AdsorptionProperties of QuaternarySaltsBased on Ethanolamines and DecylBromide. J.Surfact. Deterg. 2010, 13 pp.459-464
7. Asadov Z.H., NasibovaSh.M., Poladova T.A. et al. Petroleumcollecting and petroleumdispersingreagentsbased on alkylamine and alkyliodides. MaterialsResearchInnovations. 2012 Vol. 16, №3. pp. 175-178
8. Dupont J., de Oliveira Silva D. Transition-Metal Nanoparticle Catalysis. Ed., Astruc D. 2008, WILEY-VCH VerlaqGmb H and Co. KGa A, Weinheim, pp.195-21
9. Asadov Z.H., NasibovaSh.M., Rahimov R.A. et al. Surface activity and micellization parameters of cationic surfactants containing hydroxyethyl group and C_9-chain. Journal of Molecular Liquids, 2017,225 pp. 451–455
10. Asadov Z.H., Akhmedova G.A., Aga-Zadeh A.D. et al. IonicLiquidSurfactants. RussianJournal of General Chemistry, 2012, Vol. 82, No. 12, pp. 1916–1927.
11. Насиров Ф.А., Новрузова Ф.М., Асланбейли А.М. Азизов А.Г. Ионныежидкости в каталитическихпроцессахпревращенияолефинов и диенов. Нефтехимия. 2007, Т. 47, №5, pp. 1-10.

ETANOLAMİNLƏR VƏ HEPTİLBROMİD ƏSASINDA YENİ İON-MAYE TİPLİ SƏTHİ-AKTİV MADDƏLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Nəsibova Ş.M., Əbilova A.Z., Hüseynova S.M., İsayeva A.M.

Xülasə

Heptilbromidinetanolaminlərlə (di-, tri-, metilaminoetanol və metildietanolamin) 1:1 mol nisbətində qarşılıqlı təsiri nəticəsində ion-maye tipli səthi-aktiv maddələr sintez edilmişdir. Alınmış maddələrin tərkibi və quruluşu IQ-spektroskopiyası ilə müəyyən edilmiş və bu məhsullar ən mühüm fiziki-kimyəvi parametrlərlə xarakterizə olunmuşdur. Tensiometrik ölçmələrlə su-hava sərhədində sintez edilmiş məhsulların yüksək səthi aktivliyi aşkar edilmişdir. Konduktometrik üsulla onların yüksək xüsusi elektrik keçiriciliyi müəyyən edilmişdir. Laboratoriya sınaqları göstərmişdir ki, bu reagentlər yüksək neftyığıcı qabiliyyətə malikdirlər.

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ НОВЫХ ПОВЕРХНОСТНО-АКТИВНЫХ ВЕЩЕСТВ ИОННО-ЖИДКОСТНОГО ТИПА НА ОСНОВЕ ЭТАНОЛАМИНОВ И ГЕПТИЛБРОМИДА

Насибова Ш.М., Абилова А.З., Гусейнова С.М., Исаева А.М.

Резюме

Взаимодействием гептилбромида с этаноламинами (ди-, три-, метиламиноэтанол и метилдиэтаноламин) при мольном соотношении 1:1 синтезированы поверхностно-активные вещества ионно-жидкостного типа. Состав и структура полученных веществ идентифицированы методами ИК-спектроскопии. Полученные продукты охарактеризованы наиболее важными физико-химическими показателями. Тензиометрическими измерениями выявлена высокая поверхностная активность синтезированных продуктов на границе вода-воздух. Кондуктометрическим методом обнаружена их высокая удельная электрическая проводимость. Лабораторными испытаниями показано, что эти реагенты обладают высокой нефтесобирающей способностью.

SYNTHESIS AND STUDY OF NEW SURFACES OF AN IONIC LIQUID BASED ON ETHANOLAMINE AND HEPTYL BROMIDE

NasibovaSh.M., Abilova A.Z., Huseynova S.M., Isayeva A.M

Summary

By the interaction of heptyl bromid with ethanolamines (di-, tri- metylaminoethanol and metyldiethanolamine,) at a molar ratio of 1:1, surfactants of the ion-liquid type were synthesized. The composition and structure of the obtained ionic liquids were identified by IR- spectroscopy. The resulting products are characterized by the most important physical and chemical indices. Tensiometric measurements revealed a high surface activity of the synthesized products at the water-air interface. The conductometric method revealed their high electrical conductivity. Laboratory tests have shown that these reagents have a high petroleum collecting ability.

FENOLUN MODİFİKASİYA OLUNMUŞ SEOLİT TƏRKİBLİ KATALİZATOR İŞTİRAKINDA PROPİLENİN TRİMERİ İLƏ ALKİLLƏŞMƏ REAKSİYALARI

Rüstəmov S.T., Rəsulov Ç.Q., Rizayeva L.F.

akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
sakhavat.rustamov@gmail.com

Açar sözlər: *fenol, katalizator, propilenin trimeri, p-nonilfenol, alkilləşmə.*
Ключевые слова: *фенол, катализатор, тример пропилена, п-нонилфенол, алкилирование.*
Key words: *phenol, catalyst, trimer of propylene, p-nonylphenol, alkylation.*

Fenolun alkilləşmə reaksiyaları 130 ildən artıq bir dövrü əhatə etməsinə baxmayaraq, bu sahə bu gün də aktuallığını itirməmişdir. Bu onların daha geniş istifadə sahələrinin olması, istifadə olunan xammaların asan tapılması, aparılan proseslərin texnoloji və iqtisadi baxımdan səmərəli olması və s. amillər ilə izah olunur [1,2].

Alkilfenolların alınması proseslərində son vaxtlar əsas problemlərdən biri alkilləşdirici agent qıtlığı və katalizatorların seçimi məsələsidir. Alkilləçdirici agent kimi əsasən polimerdistillatdan istifadə olunur. Polimerdistillatın son vaxtlar yeni istifadə sahəsi tapıldığından (o, destruksiyaya uğradılaraq avtomobil benzinlərinə əlavə olunur) bu sahədə alkilləşdirici agent çatışmamazlığı müşahidə olunmaqdadır. Son vaxtlar fenolun alkilləşmə reaksiyalarında alkilləşdirici agent kimi etilenin və propilenin oliqomerlərindən istifadəyə tez-tez rast gəlinir [3,4].

Təqdim olunan iş fenolun modifikasiya olunmuş Seokar-2M katalizatoru iştirakında propilenin trimeri ilə fasiləsiz işləyən mini qurğuda alkilləşmə reaksiyalarının tədqiqinə həsr olunmuşdur.

Fenolun propilenin trimeri ilə alkilləşmə reaksiyasının aparılması üçün fenol və propilenin trimeri ayrı-ayrı tutumlardan hesablanmış miqdarda qarışdırıcıya verilmiş, oradan isə reaktorun aşağı hissəsinə yönəldilmişdir. Komponentlər qarışığı reaktora doldurulmuş katalizatorun üzərindən keçərək reaktorun yuxarısından çıxaraq soyudulur və rektifikasiyaya göndərilir.

Məqsədli məhsulun – para-nonilfenolun alınması prosesi üçün optimal şərait tapmaq üçün reaksiyanın temperaturunun, ilkin komponentlərin mol nisbətlərinin və həcmi sürətin əsas məhsulun çıxımına və seçiciliyinə təsiri araşdırılmışdır. Reaksiyanın temperaturu 80-140^{0}C, fenolun propilenin trimerinə mol nisbəti 1:1/3, həcmi sürət 0.2-1.0 saat^{-1} hədlərində tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, reaksiya temperaturunun 125^{0}C, fenolun propilenin trimerinə 1:3 mol/mol nisbətində, həcmi sürətin 0.5 saat^{-1} qiymətlərində *p*-nonilfenolun çıxımı 64.7% (götürülən fenola görə), seçiciliyi isə məqsədli məhsula görə 86.4% təşkil edir.

p-Nonilfenol aşağıdakı fiziki-kimyəvi xassələrə malikdir: qaynama temperaturu – 140 – 220^{0}C/10 mm c.st; n_D^{20}- 1.5055; ρ_4^{40}– 0.9455; kinematik özlülük 100^{0}C-də - 5.1 sst.; açıq tiqldə alovlanma temperaturu – 120^{0}C; fenolun miqdarı – 0.5%.

Alınmış *p*-nonilfenol yağlara səmərəli aşqar sayılan o,o-di-nonilfenilditiofosfat turşusunun sink duzunun və barium nonilfenolyatın alınmasında xammaldır.

Ədəbiyyat

1. RasulovCh.K., Azizov A.H., Mirzoev V.H. – Selektivecatalyticalkylation and cycloalkylation of phenolwith alkyl – and alkenylcyclonexenes//Process of petrochemistry and oil refining, 2017, vol. 18, No:4, p. 341-350.
2. Рустамов С.Т., Азизов А.Г., Расулов Ч.К. и др. Реакция фенолов с метилциклоолефинами в присутствии катализатора КУ-23//Журнал прикладной химии, 2011, т.84, No:12, с.78-83.
3. Котов С.В., Наумкин П.В., Нестерова Т.К. Кинетика алкилирования фенола гексадеценом-1 на сульфакатионитеTulsion T-66 MP Dry//Нефтехимия, 2016, т.56,No:1, с.31-61.
4. Расулов Ч.К., Агамалиев З.З., Гасанова Г.Д., Нагиева М.В. Синтез алкилфенолов и применение их в реакциях аминометилирования. Баку: Муаллим, 2021, 197 с.

ALKYLATION REACTIONS OF PHENOL WITH TRIMER OF PROPYLENE IN THE PRESENCE OF A MODIFIED ZEOLITE-CONTAINING CATALYST

Rustamov S.T, RasulovCh.K, Rizaeva L.F.

Summary

The results of alkylation reactions of phenol with trimer of propylene in a continuously operating unit in the presence of Seokar 2M catalyst containing modified zeolite composition. The effect of temperature, the mole ratio of phenol to propylene trimer, and the

volume rate of primary components on the yield of *p*-nonylphenol in the device and the selectivity of the process were studied. The yield of *p*-nonylphenol under the found optimal conditions is 61.7%, and the selectivity is 86.4% relative to the target product.

РЕАКЦИЯ АЛКИЛИРОВАНИЯ ФЕНОЛА ТРИМЕРОМ ПРОПИЛЕНА В ПРИСУТСТВИИ МОДИФИЦИРОВАННОГО ЦЕОЛИТСОДЕРЖАЩЕГО КАТАЛИЗАТОРА

С.М. Рустамов С.Т., Расулов Ч.К., Ризаева Л.Ф.

Резюме

В работе приводится результаты реакции алкилирования фенола тримером пропилена в присутствии модифицированного цеолитсодержащего катализатора Цеокар-2М на непрерывнодействующей установке. На установке изучено влияние на выход и селективности процесса получения *n*-нонилфенола температуры, мольного отношения фенола к тримеру пропилена и объемной скорости подачи исходных компонентов. При найденных оптимальных условиях выход *n*-нонилфенола составляет 61.7% на взятый фенол, а селективность – 86.4% по целевому продукту.

KARBONATLIDAŞ TOZLARININ AKTİVLƏŞDİRİLMƏSİ ÜÇÜN AKTİVLƏŞDİRİCİLƏRİNİN AKTİVLƏŞDİRİCİ EFFEKTİNİN KOMPONENT TƏRKİBİNDƏN VƏ TEMPERATURDAN ASILILIĞININ TƏDQİQİ

Abbasov V.M.[1], Məmmədov S.Ə[2].

[1]Azərbaycan Respublikası Elm vəTəhsilNazirliyi
Y.H.MəmmədəliyevadınaNeft- KimyaProseslərİnstitutu
[2]GəncəDövlətUniversiteti

Açarsözlər:*karbonatlıdaştozlar, aktivləşdirici, termikianaliz, yolörtüyü, rentgen-fazaanalizi.*

Key words: *carbonate stone powders, activator, thermal analysis, road surface, X-ray phase analysis.*

Ключевые слова: *порошки карбонатного камня, активатор, термический анализ, дорожное покрытие, рентгенофазовый анализ.*

Müasiryoltikintisində qabaqcıl texnaligiyaların istifadəsi sistemli xarakteralır. Eyni zamanda əsas nəqliyyatdəhliziolan yollarda ağır tonnajlı yük maşınlarının hərəkət intensivliyinin artması, yolların asphalt beton örtüklərinin davamlılığına qoyulan tələbləri sərtləşdirir. Bu baxımdan yol tikintisində aktivləşdirilməmiş karbonatlı daş tozlarının istifadəsi yol verilməzdir. Təəsüf ki, karbonatlı daş tozlarının aktivləşdirilməsi üsullarının işlənməsi sahəsində Azərbaycan alimlərinin kəşfləri ilk işlərdən olsa da, bu üsul hələ də Azərbaycan yol tikintisində məhdud miqdarda istifadə olunur. Bunu nəzərə alaraq müxtəlif daş yataqlarının karbonatlı daş tozlarını aktivləşdirmək üçün aktivləşdiricə tərkiblər və kompazisiyalar hazırlamış və onların aktivləşdirici təsirini tədqiq etmişik. Aktivləşdirmə aktivləşdiricilərinin 2÷5% əlavə olunması ilə, müxtəlif temperatur intervallarında (20, 50 və 100°C) aparılmış optimal qatılıq və temperatur müəyyənləşdirilmişdir.

Aktivləşdirici (1:1 kütlə nisbətində hazırlanmış bitum – soabstok qarışığı 5%+ 95% Güzdək daş tozu) qatılmış Güzdək daş tozunun termiki davamlılığı- TQ/DTA STA-449**(**"Jupiter***F₃***", Almaniya) sinxron termoanalizatorunda, temperaturun 10°K/dəq sürətlə yüksəlməsi ilə, azot axınında, 22.5-750°C temperatur intervalında, dinamik rejimdə tədqiq

olunmuşdur. İnert qaz (N_2) axınının sürəti 20 мл/dəq, tədqiqat üçün götürülən maddənin miqdarı 10 mq–dır. Şəkil 1.



Şəkil 1. Aktivləşdirici(95qr -Güzdək daş tozu + 5% bitum-soabstok qarışığı) qatılmış Güzdək daş tozunun termoqramması

Şəkil 1-ə əsasən ilk görünüşdən nümunənin 361.7°C-dək əsasən stabil olması, heç bir destruksiyaya məruz qalmaması müşahidə olunur. Nümunənin (95qr -Güzdək daş tozu + 5% bitum-soabstok qarışığı) tərkibindən asılı olaraq 22,5°C-305°C temperatur intervalında, temperatur yüksəldikcə yumşalması, maye hala keçməsi, əriməsi kimi fiziki proseslər baş verir. Bu zaman onun tərkibində olan, səthlə zəif əlaqələnən, yüngül molekulların bir səthdən başqa səthə keçməsi və ya layları arasındakı boşluqlara nüfuz etməsi kimi proseslər baş verir. Bunun sayəsində boşluqların ölçüləri böyüyür və həcmin nisbətən artması müşahidə olunur [1].

22.5-592.4°C temperatur intervalında **1-ci** kütlə itgisi -0.14% müşahidə olunur. Bu itgi çox böyük ehtimalla soabstoka aiddir. Nümunənin termoqrammasına əsasən, **2-ci** kütlə itgisi 5.52% təxminən 660.6°C-dən başlayır və 758.3°C-dək 5.51% təşkiln edir və çox ehtimalla bu proses bitiuma aiddir. Çünki əsas daşıyıcı kimi götürülmüş kalsitin (CaCO3) destruksiyasıinert mühitdə 900°C-dən başlayır.

Aktivləşdirici (95qr Güzdək daş tozu + 5% bitum-soabstok qarışığı) eyninümunəXRD TD 3500, Çin monoxromatik Cukα şüalanması cihazının (λ = 1.5418 Å), Ni filtrinin istifadə olunması ilə rentgen-faza analizi üsulu ilə tədqiq edilmişdir. Nümunələr otaq temperaturunda 5-dən 85dərəcəyə qədər 2θ(teta-teta) bucaq sahəsində 0.1° skanlama addımı ilə və hər nöqtədə 7 saniyə yığılma müddəti ilə, 35kV gərginlikdə və 30 mA parıltı cərəyanında skanedilmişdir. Şəkil 2.

Qeyd edək ki, maddənin vəziyyəti barədə ilkin informasiyanı rentgen spektrlərinin xarici görünüşündən də almaq olar. Nümunə yaxşı kristallaşdırılmış və parametrlrəinə görə bircins materialdır, qəfəsi dar və yüksək difraksiyalı piklər verir. Mümkün üst-üstə düşmələrin sayı reflekslərin sayına mütənasibdir və təkrarlanma amili ilə müəyyən edilir. O, kiçik özəkli yüksək simmetrik kristallarda minimaldır. Təqdim olunmuş daş tozu nümunəsində bu piklər aydın seçilir. Şəkil2.



Şəkil 2. bitum – soabstok qarışığı 5%+ 95% Güzdək daş tozu götürülməklə alınmış aktivləşmiş daş tozunun rentgenoqramı

Bu nümunənin rentgenoqramının təhlilinə əsasən demək olar ki, Güzdək daş tozuna 5% aktivləşdirici qarışığı əlavə olunsa da, nümunə tam şəkildə kalsitə uyğundur və yüksək difraksiyalı piklər verir. Yəni nümunə 1 fazalı, rombohedral quruluşlu olub, difraktometrik ölçüləri: 4.9896 x 4.9896 x 17.061 <90.0 x 90.0 x 120.0> intervalındadır. Tərkibi:Ca O -55.7%, Mg O -0.2%, Fe O- 0.1% -dən ibarətdir.

Nəticə

Cəmi 5% aktivləşdirici qatılmış nümunələrin termiki və rentgen-faza analizinə əsasən demək olar ki, hazırlanmış nümunə 361.7^{o}C-yə qədər termiki davamlıdır və kütlə itgisi cəmi 0.14%-dir. Nümunədə baş verən kütlə itgiləri nümunədən üzvi maddələrin ayırılmasını göstərir və bu zaman struktur dəyişkənliyi baş verməmişdir, yəni nümunənin kalsit-ə uyğun strukturu dəyişməmişdir.

Ədəbiyyat

1. Dmitry S. Korneev, Galina S. Pevneva..(Thermal Transformations of Asphaltenes at a Temperature of 120°C. Термические превращения асфальтенов тяжелых нефтей при температуре 120°C.)

KARBONATLI DAŞ TOZLARININ AKTİVLƏŞDİRİLMƏSİ ÜÇÜN AKTİVLƏŞDİRİCİLƏRİNİN AKTİVLƏŞDİRİCİ EFFEKTİNİN KOMPONENT TƏRKİBİNDƏN VƏ TEMPERATURDAN ASILILIĞININ TƏDQİQİ

Abbasov V.M., Məmmədov S.Ə.

Xülasə

Müəyyən edilmişdir ki, aktivləşdirilmiş karbonatlı daş tozları istifadə etməklə hazırlanan yol örtüyü bütün standartlara cavab verir.

ИССЛЕДОВАНИЕ ЗАВИСИМОСТИ АКТИВИРУЮЩЕГО ДЕЙСТВИЯ АКТИВАТОРОВ ДЛЯ АКТИВАЦИИ ПОРОШКОВ КАРБОНАТНОГО КАМНЯ ОТ КОМПОНЕНТНОГО СОСТАВА И ТЕМПЕРАТУРЫ

Аббасов В.М., Мамедов С.А.

Резюме

Установлено, что дорожное покрытие, подготовленное с использованием активированной угольной каменной пыли, соответствует всем нормам.

STUDY OF THE DEPENDENCE OF THE ACTIVATING EFFECT OF ACTIVATORS FOR THE ACTIVATION OF CARBONATE STONE POWDER ON COMPONENT COMPOSITION AND TEMPERATURE

Abbasov V.M., Mammadov S.A.

Summary

It is established that the road surface prepared using activated coal stone dust meets all standards.

METAL SAXLAYAN İON MAYE TİPLİ KATALİTİK SİSTEMLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Seyidova X.H., Əliyeva R.V.

AMEA akademik Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu
seidovakh@gmail.com

Açar sözlər: *ion mayesi katalitik sistem, (oliqo)alkilləşmə.*
Key words: *ionicliquidcatalystsystem, (oligo)alkylation.*
Ключевые слова: *ионно-жидкостной каталитические системы, (олиго) алкилирование.*

Məlumdur ki, müxtəlif metal və funksional qruplar saxlayan metalkoplekslər əsaslı, yüksək aktivlikli, məqsədli katalitik sistem komponentlərin sintezi və onlar əsasında texnologiyaların işlənib hazırlanması dövrümüzdə də aktualdır. Bu baxımdan biz də tədqiqatlarımızda qeyd olunan istiqamətə yönəldib, tərkibində metal saxlayan yeni ion maye katalitik sistemlərin yaradılması və onların oliqomerləşmə və alkilləşmə proseslərində yoxlanılmasını həyata keçirmişik.

Nikel dietilditiokarbamat (Ni-DTK) - N,N-natrium dietilditiokarbamat və nikel dixlorid arasında mübadilə reaksiyaları ilə sintez edilmiş, toluol məhlulundan yenidən kristallaşdırılmışdır. Parçalanma temperaturu - 250°C-dən yuxarıdır. Kobalt dietilditiokarbamat (Co-DTK) - N,N-natrium dietilditiokarbamat və kobalt dixlorid arasında mübadilə reaksiyaları ilə sintez edilmiş, toluol məhlulundan yenidən kristallaşdırılmışdır. Parçalanma temperaturu - 250°C-dən yuxarıdır.



α-olefinlərinxloralüminat tipli ion mayeləri və onların metal (Ti, Ni, Co) ilə calanmış ion-maye tip qarışıq liqandlımodifikatlarıoliqomerləşmə məhsullarının molekul kütlə göstəricilərini tənzimləməyə imkan verir. Belə ki, tədqiq olunan ion maye katalitik sistemlərin tərkibinə Ti əsaslı calanmış ion-maye tip qarışıq liqandlı modifikatorun daxil edilməsi oliqomerləşmə prosesində oliqomerlərin molekul kütlə əyrilərin bimodal xarakterliolması və oliqomer makromolekullarının formalaşmasında ən azı iki katalitik mərkəzin iştirak etdiyini göstərir.

Ədəbiyyat

1. Azizov A. H., Aliyeva R. V., SeidovaKh.H., Karayeva E.M., Nazarov I. G., Abdullayeva A.M. / Oligomerization and alkylation decene-1 inthepresencechloroaluminateionicliquids. AmericanJournal of Chemistry and Application, 2015; 2(3), p. 21-26.
2. Azizov A.H., Aliyeva R.V., SeidovaKh.H., Jafarov R.P., Nazarov I.G., Mextiyeva B.R. Kinetic regularities of oligomerization of decene-1 in the presence of the ionic liquid of chloraluminate type // American Journal of Chemistry and Materials Science, 2014, 1(3) p.

SYNTHESIS AND STUDY OF METAL CONTAINING IONİC LIQUID CATALYTIC SYSTEMS

Seidova Kh.H., Aliyeva R.V.

Summary

In this thesis have been presented the oligomerization process of α-olefins in the presence of liquid catalytic systems containing Ni-, Co- and Ti- complex. It has been shown that the relevant modifiers influence directly the increasing of the selectivity of process on the production of targeted fractions.

METAL SAXLAYAN İON MAYE TİPLİ KATALİTİK SİSTEMLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Сеидова Х.Г., Алиева Р.В.

Резюме

В тезисе представлены сведения о процессе олигомеризации α-олефинов в присутствии ионно-жидкостных каталитических систем, содержащих Ni-, Co- и Ti-металлы. Показано, что эти модификаторы оказывают прямое влияние на повышение селективности процесса для получения целевых фракций.

METAL SAXLAYAN İON MAYE TİPLİ KATALİTİK SİSTEMLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

Seyidova X.H., Əliyeva R.V.

Xülasə

Təqdim olunan tezisdə tərkibində Ni-, Co- və Ti-saxlayan ion maye tipli katalitik sistemlərin iştirakında α-olefinlərinoliqomerləşmə prosesinin aparılması haqqında məlumatlar verilmişdir. Göstərilmişdir ki, müvafiq modifikatorlar prosesin məqsədyönümlü fraksiyaların alınması üzrə selektivliyinin artırılmasına birbaşa təsir edir.

N,N'-BİS(2-HİDROKSİPROPİL)HEKSAMETİLENDİAMİN VƏ DOYMUŞ YAĞ TURŞULARI ƏSASINDA YENİ KOKOGEM DİSSİMMETRİK SƏTHİ-AKTİV MADDƏNİN SİNTEZİ VƏ XASSƏLƏRİ

[1]Məmmədova X.A., [2,1]Rəvan R.A., [1]Gülnarə Ə.A., [1]Mürsəlov N.İ.

[1] Akademik Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]Bakı Mühəndislik Universiteti, Kimya mühəndisiyi kafedrası
xuraman_akifli@hotmail.com

Açar sözlər: *kokogemdissimmetrik səthi-aktiv maddə, korroziya, korroziya inhibitoru.*
Ключевые слова: *кокогемдиссимметричное поверхностно-активное вещество, коррозия, ингибитор коррозии.*
Key words: *dissymmetric cocogem surfactant, cocogem surfactants, corrosion, corrosion inhibitor.*

Məlum olduğu kimi, bir çox neft yataqlarının neftlərinin tərkibində digər qazlarla yanaşı CO_2 qazı da olur. Neftin çıxarılması, nəqli, saxlanılması və emalı proseslərində CO_2 korroziyasından mühafizə neft sənayesinin ən aktual problemlərindən biridir [1-3].

Yuxarıda qeyd edilən problemi nəzərə alaraq inhibitor xassəli reagent almaq məqsədi ilə 0.1 mol N,N'-bis(2-hidroksipropil)heksametilendiamin, 100 ml aseton kolbaya daxil edilmiş və üzərinə (1:1 mol nisbətində) oktan turşusu damcı-damcı əlavə edilməklə 50-55 °C-də qarışdırılmışdır. Reaksiya 5-6 saat müddətində aparıldıqdan sonra reaksiya qarışığının üzərinə 0.1 mol (1:1 mol nisbətində) dekan turşusu əlavə etməklə reaksiya 4-5 saat müddətində davam etdirilmişdir. Alınmış qarışıqdan reaksiya məhsulunu ayırmaq üçün qarışıq vakuum rotasionbuxarlandırıcı ilə asetondan təmizlənmişdir.

Alınmış oktan və dekan turşularının N,N'-bis (2-hidroksipropil) heksametil endiammonium duzu - qəhvəyi rəngli, özlülü mayedir, suda yaxşı həll olur. Sintez olunmuş kokogem tipli dissimmetrik səthi-aktiv maddənin quruluşunu sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar:



Bu maddə İQ-spektroskopiya üsulu ilə identifikasiyaolunmuşdur. Sintez edilmiş birləşmənin bir sıra fiziki-kimyəvi göstəriciləri, o cümlədən elektrik keçiriciliyi (konduktometrik metodla), səthi-aktivliyi (tenziometrik üsulla) və s. öyrənilmişdir. Müəyyən olunmuşdur ki, bu məhsulun suda qatılığı artdıqca hava ilə sərhəddə səthi gərilmə 72.0 mN/m-dən (səthi-aktiv maddəsiz) 25.0 mN/m-ə qədər azalır. Həmin duzun məhlulda qatılığı artdıqca xüsusi elektrik keçiriciliyi də artır və onun qiyməti distillə suyu ilə müqayisədə (3-5 mkS/sm) xeyli yüksəkdir.

Alınmış səthi-aktiv maddənin korroziyadan mühafizə xassələri tədqiq edilmişdir. Sintez olunmuş birləşmənin CO_2 korroziyasından mühafizə xassəsinin tədqiqi elektrokimyəvi üsulla "ACM GillİnstrumentS" potensiometrində 0.9 bar təzyiqdə CO_2 ilə doydurulmuş 1%-liNaCl məhlulunda 50 °C temperaturunda 15 saat müddətində C 1018 markalı polad elektrodlarla aparılmışdır. İnhibitorsuz mühitdə və eləcə də inhibitorluq xassəsi tədqiq olunan birləşmənin əlavə olunduğu mühitdə poladın korroziya sürətinin zamandan asılılığı öyrənilmişdir.



İnhibitorsuz mühitdə korroziya sürəti 4.04 mm/il olmuşdur. Birləşmənin 50, 75 mq/l, 100, 125 və 150 mq/l qatılıqlarında C1018 markalı poladın korroziya sürəti müfaviq olaraq 2.27; 0.015, 0.019, 0.013 və 0.014 mm/il olur. 50 mq/l qatılıqda birləşmə 43.2% mühafizə etdiyi halda, 75-150 mq/l qatılıqlarda 99.6 - 99.7% korroziyadan mühafizə edir. Qrafikdən göründüyü kimi birləşmənin qatılığının 50 mq/l-dən 75 mq/l-ə qədər artırılması mühafizə effektini kəskin surətdə artırır.

Polad səthin vəziyyətinin skan elektron mikroskopu vasitəsilə fotoşəkilləri çəkilmiş və müəyyən olunmuşdur ki, mühitə inhibitor xassəli birləşmənin əlavə edilməsi nəticəsində səthdə yaralar, pittinqlər və lokal korroziyanın izləri müşahidə olunmur.

Ədəbiyyat

1. V.M.Abbasov, Hany M. Abd El-Lateef, L.I.Aliyevaetc.Evaluation of New Complex Surfactants Based on Vegetable Oils as Corrosion Inhibitors for Mild Steel in CO_2-Saturated 1.0% NaCl Solutions.Journal of Materials Physics and Chem., 2013, Vol. 1, No. 2, pp.19-26
2. F. Farelas, A.Ramirez. CarbonDioxideCorrosionInhibition of CarbonSteelsThrough Bis-imidazoline and ImidazolineCom.Studiedby EIS.Int. J. Elec.. Sci., 2010, No.5, pp.797 – 814
3. S.S.Hussein, I.D.D.Al-Hasani, A.M.Abedetc. AntibacterialCorrosion Inhibitor fortheProtection of MildSteelin 1 M HClSolution.ProgressinColorColorantsCoating, 2023, No16, pp.59-70

N,N'-BİS(2-HİDROKSİPROPİL)HEKSAMETİLENDİAMİN VƏ DOYMUŞ YAĞ TURŞULARI ƏSASINDA YENİ KOKOGEM DİSSİMMETRİK SƏTHİ-AKTİV MADDƏNİN SİNTEZİ VƏ XASSƏLƏRİ

Məmmədova X.A., Rəhimov R.A., Əhmədova G.A., Mürsəlov N.İ.

Xülasə

Propilen oksidi, heksametilendiamin və doymuş yağ turşuları əsasında kokogemdissimmetrik səthi-aktiv maddə sintez olunmuşdur. Alınmış maddənin mühüm fiziki-kimyəvi göstəriciləri, eləcə də səthi aktivliyi təyin edilmişdir. Alınmış dissimmetrik səthi-aktiv maddənin CO_2 ilə doydurulmuş duzlu məhlulda C1018 markalı poladın korroziyasına qarşı mühafizəqabiliyyəti aşkar edilmişdir.

СИНТЕЗ И СВОЙСТВА НОВОГО КОКОГЕМ ДИССИММЕТРИЧНОГО ПОВЕРХНОСТНО-АКТИВНОГО ВЕЩЕСТВА НА ОСНОВЕ *N,N'*-БИС(2-ГИДРОКСИПРОПИЛ)ГЕКСАМЕТИЛЕНДИАМИНА И НАСЫЩЕННЫХ ЖИРНЫХ КИСЛОТ

Мамедова Х.А., Рагимов Р.А., Ахмедова Г.А., Мурсалов Н.И.

Резюме

Синтезировано диссимметричное поверхностно-активное вещество типа кокогем на основе пропиленоксида, гексаметилендиамина и жирных насыщенных кислот. Определены наиболее важные физико-химические показатели полученного продукта, а также поверхностная активность. Выявлено антикоррозионное влияние синтезированного диссимметричного поверхностно-активного вещества на мягкую сталь марки C1018 в солевом растворе, насыщенном CO_2.

SYNTHESIS AND PROPERTIES OF A NEW COCOHEM DISSYMMETRIC SURFACTANT BASED ON *N,N'*-BIS (2-HYDROXYPROPYL) HEXAMETHYLENEDI AMINE AND SATURATED FATTY ACIDS

MammadovaKh.A., Rahimov R.A., Ahmadova G.A., Mursalov N.I.

Summary

A dissymmetric surfactant of the cocohem type based on propylene oxide, hexamethylenediamine and saturated fatty acids has been synthesized. The most important physicochemical parameters of the obtained product, as well as surface activity, were determined. The anticorrosive effect of the synthesized dissymmetric surfactant on mild steel grade C1018 in a saline solution saturated with CO_2 was revealed.

NANO-ZnO KATALİZATORUNUN İŞTİRAKI İLƏ ETİLENQLİKOLUN-BİS-DİHİPPURAT EFİRİNİN SİNTEZİ VƏ TƏDQİQİ

Kərimov P.M., Ələsgərova O.M., Quliyeva E.M., Cəfərova A.A.

Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
ay_ten_babayeva@yahoo.com

Açar sözlər: *hippur turşusu, etilenqlikol, nano-ZnO, efir, dizel yanacağı, aşqar, antioksidant, antidepressant, setan ədədi*

Key words:*hippuric acid, ethylene glycol, nano-ZnO, ester, diesel fuel, additive, antioxidant, antidepressant, cetane number.*

Ключевые слова: *гиппуровая кислота, этиленгликоль, нано-ZnO, эфир, дизельное топливо, присадка, антиоксидант, антидепрессант, цетановое число.*

Son illər ətraf mühitin mühafizəsi ilə əlaqədar olaraq bütün motor yanacaqlarının keyfiyyət göstəricilərinə sərt tələblər qoyulmuşdur. Əsasən avtomobil parklarında dizel mühərrikli nəqliyyatın sayının durmadan artması bu yanacağa olan tələbatı artırmışdır. Dizel yanacağına olan tələbatı yalnız neftin ilkin emalından alınan dizel yanacaq distillatı ilə təmin etmək mümkün olmadığı üçün distillata 30 % miqdarında neftin ikinci emal məhsulları olan katalitik kirekinq və kokslaşma proseslərindən alınan yüngül qazoyl fraksiyaları əlavə edilir. Bu zaman alınan yanacaq kompozisiyalarının tərkibində ümumi kükürdün, aromatik və politsiklik aromatik karbohidrogenlərinin miqdarı artır, dizel yanacağının setan ədədi azalır ki, bu da yanacağın yanmasının mühərrikdə gecikməsi ilə əlaqədar ətraf mühitə yayılan zəhərli tüstü qazlarının midqarının artmasına səbəb olur.

Məlum olduğu kimi dizel yanacağına tələbat artdıqca onun göstəricilərinə olan tələblər də sərtləşir. Avropa və dünya standartlarına əsasən Avro-5-in tələbinə görə ekoloji zərərsiz dizel yanacaqlarının tərkibində ümumi kükürdün miqdarı 10 ppm-dən, aromatik karbohidrogenlərin miqdarı isə 10 %.(küt).-dən çox olmamalı, setan ədədi 51 ədəd, kinematik özlülük 40 °C-də 3-6 mm^2/san, alışma temperaturu 62 °C, termooksidləşmə stabilliyini xarakterizə edən çöküntünün miqdarı maks. 25 q/m^3 olmalıdır [1].

Bu tələblərə cavab verən dizel yanacaqlarını almaqdan ötrü tərkibində ikinci emal məhsulları olan yanacaq kompozisiyaları üçün hidrotəmizləmə və dərin hidrogenləşmə proseslərini aparmaq lazımdır. Hidrotəmizləmə prosesi zamanı dizel yanacaqlarının tərkibindəki təbii səthi aktiv maddələr tamamilə kənarlaşdırıldığı üçün alınan dizel yanacaqlarının istimarxassələrindəntermooksidləşmə stabilliyi pisləşir. Bu göstəricini yaxşılaşdırmaq üçün hidrotəmizlənmiş dizel yanacağına antioksidant aşqarlar əlavə edilməsi tələb olunur [2].

Ədəbiyyat materiallarının və praktiki təcrübələrin köməkliyi ilə müəyyən edilmişdir ki, alkilfenollar və onların başqa heteroaromatik törəmələri, dizel yanacağında termooksidləşmə stabilliyini yaxşılaşdıranantioksidant kimi qəbul edilmişdir, bu deyilənləri nəzərə alaraq təqdim edilən iş nano-ZnO katalizatorunun iştirakı ilə etilenqlikol və hippur turşusu əsasında etilenqlikolun-bis-dihippurat efiri sintezinə həsr edilmiş, onun dizel yanacağında termooksidləşmə stabilliyi xassəsi öyrənilmişdir. [3].

Təcrübi hissə: Sintez aşağıdakı tənlik üzrə aparılmışdır:

$$HOCH_2CH_2OH + 2C_6H_5\text{-}CO\text{-}NH\text{-}CH_2\text{-}COOH \xrightarrow[-2H_2O]{n.ZnO} C_6H_5\text{-}CONHCH_2\text{-}COOCH_2CH_2\text{-}OCOCH_2\text{-}NH\text{-}CO\text{-}C_6H_5$$

Etilenqlikolun bis-dihippurat efirinin alınması: reaksiya kolbasına 36,0 qr (0,2 mol) hippur turşusu, 8,0 qr (0,12 mol) etilenqlikol, 7 % (turşuya görə hesablanmış) – nano-ZnO katalizatoru və 150 ml toluol yerləşdirərək 110°C temperaturda, 5-6 saat müddətində qarışdırılır və 4 qrama yaxın reaksiya suyu ayrılır. Efirləşmə reaksiyasının sonluğu ayrılan reaksiya suyunun miqdarı və turşu ədədinin stabilliyi ilə təyin edilmişdir. Reaksiya qarışığı

soyudularaq ayırıcı qıfda neytrallaşdırılır və yuyulur. Həlledici distillə olunaraq ayrılır. Alınmış quru efir filtrdən süzülərək analiz edilir. Efirin çıxımı nəzəri çıxıma görə 90,0 % təşkil edir. Efirin fiziki-kimyəvi göstəriciləri təyin edilmiş və quruluşu Almaniyanın "Bruker" firmasının "ALPHA" İQ-Furye spektrometrinin istifadəsi ilə identifikasiyaolunmuşdur. Xüsusi çəkisi ρ_4^{20} – 1,0520 kq/m^3, n_D^{20} – 1,4514-dir. Sintez edilmiş efir spesifik iyə malik olub, suda həll olmayan benzol və toluolda yaxşı həll olan maddədir.

Sintez edilmiş efir dizel yanacağı (DY) nümunələrində termooksidləşmə stabilliyini yaxşılaşdıran aşqar kimi ЛСАРТ aparatında 120°C-də 4 saat müddətində mis lövhə üzərində sınağı aparılmışdır. Müəyyən edilmişdir ki, sintez edilmiş efir 0,004 % miqdarında, hidrotəmizlənmiş DY-na əlavə olunduqda çöküntünün miqdarı 100 ml yanacaqda 4,3 mq-dan 0,7 mq-a qədər aşağı düşmüşdür. Beləliklə, ilk dəfə, nano-ZnO katalizatorunun iştirakı ilə etilenqlikolun bis-dihippurat efirinin sınaq nəticələrinə əsasən onu hidrotəmizlənmiş dizel yanacağına antioksidant aşqar kimi tövsiyə etmək olar.

Ədəbiyyat

1. P.M.Kərimov, O.M.Ələsgərova, Ağayev B.K. və b. Nano-TiO_2 (PC-500) və ion-mayesi katalizatorlarının iştirakı ilə təbii neft turşusu əsasında benzil efirinin sintezi və tədqiqi //Azərbaycan Neft Təsərrüfatı, 06.2016, səh. 40-43

2. V.M.Abbasov, L.M.Əfəndiyeva, N.F.Sədiyeva, L.H.Nuriyev, S.A.İsgəndərova, E.M.Quliyeva, S.Q.Əliyeva "Müxtəlif funksional qrup tərkibli mürəkkəb efirlərin sintezi" //Azərbaycan Neft Təsərrüfatı 10.2015, səh.37-40

3. N.Sadiyeva, S.İsgəndərova, L.Əfəndiyeva, S.Əliyeva, G.Nəsibova, A.Musayeva, M.Bağırova "Neft turşuları əsasında etilenqlikolun qarışıq diefirlərinin sintezi və tətbiqi" //Azərbaycan Ali Texniki Məktəblərinin xəbərləri, cild 07, № 3, 2021, səh. 41-49

NANO-ZnO KATALİZATORUNUN İŞTİRAKI İLƏ ETİLENQLİKOLUN-BİS-DİHİPPURAT EFİRİNİN SİNTEZİ VƏ TƏDQİQİ

Kərimov P.M., Ələsgərova O.M., Quliyeva E.M., Cəfərova A.A.

Xülasə

Təqdim olunan məqalədə, hippur turşusu və etilenqlikol əsasında nano-ZnO katalizatorunun iştirakı ilə (7 % kütlə hippur turşusuna görə hesablanmış) 2:1 nisbətində, 110°C temperaturda, 5-6 saat müddətində, 90 % çıxımla etilenqilokun-bis-dipippurat efiri sintez edilmişdir. Sintez edilmiş efir dizel yanacağının termooksidləşmə stabilliyini yaxşılaşdırmaq məqsədilə sınaqdan keçirilmişdir.

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ ЭФИРОВ ЭТИЛЕНГЛИКОЛЬ-БИС-ДИГИППУРАТ УЧАСТИЕМ НАНО-ZNO КАТАЛИЗАТОРОВ

Керимов П.М., Алескерова О.М., Кулиева Э.М., ДжафароваА.А.

Резюме

В представленной статье были синтезированы в присутствии катализатора нано-ZnO на основе гиппуровой кислоты и этиленгликоля (7% мас. в расчете на гиппуровую кислоту) в соотношении 2:1, при температуре 110°C, в течение 5-6 ч. эфир этиленгликоль-бис-дигиппурата с выходом 90 %. Синтезированный сложный эфир были протестирован на повышение устойчивости дизельного топлива к термоокислению.

SYNTHESIS AND STUDY OF ESTERS OF ETHYLENE GLYCOL BIS-DIGIPPURATE PARTICIPATION OF NANO-ZNO CATALYSTS

Kerimov P.M., Aleskerova O.M., Kuliyeva E.M., Jafarova A.A.

Summary

In the presented article, were synthesized in the presence of a nano-ZnO catalyst based on hippuric acid and ethylene glycol (7% wt. in terms of hippuric acid) in a ratio of 2:1, at a temperature of 110 ºC bis-digippurate with a yield of 90%. The synthesized ester was tested to improve the stability of diesel fuel to thermal oxidation.

DƏNİZ SULARININ KİMYƏVİ ANALİZİ

[1]Qədirova E.M., [2]Məmmədova A.T.

[1]Bakı Dövlət Universiteti

[2]Gəncə Dövlət Universiteti

Açar sözlər: *PAK, TiO_2, SEM, XRD, dəniz suyu.*

Key words*: PAHs, TiO2, SEM, XPA, sea water.*

Giriş:

Xəzər dənizi çox həssas ekosistemdir. Son onilliklərdə antropogen və biokimyəvi amillərin təsiri altında ümumilikdə ekosistemlərin vəziyyəti kəskin şəkildə çirklənmişdir[1;s.680,2;3].

Bu məqsədlə, Xəzərin Şıx və Bulvar ərazilərində dəniz səviyyəsindən 0,5 m dərinlikdən analiz üçün "12 L Niskin" nümunə götürən ilə su nümunələri götürülüb. Xromatoqrafik analizlər ZB-1 (Phenomenex, ABŞ) cihazı ilə təchiz edilmiş alov-ionlaşdırıcı GC-FID 6890 (Agilent, ABŞ) ilə qaz xromatoqraf detektoru tərəfindən aparılmışdır.Analizdə həmçinin heliumqaz daşıyıcısı kimi istifadə edilmişdir [4;s.87,5;s.85,6;s.22].Şıx və Bulvar ərazilərindən götürülən dəniz sularında üzvi zəhərli maddələrin identifikasiyası Xəzər Ekologiya Laboratoriyasının dəstəyi ilə həyata keçirilmişdir. Sonda su nümunələrində 15 PAK, həmçinin 11 fenol tip birləşmələr analiz edilmişdir.

Analiz edilən su nümunələrindəki PAK-ın miqdarı əsasən yol verilən qatılıq həddini aşmışdır. Bulvardan götürülən su nümunəsində isə fenolun miqdarı çox olmuşdur. Bunu Bakı Buxtasının güclü çirklənməsi ilə izah etmək olar.

Cədvəl 1.Şıx və Bulvardan götürülmüş su nümunələrində fenol birləşmələrinin miqdarı.

Fenol və onun törəmələri, μgL^{-1} μgL^{-1}=$mkgL^{-1}$(or 0.001gL^{-1})	**Şıx**	**Bulvar**
fenol	0.10	0.14
o-kresol	0.02	0.03
2-nitrofenol	<0.04	0.04
2,4-dimetilfenol	0.02	0.04
2,4-dixlorofenol	<0.02	<0.02
2,6-dixlorofenol	0.02	0.04

4-xloro-3-metilfenol	<0.04	0.05
2,4,5-trixlorfenol	<0.04	<0.04
2,4,6-trixlorfenol	<0.04	<0.04
2,3,4,6-tetraxlorofenol	<0.04	<0.04
pentaxlorfenol	<0.04	<0.14

Ədəbiyyat

[1].Mammadov G,Khalilov M.Ekologiya və Ətraf Mühitin Mühafizəsi.Bakı, 2005, S.880
[2].Hense M., Harren. P., Enken E., Arvin K. Çirkab Suların Təmizlənməsi. 2003, M., 400 S
[3].Honcharuk V.V. Su mühitinin mühafizəsi üçün müasir texnologiyaların ekoloji aspektləri.Kiev: Naukova Dumka, 2005,400 S
[4].Kostianoy Ed. A., Kosarev A., Korshenko A., Gul A.G. Xəzər Dənizi.Xəzər Dənizinin Ekologiyasının Çirklənməsi. Hdb. Env. Kimya, 2005,Cild. 5,Part P,Springer-Verlag, S.109–142
[5].Korshenko A., Gul A.G. Xəzər Dənizinin Çirk.. Hdb. Env. Kim..2005, Cild. 5. S. 109-142
[6].Hajiyeva S.R., Gadirova E.M., etc. Methods for cleaning water contaminated with oil. Chemistry Journal of Azerbaijan, Baku, 2014, №1, P. 35-38.

DƏNİZ SULARININ KİMYƏVİ ANALİZİ

Qədirova E.M., Məmmədova A.T.

Xülasə

Şıx və Bulvardan analiz üçün dəniz suyu nümunələri götürülmüşdür.Analizlər Xəzər Ekoloji Laboratoriyasında həyata keçirilmiş və bütün miqdari analizlər Agilent 6890N/5975 GC/MSD cihazında aparılmışdır.15 adda polisiklik aromatik karbohidrogenlər (PAK) və 11 adda fenol üzvi birləşmələr müəyyən edilmişdir.Dəniz suyu nümunələrində üzvi mənşəli tokski birləşmələryol verilən qatılıq həddini aşmışdır.

ХИМИЧЕСКИЙ АНАЛИЗ МОРСКИХ ВОД

Кадирова Э.М., Мамедова А.Т.

Резюме

Нами были взяты пробы воды с Ших и Бульвара для анализа.В Хазарской экологической лаборатории были проведены анализы и все количественные анализы были выполнены с использованием Agilent 6890N/5975 GC/MSD.Идентифицировано 15 соединений полициклических ароматических углеводородов (ПАУ) и 11 соединений фенольных соединений.В пробах воды превышены допустимые концентрации органических токсичных соединений.

CHEMICAL ANALYSIS OF SEA WATERS

Kadirova E.M., Mammadova A.T.

Summary

Water samples were taken from Shikh and Boulevard for analysis.Analyzes were carried out at the Khazar Ecological Laboratory and all quantitative analyzes were performed using an Agilent 6890N/5975 GC/MSD.15 compounds of polycyclic aromatic hydrocarbons (PAHs) and 11 compounds of phenolic compounds were identified. Permissible concentrations of organic toxic compounds were exceeded in water samples.

BƏZİ AMİNOSPİRTLƏRİN KÜKÜRDLÜ ANALOQLARININ SİNTEZİ VƏ ÇEVRİLMƏ REAKSİYALARI

Qurbanov Q. B., İbrahimli S.İ. Vəliyev M.T.
Gəncə Dövlət Universiteti

Açar sözlər **:** *biozədələnmə, oksidləşmə, tiiran antioksidant.*
Ключевые слова**:** *биоповреждение, окисления, тиран антиоксидант.*
Keywords **:** *biodegradation, jöidation, tiirans antioksidant.*

Çoxdan məlum olmasına baxmayaraq aminospirtlərin kükürdlü analoqları bu gündə öz əhəmiyyətini itirməmişdir. Bu sahədə aparılan tədqiqat işlərinin geniş vüsət almasının səbəbi, bu sinif birləşmələrin əsas nümayəndələri olan xolin, asetilxolin, adrenalın və s. canlı orqanizmin həyat fəaliyyətində müstəsna rol oynamasıdır. Digər tərəfdən onların bəzi törəmələrinin, o cümlədən novakain, dimedrol, morfin və s. preparatlarının tibbi praktikada mühüm əhəmiyyəti ilə bağlıdır. Eyni zamanda onların polimerləşmədə emilqator, neft məhsullarını oksidləşmədən qoruyan antioksidantlar, metalları korroziyadan qoruyan inhibitorlar, qazların təmizlənməsində uducu kimi istifadəsi texnikada onun tətbiqinə yol açmışdır.

Bütün bu deyilənləri nəzərə alaraq aminospirtlərin, onların kükürdlü analoqlarının və bəzi çevrilmə reaksiyaları sahəsində tədqiqat aparmağı lazım bildik.

Əvvəlcə bu sahədə aparılmış ən mühüm tədqiqat işlərinin bəzilərini nəzərdən keçirək, çünki sintez olunacaq maddələrlə müqayisə aparmaq üçün bu vacibdir.

Aminlərin oksiranlarla qarşılıqlı təsiri L.Knorr və K.A.Krasuskinin (1) tədqiqatlarında mühüm yer tutur. Olefin oksidlərinin ammonyakla birləşmə reaksiyasının mexanizmi göstərilən müəllifflərə görə aşağıdakı kimidir:



Propilen oksidi anilin ilə qarşılıqlı reaksiyaya daxil olduqda, əmələ gələn aminspirt molekulun hidroksil qrupu ən az hidrogenləşmiş karbon atomunda yerləşir (II):



Qeyd etmək lazımdır ki, oksid həlqəsində əvəzedici olduqda onun qırılmasını asanlaşdırır.

Üçüzvlü heterotsiklik birləşmələr içərisində tiiranlar spesifik xarakterli birləşmələrdir. Sintez edilmiş birləşmələr arasında öz praktiki əhəmiyyətinə görə 1,2-aminotiollar xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 1,2-aminetantiol fraqmentli birləşmə canlı orqanizmin fəaliyyətində mühüm rol oyanayan koferment A-nın tərkibinə daxildir (169). Eyni zamanda amintiolların törəmələri olan diprofen və tifen kimi dərman preparatları tibbidə geniş istifadə olunur. Onların içərisində şüa əleyhinə, hipotenziv, adrinoblokator, immunmodulyator və digər xassələrə malik olan birləşmələrə də rast gəlinir.

Amintiolların alınması üçün sinton kimi istifadə olunan tiiranlar (12) uyğun oksiranların H_2SO_4 turşusu katalizatoru iştirakında tiokarbamidlə qarşılıqlı reaksiyasından alınmışdır:



$R = CH_3,\ CH_2 = CHCH_2OCH_2,\ n-C_4H_9$

Əlavə məhsulların alınmaması üçün tiiranlar ilə aminlərin reaksiyasını 1:2 nisbətində lehimlənmiş ampulada yağ hamamında 80-90^{0}C-də qızdırmaqla aparılmışdır. Çıxım 61-90 % arasında dəyişir:



$R = H,\ -C_4H_9,\ R^1R^2N = C_6H_5NH,\quad R^1R^2N = (C_2H_5)_2N,\quad n-C_3H_7NH$

Alliloksiəvəzli 1,2 –aminpropantiollar rəngsiz maye olub, saxlandıqda sarımtıl rəngə çevrilirlər. Sintez edilmiş birləşmələrin təmizliyi xromatoqrafiya, quruluşları isə İQ və PMR spektroskopiyası üsulları ilə təsdiq edilmişdir. Amintiolların funksional xassələri onların tərkibinə daxil olan qrupların təbiətindən çox asılıdır. Tibbidə geniş tətbiq olunan tifen və diprofen kimi dərman preparatları amintiollların mürəkkəb efirləridir.

Feniləvəzli 1,2-amintiollara (52) sirkə anhidridi ilə təsir etdikdə 70% çıxımlar aminasetatlar alınmışdır:



R = H, $n-C_4H_4O$

Adətən reaksiya istilik ayrılması ilə gedir və temperatur 45-50^{0}C-yə qədər qalxır. Bu temperaturda bir saat qarışdırdıqdan sonra aminasetatlar alınır. Aminasetatların (59) İQ spektrində SH rabitəsinin valent rəqslərinə uyğun gələn 1560-2750 sm^{-1} udulma zolağı müşahidə edilmir, lakin C ═ O rabitəsinin valent rəqsləri 1680-1685sm^{-1} sahəsində intensiv zolaq halında nəzərə çarpır. Ehtimal olunur ki, CO rabitəsi NH ilə molekul daxili hidrogen rabitəsində (C ═ O···NH) iştirak edir.

Amintiolların reaksiyayagirmə qabiliyyəti onların molekulunda yerləşən iki aktiv mərkəzin mövcud olmasına əsaslanır, bu mərkəzlər ayrılıqda və ya birlikdə iştirak edə bilərlər. Digər tərəfdən amintiollar potensial bioloji aktiv birləşmələr hesab olunan tərkibində azot və kükürd atomları saxlayan heterotsikllərin sintezi rolunu oynayan birləşmələrdir.

Məlumdur ki, neft və ondan alınan sürtgü yağları, yanacaqlar, yağlayıcılar iqlim şəraitindən asılı olmayaraq uzun müddət saxlandıqda, bir yerdən başqa yerə daşındıqda və istismar şəraitində müxtəlif mikroorqanizmlərin təsirinə məruz qalır, nəticədə biozədələnməyə uğrayır. Bu prosesdən sonra əmələ gələn turşu təbiətli məhsullar neft məhsullarının ilkin fiziki-kimyəvi və istismar xassələrinə mənfi təsir edir, maşın və mexanizmləri korroziyaya uğradır. Mühərriklərdə motor yağlarına təsir edərək qatranlı maddələr və çöküntülərin əmələ gəlməsinə səbəb olur.

Neft məhsullarına antimikrob aşqar kimi tərkibində amin, dördlüammonium, sulfid və digər qrup və elementlər daxil olan üzvi birləşmələrdən, o cümlədən bizim sintez etdiyimiz funksional əvəzli aminpropantiollardan antimikrob aşqar kimi tətbiqindən müsbət nəticələr əldə edilmişdir.

Təcrübi hissə

Aparılmış tədqiqat işləri nəticəsində bir çox sintezlər həyata keçirilmişdir ki, bunlardan biz ancaq 1-(N,N-dietilamin)-3-alliloksi-2-propantiolun alınması reaksiyasını

təqdim edirik: 14,6q (0,2mol) təzə qovulmuş dietilamin və 13q (0,1mol) və 13 q (0,05mol) 1,2-epitio-3-alliloksipropan şüşə ampulaya yerləşdirilir və ağzı lehimlənir. Ampuladakı qarışıq 8 saat müddətində 70-80^{0}C-də su hamamında qızdırılır. Sonra ampuladakı reaksiya qarışığı soyudulur və ampulanın ağzı açılır. Əvvəlcə reaksiya qarışığında olan artıq dietilamin su nasosunda qovulur, sonra qalıq vaakumda distillə edilir. 14q (68 %) 1,2-amin-propantiol alındı. Qaynama temperaturu 94-95^{0}C (2mm) · n_{15}^{20} = 1,4735, R_f = 0,68 Tapılmışdır: % 0C59,23; H 10,24; N 6,78; S 15,49 $C_{10}H_{24}NOS$

Nəticələr

1.Funksionaləvəzli 1,2-aminpropanların bəzi kükürdlü törəmələrinin sintezi aparılmış və onların quruluşları ilə funksional xassələri arasında əlaqə öyrənilmişdir.

2.Aminspirtlər və amintiolların antimikrob xassəsi müqayisəli şəkildə MS-20 yağında sınaqdan keçirilərək müəyyən edilmişdir ki, amintiollar öz antimikrob xassələrinə görə aminspirtlərdən xeyli üstünlüyə malik olub öz səmərəliliyinə görə sənaye antimikrob aşqarı 8-oksixinolin və pentaxlorfenolyatdan geri qalmır.

Ədəbiyyat

1.Крассиский К.А. Исслед. реакйий α-окиси с аммиаком и аминами. Киев 1911 ст.108
2.Ленинджер А. Биохимия, Москва, Издательство Мир 1974 ст.292-293
3.Биоповреждения, под редакцией В.Д.Ильичева, Москва Высшая школа 1987
4.Кулиев А.М. Химия и технология присадок к маслам и топливам Л.Химия 1985
5.Фокин А.В., Коломнец А.Ф.Химия тиранов Москва Издательство Наука 1978
6.Работнова И.Л., Паушкин Я.М., Вишнякова П.П. Угнетение четвертичными аммоииевыми солями роста микроорг. на углевод. средах. Микров. 1970 т 39 №4

СИНТЕЗЫ И РЕАКЦИИ ПРЕВРАЩЕНИЕ НЕКОТОРЫХ СЕРААПАЛОГИ АМИНОСПИРТОВ

Гурбанов Г.Б., Ибрагимли С.И., Veliyev M.T.

Резюме

В работе представлены результаты получения и реакции превращения некоторых сераапалогов аминоспиртов. Определены физико-химические показатели синтезированного аддукта. Строение полученного соединения подтверждено методом ИК и ЯМR спектроскопии.

ВЛИЯНИЕ ЭЛЕКТРОННОГО И ГАММА-ОБЛУЧЕНИЯ НА МИКРОРЕЛЬЕФ ПОВЕРХНОСТИ МОНОКРИСТАЛЛОВ $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02)

[1]Умаров С.Х., [2]Гасанов Н.З.,[6]Рустамов В.Дж., [3]Халлоков Ф.К., [4]Ходжаев У.О., [5]Нарзуллаева З.М.

[1]Д.ф.-м.н., профессор, зав. каф. «Биофизика и информационной технологии в медицине» Бухарского медицинского института им. Абу Али ибн Сино, Бухара, Узбекистан.
[2]К.ф.н., доцент, ведущий научный сотрудник Института Физики при Министерстве науки и образования Азербайджанской Республики, Баку, Азербайджан.
[6]К.ф-м.н., доцент кафедры Физики Гянджинского Государственного Университета Азербайджанской Республики.
[3]Младший научный сотрудник Институт ядерной физики академии наук Республики Узбекистан, Ташкент, Узбекистан.
[4]Докторант Институт ядерной физики академии наук Республики Узбекистан, Ташкент, Узбекистан. E-mail: utkir_xodjayev@bk.ru

[5]Докторант Бухарского государственного университета

Ключевые слова: монокристалл, электронное облучение, γ-облучение, кристаллиты, рельеф поверхности, шероховатость.

Key words: single crystal, electron irradiation, γ-irradiation, crystallites, surface topography, roughness.

Введение: Исследования в области создания композитных материалов со специальными и важными для практического применения электрофизическими свойствами на основе полимерных структур представляют огромный интерес [1]. Следует отметить, что в зависимости от природы, размера, формы, характера распределения наполнителя полимерная композиция может быть электропроводящей, антистатической или же диэлектрической. Для получения новых композиционных материалов пользуются наполнителями органической и неорганической природы. В серии новых работ в качестве наполнителя служат тройные полупроводниковые соединения типа TlSe. Проведенные исследования показали, что композиции ПЭВП+$TlInSe_2$ и ПП+$TlInSe_2$ являются высококачественными электретными материалами с временами жизни в несколько раз выше, чем у чистых полимеров [2]. Был исследован и микрорельеф поверхности различных композитов, включающих $TlInSe_2$, методом атомно-силовой микроскопии [3].

Сканирующая зондовая микроскопия – мощный современный инструмент для исследования свойств поверхности, ее развитие послужило основой для новых нано-технологий создания композитных структур [4].

Известно, что грани кристаллов имеют различные дефекты поверхности. Они бывают следующего типа: конусы (бугорки), штриховка, паркетчатость, лунки, отпечатки других кристаллов и зерен, ямки травления. Эти дефекты встречаются как вместе, так и по отдельности.

Бугорки свойственны скоплению винтовых дислокаций, они обычно широкие и низкие. В редких случаях на них заметны ступеньки роста. Контуры конусов отражают симметрию граней.

Штриховка образуется либо в результате незавершенного роста слоев, либо за счет стремления кристалла ограничиться другой простой кристаллографической формой. Первая штриховка проявлена во многих кристаллах – алмазе, сфалерите, берилле. Подобная штриховка образуется в условиях перепада (увеличении или уменьшении) концентрации вещества и на сложных многокомпонентных монокристаллах типа $A^{III}B^{III}C_2^{VI}$ в том числе $TlInS_2$, $TlInSe_2$ и твердых растворах на их основе.

Поверхности с гладким микрорельефом, когда величины неровностей меньше длины волны видимого света, получаются при травлении кристаллов растворами с окислителями. Под влиянием облучения профиль поверхности кристаллов обычно меняется. Микрорельеф по-разному влияет на точность определения различных параметров структуры. В частности, он существенно сказывается на точности определения концентрации электронов и дырок и построения зонной структуры приповерхностного участка полупроводника.

Определение удельной поверхности тетрагональной и др. структур и не очень дисперсных фаз многофазных структур монокристаллов менее чувствительно к величине микрорельефа. Еще меньше влияние микрорельефа при определении суммарной длины линейных элементов пространственной структуры сложных многокомпонентных полупроводников.

Необходимо отметить, что экспериментальные данные о морфологии поверхности кристаллов $TlIn_{1-x}Fe_xSe_2$ до и после облучения электронами и γ-квантами в

литературе отсутствуют. Имеется работа по изучению влияния электронного облучения на структуру поверхности кристалла TlInSSe [5], где показано, что облучение порошкового TlInSSe приводит к увеличению размера кристаллитов от 56,5 нм до 65 нм, что связывается авторами с уменьшением границы раздела. Электронное облучение не приводит к изменению высоты бугорков на его поверхности, а среднее значение их ширины увеличивается более чем в 10 раз.

Нами поставлена задача экспериментального исследования с помощью атомно-силового микроскопа микрорельефа поверхности кристаллов $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02) и влияние на него электронного и гамма-облучения.

Методика и техника эксперимента: Для решения поставленной задачи использовались кристаллы, синтезированные сплавлением компонентов в стехиометрическом соотношении в эвакуированных (~10^{-3} Па) и запаянных кварцевых ампулах. В качестве исходных компонентов для синтеза использовались особо чистые элементы таллия, индия, железа и селена. Монокристаллы синтезированных соединений выращивались усовершенствованным методом Бриджмена.

О возможности замещения атомов индия в кристаллической решетке $TlInSe_2$ атомами железа указывает тот факт, что ионный радиус легирующего Fe^{3+}(0.62 Å) ближе к ионному радиусу In^{3+}(0.81 Å), чем к ионному радиусу Tl^{1+}(1.38 Å) [6], т. е. частичное замещение индия железом в слоистом кристалле $TlInSe_2$ соответствует условию образования твердого раствора замещения.

Облучение образцов исследуемых кристаллов электронами с энергией 2 МэВ и плотностью тока пучка 0.375 мкА/см^2 осуществлялось на ускорителе “Электроника У-003”. Энергия электронов была выбрана исходя из плотности и толщины образца и определялась с использованием стандартного измерительного клина (P4701) Riso 2 Piece Aluminum (Бельгия) из алюминия. Образец устанавливался перпендикулярно направлению пучка электронов на расстоянии 0.4 м от развертки ускорителя и проводилось облучение до флюенса электронов $2\cdot10^{17}$ эл/см^2.

Трехмерное изображение рельефа поверхности образцов получено на сканирующем зондовом микроскопе SPM 9700HT (Shimadzu). Исследование проводилось в контактном режиме работы сканирующего зондового микроскопа. Для этого выбирался участок образца размером 30x30 мкм и определялось количество “пиков-выступов”, их полуширина и высота, до и после облучения.

Облучение образцов γ-лучами проводилось на источнике ^{60}Co бассейнового типа мощностью P=102,78 Р/с дозами 10^6 и 10^7 Рад.

В дальнейшем будем использовать следующие обозначения: R_a - среднее арифметическое отклонение профиля от средней линии, проведенной по методу наименьших квадратов в пределах базовой длины, R_z - высота неровностей профиля по 10 точкам, т.е. среднее значение абсолютных высот пяти наибольших выступов профиля и глубин пяти наибольших впадин профиля в пределах базовой длины. Базовой длиной называют длину линии, используемой для выделения неровностей, характеризующих шероховатость поверхности, и количественного определения ее параметров.

Результаты и их обсуждение: Результаты исследования микрорельефа поверхности исследуемых твердых растворов при помощи атомного силового микроскопа (АСМ) приведены на рис.1–8. На рис.1 показаны плоскостные изображения участка поверхности образцов $TlIn_{1-x}Fe_xSe_2$, где x = 0.001; 0.005; 0.02. Исследование проводилось без предварительной обработки. Согласно полученным данным, изменение количества добавки существенно изменяет морфологию поверхности композитов и сглаживает дефекты исследуемых образцов.

На объемном изображении (рис.2) отчетливо видно, что с увеличением содержания железа от 0,1 до 0,5% происходит сглаживание поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$, а при дальнейшем увеличением до 2% шероховатость поверхности увеличивается, то есть ее неоднородность растет.



Рис. 1. Двухмерное АСМ-изображение поверхности монокристаллов:
(а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; (б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; (в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 2. Объемное АСМ-изображение поверхности монокристаллов:
(а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; (б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; (в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.

Эксперимент показал, что облучение монокристалла $TlIn_{0,999}Fe_{0,001}Se_2$ электронами энергией 2 МэВ и флюенсом $5\cdot10^{16}$ эл/см^2 приводит к уменьшению среднего арифметического отклонения профиля поверхности R_a от 60.7 нм до 15.4 нм, и к уменьшению высоты неровностей профиля R_z от 318.6 нм до 285.2 нм (рис.3а и 4а).

Двухмерное и объемное АСМ-изображения поверхности монокристалла $TlIn_{0,995}Fe_{0,005}Se_2$ после аналогичного облучения электронами (рис.3б и 4б) позволяют оценить увеличение среднего арифметического отклонения профиля R_a от 37.9 нм до 48.1 нм, а также увеличение высоты неровностей профиля R_z от 464.9 нм до 748.3 нм.

Что касается монокристалла твердого раствора состава $TlIn_{0,98}Fe_{0,02}Se_2$, то после облучения электронами энергией 2 МэВ и флюенсом $5\cdot10^{16}$ эл/см^2 наблюдалось увеличение значения среднего арифметического отклонения профиля R_a от 56.5 нм до 219.7 нм, а также значительное уменьшение высоты неровностей профиля R_z от 779.6 нм до 2.052 нм (рис.3в и 4в), что говорит о существенном улучшении профиля поверхности под влиянием электронного облучения.



Рис. 3. Двухмерное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после облучения электронами флюенсом $5\cdot10^{16}$ эл/см^2:
(а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; (б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; (в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 4. Объемное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после облучения электронами флюенсом $5\cdot10^{16}$ эл/см^2: а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$;
в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 5. Двухмерное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после γ-облучения дозой 10^6 рад: а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 6. Объемное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после γ-облучения дозой 10^6 рад: а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 7. Двухмерное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после γ-облучения дозой 10^7 рад: а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.



Рис. 8. Объемное АСМ-изображение поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ после γ-облучения дозой 10^7 рад: а) $TlIn_{0,999}Fe_{0,001}Se_2$; б) $TlIn_{0,995}Fe_{0,005}Se_2$; в) $TlIn_{0,98}Fe_{0,02}Se_2$.

При γ-облучении монокристалла $TlIn_{0,999}Fe_{0,001}Se_2$ дозой 10^6 Р/с уменьшается среднее арифметическое отклонение профиля поверхности R_a с 60.7 нм до 16.9 нм и увеличивается средняя неровность профиля R_z с 318.6 нм до 366.8 нм (рис.5а и 6а).

Двухмерное и объемное АСМ-изображения поверхности монокристалла $TlIn_{0,995}Fe_{0,005}Se_2$ после аналогичного γ-облучения (рис.5б и 6б) позволяют оценить увеличение среднего арифметического отклонения профиля R_a с 37.9 нм до 69.0 нм, а также увеличение высоты неровностей профиля R_z с 464.9 нм до 1.094 мкм.

γ-облучение монокристалла $TlIn_{0,98}Fe_{0,02}Se_2$ дозой 10^6 Р/с приводит к увеличению среднего арифметического отклонения профиля R_a с 56.5 нм до 83.9 нм, а также к увеличению высоты неровностей профиля R_z с 779.6 нм до 815.9 нм (рис.5в и 6в).

Двухмерное и объемное АСМ-изображения поверхности монокристалла $TlIn_{0,999}Fe_{0,001}Se_2$ после γ-облучения его дозой 10^7 Р/с позволяют оценить уменьшение среднего арифметического отклонения профиля поверхности R_a от 60.7 нм до 31.9 нм, а также увеличение высоты неровностей профиля R_z с 318.6 нм до 627.7 нм (рис.7а и 8а).

Двухмерное и объемное АСМ-изображения поверхности монокристалла $TlIn_{0,995}Fe_{0,005}Se_2$ после аналогичного γ-облучения (рис.7б и 8б) показывают увеличение среднего арифметического отклонения профиля R_a с 37.9 нм до 48.0 нм и уменьшение высоты неровностей профиля R_z от 464.9 нм до 142.7 нм.

γ-облучение монокристалла $TlIn_{0,98}Fe_{0,02}Se_2$ дозой 10^7 Р/с приводит к уменьшению среднего арифметического отклонения профиля R_a от 56.5 нм до 50.6 нм,

а также к уменьшению высоты неровностей профиля R_z от 779.6 нм до 178.9 нм (рис.7в и 8в).

Облучение порошкового $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02) γ-лучами дозой 10^7 Р/с способствует увеличению размера кристаллитов от 36.87 нм до 41.76 нм, что, скорее всего, связано с уменьшением границ раздела. Вследствие диффузии отдельные атомы могут покидать свои места в узлах кристаллической решетки, однако при этом упорядоченность кристаллического строения в целом не нарушается.

Заключение: В работе исследован микрорельеф поверхности монокристаллов $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02) при помощи атомно-силового микроскопа. Выявлено, что в приграничном слое твердых растворов образуются кластеры, состоящие из атомов схожих размеров. Полученные результаты по влиянию ускоренных электронов и γ-квантов на структуру поверхности монокристаллов твердых растворов $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02) показывают, что эти соединения являются радиационно стойкими при облучении электронами энергией 2 МэВ и флюенсом $2\cdot10^{17}$ эл/см^2 и γ-облучении дозами 10^6 и 10^7 Р/с. Эта особенность кристаллов $TlIn_{1-x}Fe_xSe_2$ позволяет рассматривать их в качестве эффективных радиационно стойких полупроводниковых материалов для создания фотоэлектронных приборов, работающих в условиях повышенной радиации.

Литература

1. Kerimov M.K., Kurbanov M.A., Bayramov A.A., Mamedov A.I. Matrix Active Micro- and Nanocomposites Based on the Polymer, Semiconductive and Ferropiezoceramic Materials. Nanocomposites and Polymers with Analytical Methods, Book 3. Book edited by: John Cuppoletti, 2011, 375-404.
2. Годжаев Э.М., Магеррамов А.М., Османова С.С., Нуриев М.А., Аллахяров Э.А. Зарядовое состояние композиции на основе полиэтилена с полупроводниковым наполнителем $TlInSe_2$. Электронная обработка материалов. 2007, 43(2), 84–88.
3. Годжаев Э.М., Сафарова С.С., Кафарова Д.М., Гюльмамедов К.Д., Ахмедова Х.Р. Исследование микрорельефа поверхности и диэлектрических свойств композиций ПП+$TlIn_{0,98}Ce_{0,02}Se_2$. Электронная обработка материалов, 2013, 49(4), с.1–5.
4. Миронов В.Л. Основы сканирующей зондовой микроскопии. М.: Техносфера, 2004, 143 с.
5. Tashmetov M.Yu., Khallokov F.K., Ismatov N.B., Yuldashova I.I., Umarov S.Kh. Electronic irradiation of $TlInS_xSe_{2-x}$ (x=1): Morphology, structure and Raman scattering. International Journal of Modern Physics B, 2021, v.35, No 28, 2150289, DOI:10.1142/S0217979221502891.
6. Бугаенко Л.Т., Рябых С.М., Бугаенко А.Л. Почти полная система средних ионных кристаллографических радиусов и ее использование для определения потенциалов ионизации. Вестник Московского Университета, серия 2, Химия, 2008, т.49, №6, с.363-384.

ВЛИЯНИЕ ЭЛЕКТРОННОГО И ГАММА-ОБЛУЧЕНИЯ НА МИКРОРЕЛЬЕФ ПОВЕРХНОСТИ МОНОКРИСТАЛЛОВ $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02)

[1]Умаров С.Х., [2]Гасанов Н.З.,[6]Рустамов В.Дж., [3]Халлоков Ф.К., [4]Ходжаев У.О., [5]Нарзуллаева З.М.

Резюме

Приводятся результаты исследования влияния электронного и гамма-облучения на структуру и морфологию поверхности монокристаллов полупроводниковых

соединений $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02). Облучение данных кристаллов электронами флюенсом $5\cdot10^{16}$ эл/см^2 способствует увеличению размера кристаллитов от 36.87 нм до 41.76 нм, что, скорее всего, связано с уменьшением границ раздела.

INFLUENCE OF ELECTRON AND GAMMA IRRADIATION ON THE SURFACE MICRORELIEF OF TlIn1-xFexSe2 (x=0.001; 0.005; 0.02) SINGLE CRYSTALS

[1]Umarov S.Kh., [2]Gasanov N.Z., [6]Rustamov V.J., [3]Hallokov F.K., [4]Khojaev U.O., [5]Narzullaeva Z.M.

Summary

The results of studying the effect of electron and gamma irradiation on the structure and surface morphology of single crystals of semiconductor compounds $TlIn_{1-x}Fe_xSe_2$ (x=0.001; 0.005; 0.02) are presented. Irradiation of these crystals with electrons with a fluence of 5×10^{16} el/sm^2 promotes an increase in the size of crystallites from 36.87 nm to 41.76 nm, which is most likely due to a decrease in the interfaces.

$(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ BƏRK MƏHLUL POLİKRİSTALININ TERMOELEKTRİK XASSƏLƏRİ

[1]Əbilov Ç. İ., [1]Sadıqova S. H., [1]Həsənova M. Ş., [1]Qasımova E. K., [1]Hüseynova N. T.

[1]Azərbaycan Texniki Universiteti, Bakı şəhəri

Açar sözlər: bərk məhlul, termoelektrik xassələri, temperatur asılılıqları, mürəkkəb zona quruluşu

Keywords: solid solution, thermoelectric properties, temperature dependence, complex zone structure

Ключевые слова: твердый раствор, термоэлектрические свойства, температурная зависимость, сложная зонная структура.

Ni_3Sn_2-Bi sistemindəki qarşılıqlı fiziki-kimyəvi təsirin təbiətini araşdırarkən tərəfimizdən Ni_3Sn_2 birləşməsi əsasında bərk məhlul sahəsinin mövcudluğu aşkar edilmişdir ki, onun da sərhədi 300K temperaturunda ~2 mol.%Bi tərtibində olmuşdur. Bərk məhlul ərintiləri yüksək təmizliyə malik elementlərdən düzünə sintez texnologiyası ilə alınaraq, uzun müddət ərzində homogenləşdirici termiki emal olunmuşdur [1]. Ni_3Sn_2 birləşməsinin bərk cisim elektronikası və fizikası üçün perspektivli olduğunu nəzərə alaraq, onun əsasında əmələ gələn $(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ bərk məhlulunun xüsusi elektrikkeçiriciliyi, termo-e.h.q. əmsalının və ümumi istilikkeçiriciliyinin 300÷700 K intervalında temperatur asılılıqları tədqiq edilmişdir.

Ölçmələr parallelepiped formalı polikristalik nümunələrdə [2, 3]-də verilən metodikaya əsasən yerinə yetirilmişdir. Şəkil 1-də alınan nəticələrə əsasən qurulan asılılıqların qrafikləri göstərilmişdir. Göründüyü kimi, elektrikkeçiriciliyinin temperaturun yüksəlməsi ilə dəyişməsi yarımmetallik təbiətlidir. Asılılıqda həmçinin geniş aşqar keçiriciliyi sahəsi müşahidə olunur və burada keçiricilik azalır. Elektrikkeçiriciliyinin aşagı temperaturlarda azalmasını kristallik sahədə elektron sıxlığının tərkibdəki elementlərin ionlaşmış hissəcikləri ətrafında asimmetrik paylanması təsirinin nəticəsi kimi təsəvvür etmək olar. Lakin ~613 K-dən başlayaraq xüsusi elektrikkeçiriciliyi kəskin artmağa başlayır ki, görünür belə vəziyyət məxsusi keçiriciliyin başlaması ilə əlaqədardır.

Asılılığın bu sahədəki düzxətli hissəsindən termiki qadağan zonasının qiyməti hesablanmış və məlum olmuşdur ki, tədqiq edilən tərkib üçün $\Delta E\cong0,36$ eV.

Şəkil 1-də digər bir əyri termo-e.h.q. əmsalının temperatur asılılığını xarakterizə edir. Burada nisbətən aşağı temperaturlarda α-nın düzxətli artması müşahidə olunur və sonra

termo-e.h.q. əmsalı maksimumdan keçərək yüksək temperaturlarda azalmağa meyl göstərir. Temperaturla belə dəyişilmə mürəkkəb zona quruluşlu materiallara xasdır [4, 5]. Görünür $(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ bərk məhlulu da belə materiallardandır və onun valent zonası "ağır" və "yüngül" effektiv kütləli yükdaşıyıcılardan təşkil olunmuş iki və daha çox sayda yarımzonalardan ibarətdir.



Şəkil 1. $(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ tərkibli bərk məhlul ərintisinin xüsusi elektrikkeçiriciliyinin (σ), termo- e.h.q. əmsalının (α) və ümumi istilikkeçiriciliyinin ($æ_{üm}$) temperatur asılılıqları

Şəkildəki 3-cü asılılıq tədqiq edilən bərk məhlul tərkibinin ümumi istilikkeçiriciliyinin temperatur dəyişməsini göstərir. Təxminən 643 K temperaturuna qədər istilikkeçiriciliyi T^{-1} qanuni üzrə dəyişir, yəni burada istiliyin daşınması fonon proseslərinə əsaslanır. Lakin ~643 K-dən yüksəkdə istilikkeçiriciliyində zəif yüksəlmə baş verir. Yüksək temperaturlarda belə artma bipolyar istilikkeçirməsinin yaranması ilə əlaqədar ola bilər [3]. İstilikkeçiriciliyi mexanizminə aydınlıq gətirmək üçün onun elektronlara, fononlara və eləcə də qəfəs istilik müqavimətinin hesablanması zəruridir.

Ədəbiyyat

1. İlyaslı T.M., Sadıqov F.M., Allazov M.R., Əliyev E.H. Yarımkeçiricilər kimyası. Bakı, Adiloğlu nəşriyyatı, 2003, 354 s.
2. Кретова М.А., Авилов Е.С., Земсков В.С. Введение в методику эксперимента, результаты и их обсуждение. М., Наука, 2004, 196 с.
3. Охотин А.С. Теплопроводность твердых тел (справочник). М., Энергоатомиздат, 1984, 320 с.
4. Rogers L.M. Valence Band structure of PbTe // Brit. J. Appl. Phys. Ser 2, 1968, vol. 1, №7, p. 845.
5. Рустамов А.Г., Бабаев С.Х. Исследование явления переноса заряда в монокристаллах FeSe и FeTe. Сб. Халькогениды. Вып. 3, Киев, Наукова Думка, 1974, с. 207-211.

$(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ BƏRK MƏHLUL POLİKRİSTALININ TERMOELEKTRİK XASSƏLƏRİ

[1]Əbilov Ç. İ., [1]Sadıqova S. H., [1]Həsənova M. Ş., [1]Qasımova E. K., [1]Hüseynova N. T.

Xülasə

300-700 K temperatur intervalında $(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ bərk məhlulunun termoelektrik xassələri tədqiq edilərək göstərilmişdir ki, elektrikkeçiriciliyi yarımmetallik təbiətlidir və nümunənin termiki qadağan zonasının eni ~0,36 eV-dur. Termo-e.h.q. əmsalı mürəkkəb zona quruluşlu materiallarda olduğu kimi dəyişir. İstilikkeçiriciliyində yüksək temperaturlarda bipolyar istilikkeçirmə müşahidə olunur.

(Ni3Sn2)0,99Bi0,01 ТВЕРДЫЙ РАСТВОР ПОЛИКРИСТАЛЛ ТЕРМОЭЛЕКТРИЧЕСКИЕ СВОЙСТВА

[1]Абилов Ч. И., [1]Садыгова С.Х., [1]Гасанова М.Ш., [1]Гасымова Э.К., [1]Гусейнова Н.Т.

Резюме

В интервале температур 300-700 К исследованы температурные зависимости твердых растворов $(Ni_3Sn_2)_{0,99}Bi_{0,01}$ и показано, что электропроводность имеет полуметаллическую природу с широкой запрещенной зоной ~0,36 эВ. Коэффициент термо-э.д.с. изменяется аналогично материалам со сложной зонной структурой. При высоких температурах наблюдается биполярная теплопроводность.

(Ni3Sn2)0.99Bi0.01 SOLID SOLUTION POLYCRYSTAL THERMOELECTRIC PROPERTIES

[1] Abilov Ch. I., [1] Sadygova S. H., [1] Hasanova M. Sh., [1] Gasimova E. K., [1] Huseynova N. T.

Abstract

The temperature dependences of $(Ni_3Sn_2)_{0.99}Bi_{0.01}$ solid solutions were studied in the temperature range 300–700 K. It was shown that the electrical conductivity has semimetallic nature with a wide bandgap of ~0.36 eV. The thermo-e.m.f. changes similarly to materials with a complex band structure. At high temperatures bipolar thermal conductivity is observed.

AZƏRBAYCANDA İNFORMASİYA CƏMİYYƏTİ VƏ MÜASİR KOSMİK SƏNAYE

b.e.i. Qasımova T.A.[1], b.e.i. Rəhimova G.P.[2], b.e.i. Şirinova F.Z.[3]

[1]Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Elmi Tədqiqat İnformatika İnstitutu, Bakı, Azərbaycan

E-mail: tehminefatimenur@mail.ru

[2]Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu, Bakı, Azərbaycan

[3]Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Elmi Cihazqayırma MəxsusiKonstruktor Bürosu İnstitutu, Bakı, Azərbaycan

Acar sözlər: informasiya cəmiyyəti, elektron dövlət, kosmik peyk, müasir kosmik sənaye, kosmik cəmiyyət.

Keywords: information society, electronic state, space satellite, modern space industry, space society.

Ключевые слова: информационное общество, электронное государство, космический спутник, современная космическая отрасль, космическое общество.

Azərbaycanda informasiya cəmiyyəti. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması, intellektual

potensialın inkişafı sayəsində neft sektorundan sonra informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi prioritet sahə hesab olunur.
İnformasiya cəmiyyəti – sivilizasiyanın hazırki mərhələsi olmaqla yanaşı informasiya biliklərinin maddi sərvətə çevirdiyi cəmiyyətdir. İnformasiya cəmiyyəti, başqa sözlə desək, cəmiyyətin informasiyalaşdırılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafının təmin edilməsi, cəmiyyətdə aşkarlıq və şəffaflığın bərqərar edilməsi, həmdə bütövlükdə ictimai həyatın demokratikləşməsi deməkdir.
İnformasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyətləri aşağıdakılardan ibarətdir: cəmiyyətdə kütləvi şəkildə informasiya ehtiyaclarının ödənilməsi; cəmiyyətdə informasiya iqtisadiyyatı; cəmiyyət üzvlərinin yüksək səviyyədə informasiya tələbatı; cəmiyyətdə yüksək informasiya mədəniyyəti; cəmiyyət üzvləri üçün açıq informasiya şəbkələrinin genişlənməsi; qloballaşma və inteqrasiya səviyyəsinin yüksəldilməsi; vahid informasiya mühitinin formalaşması və inkişaf etdirilməsi perspektivləri; cəmiyyət üzvləri üçün informasiya təhlükəsizliyi və s [1].
Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər) gerçəkləşdirilməsi ölkəmizdə informasiya cəmiyyətinin formalaşdırılması üçün müvafiq hüquqi baza yaratmışdır. Bununla yanaşı, informasiya cəmiyyətinin inkişafına dair Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında 2014-2020-ci illər üçün Milli Strategiya" qəbul edilmiş və Milli Strategiyanın həyata keçirilməsi üzrə 20 sentyabr 2016-cı il tarixli sərəncamla 2016-2020-ci illər üçün "Dövlət Proqramı" təsdiq olunmuşdur. "Dövlət Proqramı" Milli Strategiyanın həyata keçirilməsini təmin etmək məqsədi daşıyır və ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsilməsi ilə yanaşı, İKT infrastrukturu və xidmətləri; yüksək texnologiyalar sektorunun inkişafı; yüksək texnologiyaların inkişafı üzrə elmi-texniki potensialın gücləndirilməsi; kadr hazırlığı; İKT - cəmiyyətin inkişaf amili kimi; milli kontentin inkişafı; informasiya təhlükəsizliyinin təmin edilməsi; elektron dövlətin inkişaf etdirilməsidir [2].
Müasir kosmik sənaye. Azərbaycanda İKT-nin inkişafı nəticəsində kosmik sənayenin yaradılmasında əvəzsiz nailiyyətlər qazanılmışdır. Texniki tərəqqi, müasir texnologiyalar, xüsusilə informasiya-kommunikasiya, rabitə sahəsində, elektronika, kosmik sənayedə əldə edilən uğurlar ölkələrin inkişafını və gücünü müəyyən edir. Son illər Azərbaycanda da yeni texnologiyalardan istifadə sahəsində layihələr uğurla həyata keçirilir. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrün reallıqlarına uyğun həyata keçirilən siyasət nəticəsində son illər Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf, ictimai-siyasi sabitlik şəraitində yaşayır və regionun aparıcı dövlətinə çevrilmişdir. Bu baxımdan ölkə Prezidentinin 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması" haqqında sərəncamı ilə başlayan, 17 avqust 2009-cu il tarixli sərancamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir. Sərəncamların icrası ilə əlaqədar olaraq ölkəmizdə məqsədyönlü işlər aparılmaqdadır. Azərbaycanın telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Prezidentin 3 may 2010-cu il tarixli sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) təsis edilib "Azerkosmos"

ASC-də kosmik sahə üzrə inkişaf etmiş təcrübəyə malik ölkələr və şirkətlərlə təcrübə mübadiləsi aparır. ABŞ, Fransa, Kanada, Malaziya, Türkiyə kimi ölkələrlə sıx əməkdaşlıq edir. Hazırda ölkədə kosmik sənayenin inkişafı da prioritet sahələrdən biridir. Dünyanın 10-dan çox inkişaf etmiş ölkəsi ilə beynəlxalq əməkdaşlıq edən Azərbaycan hazırda kosmik klubun üzvü və MDB regionunda telekommunikasiya peykinə sahib olan ölkədən biri, Qafqaz regionunda isə ilk peykə sahib ölkədir və dünyada orbitdə peykə malik olan dövlətlər sırasında 37-cidir.

Qeyd etməliyik ki, respublikada kosmik sənayenin yaradılması, kosmik informasiyanın qəbulu və emalı işlərinə 1974-cü ildə Bakıda kosmik texniki vasitələrdən istifadə etməklə, təbii ehtiyatların tədqiqi üzrə Cənub-Şərq mərkəzinin yaradılması ilə başlanılmışdır. 2007-2012-ci illərdə Milli Aerokosmik Agentliyində fəaliyyət göstərmiş, UNİSCAN-24 Kosmik Məlumatların Qəbuledici Kompleksi lokal miqyasda informasiya mühitinin formalaşdırılmasında mühüm rol oynamışdır. Belə ki, qəbuledici kompleksə xidmət edən yüksək hazırlıqlı kadr potensialı formalaşmış, alınmış məlumatların sistemləşdirilməsi, arxivləşdirilməsi və iqtisadiyyatın müxtəlif sahələrində tətbiqi üçün mühüm tədbirlər örülmüşdür. Kosmik Məlumatların Qəbuledici kompleksinin imkanları aşağıdakılardan ibarətdir: respublikanın torpaq-bitki obyektlərinin inventaraşdırılması; metroloji məsələlərin həll dil-məsi; təbii-dağıdıcı proseslərin qiymətləndirilməsi; yerüstü boru-kommunikasiya şəbəkə-lərinin monitorinqinin aparılması; rəqəmli elektron xəritələrin yaradılması və onların yeniləşdirilməsi və s. Bundan əlavə olaraq komik sənayenin yeni sahə olduğu nəzərə alınaraq, “Dövlət Proqramı”na əsasən: kosmik informasiyanın qəbulu və emalı çoxfunksiyalı superkompyuter mərkəzinin yaradılması; peykin idarə edilməsi və istismarı; kosmik avadanlıqların istehsalı; kosmik məlumatların alınması və emalı üzrə kadr hazırlığı əsas məsələlərdən biridir. Bu məqsədlə ABŞ və Avropada kadr hazırlığının aparılması nəzərdə tutulmuşdur.

Müstəqillik dövründə ölkəmizin əldə etdiyi ən yüksək texniki nailiyyətlərdən biri də 2013-cü il fevralın 8-də Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki “Azerspace-1” in orbitə çıxarılması oldu. Hazırda Azərbaycanın iki peyki fəaliyyət göstərir. Birinci peyk 2013-cü ilin fevral ayının 8-də buraxılan telekommunikasiya peykidir ki, həmin peyk geostasionar orbitdə 36000 km yüksəklikdə fəaliyyət göstərir. Belə ki, "Azersky" adlanan bu peyk: ölkənin radio və teleyayım şəbəkəsinin təkmilləşməsinə; rabitə sisteminin modernləşməsinə; yerin məsafədən zondlanmasına; elektron xəritələrin yaradılmasına; kənd təsərrüfatı istehsalının planlaşdırılması, məhsuldarlığın proqnozlaşdırılmasına; təbii-dağıdıcı proseslərin qiymətlən-dirilməsi və proqnozlaşdırılması məsələlərinin həlli üçün məlumatlarıntoplanmasına xidmət edir.

Azərbaycan kosmik sənaye sahəsində növbəti uğuruna imza atıb. "Azersky", "Azerspace-1"in ardınca, dünən Fransa Qvianasında yerləşən Qviana Kosmos Mərkəzindəki ELA-3 buraxılış platformasından ölkəmizin 3-cü peyki orbitə çıxarılıb. “Azerspace-2” peykinin əhatə zonasına Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələri daxildir. Azərbaycan da gələcəkdə milli telekommunikasiya peyki vasitəsilə kəşfiyyat işləri aparılması nəzərdə tutulub. Belə ki, milli peyk vasitəsi ilə: mümkün fövqəladə hallar; daşqınlar; torpaq sürüşmələri; yanğınlar barədə operativ məlumatlar əldə etmək; hadisə yerindən kosmik çəkilişlər aparmaq və lazımı tədbirlər həyata keçirmək; informasiya təhlükəsizliyinin gücləndirmək; qlobal informasiya məkanına inteqrasiyanı təmin etmək;

ölkənin bütün ərazilərini keyfiyyətli internetlə təmin etmək mümkün olacaq [3].

Azərbaycan peykinin Vətən müharibəsindəki müstəsna rolu. Azərbaycan peyki 44 günlük Vətən müharibəsinə də öz töhfəsini verdi. Düşmənin məkirli planlarının, təxribatlarının üzə çıxarılmasında, Ermənistan rəhbərliyinin öz xalqına və dünyaya ötürdüyü yalan informasiyaların qarşısının alınmasında, həmçinin döyüş zamanı mövcud vəziyyət barədə daha dəqiq məlumatların alınmasında peyklərimizin rolu danılmazdır. Müharibə zamanı baş verən bütün hadisələri müntəzəm olaraq izləyə və onlara nəzarət edə bilirdik.

Prezident İlham Əliyev Azərbaycan peyklərinin əhəmiyyətini dəfələrlə diqqətə çatdırıb:"Mən texnoloji inkişafla bağlı görülmüş işlər arasında peykləri qeyd etməliyəm. Biz peykləri orbitə çıxaranda bəziləri sual verirdilər ki, bu nə üçün lazımdır. Ancaq həyat göstərdi ki, bu bizə çox lazımdır. Həm müharibə dövründə, həm müharibədən sonrakı dövrdə peyklərdən istifadə bizə çox böyük üstünlük təmin etdi".

Kosmik sənayenin inkişafında ən uğurlu adddımlardan biri bu il Azərbaycanın 74-cü Beynəlxalq Astronavtika Konqrensinə ev sahibliy etməsidir.

74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməs böyük bir hadisədir. İlham Əliyev: Prezident İlham Əliyev öz cıxışında qeyd etdi ki, "Biz növbəti böyük uğura imza atdıq".Hesab edirəm ki, 2023-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. Bu gün biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcək.

Kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, respublikanın kosmik sənaye potensialının möhkəmləndirilməsi, kosmik sənaye texnikasının inkişafı, yeni rabitə xidmətlərinin təşkili, teleradio yayımı, yerin məsafədən zondlanması, hidrometeo- rologiya, ekoloji monitorinq, fövqəladə hallara nəzarət, kosmik tədqiqatlar, axtarış və xilasetmə üzrə proqramlar və s. bu sahənin inkişafına geniş perspektivlər yaradacaqdır.

Azərbaycanda İKT-nin inkişaf dinamikası, beynəlxalq qurumlarla uğurlu əməkdaşlıq nümunələri, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması ölkəmizin yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində kosmik sənayenin yaradılmasının və inkişafı sahəsində böyük uğurlar qazanacağına və kosmik informasiya cəmiyyətinin formalaşmasına zəmanət verir [4].

Ədəbiyyat siyahısı

1. https://www.globalfirepower.com/countries-listing.php)
2. https://president.az/az/articles/view/56578)
3. www.google az. https://az.wikipedia.org/wiki/İnformasiya_cəmiyyəti.
4. https://azercosmos.az/storage/news/October2019/4KubE7754Pq5pH6eDHBD.jpg

ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И СОВРЕМЕННАЯ КОСМИЧЕСКАЯ ИНДУСТРИЯ В АЗЕРБАЙДЖАНЕ

Т.А.Гасымова, Г.П.Рахимов, Ф. З. Ширинова

Резюме

Сегодня развитие ИКТ означает формирование информационного общества. Подготовление людей к переходу к информационному обществу на сегодняшний день является одним из самых первостепенных задач общества. В результате развития информационно-коммуникационных технологий в Азербайджане были достигнуты

серьезные успехи в создании космической промышленности. В настоящее время в Азербайджане динамика развития ИКТ, развитие космической промышленности и подготовка кадров, компетентных в плане информационной культуры являются одними из приоритетных задач. Создание космической промышленности и наличие собственного национального спутника Азербайджана в космосе в экономическом планеочень выгодно, в первую очередь будет улучшена система связи, в дальнейшем будут раскрываться новые возможности в изучении природных ресурсов и получении оперативной информации.

INFORMATION SOCIETY AND MODERN SPACE INDUSTRY IN AZERBAIJAN

T.A.Gasimova, G.P.Raqimova, F. Z. Shirinova

Summary

Today, a formation of ICT means forming of an information society, preparing people tothe transition to information society is one of the major goals of the society.

As a result of development of the information and communication technologies in Azerbaijan, serious achievements have been made in creation of space industry. For the present time in Azerbaijan ICT development rates, development of space industry and preparation of personnel competent in terms of information culture are one of the top-priority goals. Creationof space industry and Azerbaijan’s own national satellite in space are very important achievements from economical point of view, first the communication system will be improved, furthermore new possibilities in exploration of natural resources and obtaining of up-to-date information will be accomplished.